# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ MEXANİZMLƏRİ

## Vəsaitlər toplusu

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı bu vəsaitin hazırlanmasında dəstəyinə görə Avropa İttifaqına və ekspert fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Ombudsman Aparatı, Vətəndaşların Əmək Hüquqlarını Müdafiyə Liqası və Ümüdlük Gələcəyi təşkilatının mütəxəsislərinə dərin təşükkürünü bildirir.

© OHCHR

**MÜNDƏRİCAT**

**Giriş................................................................................................................ 4**

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Mexanizmləri - hüquqların monitorinqi və hesabatlılıq üçün praktiki vəsait ............................................3**

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Mexanizmləri barədə Təlimçilər üçün Yardımçı Vəsait....................................................................49**

**İnsan Hüquqlarına Əsaslanmış Fəaliyyət: Təlimçilər üçün Təlim Vəsaiti:............................................................................................................ 65**

**İqtisadi, Sosial və Mədəni Hüquqlarla bağlı ən Çox Verilən Suallar.............110**

## GİRİŞ

Bu vəsait Birləşmiş Millətlər Təşkilatının (BMT) insan hüquqlarının müdafiəsi mexanizmləri haqqında məlumat vermək və vətəndaş cəmiyyəti təmsilçiləri və hüquqşünaslar üçün bələdçi olmaq məqsədi daşıyır. Toplu BMT mexanizmləri və ondan istifadə imkanlarını təsvir edən bir neçə təlimat və vəsaitin məcmusudur.

"Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Mexanizmləri - hüquqların monitorinqi və hesabatlılıq üçün praktiki vəsait" adlı təlimat BMT-nin üzv dövləti kimi Azərbaycan Respublikası üçün çatımlı olan universal müdafiə mexanizmləri barədə nəzəri və praktiki məlumat verir.

Bu vəsaitdə həm də insan hüquqları və BMT mexanizmləri mövzusunda tədris etməkdə maraqlı olan təlimçilər üşün yardımçı tədris materialları yerləşdirilib. Bununla yanaşı, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının "İqtisadi, Sosial və Mədəni Hüquqlarla bağlı Ən Çox Verilən Suallar" adlı nəşrinin tərcüməsi də diqqətinizə çatdırılır.

Qeyd olunmalıdır ki, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı BMT insan hüquqları mexanizmləri barədə ətraflı məlumat verən nəşrlər silsiləsini davam etdirəcək.

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNSAN HÜQUQLARI MEXANİZMLƏRİ

**Hüquqların Monitorinqi və Hesabatlılıq üçün Praktiki Vəsait**

**Tərtibatçı müəllif: Sahib Məmmədov**

**2015**

**I. İNSAN HÜQUQ VƏ AZADLIQLARINA DAİR BEYNƏLXALQ STANDARTLAR..........................................................................................**
1.1. BMT-nin Nizamnaməsi**.....................................................................**
1.2. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə..................................
1.3. İnsan Hüquqları haqqında Beynəlxalq Bil......................................
1.4. İnsan Hüquqları haqqında universal razılaşmalar.................................

**İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ: BMT SİSTEMİ................**

**II. BMT-NİN İNSAN HÜQUQLARINA DAİR NİZAMNAMƏ ORQANLARI.........**
**2.1. BMT İnsan Hüquqları üzrə Ali Komissarlıq.........................**
**2.2. İnsan Hüquqları Şurası...................................................…**
**2.3. Universal Dövri İcmal...................................................................**
2.3.1. Ümumi məlumat...............................................................................
2.3.2. Universal Dövri İcmalın dövriliyi və növbəlilik prinsipi................
2.3.3.Sənədləşmə, hesabatların hazırlanmasına dair rəhbər prinsiplər, icmal prosesi və xüsusiyyətləri.................................................................
2.3.4. Universal Dövri İcmal üzrə İşçi Qrupun sessiyasında iştirak...................
2.3.5. İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupu..........
2.3.6. Üçlük.........................................................................................
2.3.7. İşçi Qrupun məruzəsi....................................................................
2.3.8. Universal Dövri İcmalın yekun sənədləri.................................................
2.3.9. Nəticələr və tövsiyələr....................................................................
2.3.10. İcmaldan sonrakı Fəaliyyət........................................................
**2.4. Məsləhət Komitəsi............................................................................**
**2.5. İnsan Hüquqları Şurasının Xüsusi Prosedurları.............................**
2.5.1. Ümumi məlumat.........................................................................
2.5.2. Xüsusi Prosedurlarla əməkdaşlıq üçün çıxışı necə əldə etmək olar?.....................
2.5.3.İnsan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçi mandatı
2.5.4. Şikayətlərə baxılması proseduru.................................................
2.5.5. Məlumatların (şikayətlərin) qəbul edilən hesab edilməsi şərtləri....

**III. BMT-nin İNSAN HÜQUQLARINA DAİR MÜQAVİLƏ ORQANLARI............**
**3.1. Ümumi məlumat.........................................................................**
3.1.1.Dövlətlərin hesabatları.................................................................
3.1.2. Üzv Dövlətin hesabatına baxılması...............................................
3.1.3. Üzv Dövlətin hesabatına baxılması qaydası.................................
**3.2. QHT-lər və İnsan Hüquqlarını Müdafiə edən Milli Təsisatların rolu.....**
3.2.1. Ümumi məlumat.....................................................................
3.2.2. Alternativ hesabatın təqdim edilməsinin əsas məqsədləri..............
3.2.3. Alternativ hesabatın strukturu..........................................................
3.2.4. Alternativ hesabatın əhatəliliyi..........................................................
3.2.5. Alternativ hesabat hazırlanarkən əsas nələri nəzərə almaq lazımdır?...
3.2.6. Alternativ hesabata tövsiyələrin daxil edilməsi................................
3.2.7. Alternativ hesabatın təqdim edilməsi............................................

**3.3. Sessiyada iştirak üçün akkreditasiya və şifahi brifinqlər................**
3.3.1. Sessiyada iştirak...........................................................................
3.3.2. Şifahi brifinqlər...........................................................................
**3.4. Müqavilə Orqanlarında fərdi şikayətlərə (məlumatlara) baxılması proseduru**
3.4.1. Ümumi məlumat...........................................................................
3.4.2. Fərdi Şikayətlər proseduru olan Komitələr...................................
3.4.2.1. İnsan Hüquqları Komitəsi.......................................................
3.4.2.2. İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi......................
3.4.2.3. Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi Komitəsi........................
3.4.2.4. İrqi Ayrı-Seçkiliyin Ləğvi Komitəsinin fərdi şikayətlər Proseduru..................
3.4.2.5. İşgəncələr Əleyhinə Komitəyə fərdi şikayətlərin verilməsi............
3.4.2.6. Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitəyə fərdi şikayətlərin verilməsi....
3.4.2.7. Bütün Şəxslərin Məcburi İtmədən Müdafiəsi üzrə Komitəyə fərdi şikayətlərin verilməsi.................................................
3.4.2.8. Digər Komitələrə fərdi şikayətlərin verilməsi...........................
**3.5. Şikayəti Kimlər verə bilər?..................................................................**
**3.6. Dövlətlərarası şikayət ...................................................................**
**3.7. Təhqiqat...........................................................................................**

**IV. MƏLUMAT VƏ HESABATLARIN HAZIRLANMASI ÜÇÜN MƏLUMATLARIN TOPLANMASI..............................................**
**4.1. Məlumatları necə toplamalı.........................................................**
**4.2. Monitorinq necə həyata keçirilir?..................................................**
**4.3. Monitorinq mərhələləri..................................................................**
4.3.1. Hazırlıq mərhələsi.....................................................................
4.3.2. Monitorinq üçün işin təşkili mərhələsi........................................
4.3.3. Yekun mərhələ...........................................................................
**4.4. Monitorinq texnologiyası...........................................................**

**Akronimlər**

BMT - Birləşmiş Millətlər Təşkilatı
ÜDİ - Universal Dövri İcmal
İHAK - İnsan Hüquqları üzrə Ali Komissarlıq
İAD - İcmal Altında olan Dövlət
İHŞ - İnsan Hüquqları Şurası
İALK - İrqi Ayrı-seçkiliyin Ləğvi Komitəsi
QHT - Qeyri-hökumət təşkilatı
MHİT - Milli İnsan Hüquqları Təsisatları (Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil)
ECOSOC- İqtisadi və Sosial Şura

## GİRİŞ

Təqdim edilən bu vəsait insan hüquqlarının müdafiəsinin universal mexanizmləri və bu mexanizmlərdən BMT üzvü kimi Azərbaycan Respublikasına münasibətdə tətbiq olunanları haqqında məlumat vermək məqsədini daşıyır. Vəsait əsasən BMT-nin insan hüquqları sistemi ilə tanış olmayan vətəndaş cəmiyyətinin nümayəndələri və hüquqşünaslar üçün nəzərdə tutulub. Bu səbəbdən vəsaitdə nəzəri məlumatlarla yanaşı BMT mexanizmlərində iştirakla bağlı bəzi praktiki məsləhətlər də əks olunub.

Vəsait hazırlanarkən BMT İnsan Hüquqları üzrə Ali Komissarlığının rəsmi veb səhifəsindəki məlumatlardan istifadə edilib.

Azərbaycan Respublikası 2 mart 1992-ci il tarixində BMT-nin üzvlüyünə qəbul edilmiş və 6 may 1992-ci il tarixində BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. BMT-nin üzvü olduqdan sonra bu qurumla hərtərəfli əməkdaşlıq edən dövlətimiz BMT strukturlarında fəal surətdə təmsil olunur. Azərbaycan Respublikası 2006-cı ildən İnsan Hüquqları Komissiyasının əvəzinə təsis olunan İnsan Hüquqları Şurasının ilk üzvləri sırasında olmuş, həmçinin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir və BMT-nin ixtisaslaşmış təsisatlarının üzvüdür. Azərbaycan Respublikası həmçinin BMT tərəfindən qəbul olunmuş bir sıra beynəlxalq müqavilələrin, o cümlədən insan hüquq və azadlıqlarına dair beynəlxalq müqavilələrin iştirakçısıdır. Bu baxımdan BMT-nin nəzarət mexanizmləri olan doqquz beynəlxalq müqaviləsindən səkkiz müqavilənin iştirakçısıdır. Azərbaycan Respublikası həmçinin bu müqavilələrə əlavə olunan fakultativ protokolların və ya beynəlxalq müqavilələrdə nəzərdə tutulan xüsusi prosedurların əksəriyyətini tanıyır və onlara qoşulmuşdur.

Azərbaycan Respublikası 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etmişdir. Konstitusiyanın II bölməsinin III fəsli insan hüquq və azadlıqları ilə bağlı müddəaları əhatə edir. Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəslində mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar əks olunmuşdur ki, bunlar da hamılıqla qəbul olunmuş insan hüquq və azadlıqlarına dair beynəlxalq standartları özündə ehtiva edir. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsinə yönələn qanunvericilik bazası və bu qanunların tətbiqini təmin edən milli mexanizmlər yaradılmışdır.

Konstitusiyanın 10-cu maddəsi beynəlxalq münasibətlərin prinsiplərini müəyyən edir. Belə ki, həmin maddəyə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Konstitusiyanın 148-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Azərbaycan Respublikası BMT-nin himayəsi altında qəbul edilmiş insan hüquq və azadlıqlarına dair universal sənədlərə tərəfdar çıxmaqla belə universal standart və mexanizmləri qəbul etmişdir. Azərbaycan Respublikası həmçinin 25 yanvar 2001-ci il tarixində Avropa Şurasının üzvlüyünə qəbul olunmuş və insan hüquq və azadlıqlarına dair ÜmumAvropa beynəlxalq müqavilələrinin əksəriyyətinə

tərəfdar çıxmışdır. Beləliklə, Azərbaycan Respublikası həmçinin insan hüquq və azadlıqlarına dair müvafiq regional mexanizmləri qəbul etmişdir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquq və azadlıqlarına dair beynəlxalq razılaşmalara dair məlumatı bu keçiddən əldə etmək olar: http://tbinternet.ohchr.org/_layouts/TreatyBodyExternal/Treaty.aspx?CountryID=11&Lang=EN

## I. İNSAN HÜQUQ VƏ AZADLIQLARINA DAİR BEYNƏLXALQ STANDARTLAR

İnsan hüquqlarına hörmət prinsipi dövlətlərin yurisdiksiyasının şamil olunduğu ərazilərdə bütün insanlara münasibətdə hər hansı ayrı-seçkiliyə yol vermədən bütün hüquq və azadlıqların təmin olunmasını nəzərdə tutur.

Ümumən qəbul olunmuşdur ki, insan hüquq və azadlıqlarına dair standartların əsasını İnsan Hüquqları haqqında Ümumi Bəyannamə təşkil edir. 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş bu sənəd sonradan qəbul olunmuş və dövlətlər tərəfindən tanınmış insan hüquq və azadlıqlarına dair çoxsaylı beynəlxalq razılaşmalarda əks olunan hüquq və azadlıqların əsasını təşkil edir.

Bizim ölkənin də daxil olduğu region üçün insan hüquq və azadlıqlarına dair əsas sənədlərə BMT-nin nizamnaməsi, İnsan Hüquqlarına dair Beynəlxalq Bili təşkil edən sənədlər, eləcə də BMT-nin himayəsi altında qəbul olunmuş nəzarət mexanizmləri olan digər konvensiyalar, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyası, Avropa Sosial Xartiyasını aid etmək olar.

BMT fəaliyyəti dövründə insan hüquq və azadlıqlarının təmin olunmasına yönələn çoxsaylı mexanizmlər yaratmışdır. Bu mexanizmlər BMT nizamnaməsi və ya BMT-nin himayəsi altında qəbul olunmuş müxtəlif dövlətlərarası müqavilələrin nəzarət sistemlərindən ibarətdir.


BMT çərçivəsində insan hüquqlarına dair sənədlər, sistem və mexanizmlər
İnsan Hüquqlarına dair BMT Sənədləri
BMT
Nizamnaməsi
Insan Hüquqları üzrə Bil
İHAK
BMT
Sistemi
Digər sənədlər (BƏT,BMT QAK , BHH)
BA
İHŞ
Regional Müdafiə Sistemləri
Milli Müdafiə sistemləri
Müqavilə Orqanları
Xüsusi Prosedurlar
Universal Dövri İcmal

## 1.1. BMT-nin Nizamnaməsi
**(The Charter of the United Nations)**

BMT nizamnaməsinə insan hüquq və azadlıqlarına dair konkret müddəalar daxil edilməyib. Lakin bu sənəd ilk beynəlxalq hüquqi sənədlərdən biri və ən əsasıdır ki, orada şəxsin hüquqlarının universal təminatının zərurəti əks olunmuşdur. Bu sənəddə həmçinin hər hansı ayrı-seçkilik qoymadan hər bir kəsin hüquq və azadlıqlarına hörmət prinsipi əks olunmuşdur.

BMT nizamnaməsinin 55-i maddəsinin "c" bəndində göstərilir ki, BMT "İrqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət və riayət edilməsinə dəstək verir".

BMT Nizamnaməsinin 56-cı maddəsində göstərilir ki, "Bütün üzvlər 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıq etməklə birgə və müstəqil hərəkət edəcəklərinə dair öhdəlik götürür."

BMT Nizamnaməsinin 68-ci maddəsinə əsasən, "İqtisadi və Sosial Şura iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar və habelə öz funksiyalarının icrası üçün tələb olunan digər komissiyalar təsis edir".

10 dekabr 1946-cı ildə BMT-nin İqtisadi və Sosial Şurasının (EKOSOC) ilk iclasında təsis olunmuş İnsan Hüquqları Komissiyası məhz BMT Nizamnaməsinin 68-ci maddəsinə istinadən yaradılmışdır. Komissiyanın ilk fəaliyyəti "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin layihəsini hazırlamaq olmuşdur.

## 1.2. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə
**(Universal Declaration on Human Rights)**

İnsan Hüquqları haqqında Ümumi Bəyannamə BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli qətnaməsi ilə qəbul olunmuşdur. Hazırda bütün dünyada 10 dekabr Ümumdünya İnsan Hüquqları günü kimi qeyd olunur. Bəyannamədə mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar əks olunur.

Bəyannamə BMT üzv dövlətləri üçün tövsiyə xarakteri daşımasına baxmayaraq insan hüquq və azadlıqlarına dair universal standartları müəyyən etdi. Bu baxımdan bu sənədin müstəsna əhəmiyyəti vardır. Hazırda dünyanın bir çox dövlətlərinin konstitusiyaları Bəyannamədə əks olunan hüquq və azadlıqları özündə əks etdirərək onu daxili normaya çevirmişlər. Bəyannamənin qəbulu sonradan dövlətlər üzərinə öhdəlik qoyan iki Pakt: Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın hazırlanması, qəbulu və dövlətlər tərəfindən tanınmasına gətirdi.

## 1.3. İnsan Hüquqlarına dair Beynəlxalq Bil (İnternational Bill on Human Rights)

İnsan Hüquqlarının Ümumi Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Mülki və siyasi hüquqlar haqqında Pakta əlavə olunan Fakultativ Protokol, Mülki və siyasi hüquqlar haqqında Pakta əlavə olunan 2-ci Fakultativ Protokol (ölüm hökmünün ləğvinə dair) ilə birlikdə İnsan Hüquqları haqqında Beynəlxalq Bil təşkil edir.

## 1.4. İnsan Hüquqlarına dair universal razılaşmalar

BMT-nin himayəsi altında insan hüquqlarına dair yüzdən artıq konvensiya, bəyannamə, minimal standart qaydalar və qərarlar qəbul olunmuşdur. Bu sənədlərin içərisində öz əhəmiyyətinə və nəzarət mexanizmlərinin effektivliyinə görə seçilən beynəlxalq sənədlər aşağıdakılardır:

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt;
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt;
- İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya;
- Qadınlara münasibətdə Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya;
- İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya;
- Uşaq Hüquqları haqqında Konvensiya;
- İşçi Miqrantların və Onların Ailə Üzvlərinin Müdafiəsi haqqında Beynəlxalq Konvensiya;
- Əlilliyi olan Şəxslərin Müdafiəsi haqqında Beynəlxalq Konvensiya;
- Bütün Şəxslərin Məcburi İtmələrdən Müdafiəsi haqqında Beynəlxalq Konvensiya.

Bu pakt və konvensiyaların bir çoxuna fakultativ protokollar əlavə edilir. İştirakçı dövlətlər həmin sənədlərə də qoşulmaqla öz üzərlərinə əlavə öhdəliklər götürürlər. Bu sənədlər aşağıdakılardır:

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta əlavə olan Fakultativ Protokol;
- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta əlavə olunan və ölüm hökmünün ləğvinə dair ikinci Fakultativ Protokol.
- İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta əlavə olunan Fakultativ Protokol;
- Qadınlara münasibətdə Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğvinə dair Konvensiyaya əlavə olunan Fakultativ Protokol;
- İşgəncə və Digər Qəddar, Qeyri-insani və İnsan Ləyaqətini Alçaldan Davranış və Cəza əleyhinə Konvensiyaya əlavə olunan Fakultativ Protokol;
- Uşaq hüquqları haqqında BMT Konvensiyasının Uşaq Alverinə, Uşaq Fahişəliyinə və Uşaq Pornoqrafiyasına dair Fakultativ Protokolu;
- Uşaq Hüquqları Haqqında Konvensiyaya əlavə olunan Uşaqların Silahlı Münaqişələrdə İştirakı ilə Əlaqədar Fakultativ Protokol;

- Əlilliyi Olan Şəxslərin Müdafiəsinə dair Beynəlxalq Konvensiyaya əlavə olunan Fakultativ Protokol.

**BMT-nin İnsan Hüquqlarına dair əsas razılaşmaları barədə daha geniş məlumatı BMT İnsan Hüquqları üzrə Ali Komissarlığın rəsmi veb səhifəsindən əldə etmək olar:**
http://www.ohchr.org/EN/HRBodies/Pages/HumanRightsBodies.aspx

## İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ: BMT SİSTEMİ

Birləşmiş Millətlər Təşkilatı sistemində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində bilavasitə fəaliyyət göstərən, yaxud fəaliyyətinin bu və ya digər istiqaməti insan hüquq və azadlıqları ilə bağlı olan qurumları əsasən iki qrupa bölmək olar: **nizamnamə orqanları** və **müqavilə orqanları.**

## II. BMT-NİN İNSAN HÜQUQLARINA DAİR NİZAMNAMƏ ORQANLARI
## (UN Charter-based bodies)

### 2.1. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı BMT çərçivəsində fəaliyyət göstərən və insan hüquqlarının müxtəlif sahələri üzrə ixtisaslaşan təsisat və mexanizmlərə məsləhət və texniki yardımlar edir. Belə təsisatlar arasında BMT-nin nizamnamə orqanları, o cümlədən İnsan Hüquqları Şurası, həmçinin tərkibi müstəqil ekspertlərdən formalaşan BMT-nin insan hüquqları üzrə müqavilə orqanları da vardır. Bu orqanların bir çoxu BMT İnsan Hüquqları üzrə Ali Komissarlıq katibliyinin yardımlarından istifadə edir.

Daha geniş məlumatı BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı ofisinin rəsmi veb səhifəsindən əldə etmək olar: www.ohchr.org

### 2.2. İnsan Hüquqları Şurası

İnsan Hüquqları Şurası BMT sistemində insan hüquqlarına hörmət prinsipinə və bütün dünyada insan hüquqlarının müdafiəsinə dəstək verən və insan hüquqları sahəsində baş vermiş pozuntuları araşdıran və tövsiyələr hazırlayan dövlətlərarası orqandır. İnsan Hüquqları Şurası həmçinin insan hüquqlarının vəziyyəti ilə bağlı tematik sualları müzakirə edir və bu sahəyə diqqət tələb edir. Şuranın toplantıları Cenevrədə İnsan Hüquqları üzrə Ali Komissarlığında həyata keçirilir.
Şuranın tərkibi dövri olaraq dəyişən və BMT Baş Assambleyası tərəfindən seçilən 47 üzv dövlətdən ibarətdir.

**i İnsan Hüquqları Şurası**

**BMT-nin 47 üzv-dövlətindən ibarət Baş Assambleyanın köməkçi orqanı olmaqla 15 mart 2006-cı ildə BMT Baş Assambleyasının 60/251 saylı qətnaməsi ilə yaradılmışdır.**

**1946-cı ildən fəaliyyət göstərən BMT-nin İnsan Hüquqları üzrə Komissiyasını əvəzləmişdir**

İnsan Hüquqları Şurasının insan hüquqlarını müdafiə və təşviq edən, həmçinin dövlətlərin insan hüquqları sahəsində öhdəliklərinə əməl etməsini qiymətləndirən orqan və mexanizmləri vardır. Bunlar:

**İ Şura nə edir**

- **Universal müdafiəni təşviq edir;**
- **Pozuntulara reaksiya verir və onların qarşısını alır;**
- **Beynəlxalq insan haqları hüququnu inkişaf etdirir;**
- **Üzv-dövlətlərin öhdəliklərinin yerinə yetirilməsinə nəzarət edir;**
- **Fövqəladə hallardan xəbərdar edir;**
- **Beynəlxalq dialoq forumu rolunu oynayır.**

- ***Universal Dövri İcmal***

Bu mexanizm çərçivəsində dövri olaraq BMT üzv dövlətlərində insan hüquqlarının vəziyyəti qiymətləndirilir. BMT üzvü olan hər bir dövlət 4 ildə bir dəfə İnsan Hüquqları Şurasına Universal Dövri İcmal mexanizmi çərçivəsində ölkədə insan hüquqlarının vəziyyətinə dair məlumat təqdim edir. Məlumatlar həmçinin insan hüquqlar sahəsində maraqlı olan təsisatlardan, o cümlədən QHT-lərdən də qəbul edilir.

- ***Məsləhət Komitəsi***

Şuranın "beyin mərkəzi" hesab olunur. İnsan hüquqlarına əməl olunması üzrə tematik (mövzu) sahələr üzrə məsləhətləşmələr aparır və Şuraya ekspert rəyləri verir.

- ***Şikayətlərin verilməsi və onlara baxılma qaydası***

Bu prosedur imkan verir ki, fərdlər, fərdlər qrupu və təşkilatlar İnsan Hüquqları Şurasının diqqətinə insan hüquqlarının pozulmasına dair məlumatlar çatdırsın.

Bunlardan əlavə Şura, İnsan Hüquqları Komissiyası tərəfindən yaradılmış BMT-nin ***Xüsusi Prosedurları*** ilə də işləyir. BMT-nin xüsusi prosedurları konkret ölkələrdə insan hüquqlarının vəziyyəti ilə bağlı monitorinqlər keçirən və tədqiqatlar, məsləhətləşmələr aparan və konkret mövzular üzrə açıq hesabatlar hazırlayan xüsusi məruzəçilər, xüsusi nümayəndələr, müstəqil ekspertlər və işçi qruplardan ibarətdir.

## 2.3. Universal Dövri İcmal (Universal Periodic Review)

### 2.3.1. Ümumi məlumat

Universal Dövri İcmal (UDİ) İnsan Hüquqları Şurasının yaradılması barədə qətnamə əsasında Şura ilə bərabər təsis olunmuş və Şuranın strukturuna daxil olan unikal mexanizmdir. BMT üzv dövlətləri ikinci icmal dövründən etibarən 4 il yarım olmaqla, UDİ proseduru çərçivəsində insan hüquqlarının vəziyyətinə dair məlumat təqdim edir. UDİ BMT üzv dövlətlərində insan hüquqlarının vəziyyətinə dair informasiya əldə edilməsi, vəziyyətin müzakirəsi və tövsiyələrin verilməsi baxımından BMT-nin ən effektiv nizamnamə mexanizmi hesab oluna bilər.

UDİ çərçivəsində hər bir dövlətə insan hüquqları sahəsində son 4 il ərzində həyata keçirdiyi tədbirlər və onların bu sahədə nailiyyətlərinə dair İnsan Hüquqları Şurasını məlumatlandırmaq imkanı verilir. Bu mexanizm çərçivəsində dövlətlərə bərabər yanaşma prinsipi tətbiq olunur.

Universal Dövri İcmal mexanizminin əsas məqsədi insan hüquqları vəziyyətinin təkmilləşdirilməsi, dövlətin insan hüquqları sahəsində öhdəliklərini yerinə yetirməsi, müsbət dəyişikliklərin və problemlərin qiymətləndirilməsi, dövlətin potensialının və texniki yardımının genişləndirilməsi, ən yaxşı təcrübələrin bölüşdürülməsi, əməkdaşlığın dəstəklənməsi, Şura, digər insan hüquqları orqanları və İnsan Hüquqları üzrə Ali Komissarlıq (İHAK) ilə sıx əməkdaşlığın dəstəklənməsi yolu ilə bütün dünyada insan hüquqlarının müdafiəsini təmin və təşviq etməkdir.

**İcmalın Əhatə Dairəsi**

- BMT-nin Nizamnaməsi
- İnsan hüquqları haqqında Ümumi Bəyannamə
- Dövlətin tərəfdar çıxdığı insan hüquqlarına dair razılaşmalar
- Dövlətlərin könüllü vədləri və öhdəlikləri
- İcmal zamanı müvafiq beynəlxalq humanitar hüququn prinsipləri

nəzərə alınır

**İcmalın prinsipləri**

- Universal əhatəlik
- Bütün insan hüquqlarının icmalı
- Digər insan hüquqları mexanizmlərini təkrarlamır, əksinə tamamlayır
- Obyektiv və etibarlı məlumata əsaslanan əməkdaşlıq mexanizmi
- Hökumətlərarası proseslər
- İcmal Altında olan Dövlətin (İAD) tam iştirakı
- Obyektiv, şəffaf, qərəzsiz, konstruktiv, münaqişə olmadan və qeyri-siyasi qaydada aparılır
- Gender məsələləri tam əhatə olunur
- İcmalın əsaslarında nəzərdə tutulmuş elementlərdə əks etdirilmiş öhdəliklərə zərər vurmadan, ölkələrin inkişaf səviyyəsi və xüsusiyyətləri nəzərə alınır
- Bütün müvafiq maraqlı tərəflərin, o cümlədən QHT-lərin iştirakı təmin olunur.

### 2.3.2. Universal Dövri İcmalın dövriliyi və növbəlilik prinsipi

UDİ mexanizmi çərçivəsində BMT-nin bütün 193 üzv dövləti nəzərdən keçirilir. İkinci icmal dövründən başlayaraq dövrilik müddəti 4 il yarım olmaqla, hər il 42 dövləti əhatə edir. İlk nəzərdən keçirilən dövlətlər İnsan Hüquqları Şurasının üzvü olan dövlətlər olub. 2011-ci ildə birinci dövr başa çatıb və hazırda ikinci dövr üzrə dövlətlər nəzərdən keçirilməkdədir. Azərbaycan Respublikası iki dəfə (2009 və 2013-cü illərdə) nəzərdən keçirilmişdir. Azərbaycan ikinci dövr üzrə hesabatı Şuranın 22 aprel-03 may 2013-cü il tarixlərində keçirdiyi 16-cı sessiyada vermişdir. İcmal təqvimi ilə İnsan Hüquqları üzrə Ali Komissarlığın rəsmi veb səhifəsində tanış olmaq olar:
**http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/UPRMain.aspx**.

### 2.2.3. Sənədləşmə, hesabatların hazırlanmasına dair rəhbər prinsiplər, icmal prosesi və xüsusiyyətləri

- **Dövlətin məruzəsi**

Hər bir dövlət nəzərdən keçirilməzdən əvvəl İcmal Altında olan Dövlət (İAD) statusunda olur. Şura tərəfindən müəyyən olunan müddətlər çərçivəsində İAD ölkədə insan hüquqlarının vəziyyəti, bu sahədə hər hansı inkişaf barədə məlumat hazırlayır. Bu məlumat hazırlanarkən İAD milli səviyyədə məsləhətləşmələr həyata keçirməlidir. Maraqlı tərəflər, o cümlədən QHT-lər və insan hüquqları üzrə milli təsisatlar milli məsləhətləşmə prosesinə cəlb edilməlidir. Dövlətin məlumatı son dörd ili əhatə edir. Şura məlumatın strukturu və səhifələrin abzaslara bölünməsi və nömrələnməsinə dair tələblər müəyyən edib.

İAD tərəfindən məlumat diplomatik nümayəndəlik vasitəsi ilə, həmçinin uprstates@ohchr.org e-mail ünvanına göndərilməklə həyata keçirilir.

Dövlətlərdə insan hüquqlarının vəziyyətini nəzərdən keçirmək üçün yalnız İAD tərəfindən təqdim olunan məlumat kifayət deyildir. Buna görə də qətnamə ilə müəyyən edilən digər prosedurlar da vardır. İcmalın əsaslandığı digər məlumatlar aşağıdakılardır.

- **BMT Məcmu məruzəsi**

İcmal Altında olan Dövlətlə yanaşı İnsan Hüquqları üzrə Ali Komissarlıq məcmu məruzəsi (compilation report) hazırlayır. İHAK bu məruzəni BMT müqavilə orqanlarının, Xüsusi Prosedurlar kimi tanınan ekspert və qrupların hesabatlarının, BMT-nin digər rəsmi sənədlərinin əsasında hazırlayır və bu səbəbdən məcmu məruzə adlanır. Bu məruzənin həcmi 10 səhifədən artıq olmur.

- **Maraqlı tərəflərin məruzələrinin xülasəsi**

İHAK tərəfindən İnsan Hüquqları Şurasına təqdim edilən digər sənəd maraqlı tərəflərin məruzələrinin xülasəsindən ibarət olur. Bu sənədin də həcmi 10 səhifədən çox olmur. Dövlət icmal altında olduqda maraqlı tərəflər də Şuraya öz

məlumatlarını göndərə bilərlər[1]. Maraqlı tərəflərə milli və beynəlxalq QHT-lər, İnsan Hüquqları üzrə Milli Təsisatlar, insan hüquqlarını müdafiə edən şəxslər, elmi tədqiqat institutları və s. vətəndaş cəmiyyəti qurumları aid edilir.

Tövsiyə olunur ki, maraqlı tərəflər məlumatlar təqdim edərkən aşağıdakı şərtlərə əməl etsinlər:

- Məlumat dəqiq olsun, onlarda əsas narahatçılıq doğuran məsələlər qeyd olunsun və mümkün tövsiyələr və ən yaxşı təcrübələri müəyyən etsin;
- İlk mənbədən olmayan məlumatı əks etdirməsin;
- Xüsusilə UDİ üçün hazırlansın;
- Açıq-aşkar təhqir sözləri ehtiva etməsin.

Fərdi (QHT və ya insan hüquqlarını müdafiə edən fərdi şəxs) yazılı məlumat 2815 sözdən çox olmamalıdır. Bu məlumata əlavələr qoşula bilər. QHT-lərin koalisiyaları tərəfindən təqdim edilən məlumat 5630 sözdən çox olmamalıdır[2]. Məlumat word formatında hazırlanmalı, abzaslar və səhifələr nömrələnməlidir. Məlumat BMT rəsmi dillərindən birində təqdim edilə bilər. Lakin ingilis, fransız və ya ispan dilində olduqda daha yaxşıdır[3]. Məlumat son 4 ili əhatə etməlidir[4]. Maraqlı tərəflərin məlumatları göndərmələri üçün son tarix İHAK-ın rəsmi veb səhifəsində təxminən sessiyadan 8-10 ay əvvəl göstərilir[5]. UDİ-yə məlumatlar UDİ üzrə Işçi Qrupun müvafiq sessiyasından ən geci 5 ay əvvəl göndərilməlidir.

---

[1] Bu barədə ətraflı sonrakı hissələrdə.
[2] http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/NgosNhris.aspx

[3] İHAK işçiləri bu 3 dildə (daha çox fransız və ingilis) bilir. Ofis bu materialların tərcüməsinə bir qayda olaraq əlavə vəsait ayırmır.
[4] Yəni nəzərə alınır ki əvvəlki illər üçün dövlət nəzərdən keçirilmişdir.
[5] http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/NgosNhris.aspx

i

Maraqlı tərəflər məlumatları - UDİ-yə təqdimatlarını müəyyən edilmiş vaxt məhdudiyyətlərinə əməl etməklə https://uprdoc.ohchr.org səhifəsində onlayn (online) qeydiyyatı sistemi vasitəsi ilə təqdim edə bilərlər. Bu sistemdən istifadə zamanı texniki problemlərlə qarşılaşdıqda uprsubmissions@ohchr.org email ünvanı əlaqə saxlaya bilərsiniz.

Əlavə məlumatı İnsan Hüquqları üzrə Ali Komissarın rəsmi veb səhifəsindəki ünvandan əldə etmək olar:
http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/NgosNhris.aspx;

http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/UPRMain.aspx

**UDİ məruzələrinin strukturu**

**İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə dövlətdaxili normativ və institusional sistem**

- Dövlət quruluşu haqqında;
- Beynəlxalq insan hüquqları üzrə öhdəliklər;
- Beynəlxalq Müqavilələrin daxili qanunvericilikdə implementasiya qaydası;
- Konstitusiya və insan hüquqları sahəsində əsas qanunvericilik aktları;
- Milli İnsan Hüquqları Müdafiəsi Sistemləri, o cümlədən məhkəmələr, MİHT-lər, QHT-lər və digər mexanizmlər
- Müqavilə Orqanlarının Yekun Müşahidələri, Xüsusi Prosedurlar və UDİ-nin tövsiyələrinin icrası üzrə Hökumət mexanizmləri

**İnsan Hüquqlarının milli səviyyədə təşviqi və müdafiəsi**

- Bərabərlik və ayrı-seçkilikdən müdafiə;
- Mülki və siyasi hüquqlar və əsas azadlıqlar;
- Şəxsi azadlıq və təhlükəsizlik;
- İşgəncələr və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar, yaxud cəza növləri;
- Ədalət mühakiməsinin həyata keçirilməsi;
- İqtisadi, sosial və mədəni hüquqlar (sağlamlıq, yaşayış, təhsil, əmək, sosial təminat…);
- Qadın hüquqları və gender bərabərliyi;
- Uşaq hüquqları;
- Xüsusi qrupların, o cümlədən miqrantların, əlillərin, azlıqların, yerli xalqların ... hüquqlarının təşviqi və müdafiəsi;

**Nailiyyətlərin, ən yaxşı təcrübələrin, problemlərin və məhdudiyyətlərin müəyyən edilməsinə aşağıdakılar daxildir:**

- Konstitusiya və hüquqi islahatlar;
- Hakimlərin hüquq sahəsində maarifləndirilməsi-təlimi, habelə insan hüquqları üzrə tədris;
- İctimai biliklər və iştirak səviyyəsinin artırılması;
- İnsan hüquqlarının müdafiəsi.

### 2.3.4. Universal Dövri İcmal üzrə İşçi Qrupun sessiyasında iştirak

QHT-lər, MİHT və digər maraqlı tərəflər UDİ üzrə İşçi Qrupun iclaslarında iştirak edə bilərlər.
Maraqlı Tərəflərin məlumatlarının hazırlanması və təqdim edilməsi qaydaları, təqvimi, sessiyada iştirak üçün akkreditasiya qaydalarına dair məlumatlar ilə

İnsan Hüquqları üzrə Ali Komissarlığın (İHAK) rəsmi veb səhifəsindən əldə edə bilərsiniz:
http://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/NgosNhris.aspx

### 2.3.5. İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupu

Universal Dövri İcmal İnsan Hüquqları Şurası prezidentinin sədrlik etdiyi, Şuranın 47 üzv-dövlətindən ibarət İşçi Qrupda aparılır. İnteraktiv dialoq şəraitində keçən iclasda həmçinin BMT-nin digər üzv-dövlətləri də iştirak edə bilər. Maraqlı tərəflər də İşçi Qrupun iclasında iştirak edə bilərlər. İcmal altında olan ölkə ilə Şuranın üzvləri və müşahidəçi dövlətlər arasında interaktiv dialoq işçi qrupda keçirilir.
Konkret dövlətlə bağlı icmal üç saat yarım ərzində (İcmal Altında olan Dövlətın təqdimatı, sualların cavablandırılması və yekun qeydlərin təqdim edilməsi, interaktiv dialoq) aparılır. İcmal altında olan dövlətlə bağlı icmal barədə məruzənin (hesabatın) hazırlanması üçün İşçi Qrup tərəfindən 30 dəqiqəyədək vaxt ayrılır. İcmaldan 48 saat sonra məruzə qəbul olunur.

### 2.3.6. Üçlük

Şuranın üzvləri sırasından və müxtəlif regional qruplardan püşk atma yolu ilə seçilən üç məruzəçidən ibarət qrup (*üçlük*) icmalın aparılmasına kömək edir. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı məruzəçiləri zəruri yardım və ekspertiza ilə təmin edir. Məruzəçilər icmal altında olan dövlətə icmalın hazırlanmasına kömək etmək və interaktiv dialoqun əsas diqqəti tələb edən məsələlərini müəyyən etmək üçün dövlətə təqdim edilməli məsələləri və sualları müqayisə edə bilər. Üçlük İHAK-ın yardımı və dəstəyi ilə, habelə icmal altında olan dövlətin tam iştirakı ilə İşçi Qrupun məruzəsini hazırlayır.

### 2.3.7. İşçi Qrupun məruzəsi (hesabat)

İşçi Qrupun məruzəsi interaktiv dialoq zamanı nümayəndə heyətlərinin sualları, şərhləri, irəli sürdüyü tövsiyələr və mülahizələri əks etdirən xülasədən ibarət olur. İcmal altında olan dövlət, tövsiyələr və yaxud nəticələr barədə öz mövqeyini, habelə İşçi Qrupun iclası, yaxud İşçi Qrupun sessiyası ilə Şuranın növbəti sessiyası arasındakı müddətdə, yaxud ən geci Şuranın plenar iclasında bildirir.

### 2.3.8. Universal Dövri İcmalın yekun sənədləri

İcmalın nəticələri aşağıdakılardan ibarət olur:
- İşçi Qrupun İcmal Altında olan Dövlətə tövsiyələr və nəticələr ilə bağlı mövqeyini əks etdirən məruzəsi;
- İcmal Altında olan Dövlətin üzərinə götürdüyü könüllü öhdəliklər;
- Plenar iclasda nəticələrin qəbul olunmasından əvvəl İAD tərəfindən təqdim edilmiş İşçi Qrupundakı interaktiv dialoq zamanı kifayət qədər işıqlandırılmamış suallara və ya məsələlərə cavablar;

İcmalın nəticələrinə dair İAD, Şuranın üzv-dövlətləri və müşahidəçiləri tərəfindən açıqlanmış mövqelərin xülasəsi, habelə plenar iclasda məruzənin qəbul olunmasından əvvəl digər müvafiq maraqlı tərəflərin ifadə etdiyi ümumi şərhlər İnsan Hüquqları Şurasının sessiyasının hesabatına daxil edilir.

İcmalın nəticələri İHŞ plenar iclasında standart qərar ilə qəbul olunur.

#### 2.3.9. Nəticələr və tövsiyələr

Nəticə və tövsiyələr aşağıdakılardan ibarət olur.
İnsan Hüquqları Şurası tərəfindən İcmal Altında olan Dövlətdə insan hüquqlarının vəziyyətinin, o cümlədən müsbət inkişafın və ölkənin üzləşdiyi problemlərin qiymətləndirilməsi;
Ən yaxşı təcrübələrin bölüşdürülməsi;
İnsan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə əməkdaşlığın genişləndirilməsinin xüsusilə qeyd olunması;
Məsləhətləşmə vasitəsilə və müvafiq dövlətə onun razılığı ilə texniki yardımın və potensialın gücləndirilməsinin təmin edilməsinə dair tövsiyələr;
İcmal altında olan dövlətin könüllü öhdəlikləri və vədləri;
Müvafiq dövlətin dəstəklədiyi tövsiyələr qeyd olunur. Digər tövsiyələr müvafiq dövlətin onlarla bağlı şərhləri ilə birlikdə göstərilir.

#### 2.3.10. İcmaldan sonrakı Fəaliyyət

Əməkdaşlıq mexanizmi olan Universal Dövri İcmalın nəticələri (tövsiyələr) ilk növbədə müvafiq dövlət, habelə digər müvafiq maraqlı tərəflər tərəfindən yerinə yetirilməlidir. Növbəti icmal zamanı əvvəlki icmalla bağlı verilən tövsiyələr, dövlətin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi diqqətə alınır.
Universal Dövri İcmalın nəticələrinin nəzərdən keçirilməsi zamanı Şura müəyyən sonrakı fəaliyyətin zəruri olub-olmadığı barədə qərar qəbul edir. Dövləti Universal Dövri İcmal mexanizmi ilə əməkdaşlıq etməyə həvəsləndirmək məqsədilə bütün səylər tükəndikdən sonra Şura UDİ mexanizmi ilə əməkdaşlığı davam etdirmək və ya əməkdaşlığı dayandırmaq məsələsini həll edir.

### 2.4. Məsləhət Komitəsi

İnsan Hüquqları Şurasının 5/1 saylı qətnaməsi əsasında tərkibi 18 nəfər ekspertdən ibarət olan Məsləhət (Məşvərət) Komitəsi təsis olunmuşdur. Məsləhət Komitəsi 2006-cı ilədək fəaliyyət göstərmiş İnsan Hüquqları Komissiyasının İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Alt Komissiyasını əvəz etmişdir. Məsləhət Komitəsinin əsas funksiyası Şuranın "beyin mərkəzi" rolunu oynamaqdır.
Bu prosedurun məqsədi Şuraya ən yaxşı ekspert rəylərini təqdim etməkdir. Məsləhət Komitəsinin Şuraya təqdim etdiyi ekspert rəyləri əsasən elmi əsaslandırılmış və tədqiqatlara söykənməklə Şuranın tələb etdiyi formada və məzmunda olmalıdır. Belə ekspertizalar yalnız Şuranın sorğusu əsasında, onun qətnamələrinə uyğun və onun rəhbərliyi altında həyata keçirilir.
Komitənin məsləhət rəylərinin dairəsi Şuranın mandatı ilə məhdudlaşan tematik məsələləri - insan hüquqlarının təşviqi və müdafiəsi ilə bağlı olan məsələləri əhatə edir. Komitə qətnamə və ya qərar qəbul etmir, amma Şuraya insan hüquqları sahəsində fəaliyyətlərin səmərəliliyinin artırılması və gələcək tədqiqatların aparılmasına dair məsləhətlər verir.
Şuranın iş prinsiplərinə uyğun olaraq Məsləhət Komitəsi öz mandatı üzrə vəzifə və funksiyalarını həyata keçirmək üçün dövlətlərlə, milli insan hüquqları təsisatları, qeyri-hökumət təşkilatları və digər vətəndaş cəmiyyəti təmsilçiləri ilə

qarşılıqlı əməkdaşlıq və birgə fəaliyyət mexanizmləri müəyyən edir. Şuraya üzv olan ölkələr, müşahidəçi ölkələr, o cümlədən Şura üzvü olmayan ölkələr, ixtisaslaşmış agentliklər, digər dövlətlərarası beynəlxalq təşkilatlar, milli insan hüquqlarını müdafiə edən təsisatlar, həmçinin QHT-lər razılaşmalar və ECOSOC-un 1996/31 saylı qətnaməsinə uyğun olaraq Məsləhət Komitəsinin işində iştirak etmək hüququna malik olmalıdır.

Məsləhət Komitəsi hər biri on gün olmaqla ildə iki dəfə sessiya keçirir.

### 2.5. İnsan Hüquqları Şurasının Xüsusi Prosedurları
### 2.5.1. Ümumi məlumat

Ümumi adı "Xüsusi Prosedurlar" olan, İnsan Hüquqları Komissiyası tərəfindən yaradılmış və sonradan İnsan Hüquqları Şurası tərəfindən də qəbul olunmuş, konkret ölkədəki şərait və ya mövzular üzrə bütün dünyada insan hüquqlarının vəziyyəti üzrə hesabat hazırlamaq, məsləhət vermək mandatına malik olan və İnsan Hüquqları Şurasına məruzələr hazırlayan prosedurlardır. Onların sayı dəyişə bilər. 27 mart 2015-ci il tarixindən etibarən 41 tematik və 14 ölkə mandatı mövcuddur.

i

**İnsan Hüquqları Şurasının Xüsusi Prosedurları**
Ətraflı məlumatla bu linkdə tanış olmaq olar: http://www.ohchr.org/EN/HRBodies/SP/Pages/Welcomepage.aspx
Tematik mandat üzrə Prosedurlar
http://www.ohchr.org/EN/HRBodies/SP/Pages/Themes.aspx
Ölkə Mandatı
http://www.ohchr.org/EN/HRBodies/SP/Pages/Countries.aspx

İnsan Hüquqları üzrə Ali Komissarlıq Xüsusi Prosedurlara işçi heyətlə, maddi-texniki təchizatla, tədqiqatların aparılmasına dəstək verməklə yardım edir.

Ölkələr üzrə mandatı olan prosedurlar ölkələrdə sistematik olaraq monitorinqlər və məsləhətləşmələr aparır və insan hüquqlarının vəziyyətinə dair ictimaiyyətə açıqlamalar verir. Tematik Mandatı olan prosedurlar çərçivəsində isə bütün dünyada konkret mövzular üzrə insan hüquqlarının pozulması halları ilə bağlı müxtəlif fəaliyyətlər, o cümlədən ayrı-ayrı şəxslərin şikayətlərinin cavablandırılması, tədqiqatların aparılması, milli çərçivələrdə texniki əməkdaşlıq üçün məsləhətlərin verilməsi və insan hüquqlarının ümumi təşviqi məsələlərində iştirak etmək nəzərdə tutulur.

Xüsusi Prosedurlar ya fərdi şəxs (Xüsusi Məruzəçi) olmaqla "məruzəçi" və ya "müstəqil ekspert" adlanır, ya da adətən tərkibi 5 nəfərdən ibarət olan işçi qrupdan (hər regiondan bir nəfər) ibarət olur. Xüsusi Prosedurların mandatı onların formalaşmasına dair qətnamə ilə müəyyən olunur. Xüsusi Prosedur üzrə

mandatı olan şəxs öz şəxsi keyfiyyətlərində (öz adlarından) ilə fəaliyyət göstərir və işinə görə BMT-dən əmək haqqı və ya hər hansı kompensasiya almır.

Öz funksiyalarını effektiv həyata keçirmək və qərəzsiz olmaq üçün Xüsusi Prosedur üzrə mandatı olan şəxsin müstəqil olması olduqca vacibdir.

Əksər Xüsusi Prosedurlar öz fəaliyyətləri çərçivəsində insan hüquqlarının pozulmasına dair konkret ərizələr üzrə məlumatlar alır və onu hökumətlərə göndərərək ehtimal olunan pozuntu ilə bağlı dərhal fəaliyyətə başlamağı və pozuntu barədə izahat verməyi xahiş edir.

Xüsusi Prosedur üzrə mandatı olan məruzəçilər həmçinin milli çərçivədə insan hüquqlarının vəziyyətini araşdırmaq üçün ölkələrə səfər edirlər. Ölkəyə gəlmək üçün mandatı olan məruzəçi bu barədə həmin dövlətə xahiş məktubu göndərir. Dövlət razılıq verdiyi halda dəvət məktubu göndərir və beləliklə ölkəyə səfər baş tutur. Bir sıra ölkələr BMT Xüsusi Prosedurlarının bir qisminə və ya hamısına daimi dəvət vermişdir ki, bu da o deməkdir ki, həmin ölkələr məruzəçi və işçi qrupların istənilən vaxt ölkəyə gəlməsinə etiraz etmirlər. Ölkəyə səfərin nəticəsi olaraq məruzəçilər, səfərə dair qənaətlər və tövsiyələr əks olunan hesabat hazırlayır.

### 2.5.2. Əməkdaşlıq üçün Xüsusi Prosedurlara çıxışı necə əldə etmək olar?

Vətəndaş cəmiyyəti bütövlükdə, beynəlxalq, regional və milli qeyri-hökumət təşkilatları isə ayrı-ayrılıqda xüsusi prosedurlara dəyərli dəstək verirlər.
Onlar bu prosedurlara informasiyalar, təhlillər təqdim edir, xüsusi prosedurların qənaətlərini və rəylərini yayır və onların davamlı fəaliyyətlərinə yardım edir, bununla da bu prosedurların xüsusi proqramlar, o cümlədən insan hüquqları sahəsində təhsil proqramları həyata keçirmələrinə, müxtəlif istiqamətlər üzrə siyasətin formalaşmasına kömək edirlər.
Xüsusi prosedur təmsilçiləri üçün QHT nümayəndələri ilə Cenevrədə, Nyu-Yorkda yerlərdə görüşmək, onların fikirlərini və rəylərini öyrənmək çox vacibdir. Bu baxımdan bütün prosedurlar QHT-ləri müxtəlif tədbirlərə, konfrans, müzakirə, seminarlara dəvət edir, onlarla geniş əməkdaşlıq edir və məsləhətləşmələr aparır.

Xüsusi məruzəçilər İnsan Hüquqları üzrə Ali Komissarlığı QHT-lərlə əməkdaşlığı necə qurmaları və vətəndaş cəmiyyətinə münasibətləri barədə mütəmadi olaraq məlumatlandırır.
Uzun illər ərzində xüsusi prosedurlar müxtəlif təyinatlı vətəndaş cəmiyyətləri ilə davamlı əlaqələr qurmuşlar.
QHT-lərdən bəhrələnməklə yanaşı Xüsusi Prosedurlar vətəndaş cəmiyyətinə qurbanların effektiv müdafiəsində yardımlar etmiş, onların imkanlarının genişlənməsinə töhfələr vermişlər.
Müxtəlif mandatlar üzrə xüsusi prosedurlar vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığın qurulması və iştirakçılığın müxtəlif metod və prosedurlarını hazırlamışlar.

Xüsusi prosedurların effektiv fəaliyyətinin təmin olunması üçün, o cümlədən pozuntuların aradan qaldırılması üçün digər maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyətinin fəallığı vacibdir.
Beləliklə, beynəlxalq, regional və milli QHT-lər və vətəndaş cəmiyyətinin digər subyektləri xüsusi prosedurların vacib iştirakçılarındandır.
Bundan əlavə vətəndaş cəmiyyəti insan hüquqları sahəsində normayaratma prosesində və yeni mandatların yaradılması üzrə təşəbbüslərdə uzun müddətdir ki, aparıcı rola malikdir.
Xüsusi prosedurlarla işləyən vətəndaş cəmiyyəti subyektləri aşağıdakı kateqoriyalara bölünür:

- İnsan hüquqlarını müdafiə edən təşkilatlar (QHT, assosiasiyalar, qurbanların yaratdığı qruplar);
- İnsan hüquqları müdafiəçiləri;
- Uyğun profilli təşkilatlar;
- Koalisiya və şəbəkələr (qadın hüquqları, uşaq hüquqları, azlıqlar, ekoloji məsələlər üzrə);
- Məhdud imkanlı insanlar və onları təmsil edən təşkilatlar;
- İcma qrupları (yerli xalqlar, azlıqlar);
- Dini qruplar (kilsə, dini icmalar);
- İttifaqlar (həmkarlar ittifaqları, peşə assosiasiyaları, jurnalist assosiasiyaları, vəkil assosiasiyaları, magistr assosiasiyaları, tələbə ittifaqları);
- Sosial hərəkatlar (sülh uğrunda hərəkat, tələbə hərəkatı, demokratiya uğrunda hərəkat);
- İnsan hüquqlarının həyata keçirilməsinə yardım edən peşəkarlar (humanitar sahə üzrə mütəxəssislər, hüquqşünaslar, tibb işçiləri, həkimlər);
- Qurbanların yaxınları;
- İnsan hüquqlarının təşviqi ilə bağlı tədbirlər həyata keçirən dövlət idarələri (universitetlər, elmi-tədqiqat institutları);
- Tədqiqat mərkəzləri.

Vətəndaş cəmiyyəti subyektləri fərdi və kollektiv şəkildə xüsusi prosedurlara çıxış əldə edə bilərlər. BMT-nin müqavilə orqanlarından fərqli olaraq xüsusi prosedurlar dövlətlərin müvafiq alətləri və ya razılaşmanı ratifikasiya etmədiyi sahələrdə də fəal ola bilərlər. Bu zaman daxili müdafiə vasitələrini tükəndirməklə Xüsusi Prosedurlara çıxış əldə etmək olar.
Ona görə də istənilən ölkədə xüsusi prosedurlar mandata uyğun olan insan hüquqları məsələləri üzrə istifadə oluna bilər.

**Vətəndaş cəmiyyəti qurumları xüsusi prosedurların fəaliyyətinə aşağıdakı istiqamətlər üzrə töhfə verə bilər:**

- İnsan hüquqlarının pozulması ilə bağlı xüsusi prosedurların mandatına uyğun olaraq məlumatlar göndərilməsi;
- Xüsusi prosedurları ölkə səfərləri zamanı müvafiq məlumatlarla təmin etmək;
- İnsan hüquqlarını məhdudlaşdırmağa yönələn normaların qəbul edilməsi məqsədi ilə edilən təşəbbüslərə dair məlumat verməklə preventiv tədbirlərin həyata keçirilməsində rol oynamaq;
- Xüsusi prosedurlar çərçivəsində irəli sürülən tövsiyələrə əməl olunmasının izlənilməsi və monitorinqini həyata keçirmək;

Daha geniş mənada vətəndaş cəmiyyəti təsisatları xüsusi prosedurlara mandatlarının həyata keçirilməsinə hərtərəfli yardım edə bilərlər.
Xüsusi prosedurlarla vətəndaş cəmiyyətinin əlaqələrinin göstəricisi kimi insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçi mandatının olmasını göstərmək olar.

### 2.5.3. İnsan Hüquqları Müdafiəçilərinin Vəziyyəti üzrə Xüsusi Məruzəçi mandatı

İnsan Hüquqları Müdafiəçilərinin Vəziyyəti üzrə Xüsusi Məruzəçi mandatı (Əvvəllər BMT Baş Katibinin insan hüquqları müdafiəçiləri üzrə xüsusi nümayəndəsi) xüsusi mexanizm olaraq 2000-ci ildə İnsan Hüquqları Komissiyasının (2006-cı ildən İnsan Hüquqları Şurası) 2000/61 saylı qətnaməsi ilə yaradılmışdır. Onun yaradılması insan hüquqları müdafiəçilərinin bütün dünyada vacib rolunun olması ilə yanaşı, həm də onların vəziyyətinin o qədər də ürəkaçan olmamasının göstəricisidir.
Xüsusi Məruzəçinin insan hüquqları müdafiəçiləri ilə bağlı rolu əsasən aşağıdakıları nəzərdə tutur:

- İnsan hüquqlarını təklikdə və ya başqaları ilə birlikdə müdafiə və təşviq edən bütün şəxslərin vəziyyəti ilə bağlı məlumatlar axtarmaq, toplamaq, əldə etmək, öyrənmək və reaksiya vermək;
- Hökumətlərlə və digər maraqlı tərəflərlə əməkdaşlıq qurmaqla İnsan Hüquqları Müdafiəçilərinə dair Bəyannamənin effektiv həyata keçirilməsi və təşviqinə nail olmaq;
- İnsan hüquqlarının vəziyyətinin yaxşılaşmasına dair tövsiyələr vermək və bu tövsiyələrə əməl olunmasını izləmək.

***İnsan Hüquqları Müdafiəçisi kimdir?***

İnsan hüquqları müdafiəçiləri (keçmiş Sovet İttifaqında və Şərqi Avropada hüquq müdafiəçiləri deyilir-S.M.) fərdi və ya başqaları ilə birgə insan hüquqlarını dinc vasitələrlə müdafiə, siyasi, mülki, sosial, iqtisadi və mədəni hüquqları təşviq edən şəxslərdir. İnsan hüquqları müdafiəçiləri İnsan Hüquqlarının Ümumi Bəyannaməsində əks olunan insan hüquqlarına dair universal prinsipləri qəbul və əməl etməlidir.

***Vətəndaş Cəmiyyəti subyektləri insan hüquqlarının müdafiəçiləri sayılırmı?***

Milli və beynəlxalq QHT-lərin əməkdaşları, könüllüləri, insan hüquqlarını müdafiə və təşviq edən assosiasiyalar, ictimai birliklər insan hüquqlarını müdafiə edən təsisatlar və şəxslər hesab oluna bilər.

***İnsan Hüquqları Müdafiəçiləri haqqında Bəyannamə nədir?***

BMT Baş Assambleyasının 1998-ci ilin dekabr ayında qəbul etdiyi Bəyannamə insan hüquqlarını müdafiə edən istənilən fərdi "insan hüquqlarının müdafiəçisi" kimi qəbul edir.
İnsan hüquqlarını müdafiə edənlər və təşviq edənlər insan hüquqları ilə bağlı normalar yaratmır, mövcud normaların düzgün tətbiqini və məhdudiyyət yaradan

normaların olmamasını istəyir və bunun uğrunda mübarizə aparır. Bəyannamənin də əsas qayəsi belə şəxslərə dair məlumatları toplamaq, əldə etmək, onların vəziyyətinin yaxşılaşdırılmasına səy göstərməkdir. Məhz buna görə də xüsusi prosedurlardan biri məhz bu mövzu ilə bağlıdır.

***Xüsusi məruzəçi ilə necə əlaqə qurmaq və pozuntularla bağlı məlumat vermək olar?***

Maraqlı tərəflər, o cümlədən QHT-lər Xüsusi prosedurlarla əməkdaşlıq edə bilərlər. Xüsusi prosedurlarla kommunikasiya, məlumatların verilməsi, şikayət qaydaları, ərizə formalarını BMT İnsan Hüquqları üzrə Ali Komissarlığın rəsmi veb səhifəsindən əldə etmək olar.
İngilis dilində:
http://www.ohchr.org/EN/HRBodies/SP/Pages/Communications.aspx
Rus dilində:
http://www.ohchr.org/RU/HRBodies/SP/Pages/Communications.aspx
Poçt ünvanı:
OHCHR-UNOG
8-14 Avenue de la Paix
1211 Geneva 10
Switzerland

Məlumatların göndərilməsi üçün e-mail:
urgent-action@ohchr.org

Xüsusi məruzəçi ilə əlaqə:
defenders@ohchr.org
Faks: +41 (0)22 917 90 06
Telefon: +41 (0)22 917 12 34

**İ**

**Vətəndaş Cəmiyyəti üçün Vəsaitlə bu səhifədə tanış ola bilərsiniz**

**http://www.ohchr.org/EN/AboutUs/CivilSociety/Documents/Handbook_en.pdf**

**Vəsaitin Xüsusi Prosedurlara aid hissəsi ilə bu səhifədə tanış ola bilərsiniz**
**http://www.ohchr.org/Documents/Publications/NgoHandbook/ngohandbook6.pdf**

### 2.5.4. Şikayətlərə baxılması qaydası

İnsan Hüquqları Şurası 18 iyun 2007-ci il tarixində 5/1 saylı qətnamə qəbul etmişdir. "İnsan Hüquqları Şurası: İnstitusional quruculuq" adlanan qətnamədə insan hüquqlarının pozulması halı ilə bağlı şikayətlərə baxılmasının yeni qaydaları müəyyən edilmişdir. Şikayətlərə baxılması prosedurunun məqsədi dünyanın istənilən yerində və istənilən şəraitdə insan hüquq və azadlıqları hallarının kobud və sistematik pozulmasına operativ reaksiya verməkdir.
Şikayətlərə baxılmasının yeni qaydası BMT Baş Assambleyasının 15 mart 2006-cı il tarixli 60/251 qətnaməsi ilə Şura üzərinə qoyulmuş mandata uyğun həyata keçirilir. Həmin qətnaməyə əsasən Şura üzərinə, əvvəlki xüsusi prosedur və ekspert məsləhətləri sistemini qorumaq şərti ilə 2006-ci ilin mart ayına qədər fəaliyyət göstərmiş İnsan Hüquqları Komissiyasının bütün mandat və prosedurlarını, o cümlədən "1503 Prosedurunu" təkmilləşdirmək, mandatları, prosedur və funksiyaları səmərəli etmək vəzifəsi qoyulmuşdur. Beləliklə ECOSOC-un 27 may 1503 (XLVIII) saylı qətnaməsi ilə qəbul olunmuş və 19 iyun 2000-ci il tarixli 2000/3 saylı qətnamə ilə yenilənmiş şikayətlər proseduru yeni şikayət prosedurunun hazırlanması üçün baza rolunu oynamışdır.

İnsan Hüquqları Şurasının 5/1 qətnaməsinə uyğun olaraq yeni şikayətə baxılma qaydası dünyanın istənilən hissəsində insan hüquqlarının etibarlı təsdiqini tapmış sistemli olaraq baş verən və kobud pozuntularını aradan qaldırmağa xidmət etməlidir.

Əvvəllər olduğu kimi yenilənmiş prosedur da konfidensial xarakter daşıyır və haqqında şikayət verilən dövlətlə əməkdaşlığı nəzərdə tutur. Prosedurun məqsədi qurbanı vaxtında və effektiv müdafiə etməkdir.

Prosedur çərçivəsində iki işçi qrup mövcuddur: Məlumatlar (Şikayətlər) üzrə və Şərait üzrə. Məqsəd məlumatları öyrənmək və Şuranın diqqətini insan hüquqlarının sistematik və etibarlı şəkildə təsdiq olunan kobud pozuntularına yönəltməkdir.

Prosedur çərçivəsində Şuraya ünvanlanan məlumatları ilk növbədə İnsan Hüquqları üzrə Ali Komissarlığın əməkdaşları Məlumatlar üzrə İşçi Qrupun rəhbəri ilə birgə qəbuledilənlilik nöqteyi-nəzərindən yoxlayır və kifayət qədər əsaslandırılmayan məlumat olduqda qəbulolunmaz hesab edərək rədd edir. İlkin mərhələni keçən məlumatlar müvafiq dövlətə göndərilir və ondan cavab xahiş olunur.

Məlumatlar üzrə İşçi Qrup İnsan Hüquqları Şurasının Məsləhət Komitəsi tərəfindən Komitə üzvləri sırasından 3 il müddətində təyin olunur (mandatın müddəti uzadıla bilər). İşçi qrup 5 nəfərdən ibarət olmaqla yüksək ixtisaslı ekspertlərdən təşkil olunur və dünyanın 5 regionunu təmsil edir. İşçi qrup hər dəfə 5 həftə olmaqla ildə iki dəfə toplanır və şikayətlərin qəbuledilənlik məsələsini və xarakterini müəyyən edir. İşçi Qrup həmçinin müəyyən edir ki, daxil olan şikayət tək-tük hallardır yoxsa sistemli və total xarakter daşıyır. Məqbul hesab olunan bütün məlumatlar (şikayətlər) Şərait üzrə İşçi Qrupa təqdim edilir.

Şərait üzrə İşçi Qrup da eyni qaydada təşkil olunur və tərkibi 5 nəfərdən ibarətdir. İşçi Qrup ildə iki dəfə hər dəfə 5 həftə müddətinə toplanır və Məlumatlar (Şikayətlər) Üzrə İşçi Qrupun təqdim etdiyi məlumatları (şikayətləri), dövlətlərdən şikayətlərlə bağlı gələn cavabları və Şuranın bu prosedur çərçivəsində üzləşdiyi analoji halları öyrənir. Bundan sonra əldə edilən informasiya və məlumatlar (şikayətlər) üzrə işçi qrupun tövsiyələrini də nəzərə almaqla İnsan Hüquqları Şurasına sistematik və etibarlı şəkildə təsdiq olunan insan hüquq və azadlıqlarının kobudcasına pozulmasına dair məruzə təqdim edir. Məruzəyə İşçi Qrup tərəfindən zəruri tədbirlərə dair tövsiyələr də daxil edilir.

Bundan sonra hər bir şəraitlə bağlı Şura ayrı-ayrı qərarlar qəbul edir.

### 2.5.5. Məlumatların (şikayətlərin) qəbuledilən hesab edilməsi şərtləri

Aşağıdakı məlumatlar (şikayətlər) qəbuledilən (məqbul) hesab olunmur:

- Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, İnsan Hüquqları haqqında Ümumi Bəyannaməyə, habelə insan hüquq və azadlıqlarına dair digər beynəlxalq sənədlərə zidd olan və siyasi baxımdan əsaslandırılan məlumatlar; və ya
- Özündə insan hüquqları hallarının pozulması faktlarını ehtiva etməyən, eləcə də hansı hüquqların pozulması göstərilməyən; və ya
- Söyüş və təhqir olan ifadələr daxil edilmiş şikayətlər. Belə şikayətlər digər meyarlar üzrə uyğun olduqda söyüş və təhqiredici ifadələr götürüldükdən sonra məqbul sayıla bilər; və ya
- Özünü qurban hesab edən şəxs və ya şəxslər qrupu tərəfindən təqdim olunmadıqda. Məlumat həmçinin o şəxslərdən və şəxslər qrupundan qəbul edilə bilər ki, onlarda insan hüquqlarının pozulması ilə bağlı bilavasitə və dəqiq məlumat olsun. Əgər məlumatı qeyri-hökumət təşkilatı (QHT) təqdim etmişdirsə, ondan tələb olunan şərt odur ki, QHT, insan hüquqlarının qəbul olunmuş prinsiplərinə uyğun olaraq məsələyə vicdanla yanaşmalı, baş vermiş pozuntuya dair səhih məlumata malik olmalıdır; və ya
- Əgər məlumat (şikayət) ancaq mediada gedən məlumatlara əsaslanıbsa; və ya
- İnsan hüquqlarının sistemli və etibarlı təsdiqini tapmış kobud pozulması halı ilə əlaqədar məlumata (şikayətə) Şura əvvəllər də baxmışdırsa və ya BMT-nin və digər regional təşkilatların şikayət prosedurları çərçivəsində baxılmışdırsa; və ya
- Ölkə daxili müdafiə vasitələri tükənmədən təqdim edilmişdirsə. Bu hal ölkə daxili mexanizmlərin effektiv olmaması və əlavə vaxt tələb etməsi və lüzumsuz uzun çəkməsi hallarına şamil olunmur.

İ

**Şikayəti hara göndərmək olar?**
İnsan Hüquqları Şurasına ünvanlanan şikayətlər aşağıdakı ünvanda yerləşən şikayətlər seksiyasına göndərilə bilər:

Office of United Nations High Commissioner for Human Rights
Human Rights Council Branch-Complaint Procedure Unit
OHCHR- Palais Wilson
United Nations Office at Geneva
CH-1211 Geneva 10, Switzerland
Fax: (41 22) 917 90 11
E-mail: CP@ohchr.org

İnsan Hüquqları Şurasında Şikayətlərə Baxma Prosedurları haqqında daha çox məlumatla, o cümlədən şikayət forması ilə aşağıdakı keçidlər vasitəsi ilə tanış ola bilərsiniz.

İngilis dilində:
http://www.ohchr.org/EN/HRBodies/HRC/ComplaintProcedure/Pages/HRCComplaintProcedureIndex.aspx
Rus dilində:
http://www.ohchr.org/ru/HRBodies/HRC/ComplaintProcedure/Pages/HRCComplaintProcedureIndex.aspx

## III. BMT-NİN İNSAN HÜQUQLARINA DAİR MÜQAVİLƏ ORQANLARI (UN Treaty-based bodies)

### 3.1. Ümumi məlumat

Yuxarıda BMT-nin qəbul etdiyi və dövlətlərin ratifikasiya etdiyi nəzarət mexanizmləri olan pakt və konvensiyalar, eləcə də onlara əlavə olunan fakültativ protokolların siyahısı verilmişdir.
Hazırda BMT-nin nəzarət mexanizmləri olan 9 belə əsas razılaşması və bu razılaşmaların dövlətlər tərəfindən təmin olunmasına nəzarət edən 10 mexanizmi vardır.

- İnsan Hüquqları Komitəsi (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın nəzarət mexanizmi);
- İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə (İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Beynəlxalq Paktın nəzarət mexanizmi);
- İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Komitə (İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvinə dair Beynəlxalq Konvensiyanın nəzarət mexanizmi);
- Qadınlara Münasibətdə Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi Komitəsi (Qadınlar Əleyhinə Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiyanın nəzarət orqanı);
- İşgəncələr Əleyhinə Komitə (İşgəncələr və Digər Qəddar, Qeyri-insani və İnsan Ləyaqətini Alçaldan Davranış və Cəza Əleyhinə Konvensiyanın nəzarət orqanı);
- İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitə (İşgəncələr və Digər Qəddar, Qeyri-insani və İnsan Ləyaqətini Alçaldan Davranış və Cəza Əleyhinə Konvensiyaya əlavə olunan Fakultativ Protokola əsasən yaradılmış nəzarət mexanizmi);
- Uşaq Hüquqları Komitəsi (Uşaq Hüquqları haqqında Konvensiyanın nəzarət mexanizmi);
- İşçi Miqrantlar və Onların Ailə Üzvlərinin Müdafiəsi Komitəsi (İşçi Miqrantların və Onların Ailə Üzvlərinin Müdafiəsi haqqında Beynəlxalq Konvensiyanın nəzarət mexanizmi);
- Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsi üzrə Komitə (Əlilliyi Olan Şəxslərin Müdafiəsinə dair Beynəlxalq Konvensiyanın nəzarət mexanizmi);
- Bütün Şəxslərin Məcburi İtmələrdən Müdafiəsi üzrə Komitə (Bütün Şəxslərin Məcburi İtmələrdən Müdafiəsi haqqında Beynəlxalq Konvensiya[6]);

[6] 01 iyul 2015-ci il tarixinə qədər olan dövrdə Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməmişdir.




Bu razılaşmalara qoşulmaqla dövlətlər razılaşmalara uyğun olan daxili tədbirlər həyata keçirməli, milli qanunvericiliyi bu razılaşmaların tələblərinə uyğunlaşdırmalıdırlar. Bu razılaşmaların nəzarət orqanları isə dövlətlərin razılaşmalar üzrə öhdəliklərini yerinə yetirməsinə nəzarəti həyata keçirirlər.

Bu nəzarət mexanizmləri iştirakçı ölkələrdə insan hüquqlarının vəziyyətini öyrənir, monitorinqlər keçirir və dövlətləri razılaşmalar üzrə öhdəliklərə əməl etməyə sövq edir. Razılaşmalar çərçivəsində aşağıdakı mexanizmlər mövcuddur:

- **Dövlətlərin hesabatları (State reporting).** Bu mexanizm çərçivəsində razılaşma iştirakçısı olan dövlət müvafiq komitəyə ilk və dövri hesabatlar təqdim edir;
- **İnsan Hüquqlarının pozulması ilə bağlı dövlətlər arası şikayət mexanizmi (Inter-state complant).** Bu mexanizm bütün komitələrdə yoxdur. Lakin belə mexanizmləri olan komitələrdə də təcrübə yoxdur. Belə ki, dövlətlərin bir-birinə qarşı insan hüquqlarının pozulması halı ilə bağlı şikayət təcrübəsi yayılmamışdır və tətbiq olunmur;
- **Fərdi şikayətlərə baxılma mexanizmi (individual complaints).** Müvafiq razılaşmaya qoşulan dövlət həmin razılaşmaya əlavə olunan fakultativ protokola qoşulduqda həmin dövlətdə yaşayan (olan) şəxslər daxili müdafiə mexanizmləri tükəndikdən sonra müvafiq Komitəyə fərdi şikayət vermə mexanizmindən istifadə edə bilər. Bu Komitələr fərdi şikayətlərin baxılması zamanı kvazіməhkəmə funksiyalarını yerinə yetirmiş olurlar. Bir sıra dövlətlər müvafiq Paktı və ya Konvensiyanı ratifikasiya etsə də fakultativ protokollara qoşulmur və beləliklə fərdi şikayətlərə baxılma mexanizmlərini tanımırlar;

Bu mexanizmlərdən əlavə ölkələrə səfərlər mexanizmindən də istifadə edilir. Həmçinin İşgəncələr və Digər Qəddar, Qeyri-insani və İnsan Ləyaqətini Alçaldan Davranış və Cəza Əleyhinə Konvensiyaya əlavə olunan Fakultativ Protokola qoşulan ölkələrdə Milli Preventiv Mexanizm vasitəsi ilə azadlıqdan məhrumetmə yerlərində başçəkmələr mexanizmi, eləcə də BMT ekspertlərinin iştirakçı ölkələrin azadlıqdan məhrumetmə yerlərinə başçəkmə mexanizmləri də vardır. Bəzi beynəlxalq müqavilələrdə iştirakçı dövlətlərdə təhqiqatların aparılmasına dair prosedurlar da nəzərdə tutulur.
Aşağıda BMT-nin müqavilə mexanizmləri barədə daha geniş məlumat verilir.

### 3.1.1. Dövlətlərin hesabatları (State reporting)

BMT-nin müqavilə orqanlarının əsas mexanizmi Dövlətlərin müvafiq Pakt və ya Konvensiyaların nəzarət orqanı olan Komitələrə 4-5 illik intervalla hesabatlar təqdim etməsidir. Müvafiq razılaşmaya qoşulan dövlət ratifikasiya sənədini BMT Baş Katibinə təqdim etdikdən bir müddət sonra (adətən 1 il sonra, amma praktikada bu müddət daha çox olur) ilk hesabatını təqdim edir. Sonrakı dövrlərdə isə dövri hesabatlar adlanan və 4-5 illik intervalla verilən hesabatlar təqdim edilir. Dövlətlərin hesabatları ilə yanaşı maraqlı tərəflər, o cümlədən insan hüquqlarını müdafiə edən milli təsisatlar, beynəlxalq və milli QHT-lər, fərdlər və ya fərdlər qrupu tərəfindən hökumət hesabatına paralel, əks, kölgə və ya alternativ adlanan hesabatlar da təqdim edilir. Belə hesabatlar Komitə ekspertləri üçün olduqca mühüm əhəmiyyət kəsb edir və ölkədəki insan hüquqlarının vəziyyətini (razılaşmada əks olunan hüquq və azadlıqların vəziyyətini) düzgün qiymətləndirməyə imkan verir.

Azərbaycan Respublikası BMT-nin nəzarət mexanizmlərinə malik olan 9 Pakt və Konvensiyadan 8-nə tərəfdar çıxmışdır. Azərbaycan Respublikasının hələlik ratifikasiya etmədiyi konvensiya Bütün Şəxslərin Məcburi İtmələrdən Müdafiəsinə dair Beynəlxalq Konvensiyadır. Hər iki Pakt və daha altı Konvensiya Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunmuşdur və Azərbaycan dövləti bütün komitələrə müvafiq hesabatları təqdim edir. Komitələrə hesabatların təqdim edilmə qaydaları, prosedurları və dövriliyi demək olar ki oxşardır.

Müvafiq paktı və ya konvensiyanı ratifikasiya etmiş dövlət həmin sənədlərdə əks olunan müddəaların yerinə yetirilməsinə dair öhdəlik götürməklə yanaşı, həm də müvafiq Komitəyə müqavilə üzrə tədbirlərin həyata keçirilməsinə dair dövri hesabatlar (məruzələr) təqdim edəcəkləri ilə bağlı öhdəlik götürmüş olurlar. Bu hesabatlarda müvafiq beynəlxalq müqavilənin yerinə yetirilməsi ilə bağlı həyata keçirilən inzibati, məhkəmə, qanunvericilik və digər tədbirlər, eləcə də beynəlxalq müqavilənin müddəalarının həyata keçirilməsində mövcud olan problemlər və çətinliklər barədə informasiya əks olunur. Son nəticədə müvafiq Komitə hesabatı təqdim edən dövlətin nümayəndə heyətinin iştirakı ilə hesabata baxır və yekun mülahizələr qəbul edirlər.
Dövri hesabatlar adətən 4-5 illik intervalla təqdim edilir. Lakin dövlət müvafiq beynəlxalq müqaviləni ratifikasiya etdikdən sonra bir-iki il ərzində ilk hesabat (məruzə) təqdim etməlidir.
Bəzi Komitələr iki və ya daha çox dövri hesabat əvəzinə bir məcmu hesabat qəbul edə bilərlər. Bu adətən dövlət tərəfindən dövri hesabatların vaxtında verilməməsi səbəbindən tətbiq olunur. Əksər Komitələr dövri hesabatı qəbul edərkən verdiyi yekun müşahidələrdə növbəti hesabatın verilməsi vaxtını göstərir.
Bəzi Komitələrdə dövlətlərin hesabatında fərqli prosedurlar da nəzərdə tutulur. Məsələn, İnsan Hüquqları Komitəsində fövqəladə hesabat proseduru da vardır. Dövri hesabatlardan əlavə, İnsan Hüquqları Komitəsi Paktla nəzərdə tutulan insan hüquqlarının həyata keçirilməsinə daxili iğtişaşların (Haitidə, Anqolada olduğu kimi) və ya hərbi münaqişənin (keçmiş Yuqoslaviyada olduğu kimi) təsir göstərdiyinə dəlalət edən hadisələr barədə dövlətin xüsusi məlumatlar təqdim etməsi barədə ona müraciət edə bilər. Həmçinin dövlətlərin hüquq varisliyi zamanı insan hüquqlarının həyata keçirilməsi ilə bağlı gələcək vəziyyət haqqında məsələ ortaya çıxan zaman belə hesabatlar xahiş oluna bilər. Fövqəladə şərait Komitənin sessiyaları arasındakı dövrdə yaranarsa, sədr növbəti məruzənin planlaşdırılan vaxtdan qabaq təqdim edilməsi barədə dövlətə müraciət edə bilər. Keçmişdə sədr fövqəladə hesabat təqdim etmək barədə Haiti, Ruanda və Nigeriya kimi dövlətlərə belə müraciətlər göndərib.

### 3.1.2. Üzv Dövlətin hesabatına baxılması

Yuxarıda qeyd olunduğu kimi müvafiq Komitələr hesabatın strukturu və məzmununa dair çərçivələr müəyyən edirlər. Hesabatda əsasən aşağıdakılar əhatə olunmalıdır:

- Beynəlxalq müqavilədə təsbit olunmuş hüquqları təmin etmək üzrə dövlət hansı tədbirləri görür;
- Bu hüquqların praktikada həyata keçirilməsinin hansı uğurları var;
- Beynəlxalq müqaviləni tətbiq edərkən dövlət hansı hallarla və çətinliklərlə rastlaşır.

Komitə Dövlətin təqdim etdiyi hesabata ilkin baxış keçirdikdən sonra (bu adətən qapalı sessiyalarda həyata keçirilir) dövlətə təqdim etmək üçün sualların siyahısını hazırlayır və sonradan İnsan Hüquqları üzrə Ali Komissarlıq vasitəsi ilə Dövlətə təqdim edir. Dövlət bir qayda olaraq suallara cavabları elektron poçt və diplomatik missiyası vasitəsi ilə təqdim edir. Dövri hesabat və suallara cavablar İnsan Hüquqları üzrə Ali Komissarın rəsmi veb səhifəsində yerləşdirilir. Dövlətə əlavə sualların verilməsi və verilən cavablar xüsusi əhəmiyyətə malikdir. Bir

qayda olaraq hesabatların verilməsi və baxılmasında ləngimələr olur və bu səbəbdən bəzən məlumatlar köhnəlir. Verilən suallar və cavablar isə ölkəyə dair ən son məlumatları əldə etməkdə Komitə ekspertlərinə əlavə imkan yaradır. Sualların hazırlanmasında insan hüquqları üzrə milli təsisatların və QHT-lərin əhəmiyyətli rolu vardır. Onların təqdim etdiyi əks (alternativ, kölgə, paralel) hesabatlar Komitəyə ölkə barədə dəqiq və alternativ və qərəzsiz mənbədən məlumat əldə etmək imkanı verir.

Üç komitə - Qadınlara münasibətdə Ayrı-Seçkiliyin Ləğvi, İqtisadi, Sosial və Mədəni Hüquqlar və Uşaq Hüquqları Komitələri sessiyalar ərəfəsində işçi qrup yaradırlar və bu işçi qruplar yaxın vaxtda hesabatına baxılacaq dövlət üçün suallar hazırlayır. İnsan Hüquqları Komitəsi bu işi ölkələr üzrə məqsədli yaradılmış işçi qruplarına həvalə edir. Bu işçi qrup Komitənin müvafiq sessiyası zamanı iclas keçirir. Əksər komitələr öz üzvlərindən birini ölkə üzrə məruzəçi təyin edir ki, həmin şəxs konkret ölkəyə veriləcək sualların siyahısını hazırlayır.

### 3.1.3. Üzv Dövlətin hesabatına baxılması qaydası

Dövlətlərin hesabatlarına müvafiq Komitənin sessiyasında baxılır. Sessiyanın vaxtı və gündəliyi əvvəlcədən İnsan hüquqları üzrə Ali Komissarlığın rəsmi veb səhifəsində müvafiq Komitə üçün müəyyən edilən bölmədə yerləşdirilir. Hesabat verən dövlətin nümayəndə heyəti müvafiq Komitənin sessiyasına dəvət olunur və həmin sessiyada hesabat və əvvəlcədən verilən suallara cavablar müzakirə olunur, hesabat verən dövlətə əlavə suallar verilir.

Dövlətdəki praktikanın müzakirəsi Komitə ilə həmin dövlət arasında «konstruktiv dialoqdan» ibarət olmalıdır. Həmin dialoq adətən aşağıdakı ssenari üzrə baş verir. Qeyd olunduğu kimi, sessiyanın əvvəlində dövlətin nümayəndələrinə (ölkədən gələn hökumət nümayəndələrinə, yaxud Cenevrədəki və ya Nyu-Yorkdakı diplomatlara) məruzəni təqdim etmək və məsələlərin siyahısına daxil edilən suallara cavab vermək üçün vaxt verilir. Girişdən sonra müvafiq Komitə üzvləri əlavə suallar verə və əlavə izahat istəyə bilərlər və dövlətlər onlara cavab verməlidir. Adətən bütün gün ərzində davam edən bir sıra suallardan və cavablardan sonra Komitə üzvləri insan hüquqlarının əsas aspektləri üzrə, habelə məruzənin keyfiyyəti və şifahi təqdimat barədə fərdi yekun qeydləri verirlər. Müvafiq Komitə lazımi şəkildə işıqlandırılmayan suallara cavabları dövlətin yazılı şəkildə təqdim etməsi üçün ona müraciət edə bilər. Bəzi Komitələr çox sayda məsələlərin işıqlandırılmamış qaldığını hesab edərsə, həmin dövlətlə dialoqun növbəti sessiyada davam etdirilməsi barədə qərar qəbul edə bilər.

***Yekun müşahidə (qeydlər və ya mülahizələr)***

Sessiyanın sonunda müvafiq Komitə nəzərdən keçirilən dövlətlər üzrə «yekun müşahidələr» qəbul edir; adətən onlar həmin ölkələrdə insan hüquqları ilə bağlı vəziyyətin məcmu şəklində ümumiləşdirilməsindən ibarət olur və insan hüquqlarının müdafiəsini müvafiq beynəlxalq müqaviləyə tam uyğun hala gətirmək üçün qəbul edilməsi zəruri olan addımlar üzrə dövlətlərə tövsiyələri ehtiva edir. Yekun müşahidələr aşağıdakı bölmələrdən ibarət ola bilər:

- dövlətin ümumi təhlili;
- dövlətin insan hüquqları üzrə praktikasının müsbət tərəflərini əks etdirən, müvafiq beynəlxalq müqavilədə təsbit olunmuş hüquqların həyata keçirilməsinə təsir göstərən amil və çətinliklər;
- diqqət tələb edən prinsipal məsələlər;
- təklif və tövsiyələr.

Yekun müşahidələr ictimaiyyət üçün açıq olan ayrıca sənəddə dərc edilir, müvafiq Komitənin hər bir sessiyasından dərhal sonra onlarla tanış olmaq olar.

**İ**

**Dövlət hesabatlarının verilmə vaxtı və digər məlumatlarla BMT İnsan Hüquqları üzrə Ali Komissarın rəsmi veb səhifəsində tanış olmaq mümkündür:**

http://www.ohchr.org/EN/Pages/WelcomePage.aspx

Bu linkdə Komitələrin linkləri və sağ küncdə dövlətlərin hesabatlarının müvafiq Komitələrdə baxılma vaxtları, beynəlxalq müqavilələrin ratifikasiya statusu və digər zəruri məlumatlar verilir.
http://www.ohchr.org/EN/HRBodies/Pages/HumanRightsBodies.aspx
BMT Ali Komissarlığının Azərbaycanla bağlı olan səhifəsi: http://www.ohchr.org/EN/countries/ENACARegion/Pages/AZIndex.aspx

Komitələrlə əlaqə:

**(Komitənin adı)**
c/o Office of the United Nations High Commissioner for Human Rights
Palais des Nations
8–14, avenue de la Paix
CH-1211 Geneva 10 – Switzerland
Факс: +41 (0)22 917 90 29

İnsan Hüquqları üzrə Ali Komissarının rəsmi veb səhifəsində hər bir Komitənin linki vasitəsi ilə Komitələrin elektron poçt ünvanını da əldə etmək olar. Hazırda ən çox da e-poçt əlaqəsindən istifadə olunur.

## 3.2. Qeyri-hökumət təşkilatları və İnsan Hüquqlarını Müdafiə edən Milli Təsisatların rolu

### 3.2.1. Ümumi məlumat

Qeyri-hökumət təşkilatları dövlətlərin məruzələrinə baxılmasında mühüm rol oynayır və onlardan alınan informasiya müvafiq Komitənin dövlət ilə dialoqunun aparılması üçün vacibdir. Müvafiq Komitə az sayda üzvlərdən ibarət olduğuna görə, nə hər bir konkret dövlətin hüquq sistemi barədə ekspertizaya, nə də hər bir ölkədə insan hüquqlarının vəziyyəti barədə tam təsəvvürə malikdir.
Dövlətlərin təqdim etdikləri məlumatlar adətən hüquqların praktiki həyata keçirilməsi imkanlarını təhlil etmədən ölkədəki hüquqi rejimlə bağlı vəziyyəti vurğulayır. Deməli, qeyri-hökumət təşkilatlarının «medalın o biri üzünü» işıqlandıran informasiyası müvafiq Komitə üzvləri üçün olduqca vacibdir, çünki o, hökumətlər üçün məsələlərin hazırlanmasında Komitə üzvlərinə kömək edir. QHT-lər və İnsan Hüquqları üzrə Milli Təsisatlardan daxil olan hesabatlar "digər mənbələrdən daxil olan məlumatlar" adlanır və dövlət hesabatı ilə yanaşı İnsan Hüquqları üzrə Ali Komissarın rəsmi veb səhifəsində yerləşdirilir[7].
Məsələn, İnsan Hüquqları Komitəsi dəfələrlə bəyan edib ki, o, ölkədəki real şərait barədə həmin ölkədə fəaliyyət göstərən milli/yerli qeyri-hökumət təşkilatlarından informasiya almaqda xüsusilə maraqlıdır. İnsan hüquqlarının vəziyyəti ilə bağlı məlumatlara baxılmasına qeyri-hökumət təşkilatlarının kömək etmələrinin bir neçə yolu vardır. İnsan Hüquqları Komitəsinin bu praktikası bir qayda olaraq digər Komitələrdə də tətbiq olunur. Bunlar:

- Məlumatlar

Birincisi, qeyri-hökumət təşkilatları məlumatın Komitəyə çatdırılması müddətindən xəbər tuta və dövlətin həmin informasiyanı vaxtında təqdim etməsi üçün ona təzyiq göstərə bilər. Bu, dövlətin nümayəndələri ilə Komitənin müntəzəm dialoqunu təmin etməyə köməklik göstərər. Qeyri-hökumət təşkilatları həmçinin Komitəyə ölkədəki insan hüquqlarının ciddi şəkildə pozulması ilə bağlı fövqəladə hallar barədə məlumat verə bilərlər və həmin hallar Komitənin həmin dövlətdən xüsusi məruzə istəməsi və həmin ölkənin nümayəndələrini Komitənin sessiyasına dəvət etməsi üçün əsas ola bilər.

- Məsləhətləşmələr

Komitə tövsiyə etdi ki, Paktın iştirakçısı olan dövlətlər öz təcrübələrinin insan hüquqlarına dair normalara uyğunluğu haqqında məlumatların yazılması prosesində qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr aparsınlar. Bu, məlumatın yekun variantını İnsan Hüquqları Komitəsinə təqdim edənədək, qeyri-hökumət təşkilatlarının məlumat barədə tənqidi analizinin dövlət tərəfindən əldə edilməsinə imkan verir. Bu, həmçinin dövlətə insan hüquqlarına dair materialların toplanması üzrə ixtisaslaşan qeyri-hökumət təşkilatları barədə ətraflı informasiya almaq imkanı verir. Belə yardım, Paktı həyata keçirərkən dövlətlərin

[7] QHT-lər və İnsan Hüquqları üzrə Milli Təsisatların məlumatları veb səhifəsinə onların razılığı əsasında yerləşdirilir. Bəzən belə qurumlar hesabat və məlumatları konfedensial göndərirlər ki, bu zaman bu hesabat və məlumatlar açıqlanmır və yalnız Komitə üzvləri üçün əlçatan olur.

rastlaşdıqları problemlərin göstərilməsi də daxil olmaqla (bu, İnsan Hüquqları Komitəsi tərəfindən həmişə yaxşı qiymətləndirilir), dövlətlərin daha məzmunlu və doğru məlumatlar təqdim etmələrinə kömək edər.
Komitə həmçinin dövlətləri öz məlumatlarını ictimaiyyət arasında yaymağa həvəsləndirir ki, həm məruzəyə Komitə tərəfindən baxılandan qabaq, həm də sonra dövlət səviyyəsində ictimai müzakirələr aparılsın.

- Əks məruzə

Bu və ya digər ölkədəki vəziyyətin araşdırılmasına qeyri-hökumət təşkilatları tərəfindən tənqidi elementin daxil edilməsinin çox mühüm üsulu onlar tərəfindən dövlətin məruzəsinə yazılı şərhlərin verilməsi və həmin şərhlərin Komitəyə təqdim edilməsidir. Bu cür informasiyanın təqdim edilməsinin ən yaxşı forması dövlətin məruzəsinə hər maddə üzrə ayrılıqda şərhin verildiyi "əks məruzədir". Belə format dövlətdən daxil olmuş məruzə ilə müqayisəni asanlıqla aparmağa kömək edir. Ətraflı "əks məruzə" təqdim etməkdən əlavə, qeyri-hökumət təşkilatları həmçinin Komitəyə Pakta aid olan məsələlərdə həmin ölkə barədə daha ətraflı məlumat təqdim edə bilərlər. Məsələn, Paktı pozan qanunların mətninin (yaxşı olar ki, ingiliscə, yaxud qəbul edilən yerlərdə ispan və ya fransız dillərində olsun) daxil edilməsi, yaxud insan hüquqlarının pozulmasına dəlalət edən konkret işlərin Komitəyə təqdim edilməsi yaxşı təsir göstərir. İmkan daxilində informasiyanı elə təqdim etmək lazımdır ki, onun Paktın hansı maddəsinə aid olması aydın olsun[8].

### 3.2.2. QHT-lər, insan hüquqları üzrə milli təsisatların əks, alternativ, kölgə və ya paralel hesabatlar təqdim etmə qaydaları və prosedurları

Bütün Komitələrə əks, alternativ, kölgə və ya paralel (sonrakı mətndə alternativ) hesabatlar oxşar qayda və prosedurlar əsasında həyata keçirilir.

QHT-lər və ya milli QHT koalisiyaları, hesabat hazırlamaqda maraqlı olan digər təsisat və qruplar hökumətin məruzəsinin hazır olmasını gözləməməlidirlər. Hesabat hazırlamaq üçün hazırlıq işləri xeyli vaxt və resurs tələb edir. Ona görə də fəaliyyətə daha əvvəldən başlamaq lazımdır. Bunun üçün hesabatlar (məruzələrin təqdim edilmə) dövrü arasında illər ərzində aşağıdakı əsas fəaliyyətlər həyata keçirilməlidir:

- Əvvəlki məruzə üzrə hökumətə Komitə tərəfindən təqdim edilmiş ümumi xarakterli irad və tövsiyələrin yerinə yetirilməsinin izlənilməsi;
- Ölkədə müvafiq beynəlxalq müqavilənin müddəalarının təmin edilməsinə yönələn qanunvericilik, məhkəmə, inzibati və s. sahələrdə həyata keçirilən fəaliyyətlərə dair məlumatların toplanılması;
- Ayrı-ayrı, total və sistematik pozuntularla bağlı monitorinqlərin keçirilməsi

[8] Əks məruzə (bu həm də alternativ, kölgə və ya paralel məruzə də adlanır).

### 3.2.3. Alternativ hesabatın təqdim edilməsinin əsas məqsədləri

- BMT-nin müqavilə orqanının (Komitə) müvafiq beynəlxalq müqavilədə əks olunan müddəalara əməl edilməsi vəziyyətinə dair tam mənzərəni əldə etməsinə yardım etmək;

Müqavilə orqanının hesabatla bağlı yekun mülahizələri və tövsiyələrinin daha dolğun və problemli məsələlərə yönəlməsinə nail olmaq;

- Dövlətləri gələcək hesabatları daha ciddi hazırlamağa təşviq (yönəltmək) etmək;
- Alternativ hesabatı hazırlamaq və verməklə ictimai diqqəti dövlət hesabatına yönəltmək;

Dövlətin müvafiq beynəlxalq müqavilə üzrə götürdüyü öhdəlikləri yerinə yetirməsi üçün beynəlxalq mexanizmlərdən istifadə etmək.

### 3.2.4. Alternativ hesabatın strukturu

Alternativ hesabatın hazırlanmasında bir neçə təşəkkül tapmış təcrübə vardır. Bunlar əsasən aşağıdakılardır:

- Müvafiq beynəlxalq müqavilənin maddələri üzrə;
- Müvafiq beynəlxalq müqavilədə əks olunmuş hüquqları qruplaşdırmaqla;
- Müddəalarda əks olunan hüquqların ölkədə mövcud olan ümumi vəziyyətlə müqayisəsi şəklində.

Alternativ hesabatın ekspertlər tərəfindən asan öyrənilməsi üçün onun hökumət hesabatının strukturuna uyğun hazırlanması məqsədəuyğundur. Məsələn, əgər hökumət öz məruzəsini maddələr üzrə hazırlamışdırsa, QHT-lərin də öz hesabatlarını bu şəkildə hazırlaması, hökumət məruzəni qruplar (eyni hüquqların qruplaşdırılması - mülki, siyasi, sosial və digər hüquqlar) üzrə hazırlayıbsa o zaman QHT-lərin də eyni struktura əməl etməsi faydalı olar.

### 3.2.5. Alternativ hesabatın əhatəliliyi

Alternativ hesabat hazırlayan tərəf müvafiq beynəlxalq müqavilədə əks olunan bütün hüquqları əhatə edərsə bu çox müsbət qiymətləndirilir. Bununla belə müvafiq beynəlxalq müqavilədə əks olunan konkret hüquqlar üzrə ixtisaslaşmış təsisatlar yalnız konkret hüququ əks etdirən maddə və ya maddələr qrupu üzrə də alternativ hesabat hazırlaya bilər.
Eyni zamanda resurslar nəzərə alınmaqla və müvafiq beynəlxalq müqavilədə nəzərdə tutulan bütün hüquqlar deyil onun bir və ya bir neçə maddəsi və ya bir və ya daha çox hissəsi üzrə də alternativ hesabat hazırlamaq olar.

### 3.2.6. Alternativ hesabat hazırlanarkən əsas nələri nəzərə almaq lazımdır?

- Alternativ hesabat hazırlanarkən müvafiq Komitənin müəyyən etdiyi prinsip və qaydalara əməl etmək;
- Hesabatda konkretliyi gözləmək. Hesabatın həcmini mümkün qədər az etmək;
- Müvafiq beynəlxalq müqavilədə əhatə olunmuş hüquqlardan kənara çıxmamaq;

- Hesabata tövsiyələr daxil etmək;
- Hesabatı BMT-nin işçi dillərindən birində, daha yaxşı olar ki, ingilis və ya fransız dilində hazırlamaq. Əgər hesabat BMT-nin rəsmi dillərindən birində, məsələn rus dilində hazırlanmışdırsa, o zaman hesabatın ingilis dilində qısa icmalını hesabata daxil etmək;
- Alternativ hesabatı müvafiq Komitəyə hökumətin məruzəsi təqdim olunduqdan sonra, mümkün qədər tez müddətdə, məsələn, 6 ay müddətində göndərmək.

### 3.2.7. Alternativ hesabata tövsiyələrin daxil edilməsi

Tövsiyələr hazırlanarkən əsasən nəzərə alınmalıdır:

- Tövsiyələr konkret problemə və onun həlli yollarına dair olmalıdır;
- Tövsiyə prioritet təşkil edən problemlərə dair olmalıdır;
- Tövsiyələrdə hökumətlərin mövcud problemi aradan qaldırmasında QHT-lərin cəlb olunması mexanizmləri əks olunarsa yaxşı olar;
- Tövsiyələr hüquqi, siyasi, ictimai, sosial və sahələr üzrə bölünməli, qanunvericiliyin təkmilləşdirilməsi, yeni normaların qəbulu və təcrübədə olan qüsurların aradan qaldırılmasına yönəlməlidir;
- Tövsiyələr hər maddə üzrə (və ya hüquqlar qrupu üzrə) hazırlanmış alternativ hesabatın sonunda və ya bütöv hesabatın sonunda yerləşdirilə bilər.

### 3.2.8. Alternativ hesabatın təqdim edilməsi

Müvafiq Komitənin sessiyasının təqribi vaxtı müəyyən edildikdən sonra BMT İnsan Hüquqları üzrə Ali Baş Komissarlığı hökumətin hesabatını müvafiq Komitənin veb səhifəsində yerləşdirir. Hökumət hesabatının yerləşdiyi vaxtdan sonra əlavə məlumatların qəbulu üçün müəyyən edilən son müddətə qədər Alternativ hesabat veb səhifəsində yerləşdirilmək üçün göndərilə bilər. Yaxşı olar ki, alternativ hesabat mümkün qədər tez göndərilsin. Bu zaman ekspertlər onunla yaxşı tanış olmaq üçün daha çox vaxt imkanına malik olurlar. Sizin hesabatınız "digər mənbələrdən daxil olan məlumatlar" (başqa ad da ola bilər. Məsələn: "Komitəyə daxil olan məlumatlar") bölməsində yerləşdiriləcəkdir.
Alternativ hesabatın təqdim olunması üçün onu həm elektron poçt yolu ilə, həm də poçt vasitəsi ilə göndərmək mümkündür. Son illərdə İKT-nin inkişafı imkan verir ki, belə materiallar elektron poçt vasitəsi ilə göndərilsin. Alternativ hesabatın WORD formatında göndərilməsi daha məqsədə uyğundur. Baxmayaraq ki, bəzi təşkilatlar hesabat və məlumatlarını həmçinin PDF formatında göndərirlər. Alternativ hesabat İHAK ofisinin katibliyinin e-ünvanına və ya müvafiq məsul şəxsə göndərilə bilər.
Hər bir Komitənin elektron poçt ünvanını İnsan Hüquqları üzrə Ali Komissarın rəsmi veb səhifəsində müvafiq Komitə üçün nəzərdə tutulan bölməyə daxil olmaqla əldə etmək olar.

i

Nəzərə alın ki, məsul şəxsin adına olan e-ünvan dəyişə bilər (onun əvəzinə başqa şəxsin təyin olunması və ya başqa səbəblərdən). Odur ki, hesabatı göndərməmişdən əvvəl Komitənin səhifəsindən dəqiq ünvanları öyrənin:
http://www.ohchr.org/EN/HRBodies/Pages/HumanRightsBodies.aspx

Alternativ hesabatı poçt ünvanına da göndərmək olar:

**(Müvafiq Komitənin katibliyi)**
**Office of the High Commissioner for Human Rights (OHCHR)**
**Palais Wilson 52, rue des Paquis. CH-1201 Geneva – Switzerland**

Sessiya BMT-nin əsas binasında keçiriləcəyi halda

**Office of the High Commissioner for Human Rights (OHCHR)**
**New York Office - Room DC1 - 511**
**One United Nations Plaza, New York, NY 10017**

### 3.3. Sessiyada iştirak üçün akkreditasiya və şifahi brifinqlər

#### 3.3.1. Sessiyada iştirak

Cenevrədə və ya Nyu-Yorkda dövlətin məruzəsinin müzakirəsində iştirak etmək imkanına malik olan qeyri-hökumət təşkilatları müvafiq Komitənin katibliyinə bir qayda olaraq yazılı məlumat verir və müzakirədən qabaq və ya müzakirə zamanı onların suallarına cavab verirlər. İctimaiyyət üçün qapalı olan sessiyalardakı məsələlərin siyahısının hazırlanması zamanı sessiyaqabağı işçi qrupun üzvləri üçün şifahi brifinq keçirən müvafiq komitənin qeyri-hökumət təşkilatlarının dəvət edilməsi haqqında sonradan qəbul olunan qərarı bu dialoqda qeyri-hökumət təşkilatlarının rolunun gücləndirilməsində mühüm addım oldu. Bu, məsələlərin siyahısı qəti şəkildə hazırlanana qədər İnsan Hüquqları Komitəsinin üzvlərinə öz mülahizələrini təqdim etmək üçün qeyri-hökumət təşkilatlarına daha bir imkan verir.

#### 3.3.2. Şifahi brifinqlər

Müvafiq Komitənin sessiyası zamanı qeyri-hökumət təşkilatları Komitə üzvləri üçün konkret ölkədəki vəziyyətə dair brifinq təşkil edə bilərlər. Qeyri-hökumət təşkilatları tərəfindən təşkil edilən və adətən Komitənin səhər və gündüz sessiyaları arasında keçirilən bu qeyri-formal brifinqlər müvafiq Komitə ekspertləri üçün ən yeni informasiyanın ötürülməsinin mühüm kanalına çevrilib. Brifinqlər zamanı müvafiq Komitə üzvlərinin suallarına cavab vermək üçün qeyri-hökumət təşkilatlarının nümayəndələrinə imkan verilir. Əksər komitələrin sessiyalarının təcrübəsində adətən hər ölkə üzrə, həmin ölkədəki vəziyyət

müzakirə ediləndən bir və ya neçə gün əvvəl brifinq keçirilir. Bəzən bu brifinq muvafiq beynəlxalq və (və ya) milli qeyri-hökumət təşkilatının üzvü tərəfindən koordinasiya edilir.

Sessiyanın işində müşahidəçi qismində iştirak etmək istəyən bütün maraqlı tərəflər bunun üçün müəyyən edilmiş qaydada qeydiyyatdan keçməlidirlər. Akkreditasiya vaxtı və qaydalarına dair bütün məlumatları İnsan Hüquqları üzrə Ali Komissarın veb səhifəsində müvafiq Komitə üçün olan bölmədən əldə etmək olar.
Bütün digər müşahidəçilər əvvəlcədən akkreditasiya anketini doldurmalı, onu imzalamalı və müvafiq ünvana göndərməlidir. Anket formasını bu səhifədən əldə etmək olar: **http://goo.gl/261iF.**
Anket forması dəqiq doldurulmalıdır və orada tələb olunan rekvizitlər göstərilməlidir (ünvan, şəkil, pasportun seriyası və nömrəsi, vaxtı, sessiyada iştirak günlərinin sayı, telefon, e-mail və s.) Doldurulmuş anket imzalandıqdan sonra müvafiq Komitənin katibliyinin elektron ünvanına göndərilir və sənədin orijinalını BMT-nin sessiya keçirilən müvafiq ünvandakı bölmə binasının girişindəki təhlükəsizlik xidmətinə təqdim edib buraxılış vəsiqəsini əldə edirsiniz.

Ünvan belədir: **Palais des Nations, Security Entrance, Pregny Gate, 8 - 14 Avenue de la Paix, 1211 Geneva 10.** Sessiya yuxarıda göstərilən ünvanda keçirilir. Son dövrlərdə akkreditasiyaya dair vəsiqəni həmin binaya girişdən götürmək olur. **Diqqət:** Sessiya həmçinin BMT-nin Nyu-York şəhərində yerləşən əsas binasında da keçirilə bilər. Bu zaman ünvanlarla və akkreditasiya ilə bağlı əlavə məlumatlar müvafiq Komitənin veb səhifəsində yerləşdirilir.

Office of the High Commissioner for Human Rights (OHCHR)
New York Office - Room DC1 - 511
One United Nations Plaza, New York, NY 10017

### 3.4. Müqavilə orqanlarında fərdi şikayətlərə (məlumatlara) baxılma proseduru

#### 3.4.1. Ümumi məlumat

Yuxarıda qeyd olunduğu kimi hazırda BMT-nin nəzarət mexanizmi olan 9 pakt və konvensiyası vardır. Bu müqavilələrdən hər birinin müqavilə orqanı olan Komitələr digər funksiyalarla yanaşı, həmçinin fərdi şikayətlərə baxa bilərlər. Lakin bütün Komitələr belə səlahiyyətlərə malik deyildir və pakt və ya konvensiyanı ratifikasiya etməklə bu prosedurun tətbiqi başlanılmır. Bunun üçün hər bir beynəlxalq müqaviləyə əlavə olunan fakultativ protokolu ratifikasiya etmək və ya beynəlxalq sənəddə fərdi şikayətlə bağlı maddəyə uyğun olaraq fərdi şikayət proseduruna qoşulmaq barədə dövlətin bəyanat verməsi tələb olunur.

#### 3.4.2. Fərdi şikayət proseduru olan komitələr

Müəyyən şərtlər daxilində Komitələr fərdi şikayət və ayrı-ayrı şəxslərdən daxil olan məlumatlara baxa bilər.

### 3.4.2.1. İnsan Hüquqları Komitəsi

İnsan Hüquqları Komitəsi Mülki və Siyası Hüquqlara dair Beynəlxalq Paktda əks olunmuş hüquqlarının pozulması ehtimal olunan fərdlərdən, fərdlər qrupundan daxil olan şikayətlərə (məlumatlara) baxır, bu şərtlə ki, haqqında şikayət verilən dövlət Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktına dair Fakultativ Protokolu ratifikasiya etmiş olsun. Azərbaycan Respublikası Fakultativ Protokolu ratifikasiya etmişdir.

İnsan Hüquqları Komitəsi 18 müstəqil ekspertdən ibarətdir. Ekspertlər 4 il müddətinə seçilir və növbəti müddət üçün yenidən seçilmək hüququna malikdirlər. Komitənin sessiyaları hər il üç dəfə, hər biri üç həftə davam etməklə BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında və Cenevrədə İnsan Hüquqları üzrə Ali Komissarlığında toplanır.

***Fərdi Şikayətlərin verilməsi şərtləri və qaydaları***

İnsan Hüquqları Komitəsinə fərdi şikayətin təqdim olunması o qədər də asan deyil və bunun üçün bir sıra şərtlərə əməl olunması tələb olunur. Bunlar aşağıdakılardır:

- Haqqında şikayət verilmiş dövlət həm konkret insan hüquq və azadlığın pozulduğu anda və həm də şikayət təqdim edilərkən Fakultativ Protokolun iştirakçısı olmalıdır;
- Şikayət fərdi qaydada, hüquqları pozulmuş şəxs və ya onun nümayəndəsi tərəfindən verilməlidir və anonim olmamalıdır;
- Şikayətdə pozulması güman edilən hüquq Beynəlxalq Paktda əks olunmuş hüquqlardan biri və ya bir neçəsi olmalıdır və həmin hüquqla bağlı iştirakçı dövlətin heç bir təshisi (qeyd-şərti) olmamalıdır;
- Ölkə daxilində pozulmuş hüquqların bərpa olunması üçün bütün mümkün prosedurlar istifadə olunmalıdır;
- Şikayət eyni zamanda digər beynəlxalq təşkilatların (digər Komitələr, Avropa Məhkəməsi) baxışında olmamalıdır.

**Mülki və Siyasi hüquqlara dair Beynəlxalq Paktda əks olunmuş hüquqlar**

Yaşamaq hüququ, azadlıq və şəxsi toxunulmazlıq hüququ, insan şəxsiyyətini alçaldan, işgəncələrdən və qeyri-insani davranışlardan qorunmaq hüququ, kölə olmaqdan azad olmaq hüququ, özbaşına həbslərdən qorunmaq hüququ, ədalətli mühakimə hüququ, hüquq subyekti kimi tanınmaq hüququ, cinayət qanununun retroaktiv tətbiqindən müdafiə hüququ, fikir, vicdan, din azadlığı, ifadə azadlığı hüququ, hərəkət etmək hüququ, o cümlədən hərəkət azadlığı, birləşmək hüququ və sərbəst toplaşmaq hüququ.

Komitə şikayəti araşdırarkən şikayətdə əks olunmuş faktları öyrənməklə yanaşı həmçinin dövlətin şikayətlə bağlı təqdim etdiyi şərhi də öyrənir.

Komitə yalnız fərdi şikayət əsasında deyil, həm də dövlətin təqdim etdiyi şərh və əks arqumentləri, eləcə də digər yollarla əldə edilmiş məlumatları öyrənir. Şikayəti təqdim edən fərdə ölüm cəzası verildikdə Komitə iştirakçı dövlət qarşısında sonuncu qərar qəbul edilənədək hökmün icrasını dayandırmaqla bağlı vəsatət verə bilər.
**«Rəy»-** Komitənin təqdim olunmuş fərdi şikayətlə bağlı qəbul etdiyi qərar belə adlanır. Komitə iştirakçı dövlətə qurbana ona vurulmuş ziyana görə kompensasiya verməyi, məhbusun azad edilməsi və ya zərərçəkmişin xeyrinə digər qərarın qəbul edilməsini tövsiyə edə bilər. Belə olduqda dövlət tövsiyədə əks olunmuş müddəalara uyğun hərəkət etməlidir. Komitənin son rəyini onun illik hesabatında və Birləşmiş Millətlər Təşkilatının mütəmadi olaraq dərc etdirdiyi «yekun qərarlar» toplusunda tapmaq olar.
**İşə yenidən qayıtmaq-** 1990-cı ildə Komitə yeni bir prosedur yaratdı ki, bu da əvvəllər fərdi şikayətlə bağlı qəbul olunmuş rəylə bağlı vəziyyəti öyrənməyə imkan verir.
Komitə «İşlərə yenidən qayıtma üzrə xüsusi məruzəçi» təyin etmişdir ki, o da iştirakçı dövlətdən Komitənin tövsiyəsini yerinə yetirməyin gedişinə dair məlumat tələb edə bilər. Məruzəçi iştirakçı-dövlətlər tərəfindən Komitənin illik hesabatında əks olunmuş tələblərin yerinə yetirilməsi ilə əlaqədar Baş məclisə məlumat verir.

İnsan Hüquqları Komitəsinə fərdi şikayətin verilmə qaydaları, şərtləri və prosedurları ilə İnsan Hüquqları üzrə Ali Komissarın rəsmi veb səhifəsində tanış olmaq olar. Məlumatları və ərizə formasını bu linkdən əldə etmək olar: http://www.ohchr.org/EN/HRBodies/CCPR/Pages/CCPRIndex.aspx.

Bu səhifədəki "model complaint form" linkini basmaqla ərizə formasını (word formatda) yükləmək olar. Bu ərizə formasından istifadə etməklə eyni zamanda İşgəncələr Əleyhinə Komitəyə və İrqi Ayrı-Seçkiliyin Ləğvi Komitəsinə də şikayətlər göndərmək olar. Ərizəni BMT-nin rəsmi dillərindən birində [9] göndərmək olar. Poçt və elektron poçt ünvanı fəslin sonunda verilir.

### 3.4.2.2. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə

Müqavilə orqanları arasında İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə yeganə orqandır ki, beynəlxalq sənədin konkret müddəalarına əsaslanaraq yaradılmayıb. Yəni bu Komitənin statusu Paktda nəzərdə tutulmayıb. Komitə İqtisadi və Sosial Şuranın 1984\4 saylı qətnaməsinə uyğun olaraq yaradılıb. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə müqavilə orqanı olmaqla İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Paktda əks olunmuş hüquqların iştirakçı dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarəti həyata keçirir.

Paktın fərdi şikayətlər proseduru yenidir. Fərdi Şikayət proseduru İnsan Hüquqları Şurasının 8/2 saylı 18 iyun 2008-ci il tarixli Qətnaməsi ilə **İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta dair Fakultativ**

---

[9] İngilis, fransız, ispan, rus, ərəb, çin

**Protokolda** nəzərdə tutulur. Azərbaycan Respublikası 01 iyul 2015-ci il tarixinə qədər olan dövrdə Fakultativ Protokolu ratifikasiya etməmişdir.

Fərdi Şikayətlərin verilməsi ilə bağlı şərtlər Protokolda əks olunmuşdur. Bu şərtlər İnsan Hüquqları Komitəsinə fərdi şikayətlərin verilməsi üçün nəzərdə tutulan şərtlərə uyğundur. Əlavə olaraq şikayət daxili hüquq müdafiə mexanizmlərinin tükənməsindən sonra bir il müddətinə verilə bilər (üzrlü səbəblərdən ləngimələr nəzərə alınır).

Fakultativ Protokolun mətni və fərdi şikayətlərə dair tələblərlə BMT İnsan Hüquqları üzrə Ali Komissarının rəsmi veb səhifəsində tanış olmaq olar.

http://www.ohchr.org/EN/ProfessionalInterest/Pages/OPCESCR.aspx

### 3.4.2.3. Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi Komitəsi

Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi Komitəsi (CEDAW) Qadınlara Qarşı Ayrı- Seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Konvensiyanın 17-ci maddəsinə müvafiq olaraq yaradılmışdır.

Komitə yüksək mənəvi keyfiyyətlərə malik olan və Konvensiyanın əhatə etdiyi məsələlər üzrə tanınmış 23 ekspertdən ibarətdir. Ekspertlər 4 il müddətinə seçilir və Komitədə onu təqdim edən dövlətin nümayəndəsi qismində deyil, fərdi keyfiyyətdə (sərbəst olaraq, öz adlarından) çıxış edir.

***Fərdi şikayətlərin verilməsi qaydaları və şərtləri***

Paktda olduğu kimi burada da dövlətə qarşı şikayət o zaman verilə bilər ki, dövlət Konvensiyaya əlavə olunan Fakultativ Protokolu ratifikasiya etsin və bununla da, Komitənin fərdi şikayətlərə baxmaq üzrə səlahiyyətlərini tanısın. Fakultativ Protokol ayrıca beynəlxalq müqavilədir. Bu baxımdan o dövlətlər tərəfindən ratifikasiya olunmalıdır.
Azərbaycan Respublikası protokolu 6 iyun 2000-ci il tarixində imzalamış və 1 iyun 2001-ci ildə ratifikasiya etmişdir.

***Şikayəti kim verə bilər, şikayət üçün nə təqdim olunmalıdır və bu nə vaxt edilə bilər?***
Prosedur qaydalarına görə şikayət (məlumat) şəxsin və ya şəxslər qrupunun adından göndərilə bilər. Əgər Siz şikayəti başqa bir şəxsin və ya şəxslər qrupunun adından verirsinizsə, onda həmin şəxslərin buna razılığının olmasını sübut etməlisiniz və ya onların razılığı olmadan verməyinizin səbəblərini əsaslandırmalısınız.
Şikayətin verilməsi üçün vaxt məhdudiyyəti qoyulmur, lakin şikayətin ağlabatan müddətlərdə verilməsi şikayətin qəbulolunan hesab olunması və mahiyyəti üzrə baxılması imkanlarını artırır.

***Prosedura dair məlumat***
Əgər şikayət qeydə alınırsa, onda Komitə məqbulluq məsələsini və şikayətin mahiyyəti üzrə baxılmasını eyni vaxtda həyata keçirə bilər. Əleyhinə şikayət verilmiş dövlətin şikayətin məqbul olması və mahiyyəti üzrə öz

baxışlarını təqdim etməsi üçün 6 ay vaxt müəyyən edilir. Bu edildikdən sonra şikayətçiyə (və ya onun adından şikayəti verənə) öz iradlarını bildirmək üçün müəyyən vaxt verilir. Bundan sonra şikayət Komitədə baxılmağa hazır hesab olunur.

***Məqbulluğa dair əlavə tövsiyələr***

Fakultativ Protokolun 4-cü maddəsinə əsasən verilən şikayətin məqbul hesab edilməsi üçün aşağıdakı şərtlər vacibdir:
1. Komitə şikayətə yalnız o zaman baxır ki, bütün mümkün olan ölkədaxili mexanizmlərdən istifadə edilsin. İstisna yalnız o zaman ola bilər ki, ölkədaxili mexanizmlər səmərəsiz olsun və ya şikayətə baxılma lüzumsuz ləngidilsin və real nəticənin olmayacağı əvvəlcədən bəlli olsun;
Şikayət o zaman məqbul hesab edilmir ki:
Komitə əvvəllər bu şikayətə baxmışdır və ya bu şikayət digər beynəlxalq prosedurlar əsasında başqa beynəlxalq qurumlarda baxılmış və ya baxılmaqdadır;
Şikayət Konvensiyanın müddəalarına uyğun deyil;
Şikayət aşkar surətdə əsassızdır və ya kifayət qədər əsaslandırılmayıb;
Şikayətdə hüquqlardan sui-istifadə halları vardır;
Şikayətdə göstərilən pozuntular iştirakçı dövlət tərəfindən protokolun ratifikasiyasından əvvəl baş vermişdir və bu pozuntular protokol qüvvəyə mindikdən sonra davam etməmişdir.

***Şikayətə baxılması***
Komitə ayrı-ayrı hallarda BMT-nin Baş Katibi vasitəsi ilə BMT-dən və ya digər orqanlardan məsələnin həllinə kömək edə biləcək istənilən zəruri sənədi xahiş edə bilər. Belə olan halda tərəflərə bu sənədlə bağlı şərhlərini təqdim etmək üçün əlavə vaxt verilir.

***Şikayətə baxıldıqdan sonra Komitənin tədbirləri***

Şikayətə baxıldıqdan sonra Komitə şikayətçiyə münasibətdə Konvensiyanın müddəasının və ya müddəalarının pozulması qənaətinə gəldikdə bununla bağlı qərar qəbul edir. Fakultativ Protokolun 7-ci maddəsinə uyğun olaraq iştirakçı dövlət 6 ay müddətində qərarla bağlı həyata keçirilən tədbirlərə dair Komitəyə yazılı məlumat təqdim etməlidir. Komitə həmçinin iştirakçı dövlətə əlavə məlumat verməyi ya ayrıca, ya da növbəti dövri hesabat təqdim edilərkən verməyi təklif edə bilər.

***Şikayət forması***
Şikayət formasını aşağıdakı linkdən əldə edə bilərsiz:
http://www.un.org/womenwatch/daw/cedaw/protocol/modelform-E.PDF

### 3.4.2.4. İrqi Ayrı-Seçkiliyin Ləğvi Komitəsinin Fərdi Şikayətlər Proseduru

İrqi Ayrı-Seçkiliyin Ləğvi Komitəsi (IALK) 18 müstəqil ekspertdən ibarətdir. BMT-nin İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğvi Üzrə Beynəlxalq Konvensiyanın nəzarət funksiyalarını həyata keçirən müqavilə orqanıdır.

Komitənin digər prosedurlarla (dövlətlərin dövri hesabatları, dövlətlərin dövlətlərə qarşı şikayət proseduru) yanaşı fərdi şikayətlər proseduru da vardır. Konvensiyanın 14-cü maddəsinə qoşulduğunu bəyan edən istənilən dövlətə qarşı fərdi şikayət təqdim edilə bilər. Beləliklə, irqi ayrı-seçkiliyin qurbanı olduqlarını iddia edən ayrı-ayrı şəxslər və ya şəxslər qrupu öz dövlətlərinə qarşı IALK-a şikayət verə bilərlər.

Konvensiya həmçinin nəzərdə tutur ki, sözügedən bəyanatı vermiş dövlətlər hüquqlarının pozulmasının qurbanı olduqlarını iddia edən və digər yerli hüquqi müdafiə vasitələrini tükəndirən ayrı-ayrı şəxslərdən və ya şəxslər qrupundan petisiyalar (şikayətlər) qəbul etmək səlahiyyətinə malik milli orqanları təsis edə və ya göstərə bilərlər. Şikayətçilər bu məsələni baxılmaq üçün yalnız o halda Komitəyə verə bilərlər ki, həmin orqanın hərəkətləri insanları qane etməsin.

İrqçiliyə və irqi ayrı-seçkiliyə qarşı mübarizəyə dair İkinci Ümumdünya Konfransı tərəfindən 1983-cü ildə qəbul edilən Fəaliyyət Proqramında belə şikayətlərə baxılması üzrə dövlətlərin milli prosedurlarından daha geniş istifadə imkanını təmin etmək dövlətlərə təklif olunur. Mövcud prosedurlar barədə ictimaiyyətə məlumat verilməli, irqi ayrı-seçkiliyin qurbanlarına isə belə prosedurlardan istifadə etməkdə yardım göstərilməlidir. Şikayət vermə qaydaları sadə olmalı, şikayətlər isə mümkün qədər tez qəbul edilməlidir. İrqi ayrı-seçkiliyin aztəminatlı qurbanlarına mülki və ya cinayət mühakimə icraatı çərçivəsində hüquqi yardım göstərilməli və vurulan ziyana görə kompensasiya tələb etmək hüququ nəzərdə tutulmalıdır.

Məlumatları və ərizə formasını bu linkdən əldə etmək olar:
http://www.ohchr.org/EN/HRBodies/CCPR/Pages/CCPRIndex.aspx

Bu səhifədəki "model complaint form" linkini basmaqla ərizə formasını (word formatda) yükləmək olar.

### 3.4.2.5. İşgəncə Əleyhinə Komitəyə fərdi şikayətlərin verilməsi

İşgəncə Əleyhinə Komitənin tərkibi 10 müstəqil ekspertdən ibarətdir. İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza əleyhinə Konvensiyanın nəzarət orqanıdır. Bir qayda olaraq, Komitə hər il iki növbəti sessiya keçirir. Lakin Komitənin qərarına əsasən, onun üzvlərinin çoxluğunun xahişi ilə, yaxud Konvensiyanın iştirakçısı olan dövlətlərdən birinin xahişi ilə xüsusi sessiyalar çağırıla bilər.
Komitənin iştirakçı dövlətlərdə araşdırma aparmaq, dövlətlərin dövri hesabatlarını qəbul etmək və baxmaq, dövlətlərarası şikayətlər proseduru ilə yanaşı həmçinin fərdi şikayətlər proseduru da vardır. Konvensiyanın 22-ci maddəsinə qoşulduğunu bəyan etmiş istənilən dövlətə qarşı fərdlər və ayrı-ayrı şəxslər tərəfindən Konvensiyada əks olunmuş hüquqların pozulması ehtimalı ilə şikayət verilə bilər.

*Ayrı-ayrı şəxslərin şikayətləri*

İnsan hüquqlarına dair digər beynəlxalq müqavilələr kimi, İşgəncələr əleyhinə Konvensiya da müəyyən hallarda Konvensiyanın bir və ya bir neçə müddəasının bu və ya digər iştirakçı dövlət tərəfindən pozulması haqqında məlumatlarla ayrı-ayrı şəxslərin Komitəyə müraciət etmək hüququnu nəzərdə tutur. Lakin Komitənin iştirakçı dövlətlər barəsində ayrı-ayrı şəxslərdən məlumatlar alması və onlara baxması üçün müvafiq dövlət onun bu səlahiyyətini aydın surətdə tanımalıdır.
Komitənin ayrı-ayrı şəxslərin şikayətlərinə baxdığı iclaslar həmişə qapalı keçirilir.

***Məlumatların təqdim edilməsi***

22-ci maddə üzrə Komitənin səlahiyyətini tanıyan bu və ya digər iştirakçı dövlət tərəfindən Konvensiyanın pozulmasının qurbanı olduğunu iddia edən və həmin dövlətin yurisdiksiyası altında olan istənilən şəxs məlumatı təqdim edə bilər. Əgər ehtimal edilən qurban məlumatı özü təqdim edə bilmirsə, onun adından valideynləri və ya nümayəndələri çıxış edi bilərlər.

Şikayət vermə qayda və prosedurları İnsan Hüquqları Komitəsi ilə uyğundur. Ərizə forması da eynidir. Ərizə formasını bu linkdən əldə etmək olar:
http://www.ohchr.org/EN/HRBodies/CCPR/Pages/CCPRIndex.aspx

Bu səhifədəki "model complaint form" linkini basmaqla ərizə formasını (word formatda) yükləmək olar.

**3.4.2.6. Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitəyə fərdi şikayətlərin verilməsi**

Əlilliyi Olan Şəxslərin Hüquqları üzrə Komitənin tərkibi 18 nəfər müstəqil ekspertdən ibarətdir. Komitə BMT-nin Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsinə dair Beynəlxalq Konvensiyanın nəzarət orqanıdır. Konvensiya iştirakçısı olan bütün dövlətlər Komitəyə ilk və dövrü hesabatlar təqdim etməlidirlər. Komitə Cenevrədə ildə adətən iki dəfə toplanır. Konvensiyaya əlavə olunan Fakultativ Protokola əsasən Komitəyə ayrı-ayrı şəxslər tərəfindən fərdi şikayətlər verilə bilər. Fakultativ Protokolun 2-ci maddəsində şikayətin məqbul hesab edilməsi üçün şərtlər nəzərdə tutulur. Bu şərtlər digər Komitələrə fərdi şikayətlərin verilməsi şərtlərinə uyğundur.
Şikayətin verilmə qaydaları ilə bağlı daha geniş məlumatı BMT İnsan Hüquqları üzrə Ali Komissarının rəsmi veb səhifəsindən əldə etmək olar.
http://www.ohchr.org/EN/HRBodies/CRPD/Pages/CRPDIndex.aspx

**3.4.2.7. Bütün Şəxslərin Məcburi İtmələrdən (Zorakı Yoxaçıxma) Müdafiəsi üzrə Komitəyə fərdi şikayətlərin verilməsi**

Bütün Şəxslərin Məcburi İtmələrdən Müdafiəsi üzrə Komitə Bütün Şəxslərin Məcburi İtmələrdən Müdafiəsinə dair Beynəlxalq Konvensiyanın nəzarət

orqanıdır. Komitələr içərisində ən yenisidir. Hazırda tərkibi 10 ekspertdən ibarətdir. Konvensiyanın 31-ci maddəsinə qoşulduğunu bəyan etmiş istənilən dövlətə qarşı Konvensiyada əks olunan hüquqların pozulması ehtimalı ilə bağlı fərdi şikayətlər verilə bilər.

Verilən şikayətlər aşağıdakı hallarda qəbuledilməyən hesab olunur:

- Dövlət Konvensiyanın 31-ci maddəsinə qoşulduğunu bəyan etməmişdirsə;
- Verilən şikayət anonimdirsə;
- Hüquqlardan sui-istifadə halları vardırsa və Konvensiyanın müddəaları ilə uyğun deyildirsə;
- Analoji şikayətə başqa beynəlxalq qurum tərəfindən baxılmışdırsa və ya baxılma prosesindədirsə;
- Ölkə daxili müdafiə mexanizmləri tükənməmişdirsə. Bu hal üzrə istisna da vardır. Belə ki, ölkə daxili mexanizmlərdən istifadə zamanı əsaslandırılmamış ləngimələr və süründürməçilik varsa onda milli müdafiə mexanizmləri tükənmədən verilən şikayət məqbul hesab oluna bilər.

Şikayət proseduru və qaydalarına dair daha geniş məlumatı BMT İnsan hüquqları üzrə Ali Baş Komissarının rəsmi veb səhifəsindən əldə etmək olar.

http://www.ohchr.org/EN/HRBodies/CED/Pages/CEDIndex.aspx

Bu səhifəyə daxil olaraq "**Rules of procedure**" linkində müvafiq dili seçməklə fərdi şikayət qaydaları və prosedurları ilə tanış olmaq mümkündür.

### 3.4.2.8. Digər komitələrə fərdi şikayətlərin verilməsi

İşçi Miqrantlar və Onların Ailələrinin Hüquqlarının Müdafiəsi üzrə Komitəyə və Uşaq Hüquqları Komitəsinə fərdi şikayətlər proseduru hələ fəaliyyət göstərmir. İşçi Miqrantlar və Onların Ailə Üzvlərinin Müdafiəsinə dair Konvensiyanın 77-ci maddəsinə qoşulmaq barədə 10 dövlət bəyanat verdikdən sonra fərdi şikayətlər proseduru fəaliyyətə başlayacaq. Uşaq Hüquqları Komitəsinə fərdi şikayətlərin verilməsi proseduru Konvensiyaya əlavə olunan müvafiq Protokol 10 dövlətin ratifikasiyasından sonra qüvvəyə minəcək və bundan sonra Komitəyə fərdi şikayətlərin verilməsi mümkün olacaqdır.

### 3.5. Şikayəti kimlər verə bilər?

Bütün Komitələrə şikayətləri aşağıdakı şəxslər və ya şəxslər qrupu verə bilər: Nəzarət mexanizmi və fərdi şikayət proseduru olan istənilən Komitəyə istənilən şəxs və ya şəxslər qrupu şikayət (məlumat) təqdim edə bilər.

Əgər:

- Dövlət müvafiq Paktı və ya Konvensiyanı ratifikasiya etmişdirsə və həmin sənədlərdəki hüquq və azadlıqların təmin olunmasına zəmanət vermişdirsə;
- Haqqında şikayət verilən dövlət Fərdi Şikayətlər Proseduruna qoşulmaqla bağlı müvafiq Fakultativ Protokolu ratifikasiya edibsə və ya Konvensiyanın müvafiq maddəsində Fərdi Şikayətə verilməsi ilə bağlı müddəaya qoşulduğunu bəyan edibsə.

**Şikayətlər hansı ünvana göndərilməlidir?**

**BMT Komitələrinə şikayətlər aşağıdakı ünvana göndərilməlidir:**

**Petitions Team**
**Office of the United Nations High Commissioner**
**for Human Rights**
**Palais des Nations**
**8–14, avenue de la Paix**
**CH-1211 Geneva 10**
**Switzerland**

**Faksla: + 41 22 9179022 (particularly for urgent matters)**
**E-malillə: petitions@ohchr.org**

Şikayəti qurbanın adından üçüncü şəxslər də verə bilər, bir şərtlə ki, bu barədə ehtimal edilən qurbanın yazılı razılığı olsun. İstisna hallarda üçüncü tərəf güman olunan qurbanın adından onun yazılı razılığı olmadan da şikayət təqdim edə bilər. Bu zaman o sübut etməyə borcludur ki, həmin ehtimal olunan qurbanın belə razılığı vermək imkanı yoxdur.[10]

### 3.6. Dövlətlərarası şikayət

BMT-nin nəzarət mexanizmləri olan beynəlxalq müqavilələrdən elələri var ki, dövlətin (dövlətlərin) beynəlxalq müqavilənin iştirakçısı olan dövlətə qarşı şikayət verməsinə imkan verir. Şikayət müvafiq beynəlxalq müqavilənin nəzarət orqanı olan müvafiq Komitəyə verilir. Bunun üçün iştirakçı dövlətin beynəlxalq müqavilədə nəzərdə tutulan müddəanı qəbul etməsinə dair bəyanat verməsi tələb olunur.

İşgəncələr Əleyhinə Komitə (Konvensiyanın 21-ci maddəsi), İşçi Miqrantların və onların Ailə üzvlərinin Hüquqlarının Müdafiəsi üzrə Komitə (Konvensiyanın 74-cü maddəsi), Məcburi İtmələr üzrə Komitənin (Konvensiyanın 32-ci maddəsi), İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin (Pakta əlavə olunan

[10] Bəzən ehtimal olunan qurban özünün şikayət vermək imkanı olmur və ona başqasına onun adından şikayət vermək üçün yazılı razılıq verməsinə imkan verilmir. Məsələn ehtimal olunan qurbanın həbsdə olması və onunla xarici aləmlə əlaqəyə imkan verilməməsi, ehtimal olunan qurbanın məcburən yoxa çıxması və s.

Fakultativ Protokola əsasən), Uşaq Hüquqları Komitəsinin (Konvensiyaya əlavə olunan məlumatların verilməsinə dair Fakultativ Protokola [11] əsasən) belə şikayətlərə baxmaq səlahiyyəti var.

Şikayət iştirakçı dövlətin müvafiq beynəlxalq müqavilədə əks olunan müddəanı (müddəaları) yerinə yetirməməsi ilə bağlı ola bilər.

İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğvinə dair Konvensiya və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt dövlətlər arasında konvensiyanın/paktın müddəalarının yerinə yetirməməsi ilə bağlı mübahisələrin həlli prosedurunu müəyyən edir. Bu məqsədlə müvafiq Komitə barışdırıcı Komissiya təsis edir və bu Komissiya ona verilən mandat çərçivəsində mübahisənin həllində iştirak edir. İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləgvinə dair Konvensiyada bu prosedura bütün iştirakçı dövlətlərə, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda isə yalnız bəyanat verərək bu proseduru tanıyan dövlətlərə şamil olunur.

i **Bu prosedurdan indiyədək istifadə edilməmişdir**

## 3.7. Təhqiqat

Müvafiq Beynəlxalq Müqavilənin ciddi, kobud və sistemli olaraq pozulması ilə bağlı etibarlı məlumatlar daxil olduqda müvafiq Komitələr öz təşəbbüsləri ilə həmin dövlətdə təhqiqatlar apara bilərlər. Əgər müvafiq Komitə iştirakçı dövlətdə Konvensiyanın/paktın ciddi, kobud və sistemli pozulması ilə bağlı etibarlı informasiyaya malikdirsə və həmin dövlət müvafiq Komitənin bununla bağlı səlahiyyətini tanımasına aid fakultativ Protokolu ratifikasiya edibsə və ya Beynəlxalq Müqavilənin müvafiq maddəsinə qoşulmağa dair bəyanat veribsə İşgəncələr Əleyhinə Komitə (Konvensiyanın 20-ci maddəsinə əsasən), Qadınlara Münasibətdə Ayrı-Seçkiliyin Ləğvi Komitəsi (Konvensiyaya əlavə olunan Fakultativ Protokolun 8-ci maddəsinə əsasən), Əlilliyi Olan Şəxslərin Hüquqlarının Müdafiəsi üzrə Komitə (Konvensiyaya əlavə olunan Fakultativ Protokolun 6-cı maddəsinə əsasən), Məcburi İtmələr üzrə Komitə (Konvensiyanın 33-cü maddəsinə əsasən), İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə (Pakta əlavə olunan Fakultativ Protokolun 11-ci maddəsinə əsasən), Uşaq Hüquqları üzrə Komitə (məlumatların verilmə proseduru ilə bağlı Fakultativ Protokolun[12] 13-cü maddəsinə əsasən) belə təhqiqatlar apara bilərlər.

### *Təhqiqat Proseduru*

- Komitəyə iştirakçı dövlətdə Konvensiyanın və ya Paktın ciddi, kobud və sistematik pozulmasına dair etibarlı məlumat daxil olmuşdursa, onda Komitə tərəfindən belə təşəbbüs ola bilər;

[11] Qüvvəyə minməyib.
[12] Qüvvəyə minməyib

- Komitə iştirakçı dövləti iradlar təqdim etmək yolu ilə məlumatın öyrənilməsi istiqamətində əməkdaşlıq etməyə dəvət edə bilər;
- Dövlətin iradlara verdiyi cavablara və digər etibarlı məlumatlara əsaslanaraq Komitə bir və ya bir neçə üzvünü Komitəyə məruzə hazırlamaq məqsədi ilə təhqiqat aparmaq üçün təyin edə bilər. Bu zaman dövlətin razılığı olduqda və zəruri hallarda dövlətin ərazisinə səfərlər də təşkil edilə bilər;
- Komitə təhqiqatın nəticələrini öz tövsiyə və şərhləri ilə birgə iştirakçı dövlətə göndərir;
- Komitə tələb etdiyi hallarda, müəyyən olunmuş müddət ərzində (adətən altı ay ərzində) iştirakçı dövlət təhqiqatın nəticələri, tövsiyə və şərhlərlə bağlı Komitəyə öz qeydlərini təqdim etməlidir;
- Prosedur konfidensial xarakter daşıyır və bütün mərhələlərdə iştirakçı dövlətlə əməkdaşlıq tələb olunur.

## IV. MƏLUMAT VƏ HESABATLARIN HAZIRLANMASI ÜÇÜN MƏLUMATLARIN TOPLANMASI

### 4.1. Məlumatları necə toplamalı

Hesabatın hazırlanması üçün zəruri olan məlumatların toplanılması üçün qanunvericilik, məhkəmə, iqtisadi, sosial, siyasi, mədəni və s. sahələrdə həyata keçirilən fəaliyyətlərin, o cümlədən Komitənin yekun mülahizələrinin yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlərin monitorinqin keçirilməsidir.
**İnsan hüquqlarının monitorinqi**-qarşıya qoyulan məqsədə qeyri-zorakı yolla dəyişikliyə nail olmaq məqsədi ilə müəyyən edilmiş sahə üzrə ictimai reallığın planlaşdırılmış, sistemləşdirilmiş və qəbul olunmuş sxem əsasında tədqiq olunmasıdır (İnsan Hüquqları üzrə Helsinki Fondunun tərifi)
**Monitorinq həmçinin**
♦ müşahidə sistemi, qiymətləndirmə və analizdir;
♦ təsirlərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlərin nəticələrinin qiymətləndirilməsi üçün alətdir;
♦ vətəndaş cəmiyyətinin təsirlərin qeydə alınması və aradan qaldırılması prosesində iştirakı formasıdır və s.

### 4.2. Monitorinq necə həyata keçirilir?

- Fasiləsiz həyata keçirilir;
- Əldə olunan məlumatlar dəyişiklik edilmədən qeydə alınır
- Planlaşdırılan fəaliyyətlə faktiki fəaliyyət müqayisə olunur
- Əldə olunan informasiya əsasında yekun rəy (hesabat) hazırlanır
- Nəticələrə uyğun olaraq strategiya müəyyənləşdirilir
- Müxtəlif fəaliyyətlər həyata keçirilir (hüquqi, ictimai, maarifləndirici və s.)

### 4.3. Monitorinq mərhələləri

#### 4.3.1. Hazırlıq mərhələsi

- İşçi qrupunun formalaşdırılması
- Sosial əhəmiyyətli proqramın seçilməsi, ictimai monitorinqin keçirilməsi üçün vəzifələrin müəyyənləşdirilməsi

- Monitorinqin büdcəsinin və tədbirlərin plan-qrafikinin hazırlanması
- Monitorinq obyektlərinin müəyyənləşdirilməsi
- Ekspert analitiklərin müəyyənləşdirilməsi
- Layihə iştirakçılarının müəyyənləşdirilməsi
- Ekspertlər üçün texniki tapşırıqların hazırlanması

**4.3.2. Monitorinq üçün işin təşkili mərhələsi**

- Monitorinq subyektləri ilə kommunikasiyanın qurulması
- Ekspert-analitiklərə texniki tapşırıqların təqdim olunması
- Analitik tədqiqatların təşkili:

-məlumatların toplanması
-göstəricilərin analizi
-faktiki və planlaşdırılan göstəricilərin tutuşdurulması
-analitik qeydlərin aparılması (nəticələr, qənaətlər, tövsiyələr)

- Sorğuların keçirilməsi

-respondentlərin müəyyənləşdirilməsi
-sorğunun təşkili
-nəticələrin işlənilməsi

**4.3.3.Yekun mərhələ**

- Nəticələrdən istifadə strategiyasının müəyyən olunması;
- Yekun nəticələrin yayılması (nəşri, göndərilməsi və s.)
- Monitorinqin nəticələrinin və tövsiyələrin ictimai müzakirəsinin təşkili
- Şəffaflığın təmin olunması (yaxud başqa) üçün fəaliyyətlərin təşkili

-hüquqi fəaliyyət
-ictimai fəaliyyət
-maarifləndirici fəaliyyət
-lobbiçilik fəaliyyəti

- Layihə üzrə yekun hesabatın hazırlanması.

## 4.4. Monitorinq texnologiyası

Yuxarıda qeyd olunduğu kimi monitorinq elə həyata keçirilməlidir ki, sonradan tərəflər onun nəticələrini şübhə altına ala bilməsinlər. Bu baxımdan monitorinq prosesində metodların və alətlərin düzgün müəyyənləşdirilməsi mühüm amildir. Hər bir monitorinq üçün fərqli metod və alətlər tətbiq oluna bilər. Lakin bütün monitorinqlər üçün aşağıdakı metodlar tətbiq oluna bilər.

**Metodlar və alətlər**

- Statistik analiz
- Hüquqi analiz
- Sorğu
- Müsahibə (intervü)

- Foks-qruplar və s.

| MƏNBƏLƏR | TEXNİKA | ALƏTLƏR |
|---|---|---|
| **A) Yazılı mənbələr** | | |
| Normativ aktlar | Normativ aktların analizi | Monitorinq konsepsiyasının sxemi<br><br>Tədqiqat üçün suallar |
| Müəssisənin daxili sənədləri | Müəssisənin daxili sənədlərinin<br><br>Analizi | Analiz üçün sorğu vərəqi |
| | Məhkəmə və ya inzibati işlərin tədqiqi | Məhkəmə və inzibati işlərin tədqiqi üçün sorğu vərəqi |
| Təşkilat tərəfindən təqdim olunmuş göstəricilərin xülasəsi | Statistik göstəriciləri təkrar analizi | Monitorinq konsepsiyasının sxemi. Tədqiqat üçün suallar |
| Yazışmalar<br><br>Şikayətlər | Şikayətlərin analizi | ------------ |
| KIV | KIV-in analizi | Tədqiqat üçün suallar |
| **B) Personal mənbələr** | | |
| **Müəssisədə:** Rəhbərlik, işçilər, müştərilər, onların ailələri, müəssisə ilə bağlı başqa şəxslər | Strukturlaşmamış müsahibələr | ----------------------------------- |
| | Foks-qruplar | Diskussiyanın sxemi |
| | İstiqamətlənmiş müsahibələr | Müsahibə üçün göstəricilərin siyahısı |
| **İctimai qruplar:** Təşkilat liderləri, nüfuz sahibləri, qrup üzvləri, məmurlar, qruplarla iş birliyində olan vəzifəli şəxslər, jurnalistlər, qruplara daxil olmayan şəxslər | Sorğu vərəqi əsasında müsahibə (intervyü) | Sorğu vərəqi |
| | Anketləşmə | Anket |

<table>
<tr><td>C) Bilavasitə mənbələr-müşahidə və ölçülər</td><td></td><td></td></tr>
<tr><td rowspan="5">Mövzu üzrə informasiya<br><br>İnsanların (necədirlər, özlərini necə aparırlar) davranışı.<br><br>Obyektlər<br><br>Əşyalar<br><br>Hadisələr</td><td>Daxil olmaqla (qrupa daxil olmaqla) müşahidə</td><td rowspan="2">Müşahidə vərəqi</td></tr>
<tr><td>Daxil olmadan müşahidə (aşkar və ya gizli)</td></tr>
<tr><td>Eksperiment</td><td>Eksperimentin ssenarisi</td></tr>
<tr><td>Fiziki ölçü</td><td>Konkret rəqəmlərə aid sualların siyahısı</td></tr>
<tr><td>İzləmə texnikası</td><td>----------------------</td></tr>
</table>

# Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Mexanizmləri

## Təlimçilər üçün Yardımçı Vəsait

## 2015

**Aydın Səfixanlı**

**MÜNDƏRİCAT**


I. **BMT insan hüquqlarının müdafiəsi sistemi barədə məlumat......**

II. **BMT insan hüquqlarının müdafiə sistemi barədə təlim proqramının modulları..............................................................**

# I. BMT İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ SİSTEMİ BARƏDƏ MƏLUMAT

İnsan hüquqlarının qloballaşması daha ümumi qanunauyğunluğu – ayrı-ayrı insanların, qrupların və ictimaiyyətin qarşılıqlı fəaliyyətinin insanların hüquq və azadlıqları əsasında həyata keçirildiyi vahid hüquqi məkanın yaradılmasına gətirib çıxaran ümumdünya qloballaşmasını əks etdirir. İnsanların qarşılıqlı fəaliyyətini koordinasiya edərək insan hüquqları əvəzolunmaz bir xüsusiyyətə malik olur: onlar nəinki dövlət hakimiyyətini məhdudlaşdırır, həmçinin onu qanuna tabe etdirir. İnsan hüquqlarının təmin olunması tələbi insanlarla dövlətin qarşılıqlı münasibətlərinin təbiətindən irəli gəlir, siyasi, hüquqi və sosial tərəqqinin əsas şərti hesab olunur.

Müasir dövrdə insan hüquqları yalnız müxtəlif növ sivilizasiyalar və mədəniyyətlər, azadlıq və bərabərlik arasında ziddiyyətlərin aradan qaldırılmasına və qlobal məsələlərin həllinə yönəldilməməlidir. İnsan hüquqları müasir dünyanın sabit inkişafını təmin etməyə yönəldilməlidir.

İnsan hüquqları insanların sosial fəaliyyəti, onların ictimai münasibətləri, fərdin həyat şəraiti ilə üzvi surətdə bağlıdır. Yaşamaq hüququ, ləyaqət, şəxsiyyətin toxunulmazlığı, vicdan, fikir, əqidə azadlığı, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ, işgəncələrə məruz qalmamaq hüququ və bununla bağlı digər hüquqlar sivil cəmiyyətdə insan həyatının qurulmasının zəruri şərtidir və bu hüquqlar dövlət tərəfindən sözsüz tanınmalı və müdafiə olunmalıdır.

İnsan hüquqlarının rəsmiləşdirilməsi sahəsində ilk cəhdlərlə XIII əsrdə rastlaşmaq olar. Məsələn, İngiltərənin 1215-ci il «Böyük Azadlıqlar Xartiyası»nda, 1689-cu il «Hüquqlar haqqında Bill»də, ABŞ-da qəbul olunmuş 1776-cı il «İstiqlaliyyət Bəyannaməsi»ndə, 1791-ci il «Hüquqlar haqqında Bill»də, 1789-cu ildə Fransada elan edilmiş «İnsan və vətəndaş hüquqları haqqında Bəyannamə»də insan hüquqları rəsmi ifadəsini tapmışdır. XIX əsrdən insan hüquqları dövlətlərin konstitusiyalarında təsbit edilməyə başlandı və indi demək olar ki, bütün dövlətlərin konstitusiyaları insan hüquqları və onların təminatlarını nəzərdə tutur[13].

İnsan hüquqları ayrılmazdır. Heç kəs insanı təbii hüquqlarından – yaşamaq, şəxsi toxunulmazlıq, özünün həyat fəaliyyətini azad seçmək, vicdan, fikir, əqidə azadlığı və sair hüquqlardan məhrum edə bilməz. Müasir həyatı azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və universal xarakter daşıyan insan hüquqları olmadan təsəvvür etmək mümkün deyil. İnsan hüquqları təkcə dövləti, hüququ, qanunu, qanunçuluğu, hüquq qaydasını deyil, həm də vətəndaş cəmiyyətinin qiymətləndirilməsi kriteriyası kimi qəbul edilir. Çünki hüquqi dövlətin inkişafı, yetkinliyi xeyli dərəcədə insan hüquqlarının vəziyyəti, bu hüquqların həcmi və həyata keçirilməsindən asılıdır. Ona görə də insan hüquqları fərdə təkcə dövlətin idarə olunmasında iştirak etmək imkanı vermir, həm də

[13] İnsan Hüquqları: mühazirələr toplusu. Bakı-2013. E.Süleymanova, Z.Əliyev.

dövlətdən aralanmaq, şəxsi həyat sahəsində özünütəyinetməni, əqidəsini, mülkiyyətə münasibətini müəyyənləşdirmək imkanı verir. Dövlətin vətəndaş cəmiyyətini tam əhatə etməsi, həyatın bütün sahələrinin dövlətləşdirilməsi, yalnız insan hüquqlarının mövcud olmadığı və ya deklarativ xarakter daşıdığı dövlətdə mümkündür.

Müasir dövrdə əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir.

Dünya birliyinin bərabər hüquqlu üzvü olan Azərbaycanda insan hüquqlarının təmini dövlətin əsas prioritet məqsədləri sırasına daxildir. Mütərəqqi haldır ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğu tarixində ilk dəfə olaraq insan hüquqlarının təbii xarakter daşımasını özündə əks etdirmişdir. Belə ki, əsas Qanunumuza müvafiq olaraq, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır və bu hüquqların da reallaşdırılmasında keyfiyyətli hüquq təhsilinin mühüm rolu şübhəsizdir.

Əhalinin hüquqi baxımdan maarifləndirilməsi demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşdırılmasının mühüm cəhətlərindən olmaqla yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsini daha səmərəli təmin etmək baxımından da böyük əhəmiyyət daşıyır.

Məhz həyata keçirilən hüquqi maarifləndirmə tədbirləri insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi məqsədilə dövlət tərəfindən gerçəkləşdirilən səmərəli fəaliyyətin tərkib hissəsi kimi çıxış edir. Bir çox hallarda insan hüquqlarının pozulması bilavasitə məlumatsızlıqdan irəli gəlir.

Qloballaşmaqda olan dünyada ümumi problemlərin mövcudluğu, iqtisadi münasibətlərin inkişafı dövlətləri daha tez-tez, sıx əlaqədə olmağa sövq edir. 1991-ci il 18 oktyabr tarixində müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunu seçərək dünya birliyinə sürətlə inteqrasiya etməyə başladı. Qısa müddət ərzində Azərbaycan Respublikası dünya birliyinin tam bərabərhüquqlu üzvü oldu. 1992-ci ilin martın 2-dən BMT-nin, 2001-ci ilin yanvarın 25-dən isə Avropa Şurasının üzvü olmuş Azərbaycan 250-dən artıq beynəlxalq müqavilənin iştirakçısıdır ki, bunların da təxminən yarısı bilavasitə və ya dolayısı ilə insan hüquq və azadlıqları ilə bağlıdır.

Bu gün digər dövlətlərdən təcrid olunmuş və yalnız öz daxili imkanları hesabına hər hansı bir dövlətin yaşaması mümkün deyil. Beynəlxalq inteqrasiya geniş miqyaslı proses olmaqla yanaşı, müxtəlif sahələrdə fərqli şəkildə təzahür edir.

Azərbaycan Respublikası 1992-ci ilin 2 mart tarixində BMT-nin üzvlüyünə qəbul edildikdən sonra elə həmin il mayın 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. Azərbaycan Respublikası BMT-nin üzvü olduqdan sonra bu qurumla hərtərəfli əməkdaşlıq edir və BMT strukturlarında fəal surətdə təmsil olunur.

Azərbaycan Respublikası 2006-cı ildən İnsan Hüquqları Komissiyasının əvəzinə təsis olunan İnsan Hüquqları Şurasının ilk üzvləri sırasında olmuşdur. Azərbaycan Respublikası həmçinin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir.

Azərbaycan Respublikası həmçinin BMT tərəfindən qəbul olunmuş bir sıra beynəlxalq müqavilələrin iştirakçısıdır. Bu müqavilələr içərisində insan hüquq və azadlıqlarına dair beynəlxalq müqavilələr də vardır. Azərbaycan Respublikası BMT-nin nəzarət mexanizmləri olan doqquz beynəlxalq müqaviləsindən 8-ni ratifikasiya etmiş, birini isə imzalamışdır. Azərbaycan Respublikası həmçinin bu müqavilələrə əlavə olunan Fakultativ Protokolların və ya beynəlxalq müqavilələrdə nəzərdə tutulan xüsusi prosedurların əksəriyyətini tanıyır və onlara qoşulmuşdur.

12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında da həmçinin beynəlxalq hüquqla milli hüququn münasibətini müəyyən edən normalar təsbit olunmuşdur. Belə ki, Konstitusiyanın 7-ci, 10-cu və 12-ci maddələri, 95-ci maddəsinin 4-cü bəndi, 109-cu maddəsinin 17-cibəndi, 109-cumaddəsinin 30-cubəndi, 148-ci maddəsinin II hissəsi, 151-ci maddəsi və digər normaları beynəlxalq hüquqla bağlı müxtəlif məsələləri tənzim edir. Bunların içərisində mərkəzi yeri 10-cu, 148-ci (II hissəsi), 151-ci maddələri tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 10-cu maddəsi beynəlxalq münasibətlərin prinsiplərini müəyyən edir. Belə ki, həmin maddəyə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Konstitusiyanın 148-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir[14].

Məlum olduğu kimi "Müqavilə", "Konvensiya" və ya "Pakt" beynəlxalq hüquqi alətdir. Müqavilə, müqavilə tərəfdaşı olan dövlət üzərinə məcburi hüquqi

[14] Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların qanunvericilikdə təsbiti: Bakı-2003. Aydın Səfixanlı, Zaur Əliyev

öhdəliklər qoyur. Dövlət müqaviləni ratifikasiya etməklə müqavilə tərəfi ola bilər, yəni dövlət könüllü olaraq müvafiq müqavilə üzrə şərtləri qəbul edəcəyinə qərar verir. Dövlət müqavilə tərəfi olduğu halda, beynəlxalq hüququn tələblərinə uyğun olaraq müvafiq müqavilə şərtlərinə əməl etmək və ondan irəli gələn öhdəlikləri icra etməyi öz üzərinə götürür. Buda o deməkdir ki, dövlətin milli qanunvericiliyi müqavilə şərtlərinə uyğunlaşdırılmalıdır və heç bir halda onunla ziddiyyət təşkil etməməlidir. Bəzi hallarda dövlət ratifikasiya etdiyi müqavilənin bəzi maddələri üzrə qeyd-şərt götürməyini bəyan edə bilər. Əgər müəyyən maddə üzrə qeyd-şərt qəbul edilərsə bu zaman dövlətin artıq müəyyən edilmiş hal üzrə öhdəliyi yerinə yetirməməsi kimi hesab edilmir. Əgər qeyd–şərt müvafiq müqavilənin məğzi ilə ziddiyyət təşkil etdiyi müəyyən edilərsə, bu zaman qeyd-şərt qəbuledilməz hesab edilir və dövlət həmin müəyyən maddə üzrə də öhdəliyə riayət etməlidir. Bəzi beynəlxalq insan hüquqları üzrə müqavilələr onlara edilən əlavə protokollar vasitəsilə genişləndirilir, hansı ki, müəyyən sahə üzrə müdafiənin gücləndirilməsi, və ya gələcək monitorinq və fərdi müraciətlərin qəbul edilməsinə imkan yaradacaq əlavə prosedurаları özündə əks etdirir[15].

Əlavə protokollara da qoşulmaq üçün dövlət onları da müqavilə və konvensiyaları ratifikasiya etdiyi qaydada ayrı-ayrılıqda ratifikasiya etməlidir.

**İnsan hüquqları sahəsindəki mövcud beynəlxalq müqavilələri bir neçə kateqoriyaya ayırmaq olar:**

1. İnsan hüquqları sahəsində əsas baza prinsiplərini özündə əks etdirən beynəlxalq müqavilələr, bəyannamələr və digər beynəlxalq hüquq normaları. Məsələn, BMT Nizamnaməsi, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, BMT Nizamnaməsinə müvafiq olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamə, 1975-ci il tarixli ATƏM-in (indiki ATƏT) Helsinki Yekun Aktı və s.

2. İnsan hüquqları sahəsində ümumi beynəlxalq müqavilələr. Bu müqavilələrdə, demək olar ki, bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunur. Bu müqavilələr həm universal, həm də regional səviyyədə mövcuddur. Universal müqavilələrə İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktı və Vətəndaş və siyasi hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktı aiddir. Ümumi regional müqavilələrə misal kimi Avropa İnsan Hüquqları Konvensiyası, Amerika İnsan Hüquqları Konvensiyası, İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası və s. göstərmək olar.

3. Xüsusi universal və regional müqavilələr. Bu müqavilələr konkret insan hüquqlarının müdafiəsinə yönəlmişdir. Bu növ müqavilələrə Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası, Köləliyin, qul ticarətinin və köləliyə oxşar institut və adətlərin ləğv edilməsi haqqında 1956-cı il Konvensiyası, İşgəncə və digər qəddar, qeyri-insani və ya

[15] Müqavilə qurumlarına dair sadə bələdçi. Bakı-2009.

ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə 1984-cü il Konvensiyası, İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınmasına dair 1987-ci il Avropa Konvensiyası, İşgəncənin qarşısının alınması və cəzalandırılmasına dair 1985-ci il Amerika Konvensiyası və s. aid etmək olar.

4. Ayrı-ayrı əhali qruplarının hüquqlarının müdafiəsinə yönəlmiş müqavilələr. Qadınların siyasi hüquqları haqqında 1952-ci il Konvensiyası, Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası, Bütün miqrant-işçilərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Konvensiyası, Miqrant işçilərin hüquqi statusu haqqında 1977-ci il Avropa Konvensiyası, Milli azlıqların müdafiəsinə dair 1995-ci il Çərçivə Konvensiyası, Əlillərin hüquqları haqqında 2006-cı il Konvensiyası və s.

5. Ayrı-seçkiliyin qadağan olunmasına dair müqavilələr. Bu müqavilələr irqi və ya cinsi əsaslara görə, təhsil, işədüzəlmə və s. sahələrdə ayrı-seçkiliyin qarşısını almaq məqsədi daşıyır. Məsələn, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Konvensiyası, Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Konvensiyası, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyası, Təhsil sahəsində ayrı-seçkilik əleyhinə 1960-cı il YUNESKO Konvensiyası və s.

6. İnsan hüquqları sahəsində tövsiyə xarakterli normalar. Məsələn, Xalqların sülh hüququ haqqında 1984-cü il Bəyannaməsi, İnkişafa olan hüquq haqqında 1986-cı il Bəyannaməsi, Yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin 1985-ci il tarixli Minimal standart qaydaları, Milli, etnik, dil və dini azlıqlara mənsub olan şəxslərin hüquqları haqqında 1992-ci il Bəyannaməsi və s[16].

İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə qurumlarının əhəmiyyətli rolu vardır. Universal səviyyədə insan hüquqlarına dair beynəlxalq normaların implementasiyası üzərində beynəlxalq nəzarəti BMT-nin konvension orqanları (müqavilə qurumları) yerinə yetirir.

Hazırda bu qurumların sayı doqquzdur:

1. İrqi Ayri-Seçkiliyin Ləğvi üzrə Komitə;
2. İnsan Hüquqlari Komitəsi;
3. Qadınlara qarşı Ayri-Seçkiliyin Ləğvi üzrə Komitə;
4. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə;
5. İşgəncə Əleyhinə Komitə;
6. Uşaq Hüquqları Komitəsi;
7. Bütün İşçi Miqrantların və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi üzə Komitə;
8. Əlillərin Hüquqları üzrə Komitə;

[16] İnsan Hüquqları: mühazirələr toplusu. Bakı-2013. E.Süleymanova, Z.Əliyev.

9. Zorakılıqla Yoxaçıxarmaya Qarşı Komitə.

**Müqavilə qurumlarının mandatı**

Müqavilə qurumları dövlətləri beynəlxalq insan hüquqları müqavilələri qarşısında üzərlərinə götürdükləri beynəlxalq öhdəlikləri yerinə yetirmək və icra etmələrinə nəzarət etmək və həvəsləndirmək məqsədilə yaradılmışdır.

Müqavilə qurumları müstəqil ekspertlərdən ibarət olan beynəlxalq komitələrdir və bunlar iştirakçı dövlətlərin insan hüquqları müqavilələrinin hər birinin və onlara əlavə protokolların icrasına nəzarət edirlər. Hər bir beynəlxalq müqavilə üzrə nəzarət onun öz komitəsi tərəfindən aparılır.

**Müqavilə qurumlarının tərkibi**

Müqavilə qurumları üzvləri insan hüquqları sahəsində tanınmış, səriştəli müstəqil ekspertlərdir, və müvafiq müqavilədə şərtləndirildiyi kimi "yüksək əxlaqi dəyərlərə" malik, yaxud "qərəzsiz – bitərəf" olmalıdırlar.

Müqavilə qurumlarının qeyri siyasi, yaxud BMT İnsan Hüquqları Şurası və ya BMT Təhlükəsizlik Şurası kimi hökümətlərarası qurumlar kimi deyil müstəqil ekspertlər qurumu kimi fəaliyyət göstərməsi nəzərdə tutulur.

Onların müstəqilliyinin tam qorunması üçün meyarlar müəyyən edilmişdir, məsələn CERD müəyyən etmişdir ki, onun üzvləri öz razılıqları olmadan işdən buraxıla və ya əvəzlənə bilməzlər.

Hər bir müqavilə qurumunun üzvlərinin sayı 10 – 23 arası dəyişir  Müqavilə qurumlarının üzvləri 4 il müddətində təyin edilir və ya seçilir.

Komitələrə üzvlüklə bağlı seçkilər hər iki ildən bir keçirilir. Burada komitə üzvlərinin yenidən seçimi ilə bağlı məhdudiyyət yoxdur, yalnız İşgəncələr Əleyhinə Alt Komitə (SPT) istisna olmaqla, buraya yalnız yenidən təyinolunma ola bilər.

**Müqavilə qurumlarının işinin təşkili**

Müqavilə Qurumları dövlətlərin müqavilələrə dair götürdükləri öhdəliklərin icrasına nəzarət funksiyalarını həyata keçirmək üçün bir neçə fəaliyyət üzrə səlahiyyətləndirilmişlər:

***Bütün Müqavilə Qurumları (SPT-dən başqa):***

- Dövlət tərəfindən təqdim edilmiş hesabatları qəbul edə və nəzərdən keçirə bilər;

- Dövlət tərəfinə öhdəliklərin yerinə yetirilməsində yardım etmək məqsədilə yekun şərhlər/tövsiyələr təqdim edə bilər;

- Müvafiq müqavilə üzrə həm mahiyyət, həm də prosedur şərtlərinin tövsifinə dair əsas şərhlər/tövsiyələr hazırlaya bilər;

***Bəzi Müqavilə Qurumları əlavə funksiyalar da həyata keçirmək üçün səlahiyyətləndirilə bilərlər. Məsələn:***

-Fərdi müraciətləri nəzərdən keçirmək;

-Dövlətlərarası şikayətləri nəzərdən keçirmək;

- Sorğular təşkil etmək və ya təşəbbüs göstərmək;

-Ölkələrə səfərlər vasitəsilə tədqiqatlar(araşdırmalar) təşkil etmək.

**Fərdi müraciətlərin nəzərdən keçirilməsinə dair prosedurlar**

Komitə fərdi müraciəti qəbul edir və onun qəbulolunma meyarlarına cavab verib vermədiyini yoxlayır. Əgər şikayət qəbulolunan hesab edilirsə, komitə şikayəti tərəfdar dövlətə göndərir və şikayətə dair açıqlama/dövlətin cavabını gözləyir. Əgər şikayət qəbulolunan deyilsə, bu zaman tərəfdar Dövlətə və iddiaçıya bu barədə bildiriş verir və proses burada başa çatmış olur. Komitələrə apelyasiya şikayəti vermək mümkün deyil.

Əgər komitə şikayəti qəbulolunan hesab edirsə, o zaman komitə işin mahiyyəti üzrə qapalı iclasda baxış keçirir.

Əgər komitə müvafiq konvensiyanın hər hansı bir maddəsi üzrə iddiaçının hüquqlarının pozulmasını qeyd edirsə, o zaman bu barədə məlumatı Dövlətə göndərir və üç ay ərzində komitənin qərarını yerinə yetirməyə çağırır.

Əgər komitə hüquq pozuntusu aşkar etmirsə bu barədə məlumat hər iki tərəfə həm tərəfdar Dövlətə və həm də iddiaçıya göndərilir və proses burada başa çatmış hesab olunur.

**Müraciətlərin məzmunu aşağıdakı qaydada olmalıdır:**

- Şikayətin əsaslandığı faktlar;

- İddiaçı barədə əsas şəxsi məlumatlar;

-Qurbanın razılığını təsdiq edən sənəd, əgər iddiaçı üçüncü tərəfdirsə;

- Aidiyyəti dövlətdə yerli müdafiə mexanizmlərinin keçilməsi üzrə atılmış addımlar;

-Digər beynəlxalq qurumlara şikayətin təqdim olunması ilə bağlı atılmış addımlar;

-İddiaçının hüquqlarının pozulması qənaətinə gəlinməsi ilə bağlı iddiaçının səbəbləri, və müqavilənin hansı maddələrinin pozulmasını əks etdirən məlumatlar;

- Şikayətin mahiyyətinə aid bütün sənədlər (yaxşı olar ki, müvafiq tərcümələrlə).

**<u>İrqi Ayrı-Seçkiliyin Ləğvi üzrə Komitə</u>**

Bu komitə ilk yaradılan müqavilə qurumu olub İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Beynəlxalq Konvensiyasının əsasında 1970-ildə təsis edilmişdir. Komitə onun işində müstəqil, şəxsi qisimdə iştirak edən, öz dövlətlərini təmsil etməyən, yüksək əxlaqi keyfiyyətlərə malik, 4 il müddətinə seçilən 18 nəfər ekspertdən ibarətdir. Konvensiyanın 9-cu maddəsinə əsasən, iştirakçı-dövlətlər Baş Katibə bu konvensiyanın müddəalarının implementasiyası ilə bağlı həyata keçirdikləri qanunvericilik, məhkəmə, inzibati və ya digər tədbirlər haqqında hesabat təqdim edirlər. İlkin hesabat konvensiyanın dövlətə münasibətdə qüvvəyə minməsindən sonra bir il müddətində, daha sonra isə hər 4 ildən bir təqdim edilməlidir. Komitə həmçinin öz fəaliyyətinə dair Baş Assambleyaya illik hesabatlar təqdim edir. Konvensiyanın 11-ci maddəsinə uyğun olaraq, hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin bu konvensiyanın müddəalarına əməl etməməsi qənaətinə gələrsə, Komitəyə müraciət edə bilər. Dövlətlərarası və ya fərdi şikayət prosedurunu nəzərdə tutan digər universal beynəlxalq müqavilələrdən fərqli olaraq sözü gedən konvensiya bir iştirakçı-dövlətin digərinə qarşı komitəyə müraciətlə bağlı hər hansı bir xüsusi bəyanatın verilməsi və ya digər əlavə prosedur nəzərdə tutmur.

Dövlətlərarası şikayət prosedurundan fərqli olaraq fərdi şikayət proseduru fakültativ xarakter daşıyır. Belə ki, konvensiyanın 14-cü maddəsinə əsasən, fərdi şikayət prosedurunun həyata keçirilməsi üçün dövlət komitənin onun yurisdiksiyası altında olan şəxslərdən və ya şəxslər qrupundan bu konvensiyanın pozuntusunun qurbanı olduğunu iddia edən məlumat ala bilər. Şikayət yalnız 14-cü maddəyə müvafiq olaraq komitənin müvafiq yurisdiksiyasını tanımaq barədə xüsusi bəyanat verən dövlətə qarşı verilə bilər. Komitənin fəaliyyəti subsidiar xarakter daşıyır. Belə ki, 14-cü maddənin 2-ci bəndinə əsasən, Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanıyan hər bir dövlət öz yurisdiksiyası hüdudlarında Konvensiyada təsbit olunmuş hüquqlarından hər hansının pozulmasının qurbanı olduğunu və mümkün yerli hüquq müdafiə vasitələrinin tükəndiyini iddia edən ayrı-ayrı şəxslərdən, yaxud şəxslər qrupundan şikayət qəbul

etmək və baxılmaq üçün səlahiyyətli orqan təsis edə və ya belə bir orqanın milli hüquq sistemi çərçivəsində mövcudluğunu göstərə bilər. Bu konvensiya üzrə hüququ pozulmuş şəxs 14-cü maddənin 2-ci bəndinə müvafiq olaraq təsis edilmiş, yaxud göstərilmiş orqanın fəaliyyətindən narazı qalarsa, altı ay ərzində həmin məsələ ilə əlaqədar Komitəyə müraciət edə bilər. Şikayətçi yalnız bütün mümkün dövlətdaxili hüquq müdafiə vasitələrini keçdikdən sonra Komitəyə müraciət edə bilər. Əgər bu vasitələrin tətbiqi həddindən artıq yubanırsa bu halda şikayətçi belə dövlətdaxili vasitələri tükəndirmədən də Komitəyə müraciət edə bilər.

Azərbaycan Respublikası 1996-cı ildən İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il beynəlxalq konvensiyasının iştirakçısıdır. Eyni zamanda Azərbaycan 2001-ci ildən Konvensiyanın 14-cü maddəsinə uyğun olaraq Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanımışdır.

## İnsan Hüquqları Komitəsi

Bu Komitə Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 28-ci maddəsi əsasında 1976-cı ildə, yəni Pakt qüvvəyə mindiyi ildə təsis olunmuşdur. Komitə onun işində müstəqil surətdə iştirak edən, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan və 4 il müddətinə seçilən (yenidən seçilə bilmək hüququ ilə) 18 ekspertdən ibarətdir. Komitə hər il ozünün üç həftə davam edən sessiyalarını keçirir. Dövlətlər paktdan irəli gələn öhdəliklərin icrasına dair hər 5 ildən bir Baş Katib vasitəsilə Komitəyə dövri hesabat təqdim edirlər. Komitənin mühüm səlahiyyətlərindən biri dövlətlərarası işlərə baxmaqdan ibarətdir. Lakin bu prosedur könüllü xarakter daşıyır. Yəni, Komitənin dövlətlərarası işlərə baxa bilməsi üçün iştirakçı dövlətlərin Paktın 41-ci maddəsinə əsasən xüsusi bəyanatı tələb olunur. Dövlətlərarası işlərə münasibətdə Komitənin rolu subsidiardır. Belə ki, əgər 41-ci maddəyə uyğun olaraq Komitənin müvafiq səlahiyyətini tanımaq barədə bəyanatla çıxış edən hər hansı bir iştirakçı dövlət (və ya dövlətlər) belə bəyanat verən digər iştirakçı dövlətin Pakt üzrə öz üzərinə götürdüyü öhdəlikləri icra etməməsi qənaətinə gələrsə, bununla bağlı həmin dövlətə yazılı müraciət olunur. Əgər məsələ öz həllini tapmazsa yalnız bundan sonra iş Komitəyə təqdim oluna bilər. Əgər məsələnin Komitə tərəfindən həlli tərəfləri qane etməzsə bu halda onların razılığı ilə xüsusi razılaşdırıcı komissiya təyin edilə bilər. Qeyd etmək lazımdır ki, təcrübədə müəyyən siyasi maraqlar səbəbindən dövlətlərarası şikayət proseduru öz təsdiqini tapmamışdır.

Komitənin daha bir mühüm səlahiyyəti fərdi şikayətlərə baxmaqla bağlıdır. Dövlətlərarası şikayət prosedurundan fərqli olaraq fərdi şikayət proseduru kifayət qədər işlək və bir sıra hallarda səmərəli mexanizmdir. Pakta dair 16 dekabr 1966-cı il tarixli Fakültativ Protokola uyğun olaraq Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan hər bir şəxs Paktda təsbit olunmuş hər hansı bir

hüququnun (hüquqlarının) pozulduğu və pozulmuş hüququn (hüquqlarının) bərpasına milli səviyyədə nail ola bilmədiyi halda Komitəyə müraciət edə bilər. Komitə yalnız Protokolun iştirakçısı olan dövlətə münasibətdə verilən şikayətlərə baxa bilər.

Azərbaycan Respublikası 1992-ci ildən Paktın iştirakçısıdır. Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası tərəfindən Komitənin dövlətlərarası şikayətlərlə bağlı səlahiyyəti tanınmamışdır.

### Qadınlara Qarşı Ayrı-Seçkiliyin Ləğvi üzrə Komitə

Bu Komitə Qadınlara qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında 18 dekabr 1979-cu il Konvensiyası əsasında 1982-ci ildə təsis edilmişdir. Komitə 4 il müddətinə seçilən, öz dövlətlərini təmsil etməyən, yüksək mənəvi keyfiyyətlərə malik və qadın hüquqları sahəsində ixtisaslaşan 23 ekspertdən ibarətdir. Komitə hər 4 ildən bir iştirakçı dövlətlərin dövri hesabatlarına baxır. Hesabatda Konvensiyanın müddəalarının həyata keçirilməsi üzrə qanunvericilik, məhkəmə, inzibati və digər tədbirlər barədə dolğun məlumat verilməlidir. Komitə Baş Assambleyanın 1996-cı ildə qəbul etdiyi qətnaməyə uyğun olaraq 1997-ci ildən etibarən ildə hər biri 3 həftə davam etməklə 2 sessiya keçirir. Komitənin mühüm səlahiyyəti ondan ibarətdir ki, o, 10 dekabr 1999-cu il tarixli Fakültativ Protokola əsasən fərdi şikayətlərə baxa bilər. Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan istənilən fərd, fərdlər qrupu və ya onların adından digər tərəf Konvensiyanın müddəalarının pozulması ilə bağlı Komitəyə müraciət edə bilər.

Komitə eyni zamanda qadın hüquqlarının səmərəli şəkildə təmini ilə bağlı ümumi tövsiyələr qəbul edir (məsələn, əlil qadınların hüquqları haqqında 18 saylı tövsiyə, nikahda qadınların bərabər hüquqları haqqında 21 saylı tövsiyə və s.).

Azərbaycan Respublikası 1995-ci ildən Konvensiyanın, 2001-ci ildən isə Fakültativ Protokolun iştirakçısıdır.

### İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə

Bu Komitə 1985-ci ildə EKOSOK-un qətnaməsi əsasında təsis edilmiş və 1987-ci ildən fəaliyyətə başlamışdır.

Qeyd etmək lazımdır ki, İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq Paktda Komitənin yaradılması nəzərdə tutulmamışdır. Paktda nəzərdə tutulurdu ki, iştirakçı-dövlətlər Paktın implementasiyası ilə bağlı dövri məruzələri Baş Katibə təqdim edir, o isə öz növbəsində baxılmaq üçün EKOSOK-a göndərir.

Komitə Paktın iştirakçı dövlətlərinin təqdimatı ilə EKOSOK tərəfindən seçilən 18 müstəqil ekspertdən ibarətdir.

10 dekabr 2008-ci ildə Baş Assambleyanın 63/117 saylı qətnaməsi ilə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta Fakültativ Protokol qəbul olunmuşdur. Protokol Komitəyə fərdi və dövlətlərarası işlərə baxmaq səlahiyyəti verir. Fərdi və dövlətlərarası şikayət proseduru yalnız Paktın və Fakültativ Protokolun iştirakçısı olan dövlətlərə münasibətdə tətbiq oluna bilər. İştirakçı dövlətin yurisdiksiyası altında ayrı-ayrı şəxslər, şəxslər qrupu və ya onların adından digər tərəf Paktda təsbit olunmuş iqtisadi, sosial və ya mədəni hüquqların pozulması ilə bağlı Komitəyə müraciət edə bilər. Fərdi şikayət prosedurundan fərqli olaraq dövlətlərarası şikayət proseduru məcburi xarakter daşımır. Yəni, dövlətlərarası şikayət prosedurunun tanınması üçün dövlət xüsusi bəyanat verməlidir. Protokolun 10-cu maddəsinə əsasən, yalnız belə bəyanatla çıxış edən iştirakçı-dövlətə münasibətdə bu prosedur həyata keçirilə bilər. Həmin maddəyə əsasən iştirakçı-dövlət istənilən vaxt bəyan edə bilər ki, o Komitənin digər iştirakçı-dövlətlərdən Paktdan irəli gələn öhdəliklərə əməl etməməsi ilə bağlı məlumat almaq səlahiyyətini tanıyır. Dövlətlərarası şikayət proseduru, demək olar ki, insan hüquqları komitəsi çərçivəsində həyata keçirilən prosedurla eynidir.

Yuxarıda qeyd olunan səlahiyyətlərdən başqa Komitə həmçinin EKOSOK-a ümumi tövsiyələr təqdim edir. Məsələn, bunların sırasında ləyaqətli yaşayış hüququna dair 4 saylı, ahılların sosial-iqtisadi hüquqlarına dair 6 saylı, iqtisadi sanksiyaların tətbiqi problemi və onların sosial və iqtisadi hüquqlara təsirinə dair 8 saylı, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın iştirakçısı olan dövlətlərin milli hüquq sistemlərində tətbiqinə dair 9 saylı, suya olan hüquqa dair 15 saylı qətnamə və digərlərini göstərmək olar.

Azərbaycan Respublikası 1992-ci ildən Paktın iştirakçısıdır.

**İşgəncə Əleyhinə Komitə**

Bu Komitə İşgəncə və digər Qəddar, Qeyri-İnsani və Ləyaqəti Alçaldan Rəftar və ya Cəza Əleyhinə 1984-cü il Konvensiyasının əsasında 1987-ci ildə təsis edilmişdir. 1988-ci ilin aprelində Komitə özünün ilk sessiyasını keçirmişdir.

Komitə Konvensiyanın iştirakçı-dövlətləri tərəfindən 4 il müddətinə seçilən, yüksək əxlaqi keyfiyyətlərə malik, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan 10 müstəqil ekspertdən ibarətdir.

Konvensiyanın 17-ci maddəsinin 2-ci bəndinə əsasən, iştirakçı-dövlətlər Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın əsasında təsis edilmiş insan hüquqları komitəsinin üzvü olan və işgəncə əleyhinə Komitədə işləmək arzusunu bildirən şəxslərin namizədliyini irəli sürməyin məqsədəmüvafiq olduğunu nəzərə alırlar. Komitənin əsas səlahiyyəti hər 4 ildən bir iştirakçı-dövlətlərin

Konvensiya üzrə öz üzərlərinə götürdükləri öhdəliklərin icrası ilə bağlı dövri məruzələrinə, həmçinin fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir.

Komitənin daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, hər hansı bir iştirakçı-dövlətin ərazisində sistematik surətdə işgəncə tətbiq edildiyinə dair əsaslı məlumat alarsa ilk olaraq həmin dövlətlə bu məlumatın araşdırılmasında əməkdaşlıq etməyi təklif edir və zəruri olarsa özünün bir və ya bir neçə üzvünü məxfi təhqiqat aparmaq və bununla bağlı Komitəyə təcili surətdə məruzə təqdim etmək, həmçinin müvafiq dövlətin razılığı olarsa onun ərazisində təhqiqat aparmaq üçün təyin edə bilər.

Komitə dövlətlərin dövri məruzələri ilə bağlı ümumi xarakterli qeydlər etməklə yanaşı, təhqiqatın nəticələrini özünün qeyd və təklifləri ilə birgə müvafiq dövlətə göndərə bilər. Yuxarıda qeyd olunan təhqiqatla bağlı bütün prosedur məxfi xarakter daşıyır. Komitənin fərdi və dövlətlərarası şikayətlərə baxmaqla bağlı yurisdiksiyası fakültativ xarakter daşıyır. Yəni, Konvensiyanın iştirakçısı olan dövlət heç də Komitənin fərdi və dövlətlərarası şikayətlərə baxmaqla bağlı səlahiyyətini avtomatik olaraq tanımır. Bunun üçün iştirakçı-dövlət tərəfindən xüsusi bəyanat verilməsi tələb olunur. Komitə tərəfindən fərdi və dövlətlərarası şikayətlərə baxılması proseduru demək olar ki, belə səlahiyyətlərə malik digər müqavilə qurumlarında olduğu kimidir.

Azərbaycan Respublikası 1996-cı ildən Konvensiyanın iştirakçısıdır.

Baş Assambleyanın 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş Fakültativ Protokol Komitənin səlahiyyətini genişləndirmiş və işgəncə əleyhinə həm beynəlxalq, həm də milli səviyyədə yeni mexanizmlərin yaradılmasını nəzərdə tutmuşdur. Belə ki, Protokol işgəncələrin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələr sisteminin yaradılmasını nəzərdə tutur.

Protokola əsasən, İşgəncə Əleyhinə Komitənin tərkibində Protokolda göstərilən funksiyaları yerinə yetirəcək yeni bir qurum - İşgəncə və digər qəddar, qeyri- insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Subkomitə (Alt komitə) yaradılır. Subkomitə öz fəaliyyətini BMT Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərini, BMT-nin azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

Subkomitə yüksək əxlaqi keyfiyyətlərə malik və ədalət mühakiməsinin həyata keçirilməsi (əsasən də cinayət işləri üzrə) sahəsində, penitensiar sahədə və ya polis sistemində, yaxud da azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid digər sahələrdə təcrübəsi olan 4 il müddətinə seçilən 25 müstəqil üzvdən ibarətdir.

Protokolun iştirakçı - dövlətləri Subkomitənin üzvlərinin onların nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin saxlandıqları yerlərə (buraya həmçinin ruhi xəstələrin saxlandığı müəssisələr də daxildir) başçəkmələrinə lazımi şərait yaratmaq öhdəliyi götürmüşlər. Subkomitənin Protokolda qeyd olunmuş vəzifələrini yerinə yetirə bilməsi üçün iştirakçı - dövlətlər aşağıdakıları öz öhdələrinə götürürlər:

- Subkomitəni öz ərazisində qəbul etmək və saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

- işgəncəyə məruz qalmamaq hüququnun müdafiəsinin gücləndirilməsi məqsədilə ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Subkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

- Subkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

Başçəkmələrin nəticəsi olaraq Subkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə göndərir. Özünün fəaliyyəti haqqında illik hesabatı isə İşgəncə Əleyhinə Komitəyə təqdim edir.

Fakultativ Protokolun gətirdiyi daha bir mühüm yenilik milli preventiv mexanizmlərlə bağlıdır. Protokola əsasən, onun müvafiq dövlətə münasibətdə qüvvəyə minməsindən sonra bir ildən gec olmayaraq iştirakçı-dövlətlər milli səviyyədə işgəncənin qarşısının alınması məqsədilə müstəqil şəkildə fəaliyyət göstərəcək milli preventiv mexanizmlərin təsis edilməsi öhdəliyini götürürlər.

İştirakçı-dövlətlər milli preventiv mexanizmlərə işgəncələrin qarşısının alınması ilə bağlı müvafiq qurumlara tövsiyələr verilməsi, qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təkliflər verilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onların saxlandıqları yerlər, onların rəftar və saxlanma şəraitinə dair istənilən məlumatın alınması, azadlıqdan məhrum edilmiş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərin saxlandığı və saxlana biləcəyi istənilən yerə sərbəst buraxılış imkanının olması, belə şəxslərlə fərdi söhbət aparmaq imkanının olması, Subkomitə ilə əlaqələr yaratmaq, ona məlumat ötürmək və üzvləri ilə görüşmək hüququnun olmasını təmin etməyi öz öhdələrinə götürürlər.

Milli preventiv mexanizm araşdırmaların nəticəsi olaraq müvafiq səlahiyyətli orqanlara tövsiyələr verir və illik məruzələrlə çıxış edir. Subkomitə işgəncələrin qarşısının alınması ilə bağlı tövsiyə və iradları konfidensial qaydada iştirakçı – dövlətlə yanaşı zərurət olduqda milli preventiv mexanizmə də göndərir.

Milli preventiv mexanizmin təşkili qaydalarını, milli səviyyədə hansı orqanın bu funksiyanı yerinə yetirəcəyi ilə bağlı məsələni açıq qoyan Fakültativ Protokol bunu iştirakçı – dövlətlərin öz ixtiyarına buraxır. Dövlətlər ya yeni bir təsisat, yaxud artıq mövcud olan hansısa bir qurum daxilində müstəqilliyi təmin olunmaqla

bu mexanizmi yarada bilərlər. Təcrübə göstərir ki, milli preventiv mexanizm funksiyalarını bir çox hallarda müstəqil fəaliyyət göstərən insan hüquqları üzrə müvəkkil (ombudsman) təsisatları yerinə yetirir (məsələn, Çexiya, Polşa, Sloveniya, Serbiya, İsveç, Estoniya, Moldova).

Azərbaycan Respublikasının 2 dekabr 2008-ci il tarixli Qanunu ilə adı çəkilən Protokol Milli Məclis tərəfindən təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamına əsasən Fakültativ Protokolda nəzərdə tutulmuş milli preventiv mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) müəyyən edilmişdir.

**Uşaq Hüquqları Komitəsi**

Bu Komitə Uşaq Hüquqları haqqında 1989-cu il Konvensiyası əsasında 1990-cı ildə fəaliyyətə başlamışdır. Komitə 4 il müddətinə seçilən, uşaq hüquqları sahəsində səriştəyə malik, müstəqil qisimdə fəaliyyət göstərən 10 ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyəti iştirakçı-dövlətlərin uşaq hüquqlarının təmini ilə bağlı ölkədə vəziyyətə dair hər 5 ildən bir məruzələrə baxmaqdan ibarətdir. Komitə həmçinin Baş Assambleyaya Baş Katib tərəfindən onun adından uşaq hüquqları ilə bağlı bu və ya digər məsələyə dair təhqiqat aparmaq təklifi ilə müraciət edə bilər. Komitə həmçinin dövri məruzələrlə bağlı ümumi xarakterli tövsiyələr qəbul edir.

Azərbaycan Respublikası 1992-ci ildən Konvensiyanın iştirakçısıdır.

Qeyd etmək lazımdır ki, Baş Assambleyanın 54/263 saylı 25 may 2000-ci il tarixli qətnaməsi ilə Uşaq hüquqları haqqında Konvensiyaya iki fakültativ protokol qəbul edilmişdir – Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokol və Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokol. Hər iki protokol iştirakçı-dövlətlər üçün hər beş ildən bir Uşaq Hüquqları Komitəsinə dövri məruzələr təqdim etmək öhdəliyi nəzərdə tutur.

Azərbaycan Respublikası 2 aprel 2002-ci il tarixli Qanunla hər iki Protokolu təsdiq etmişdir. Uşaq Hüquqları Konvensiyasına edilmiş sonuncu 19 dekabr 2011-ci il tarixli Fakultativ Protokol Uşaq Hüquqları Komitəsinə fərdi və dövlətlər-arası şikayətlərə baxmaq səlahiyyəti vermişdir.

**Bütün İşçi Miqrantların və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi üzrə Komitə**

Komitə, Bütün işçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Konvensiyası əsasında 2004-cü ildə təsis olunmuş və elə həmin ilin martında Komitənin ilk sessiyası keçirilmişdir. Komitə 4 il müddətinə seçilən 14 müstəqil ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyətləri hər 5 ildən bir dövlətlərin təqdim etdikləri dövri məruzələrə baxmaq və

Konvensiyanın pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, istər fərdi, istərsə də dövlətlərarası şikayət proseduru könüllü xarakter daşıyır, yəni, dövlət Konvensiyanın iştirakçısı olmaqla Komitənin bu səlahiyyətini avtomatik olaraq tanımır, bunun üçün müvafiq iştirakçı dövlətin xüsusi bəyanatı tələb olunur. Azərbaycan Respublikası 1998-ci ildən Konvensiyanın iştirakçısıdır.

**Əlillərin Hüquqları üzrə Komitə**

Komitə 2006-cı ilin dekabrında qəbul edilən və 2008-ci ilin mayında qüvvəyə minən Əlillərin hüquqları haqqında Konvensiya əsasında yaradılmışdır. 23 fevral 2009-cu il tarixdə Komitənin ilk sessiyası öz işinə başlamışdır. Komitə 4 il müddətinə seçilən və onun işində müstəqil surətdə iştirak edən 18 ekspertdən ibarətdir.

Komitənin əsas səlahiyyəti hər 4 ildən bir əlilliyi olan şəxslərin hüquqlarının səmərəli təmin edilməsi üzrə iştirakçı-dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmələri ilə bağlı dövri məruzələrə baxmaq, həmçinin BMT Baş Assambleyasının 61/106 saylı 13 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilən Fakültativ Protokola əsasən fərdi şikayətlərə baxmaqdan ibarətdir. Protokolun iştirakçısı olan dövlət avtomatik olaraq Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanıyır. Komitənin daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, əgər o, Konvensiyada təsbit olunmuş hüquqların hər hansı iştirakçı-dövlət tərəfindən sistematik pozulduğuna dair məlumat alarsa, bu halda həmin məlumatın araşdırılması və ona dair qeydlərin təqdim olunması üçün həmin iştirakçı-dövlətə əməkdaşlıq təklif edir.

Komitə həmçinin özünün bir və ya bir neçə üzvünü hüquq pozuntusu ilə bağlı təhqiqat aparmaq (müvafiq iştirakçı-dövlətin razılığı olduğu təqdirdə təhqiqat onun ərazisində aparıla bilər) və bununla bağlı Komitəyə təcili surətdə hesabat təqdim etməyi həvalə edə bilər. Lakin Komitənin bu səlahiyyəti məcburi xarakter daşımır. Protokolun iştirakçısı olan dövlət onu təsdiq edərkən Komitənin bu səlahiyyətini tanımadığını bəyan edə bilər.

Azərbaycan Respublikası 2008-ci ildən həm Konvensiyanın, həm də Fakültativ Protokolun iştirakçısıdır.

**Zorakılıqla Yoxaçıxarmaya Qarşı Komitə**

Bu Komitə BMT-nin müqavilə qurumları sırasında ən son yaradılandır. Komitənin yaradılması BMT Baş Assambleyasının 61/177 saylı 20 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilən Bütün Şəxslərin Zorakılıqla Yoxaçıxarma Hallarından Müdafiəsi Haqqında Beynəlxalq Konvensiya ilə nəzərdə tutulmuşdur.

Komitə 4 il müddətinə seçilən, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan 10 müstəqil ekspertdən ibarətdir.

Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı iştirakçı-dövlətlərin dövri məruzələrinə, fərdi və dövlətlərarası şikayətlərə baxmaq Komitənin əsas səlahiyyətləridir. Bundan əlavə Konvensiyanın 30-cu maddəsinə əsasən, yoxaçıxan şəxsin qohumları, qanuni nümayəndələri və ya onun vəkilləri təcili qaydada Komitəyə yoxaçıxan şəxsin axtarışı və onun yerinin müəyyən edilməsi xahişi ilə müraciət edə bilər. Fərdi və dövlətlərarası şikayət proseduru fakültativ xarakter daşıyır və iştirakçı-dövlətlərin Komitənin belə səlahiyyətini tanıması ilə bağlı xüsusi bəyanatından asılıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müqavilə qurumlarını nəzərdə tutan bütün beynəlxalq müqavilələrin iştirakçısıdır. Yalnız sonuncu müqavilə Bütün şəxslərin zorakılıqla yoxaçıxarma hallarından müdafiəsi haqqında 20 dekabr 2006-cı il tarixli Beynəlxalq Konvensiya Azərbaycan Respublikası tərəfindən imzalanmış, lakin hələ ki ratifikasiya olunmamışdır.

## II. BMT İNSAN HÜQUQLARININ MÜDAFİƏ SISTEMİ BARƏSİNDƏ TƏLİM PROQRAMININ MODULLARI

### Modul 1. BMT-nin insan hüquqları sisteminə giriş, insan haqları hüququnun və müdafiə mexanizmlərinin inkişafı

1. İnsan hüquqlarının anlayışı və mahiyyəti
2. İnsan hüquqları təbii hüquqlar kimi
3. İnsan hüquqlarının universallığı
4. İnsan hüquqlarını səciyyələndirən əsas cəhətlər
5. İnsan hüquqları sahəsində əsas prinsiplər
6. İnsan haqları hüququnun formalaşması və inkişafı
7. BMT-nin strukturunun və fəaliyyətinin ümumi xarakteristikası
8. İnsan hüquqlarının beynəlxalq müdafiə sisteminin formalaşmasında BMT-nin rolu
9. BMT-nin və onun ixtisaslaşmış təsisatlarının insan hüquqlarının müdafiəsində rolu

### Modul 2. BMT-nin insan hüquqları sahəsində ixtisaslaşmış qurumlarının fəaliyyəti

1. BMT-nin insan hüquqları sahəsində ixtisaslaşmış qurumlarının əsas təyinatı və funksiyaları.
2. BMT-nin insan hüquqları sahəsində ixtisaslaşmış qurumlarında dövlətlərarası və fərdi şikayət proseduru və onlara baxılması qaydası. Şikayətlərin təqdim edilməsi qaydaları.
3. BMT-nin insan hüquqları sahəsində ixtisaslaşmış qurumlarında dövlətlərin dövri məruzəsi proseduru: təqdim edilməsi, baxılması qaydaları və nəticələri.
4. BMT-nin insan hüquqları sahəsində ixtisaslaşmış qurumlarının əsas xarakteristikası.
5. İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
6. İnsan hüquqları komitəsi: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
7. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları

8. İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
9. İşgəncə əleyhinə Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
10. Uşaq hüquqları Komitəsi: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
11. Bütün işçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
12. Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları
13. Zorakılıqla yoxaçıxarmaya qarşı Komitə: əsas mandatı, funksiyaları və fəaliyyətinin əsasları

## Modul 3. BMT-nin İnsan Hüquqları Şurasının Xüsusi Prosedurlarının fəaliyyəti

1. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin qeyri-müqavilə mexanizmlərinin təyinatı və əsas xarakteristikası.
2. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT çərçivəsində fəaliyyət göstərən əsas qeyri-müqavilə mexanizmləri: xüsusi məruzəçilər, komissiyalar, işçi qrupları və s.
3. İnsan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin İnsan Hüquqları Şurasının rolu. Şuranın əsas fəaliyyət istiqamətləri və funksiyaları.
4. İnsan hüquqlarının müdafiəsi sahəsində Şuranın əsas mexanizmləri. Şura çərçivəsində fəaliyyət göstərən xüsusi məruzəçilər institutu: mandatı və fəaliyyətinin əsasları

## Modul 4. Universal Dövri İcmal mexanizmi

1. BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində həyata keçirilən Universal Dövri İcmal mexanizmi. İcmalın mahiyyəti, əsas xüsusiyyətləri, hazırlanması, təqdim edilməsi və ona baxılması qaydası.

2. İcmal üzrə dövlətlərin əsas öhdəliklərinin xarakteristikası

3. İcmalın yerinə yetirilməsi: dövlətlərin əsas vəzifələri

4. Azərbaycan Hökumətinin İcmal üzrə məruzələri və ona dair tövsiyələr. Tövsiyələrin icrası vəziyyəti və bu sahədə mövcud olan əsas problemlər.

**Modul 5. İnsan hüquqları sahəsində monitorinq mexanizmləri**

1. İnsan hüquqları sahəsində əsas monitorinq mexanizmləri: anlayışı, xüsusiyyətləri

2. İnsan hüquqları sahəsində monitorinq mexanizmlərinin fəaliyyətinin əsas prinsipləri

3. İnsan hüquqları sahəsində monitorinq mexanizmləri tərəfindən şikayətlərə baxılmasının əsas xüsusiyyətləri

4. İnsan hüquqları sahəsində monitorinq mexanizmlərinin insan hüquqlarının təbliği və müdafiəsi sahəsində fəaliyyəti.

**Modul 6. Zəif qrupların hüquqlarının müdafiəsi**

1.Zəif qrupların hüquqlarının müdafiəsinin əsas xüsusiyyətləri

2. Qadınların hüquqlarının müdafiəsi

3. Uşaqların hüquqlarının müdafiəsi

4. Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi

5. Ahılların hüquqlarının müdafiəsi

6. Qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi

7. Etnik azlıqların hüquqlarının müdafiəsi

8. Azadlıqdan məhrumetmə yerlərində insan hüquqlarının müdafiəsi

**Modul 7. BMT-nin insan hüquqları sistemi və qeyri-dövlət mexanizmləri**

1. BMT-nin insan hüquqları sistemi haqqında ümumi məlumat.

2. BMT-nin insan hüquqları sistemi ilə qeyri-dövlət mexanizmləri arasındakı əlaqələr

3. Milli insan hüquqları təsisatlarının BMT-nin insan hüquqları sistemində iştirakı

4. Vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının BMT-nin insan hüquqları sistemində iştirakı

5. BMT-nin insan hüquqları sistemində "alternativ məruzə", "paralel məruzə" və "əlavə məruzə" prosedurları

6. Universal Dövri İcmal mexanizmi üzrə milli insan hüquqları təsisatlarının və qeyri-hökumət təşkilatlarının "əlavə məruzə" proseduru

**Modul 8. BMT-nin insan hüquqları sistemində fərdi şikayət proseduru**

1. BMT-nin insan hüquqları sistemində fərdi şikayət prosedurunun mahiyyəti və əsas xüsusiyyətləri

2. İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə çərçivəsində şikayət proseduru

3. İnsan Hüquqları Komitəsi çərçivəsində şikayət proseduru

4. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə çərçivəsində şikayət proseduru

5. İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə çərçivəsində şikayət proseduru

6. İşgəncə əleyhinə Komitə çərçivəsində şikayət proseduru

7. Uşaq hüquqları Komitəsi çərçivəsində şikayət proseduru

8. Bütün işçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə komitə çərçivəsində şikayət proseduru

9. Əlilliyi olan şəxslərin hüquqları üzrə komitə çərçivəsində şikayət proseduru

10. Zorakılıqla yoxaçıxarmaya qarşı komitə çərçivəsində şikayət proseduru

**Modul 9. İnsan hüquqlarının müdafiəsində Milli İnsan Hüquqları İnstitutlarının rolu**

1. Milli İnsan hüquqları təsisatlarının anlayışı, növləri və fəaliyyətinin əsas prinsipləri
2. Paris prinsipləri
3. Azərbaycanda Ombudsman institutunun yaranması, fəaliyyəti və hüquqi

statusu

4. Azərbaycan Ombudsmanı işgəncələrə qarşı mübarizə üzrə Milli Preventiv Mexanizm kimi
5. Azərbaycan Ombudsmanı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirən qurum kimi.

# İNSAN HÜQUQLARINA ƏSASLANMIŞ FƏALİYYƏT:
# İNSAN HÜQUQLARININ MONİTORİNQİ VƏ MÜDAFİƏSİ

**TƏLİM VƏSAİTİ**

**2015**

**Tərtibatçı müəlliflər: N.Seyidov, K.Aşumova, R.Əhmədova**

İSBN ……………….

Bütün hüquqlar qorunur. Copyright © Ümidli Gələcək Gənclər Təşkilatı, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, 2015

**MÜNDƏRİCAT**

**GİRİŞ..........................................................................................**
**LÜĞƏT..........................................................................................**
**AKRONİMLƏR..........................................................................................**
**I. BMT SİSTEMİ FƏALİYYƏTDƏ..............................................................**
**II. TƏLİM PROQRAMI..........................................................................**

## GİRİŞ

*"...İnsan Hüquqları haqqında Ümumi Bəyannaməni, hər bir kəsin və cəmiyyətin hər bir orqanının bu Bəyannaməni rəhbər tutaraq maarifçilik və tədris yolu ilə həmin hüquq və azadlıqlara hörmət olunmasına yardım etməsi və milli və beynəlxalq səviyyədə tərəqqipərvər tədbirlərlə, həm təşkilatın üzv dövlətlərinin xalqları, həm də onların yurisdiksiyası altında olan ərazilərin xalqları arasında ümumilikdə və effektiv tanınması və həyata keçirilməsinə səy göstərmələri məqsədilə bütün xalqlar və dövlətlərin yerinə yetirməyə can atmalı olduqları vəzifə kimi bəyan edir".*

***BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsi, Preambula***






Təlim Vəsaitinin məqsədi nədir?

Vətəndaş cəmiyyəti qurumlarının insan hüquqlarının təbliği və müdafiəsi sahəsində bilik və bacarıqlarının artırılması və BMT-nin insan hüquqlarının müdafiəsi mexanizmlərindən istifadəsinin genişləndirilməsi məqsədilə insan hüquqları sahəsində təcrübəyə malik milli mütəxəssislər bu təlim vəsaitindən istifadə edə bilər.

Təlim vəsaiti necə qurulub?

Vəsait əsasən Uşaq hüquqları Konvensiyasının və Uşaq hüquqları Komitəsinin təcrübəsi üzərində qurulub və "İnsan hüquqlarına əsaslanmış fəaliyyət: İnsan hüquqlarının monitorinqi və müdafiəsi" mövzusunda keçirilən təlim kursu üçün hazırlanıb. Bu vəsait təlimçilər üçün təlim proqramı kimi nəzərdən keçirilə bilər. Burada qısa təqdimatlar və kiçik həcmli mühazirələrlə yanaşı kiçik və böyük

qruplarda müzakirələr, debatlar, rol oyunları da daxil olmaqla, interaktivlik və iştirakçılığın dəstəklənməsinə yönəlik metodologiyadan istifadə edilib. Vəsaitdə həm də dünyanın müxtəlif ölkələrində işləyən vətəndaş cəmiyyəti qurumlarının insan hüquqlarının müdafiəsi sahəsindəki fəaliyyətindən götürülmüş ən uğurlu və nümunəvi məsələlərdən təsvirlər də verilib.

Təlim vəsaiti 3 hissəyə bölünüb:
**Modul 1. Beynəlxalq İnsan Hüquqları**. Bu modul insan hüquqları və beynəlxalq insan hüquqları sisteminə girişdir və insan hüquqları ilə sosial ədalət uğrunda aparılan fəaliyyət arasındakı münasibətlərə aydınlıq gətirir.
**Modul 2. İnsan Hüquqlarına əsaslanmış yanaşmaya dair Strategiyalar**. Bu modulda insan hüquqlarına əsaslanmış yanaşmanın əsas elementləri, terminlərin tərifi, mühüm prinsipləri barədə geniş məlumat verilir. İnsan hüquqlarına əsaslanmış yanaşmanın tətbiqinin dörd əsas strategiyası da detallı təsvir olunub.
**Modul 3. İnsan hüquqlarına əsaslanmış yanaşmanın tətbiqi**. Bu modulda isə insan hüquqlarına əsaslanmış yanaşmanın real praktiki fəaliyyətdə tətbiqi məsələləri müzakirə edilir, konkret fəaliyyət planlarının tərtib edilməsi və həyata keçirilməsinə dair əsas alətlər izah edilir.

Hər bir modul 3 hissəyə bölünüb:
- **Əsas məlumat**. Bu hissələrdə hər bir modulda izah ediləcək mövzulara dair təlimçilər və iştirakçılar üçün məlumat verilir.
- **Fəaliyyətlər və paylaşma üçün materiallar**. Bu hissələrdə isə modulda verilmiş hər bir fəaliyyətin təsviri və təlimatları yer alıb. Hər bir fəaliyyətə dair spesifik vəzifələr və hədəflər, fəaliyyət üçün nəzərdə tutulmuş vaxt və tələb olunan materiallara dair ətraflı məlumat verilir.
- **Mühazirələr üçün materiallar**. Bu hissələrdə hər bir modulda yer almış mövzulara dair təqdimatlar və ya nəzəri məlumatı əks etdirən mühazirələr yer alıb.

**LÜĞƏT**

**İmzalama, ratifikasiya və qoşulma**

Konvensiyanın hökumət tərəfindən imzalanması göstərir ki, həmin ölkə Konvensiyanı ratifikasiya etməyi nəzərdə tutur.

Ratifikasiya Konvensiyanın hökumət tərəfindən dəstəklənməsini göstərən formal öhdəlikdir.

Qoşulma elə bir prosesə verilən anlayışdır ki, bu zaman hökumət Konvensiyanı öncə imzalamadan ratifikasiya edir, bununla da imzalama və ratifikasiya eyni vaxtda vahid bir akt şəklində baş vermiş olur.

Hökumət Konvensiyanı imzaladıqdan sonra həmin dövlət Konvensiyanın iştirakçısına çevrilir və aşağıdakılara razılıq verir:

- Konvensiyada əks olunmuş hüquqların həyata keçirilməsini təmin etmək üçün zəruri şərait yaratmaq məqsədilə beynəlxalq hüquqa bağlı olmaq;
- Konvensiyada əks olunmuş standartlara nail olmaq üçün müvafiq zəruri tədbirləri görmək. Bu, ölkə qanunlarının Konvensiyanın ruhunu əks etdirməsini təmin etmək üçün müvafiq qanunvericiliyin qəbulunu nəzərdə tuta bilər. Bəzi hallarda, bu, inzibati və ya hətta sosial praktikaların dəyişdirilməsini nəzərdə tuta bilər;
- Konvensiyanın yerinə yetirilməsini təmin etmək üçün mövcud resursları maksimum miqdarda ayırmaq.

Qeyd-şərtlər

Qeyd-şərt ratifikasiya zamanı hökumətin ya hər hansı hüquqa məhdudiyyət qoymasını, ya da həmin hüququ tamamilə rədd etməsini bildirən bəyanatdır.

Konvensiyanın iştirakçısı olan müxtəlif dövlətlər tərəfindən istər konkret, istərsə də ümumi qeyd-şərtlər edilmişdir. Məsələn,

- Birləşmiş Krallıq hökuməti immiqrasiya, uşaq əməyi və yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi ilə bağlı konkret qeyd-şərtlər etmişdir;
- Pakistan hökuməti bütövlükdə Konvensiya barədə geniş əhatəli qeyd-şərtini bəyan etmişdir: «Konvensiyanın müddəaları islam hüququ və dəyərləri prinsipinin işığında şərh olunmalıdır».

  Uşaq hüquqları haqqında Konvensiyanın məqsəd və vəzifələri ilə bir araya sığmayan qeyd-şərtlər irəli sürülməsinə yol verilmir (51-ci maddə).

Bəyanat

Konvensiyanın iştirakçısı olan dövlətlər Konvensiyanın hər hansı maddəsinə konkret ölkə tərəfindən verilən şərhin izah olunmasına xidmət edən bəyanatlar verə bilərlər. Məsələn, bəzi iştirakçı dövlətlər Konvensiyanın hələ doğulmayan uşağa şamil olunub-olunmadığı barədə öz şərhlərini izah etmək üçün bəyanatlar vermişlər.

**Hüquqi status**

Konvensiyanın hüquqi statusu müvafiq ölkənin konstitusiya mədəniyyətindən və konstitusiya ənənələrindən asılı olaraq, ölkədən ölkəyə fərqlidir. Bir çox hallarda aşağıda təsvir edilən əsas yanaşmalardan hər hansı birinə əməl olunur:

Çox zaman «transformasiya yanaşması» adlandırılan birinci yanaşmaya əsasən, beynəlxalq müqavilələrin, məsələn, konvensiyanın normaları müvafiq dövlət

tərəfindən milli səviyyədə müvafiq qanunvericiliyin qəbulu üçün baza kimi istifadə olunur. Müqavilə normalarının özləri isə milli qanunvericiliyin tərkib hissəsinə çevrilmirlər. Çox zaman «avtomatik inkorporasiya yanaşması» adlandırılan ikinci yanaşmaya əsasən, müqavilə ratifikasiya olunan kimi həmin ölkənin qanunvericiliyinin tərkib hissəsinə çevrilir. Hətta bəzi dövlətlərdə beynəlxalq müqavilələr «ölkənin ali qanunvericiliyinin» tərkib hissəsinə çevrilir və həmin müqavilələrin normalarına ümumiyyətlə digər qanunvericilik normalarından üstün olan status verilir. Axırıncı iki halın hər birində müqavilə normaları milli məhkəmələrdə birbaşa tətbiq edilə bilər.

**Qüvvəyə minmə**

Uşaq Hüquqları haqqında Konvensiyanın timsalında qeyd etmək olar ki, beynəlxalq konvensiyanın qüvvəyə minməsi müəyyən prosedurlar tələb edir. Uşaq Hüquqları haqqında Konvensiya Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 20 noyabr 1989-cu ildə qəbul edilmiş və 26 yanvar 1990-cı ildə imzalanmaq üçün açıq elan olunmuşdur. Birinci gün Konvensiyanı ən azı 61 ölkə imzalamışdır – bu, hər hansı BMT müqaviləsinə münasibətdə misli görünməyən reaksiyadır. Konvensiyanın imzalanması sənədin ratifikasiyası üzərində dövlətin ciddi surətdə düşünmək iradəsini bildirir. Ratifikasiya müəyyən vaxt apara bilər, belə ki, bu müddətdə dövlətlər Konvensiya müddəalarına bağlı olan iştirakçı dövlətə çevrilməyin onlara nə kimi təsir göstərəcəyi barədə ciddi düşünürlər. Konvensiya zəruri olan 20 dövlət tərəfindən (faktiki olaraq 23) ratifikasiya edildikdən 30 gün sonra, 2 sentyabr 1990-cı ildə qüvvəyə minmişdir, beləliklə o, insan hüquqlarına dair müqavilələr arasında ən sürətlə qüvvəyə minmiş müqavilədir. 1991-ci ilin dekabrı üçün 105 ölkə Konvensiyanın iştirakçısı olan dövlətə çevrilmişdi və bu say artmaqda davam edirdi. 2003-cü ilin iyulunda 191 ölkənin Konvensiyanı ratifikasiya etməsi onun bütün dünya tərəfindən qəbulu edilməsi məqsədinə nail olmaq imkanını yaxınlaşdırmışdır.

Uşaq hüquqları haqqında Konvensiyaya bu cür ruh yüksəkliyi ilə reaksiya verilməsi ilə bağlı müxtəlif baxışlar mövcud ola bilər. Bəziləri belə düşünə bilər ki, iştirakçı dövlətlərin çoxu ratifikasiya zamanı sənədin həqiqi mənasını düzgün başa düşməyiblər, yaxud başa düşüblərsə, Konvensiyanı qəbul etməyin onlardan tələb olunacağını gözləmək istəməyiblər. Digərləri düşünə bilər ki, az inkişaf etmiş ölkələrin bəziləri Konvensiyanı heç də uşaqlara qayğı göstərdiklərinə görə ratifikasiya etməyiblər, əksinə, ona görə ratifikasiya ediblər ki, Konvensiyada beynəlxalq əməkdaşlığın qeyd olunması onlara pul və ya digər formalarda yardım almaq ümidi verir.

Hər halda mahiyyət etibarı ilə ölkənin Konvensiyanı hansı məqsədlə ratifikasiya etməsi əhəmiyyətli deyil. Fakt odur ki, ratifikasiya vasitəsilə dövlətlər razılıq verir ki, Konvensiyada əks olunmuş öhdəliklər hökumətlər tərəfindən uşaqlar üçün təmin edilməli olan məcburi minimum beynəlxalq hüquq standartlarıdır. Onlar dəyişikliklər üçün istinad vasitəsi kimi, habelə qanunvericiliyi, siyasət və praktikanı təkmilləşdirmək üçün baza kimi istifadə edilə bilən hərtərəfli beynəlxalq hədəfləri formalaşdırır.

**AKRONİMLƏR**

BMT - Birləşmiş Millətlər Təşkilatı
İHAK – BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı
İHŞ - BMT-nin İnsan Hüquqları Şurası
İHÜB - İnsan Hüquqları haqqında Ümumi Bəyannamə
UHK – Uşaq Hüquqları haqqında Konvensiya

## I. BEYNƏLXALQ İNSAN HÜQUQLARI SİSTEMİ FƏALİYYƏTDƏ

BMT və digər insan hüquqları qurumları dünyada insan hüquqlarının müdafiəsi, monitorinqi və inkişaf etdirilməsinə yönəlik fəaliyyət göstərir. Bu fəaliyyətlərə aşağıdakılar aiddir:

| | |
|---|---|
|  | **MÜQAVİLƏLƏR YARATMAQ.** İnsan hüquqları qurumlarının mühüm funksiyalarından biri insan hüquqları məfhumu və məzmununun anlaşılmasını genişləndirməkdir. Məsələn, 2003-cü və 2007-ci illərdə BMT-nin müqavilə qurumları tərəfindən iki yeni insan hüquqları sazişi qüvvəyə minmişdir: Bütün Miqrant İşçiləri və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsinə dair Beynəlxalq Konvensiya və Əlilliyi olan Şəxslərin Hüquqlarına dair Konvensiya. BMT və digər insan hüquqları qurumları həmçinin insan hüquqları sazişlərində əks olunmuş məsələlərə dair müxtəlif bəyannamələr və şərhlər verir, beynəlxalq hüquqla bağlı məsuliyyəti anlatmaq üçün dövlətlər və vətəndaş cəmiyyəti qurumlarını maarifləndirir. |
|  | **MONİTORİNQ VƏ HESABATLIQ.** Beynəlxalq və regional insan hüquqları qurumları müxtəlif üzv ölkələrdə insan hüquqlarına dair vəziyyəti monitorinq edir və ona dair hesabat hazırlayır. Beynəlxalq və regional insan hüquqları sazişlərinə tərəf çıxmış ölkələr həmin sazişlərdə yer almış məsələlərin yerinə yetirilməsinə dair mütəmadi olaraq hesabat təqdim edir. Bəzi hallarda insan hüquqları qurumu ölkəyə səfər edərək, insan hüquqları vəziyyətini birbaşa öyrənə bilər. Hesabatlar həmçinin yerli və beynəlxalq insan hüquqları təşkilatları, müstəqil ekspertlər və dövlət qurumları tərəfindən təqdim edilə bilər. Bu hesabatların əsas məqsədi insan hüquqlarının pozulması hallarını ifşa etmək və onların aradan qaldırılmasında ölkələrə metodoloji dəstək göstərməkdir. |
|  | **ŞİKAYƏTLƏR QƏBUL ETMƏK.** Bəzi BMT və regional insan hüquqları qurumları həmçinin fərdlərdən və ya fərdlər qrupundan insan hüquqlarının pozulmasına dair şikayətlər də qəbul edə bilər. Bu qurumlar alınmış şikayətlərə aydınlıq gətirmək üçün müvafiq dövlətlərlə kommunikasiya yaradır və şikayətdə qeyd edilmiş pozuntulara cavab verməyı xahiş edir. Əgər fərdin insan hüququnun pozulması təsdiqlənərsə, BMT-nin qurumu dövlətlə fərd arasında razılaşmanın əldə olunmasını mediasiya edə bilər. Bəzi hallarda isə həllini tapmamış məsələlərin beynəlxalq məhkəməyə göndərilməsi də tövsiyə oluna bilər. |

| | |
|---|---|
|  | **İNSAN HÜQUQLARI STANDARTLARININ TƏMİN EDİLMƏSİ.** İnsan hüquqlarını kütləvi şəkildə pozan ölkələrə qarşı BMT-nin Təhlükəsizlik Şurası tərəfindən sanksiyalar tətbiq edilə bilər. Avropa İnsan Hüquqları Məhkəməsi və digər regional insan hüquqları qurumları üzv ölkələrdə baş vermiş insan hüquqlarının pozulması hallarını müstəqil şəkildə araşdıra və müvafiq qərar qəbul edə bilər. Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən isə insan hüquqlarının kütləvi pozuntuları araşdırıla və müvafiq qərarlar qəbul edilə bilər. |
|  | **İNSAN HÜQUQLARINA DAİR VƏZİYYƏTİN YAXŞILAŞMASINA BİRBAŞA DƏSTƏK.** BMT-nin müxtəlif agentlikləri üzv dövlətlər və vətəndaş cəmiyyəti qurumları ilə birgə işləyərək insan hüquqlarına dair vəziyyətin yaxşılaşmasına yardım edə bilər. Bu agentliklər dövlət qurumlarına təlimlər keçə, insan hüquqlarına dair tədris proqramları təşkil edə bilər. Bir çox hallarda, həmin agentliklər insan hüquqlarının təmin edilməsində birbaşa iştirak edir. Məsələn, müharibə şəraitində olan uşaqların təhsilə çıxışı, səhiyyə xidmətləri ilə təmin edilməsi, aclıqdan əziyyət çəkən əhalinin qida məhsulları ilə təmin olunması həmin agentliklər tərəfindən həyata keçirilə bilər. |

## II. İNSAN HÜQUQLARININ MONİTORİNQİ VƏ MÜDAFİƏSİ MÖVZUSUNDA TƏLİM PROQRAMI-KURİKULUM

| **Günlər** | **Mövzu** | **Müddət** | **Nəzəri və mühazirə materialının mənbəyi** |
|---|---|---|---|
| **Gün 1.** | Kurs haqqında məlumat<br>Kursun məqsəd və vəzifələri<br>Kursdan gözləntilər | 20 dəq | |
| | Kurs öncəsi sorğu vərəqi | 10 dəq | |

| | | | |
|---|---|---|---|
| | İnsan Hüquqlarının əsas konsepsiyası<br>Insan Hüquqlarına giriş və universal razılaşmalar<br>İnsan Hüquq və azadlıqlarına dair beynəlxalq standartlar<br>BMT-nin Nizamnaməsi. BMT-nin Nizamnamə Qurumları və onların vəzifələri. | 35 dəq | A. Hissəsi. İnsan olmaq nə deməkdir? (20 dəqiqə)<br>B. Hissəsi. Hüquq nə deməkdir? (40 dəqiqə)<br>C. Hissəsi. İnsan Hüquqlarının əsası nədir? (30 dəqiqə)<br>A Hissəsi. Yeni planet üçün insan hüquqları (1 saat) |
| | İnsan Hüquqları haqqında Ümumi Bəyannamə<br>İnsan Hüquqları haqqında Beynəlxalq Bill | 20 dəq | A Hissəsi. İnsan Hüquqları Komitəsi ÜİHB-i tərtib edir (1 saat)<br>B Hissəsi. İnsan Hüquqları standartlarının təkamülü (15 dəqiqə)<br>C Hissəsi. İnsan Hüquqlarının mənşəyi və tarixi (30 dəqiqə)<br>A. Hissəsi. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə ilə hüquqların əlaqələndirilməsi (30 dəqiqə) |

| | | | |
|---|---|---|---|
| | BMT İnsan Hüquqları üzrə Ali Komissarlıq (İHAK)<br>BMT-nin İnsan Hüquqları Şurası (İHŞ) | 20 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu;<br>BMT İnsan Hüquqları üzrə Ali Komissarlığın dərc etdirdiyi digər nəşrlər;<br>BMT İnsan Hüquqları üzrə Ali Komissarlığının veb-səhifəsi: http://www.ohchr.org/EN/Pages/WelcomePage.aspx. |
| | BMT-nin İnsan Hüquqları Şurasının Xüsusi Prosedurları | 30 dəq | Yuxarıda sadalanan mənbələr |
| | BMT-nin Müqavilə Qurumları | 60 dəq | Yuxarıda sadalanan mənbələr |
| | BMT-nin Müqavilə Qurumlarına dövlət hesabatlarının təqdim edilməsi | 30 dəq | D Hissəsi. Mərkəzi və Şərqi Avropa, MDB, Orta Asiya kontekstində insan hüquqları (15 dəqiqə) |

| | | | |
|---|---|---|---|
| | QHT-lərin BMT-nin Müqavilə Qurumları ilə əməkdaşlığının xüsusiyyətləri və təminat | 30 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu. |
| | Alternativ Hesabatların təqdimatı prosesi:<br>- hesabatın strukturu və hazırlanarkən əsas nəzərə alınmalı məqamlar<br>- sessiyada iştirak<br>- hesabata tövsiyələrin əlavə edilməsi<br>- ixtisaslaşdırılmış hesabatların hazırlanması<br>- faydalananların iştirakı | 90 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | BMT-nin komitələrinin Yekun Tövsiyələri; Tövsiyələrdən sonrakı fəaliyyət | 60 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | | | |
| **GÜN 2.** | 1-ci günün icmalı: suallar və izahlar | 15 dəq | |

| | | | |
|---|---|---|---|
| | Xüsusi prosedurlar üzrə kommunikasiyalar | 60 dəq | Birləşmiş Millətlər Təşkilatinin İnsan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | Universal Dövri İcmal:<br>- hesabatın hazırlanması<br>- işçi qrupu<br>- Üçlük<br>- ÜDİ-nın yekun sənədləri, tövsiyələr<br>- İcmaldan sonrakı fəaliyyət | 90 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğvi Komitəsi (CEDAW): alternativ hesabatın xüsusiyyətləri | 40 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi: alternativ hesabatın xüsusiyyətləri | 40 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | Fərdi şikayətlər proseduru<br>- Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəyə fərdi şikayətin verilməsi.<br>- İşgəncələr əleyhinə Komitəyə fərdi şikayətin verilməsi<br>- Uşaq hüquqları Komitəsinə fərdi şikayətin verilməsi | 60 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | Digər Komitələrə fərdi şikayətlərin verilməsi | 40 dəq | Birləşmiş Millətlər Təşkilatinin Insan Hüquqlarinin Müdafiəsi Mexanizmləri, vəsaitlər toplusu |
| | | | |
| **GÜN 3.** | Praktik məşğələlər | | |
| | İnsan hüquqları xəbərlərdə | 30-40 | |
| | İnsan Hüquqlarına Əsaslanan Yanaşma; Vəziyyətin hüquqlara əsaslanan təhlili | 15 dəq | |

| | | | |
|---|---|---|---|
| | Hüquqlara Əsaslanan Təhlilə Baxış: Uşaq hüquqlarına dair vəziyyətin təhlili | 30 dəq | |
| | İnsan hüquqları çərçivəsində “problemi” müəyyən etmək;<br>Səbəbin müəyyən edilməsi;<br>Kimin cavabdeh olduğunu müəyyən etmək;<br>Hüquqlara əsaslanan strategiya | 60 dəq | Situasiya. Ekvadorda səhiyyə hüququnun reallaşdırılması – dövlətin öhdəliklərinin qiymətləndirilməsi.<br>Situasiya. Hindistanda ibtidai təhsil almaq hüququnun reallaşdırılması – maraqlı tərəflər öz öhdəliklərini yerinə yetirirlərmi?<br>Məşğələ. Hüquqlara əsaslanan məqsəd |
| | Praktik situasiyaların təhlili | 90 dəq | Situasiya 1. Qadın hüquqları və zorakılıq<br>Situasiya 2. Qadın hüquqları və abort<br>Situasiya 3. Tibbi qayğı ilə əhatə olunma<br>Situasiya 4. İqtisadi və sosial hüquqlar. |
| | Alternativ hesabatın hazırlanması.<br>Qruplarda iş:<br>- Əlilliyi olan şəxslərin vəziyyətinə dair hesabatın hazırlanması<br>- Uşaqların hüquqlarının qorunmasına dair hesabatın hazırlanması<br>- Qadınlara qarşı zorakılığa dair hesabatın hazırlanması. | 120 dəq | |

| | | | |
|---|---|---|---|
| | Fərdi şikayətlərin hazırlanması:<br>• Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəyə fərdi şikayətin verilməsi.<br>• İşgəncə əleyhinə Komitəyə fərdi şikayətin verilməsi<br>• Uşaq hüquqları Komitəsinə fərdi şikayətin verilməsi | 120 dəq | |

**TƏQDİMAT 1: İnsan Hüquqlarına Əsaslanan Yanaşmadan İnkişafa, BMT Agentlikləri arasında Ümumi Anlaşmaya Doğru Əməkdaşlıq (BMT: 19 may 2003)**

"İnsan hüquqları prinsipləri qiymətləndirmə və təhlil, proqramların planlaşdırılması və hazırlanması (o cümlədən məqsədlərin və strategiyaların təyin edilməsi), proqramların icrası, monitorinqi və qiymətləndirilməsi mərhələlərində tətbiq edilir".

İnsan hüquqları prinsipləri aşağıdakı kimidir: universallıq və özgəninkiləşdirilməyən (ayrılmaz) olması; bölünməzlik; qarşılıqlı asılılıq və əlaqəlilik; ayrı-seçkiliyin olmaması və bərabərlik; iştirak və cəlb edilmə; məsuliyyətlilik və qanunun aliliyi. Bu prinsiplər aşağıda daha ətraflı izah olunur:

- Universallıq və özgəninkiləşdirilməyən olması: İnsan hüquqları universal və özgəninkiləşdirilə bilinməyəndir. Dünyanın istənilən yerində istənilən insan bu hüquqların sahibidir. Onları ayrılmaz kimi qəbul edən insanın bu hüquqları könüllü olaraq dayandırılmır. Və ya başqaları bu hüquqları ondan ala bilməzlər. İHUB-un 1-ci maddəsində göstərildiyi kimi "Bütün insan övladları azad və şərəf və hüquqları bərabər şəkildə doğulurlar".
- Bölünməzlik: İnsan hüquqları bölünməzdir. Mülki, mədəni, iqtisadi, siyasi və ya sosial xüsusiyyətə malik olub-olmamalarından asılı olmayaraq onların hamısı hər bir insan övladının ləyaqətinin ayrılmaz bir hissəsidir. Beləliklə onların hamısının bərabər hüquq statusları vardır və onlar prioritet, iyerarxiya üzrə sıralana bilməzlər.
- Qarşılıqlı asılılıq və qarşılıqlı əlaqəlilik. Bir hüququn icrası adətən tam və ya qismən digər hüquqların icrasından asılı olur. Məsələn, səhiyyə hüququnun icrası müəyyən şərtlərdə təhsil hüququnun və ya məlumat almaq hüququnun icrasından asılı ola bilər.
- Bərabərlik və ayrı-seçkiliyin olmaması: İnsan övladları kimi və hər bir insana məxsus ayrılmaz ləyaqətə malik olmaqla bütün fərdlər bərabərdirlər. Bütün insan övladları irq, rəng, cins, etnik mənsubiyyət, yaş, dil, din, siyasi və digər fikirlər, milli və ya sosial mənşə, əlillik, əmlak, doğum və ya insan hüquqları üzrə sazişlərin müəyyən etdiyi digər status kimi heç bir ayrı-seçkilik olmadan öz insan hüquqlarının sahibləridirlər.
- İştirak və cəlb edilmə: Hər bir insan və bütün insanların insan hüquqları və fundamental azadlıqlarının reallaşa biləcəyi mülki, sosial, mədəni və ya siyasi hadisədə fəal, sərbəst və mənalı iştirak etmək, töhfə vermək və yararlanmaq hüquqları vardır.
- Hesabatlılıq və hüququn aliliyi: Dövlətlər və digər vəzifə daşıyanlar insan hüquqlarının təmin edilməsinə görə cavabdehdirlər. Bu məsələdə onlar insan hüquqları sənədlərində müəyyən edilmiş hüquq normalara və standartlara riayət etməlidirlər. Bunu edə bilmədikdə, zərər çəkmiş hüquq sahiblərinin qanunun müəyyən etdiyi qaydalara və prosedurlara müvafiq olaraq təzminat almaq üçün səlahiyyətli məhkəmə və ya hakim qarşısında məhkəmə prosesi başlamaq hüquqları vardır.

**TƏQDİMAT 2: İnsan Hüquqlarına Əsaslanın Yanaşmanın İnkişaf Proqramına Əsasən Mənası (BMT: May 2003)**

Təcrübə göstərmişdir ki, insan hüquqlarına əsaslanan yanaşmadan istifadə yaxşı proqramlama təcrübəsindən istifadə etməyi tələb edir. Bununla belə "yaxşı proqramlama təcrübələri"nin tətbiqi özlüyündə insan hüquqlarına əsaslanan yanaşma yaratmır və əlavə elementlər tələb edir. Aşağıdakı elementlər insan hüquqlarına əsaslanan yanaşma üçün zəruri, spesifik və unikaldır:

- Qiymətləndirmə və təhlil hüquq sahiblərinin insan hüquqları tələblərini və müvafiq vəzifə daşıyanlarının insan hüquqları üzrə öhdəliklərini, eləcə də hüquqların reallaşdırılmamasının əsas və struktur səbəblərini müəyyən edir.
- Proqramlar hüquq sahiblərinin öz hüquqlarını tələb etmək və vəzifə daşıyanların öz öhdəliklərini yerinə yetirmək imkanlarını qiymətləndirir. Onlar sonra bu imkanları artırmaq üçün strategiyalar hazırlayırlar .
- Proqramlar insan hüquqları standartları və prinsiplərini rəhbər tutmaqla həm nəticələrin, həm də proseslərin monitorinqini aparır və qiymətləndirir.
- Proqramlaşdırma beynəlxalq insan hüquqları orqanları və mexanizmlərinin tövsiyələri ilə təmin edilir.

İnsan hüquqlarına əsaslanan proqramlaşdırma (İHƏP) kontekstində yaxşı proqramlaşdırma təcrübəsi üçün vacib olan digər elementlərə həm də aşağıdakılar daxildir:

1. İnsanlar inkişafa doğru mal və xidmətlərin passiv alıcılarından daha çox aktiv icraçılar kimi tanınırlar.
2. İştirak həm vasitə, həm də məqsəddir.
3. Strategiyalar səlahiyyətlər yaradır, səlahiyyətləri azaltmır.
4. Həm nəticələr, həm də proseslər monitorinq edilir və qiymətləndirilir.
5. Təhlillərə bütün maraqlı tərəflər daxildir.
6. Proqramlar məhdudlaşdırılmış, əlverişsiz şəraitdə olan və istisna edilmiş qruplara diqqət yetirir.
7. Proqramlar bərabərsizliyi azaltmaq məqsədi güdür.
8. Həm aşağıdan-yuxarıya, həm də yuxarıdan-aşağıya olan yanaşmalar birlikdə istifadə edilir.
9. Vəziyyətin təhlili inkişafla bağlı problemlərin əsas və strukturda kök salmış səbəblərini müəyyən etmək üçün istifadə edilir.
10. Proqramlamada ölçülə bilən məqsədlər və hədəflərin olması vacibdir.
11. Strateji tərəfdaşlıqlar inkişaf etdirilir və saxlanılır.
12. Proqramlar bütün maraqlı tərəflərin cavabdehliyini dəstəkləyir.

## İnsan hüquqlarının əsas konsepsiyası

Məşğələnin ümumi məqsədi:

- İştirakçıları insan hüquqlarının əsas konsepsiyası ilə tanış etmək;
- İnsan hüquqları və insan ləyaqəti arasında əlaqəni iştirakçılara tanıtmaq.
- Materiallar: yazı lövhəsi və təbaşir və ya divar bloknotu kağızı, markerlər və yapışqanlı lent; İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (İHÜB) (qısaldılmış, sadələşdirilmiş və ya tam mətni); İnsan Hüquqları Lüğəti.

A. Hissəsi. İnsan olmaq nə deməkdir? (20 dəqiqə)
B. Hissəsi. Hüquq nə deməkdir? (40 dəqiqə)
C. Hissəsi. İnsan Hüquqlarının əsası nədir? (30 dəqiqə)

### 1.1. İnsan olmaq nə deməkdir?

1. «İNSAN» sözünü divar bloknotu və ya yazı lövhəsinin yuxarı hissəsində yazın. «İnsan» sözünün altında insanın dairəsini cızın. İştirakçılardan xahiş edin insanı xarakterizə edən xüsusiyyətlər barədə "beyin həmləsi" etsinlər və sözləri və ya işarələri dairənin içində yazın. Məsələn, «ağıl», «şəfqət göstərmə».
2. Sonra insan olaraq bu xüsusiyyətləri müdafiə etmək, artırmaq və tam inkişaf etdirmək üçün nəyin lazım olduğunu iştirakçılardan soruşun. Onların cavablarını dairədən kənarda yazın və iştirakçılardan onları izah etmələrini xahiş edin. Məsələn, verilən cavablar «təhsil», «dostluq», «sevən ailə» ola bilər. (Qeyd: bu siyahını sonrakı tədbirdə istifadə etmək üçün saxlamağı unutmayın).
3. Müzakirə edin:
   - Tam insan olmaq nə deməkdir? Sadəcə «sağ qalmaqdan» və ya «yaşamaqdan» bu necə fərqlənir?
   - Bu siyahı əsasında ləyaqətli yaşamaq üçün insanlara nə lazımdır?
   - Bütün insanlar bərabərdirlərmi? İnsanlar arasında fərqin dəyəri nədən ibarətdir?
   - Bizim «əhəmiyyətli» insan xüsusiyyətlərimizdən hər hansı biri bizdən alına bilərmi? Məsələn, yalnız insanlar mürəkkəb dillə ünsiyyət qura bilərlər; siz danışmaq bacarığınızı itirsəniz insan olaraq qalırsınızmı?
   - Belə insan ehtiyaclarından biri sizdən alınsa nə baş verər?
4. Dairənin içindəkilərin insan ləyaqətinə aid olmasını izah edin. Dairədən kənarda yazılanlar insan ləyaqəti üçün nələrin lazım olduğunu təsvir edir. İnsan hüquqları bu ehtiyacların üzərində qurulur.

İnsan Hüquqları haqqında Ümumi Bəyannamədən bu cümlələri oxuyun:
*"...bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması azadlıq, ədalət və ümumi sülhün əsasıdır..."*

**Preambula, İnsan Hüquqları haqqında Ümumi Bəyannamə**

*"Bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüur və vicdanları var və bir-birilərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar."*

**Maddə 1, İnsan Hüquqları haqqında Ümumi Bəyannamə**

Hər kəsin ləyaqətinə hörmətlə yanaşılması üçün İHÜB-ün insanların bir-biri ilə necə davranmalı olması standartların müəyyən etdiyini izah edin.

### 1.2. Hüquq nə deməkdir?

1. «Hüquqlar» sözünü divar bloknotu və ya yazı lövhəsinin yuxarı hissəsində yazın. «Hüquqlar» sözünün müxtəlif mənalarını «beyin həmləsi» etdirin. Tez-tez işlənilən «bu bizim hüququmuzdur» və ya «bunu deməyə sənin hüququn

yoxdur» cümlələrini nəzərdə saxlayın. Müxtəlif mənaları lövhədə yazın. İnsan hüququna gəldikdə, «hüquq» sözünün mənası nədir?

2. A seçimi və ya B seçimi edərək davam edin. Onlar təxminən eyni fikirləri əhatə edir, lakin cüzi fərq mövcuddur.

| Seçim 1 | Seçim 2 |
|---|---|
| 2. Kiçik qruplarda və ya hamı birlikdə insan hüquqları anlayışını «beyin həmləsi» metodu ilə müzakirə edin və nəticələri lövhədə yazın. Çalışın hər kəsin razılaşdığı anlayışı tapın və bunu kağızda qeyd edin.<br><br>3. İnsan hüquqlarının aşağıdakı anlayışını lövhədə yazmaqla və ya divar bloknotu istifadə etməklə göstərin:<br><br>***Hər bir şəxsin cinsindən, irqindən, dərisinin rəngindən, dilindən, milli mənşəyindən, yaşından, sosial mənşəyindən, dinindən və ya siyasi mövqeyindən asılı olmayaraq insan hüquqları var. Onlar universal, ayrılmaz, bölünməz və qarşılıqlı əlaqəlidirlər.***<br><br>- Universal nə deməkdir? Hüquqların ayrılmazlığı? Hüquqların bölünməzliyi? Qarşılıqlı əlaqə?<br><br>İştirakçılardan xahiş edin **Prinsiplər Kartına** istinad etsinlər və ya özünüz onların mənasını qrupa izah edin.<br><br>4. A Hissəsində söhbət gedən xüsusiyyətlər siyahısına qayıdın. | 2. İnsan hüquqlarını müəyyən edin: (20 dəqiqə)<br>• İştirakçılardan xahiş edin 5 qrupa bölünsünlər;<br>• Hər bir qrup aşağıdakı terminləri müəyyən edir: insan hüquqları, azadlıq, ləyaqət, cavabdehlik, bərabərlik;<br>• Hər bir anlayışı ayrıca vərəqdə yazın (vərəqdə yazma qaydalarına uyğun olaraq)<br>3. Anlayışları müzakirə edin (15 dəqiqə):<br>• Bütün vərəqləri toplayın və bir terminin bütün anlayışlarını bir qrupa paylayın;<br>• Hər qrup bir termini müzakirə edir və öz termininə dair bir anlayış tərtib etməyə çalışır;<br>• Divar bloknotunun yuxarı hissəsində son anlayışı və onun altından əvvəlki anlayışları yazmaqla, qruplar öz vərəqlərini divara asırlar. |

| | |
|---|---|
| 5. «YAŞAMA/MÖVCUD OLMA», «İNSAN LƏYAQƏTİ» və «RAHATLIQ VƏ DƏBDƏBƏ» sözlərini digər lövhədə və ya vərəqdə yazın. Bu terminlərin mənasını müzakirə edin.<br>A Hissəsində hazırlanmış qeydlərə nəzər salın. Bu başlıqlar altında insan xüsusiyyətlərini tam inkişaf etdirmək üçün zəruri hesab edilən hər bir bəndi yerləşdirin. Məsələn, yaşamaq üçün təhsil zəruridirmi? İnsan ləyəqəti üçün necə? Təhsil rahatlıq yoxsa dəbdəbədir? | 4. Birgə müzakirələr (20 dəqiqə):<br>• Bütün iştirakçılar anlayışın yazıldığı divar bloknotunun ətrafına toplanır. Aşağıdakı istiqamətləndirici suallardan istifadə edin:<br>- anlayışlarla razısınız?<br>- anlayışlara digər şərhlər və ya suallar var?<br>- terminlərin anlayışını müəyyən edərkən hər hansı çətinlik çəkdinizmi?<br>• Bu proses hər bir anlayış üçün təkrar edilir.<br>Hüquqları təsvir edən terminlər anlayışların mümkün olan dəstidir.<br>5. Hüquqların daha da yaxşı başa düşülməsi üçün prezentasiya və ya Ehtiyaclar-Hüquqlar-Öhdəlik vərəqindən istifadə edin. |
| 6. Müzakirə edin:<br>- insan hüquqları yalnız insanın yaşamağı üçün ehtiyacları əhatə etməlidir? Niyə bəli və niyə xeyr?<br>- İnsan hüquqları «rahatlıq və dəbdəbə» adı altında sadaladığınız elementləri də müdafiə etməlidirmi? Niyə bəli və niyə xeyr?<br>- Dünyada bəzi insanların ancaq yaşamaq üçün zəruri olan əşyaları var, digərləri isə rahatlıq və dəbdəbə içində yaşayırlar. Bu insan hüquqlarının pozulması sayılırmı?<br>İnsan ləyaqətinə sahib olmanı bərabərləşdirmək üçün nə isə edilə bilərmi? Nə isə etmək lazımdırmı? Lazımdırsa, necə və kim tərəfindən?<br>7. Hüquqların daha da yaxşı başa düşülməsi üçün prezentasiya və ya Ehtiyaclar-Hüquqlar-Öhdəlik vərəqindən istifadə edin. | |

**Prinsiplər kartı**

***Universal***. İnsan Hüquqları universaldır. İrqindən, cinsindən, dinindən, siyasi və ya digər düşüncəsindən, milli və sosial mənşəyindən asılı olmayaraq onlar bütün insanlar üçün eynidir. Biz hamımız azad doğulmuşuq, ləyaqət və hüquqlarımızda bərabərik. İnsan hüquqlarını satın almaq, qazanmaq və ya onlara varis olmaq ehtiyac deyil. Sadəcə biz insan olduğumuzdan bu hüquqlar bizdə var. İnsan hüquqları hər bir şəxsə «məxsusdur».

***Ayrılmaz***. İnsan hüquqları ayrılmazdır. Heç bir kəsin hər hansı bir səbəbdən digər şəxsi insan hüquqlarından məhrum etmək hüququ yoxdur. Hətta insanların öz ölkə qanunları insan hüquqlarını tanımasa belə, onların insan hüquqları var, və ya

hüquqlar pozulduqda, məsələn, köləlik istifadə edilirsə, qulların yenə də hüquqları var, baxmayaraq ki, bu hüquqlar pozulur.
***Bölünməz***. İnsan hüquqları bölünməzdır. Ləyaqətli yaşamaq üçün bütün insanlar eyni zamanda azadlıqda, təhlükəsizlikdə və müəyyən yaşayış standartlarında bərabər olmalıdırdlar.
***Qarşılıqlı əlaqəli***. İstənilən fərdi insan hüquqa sahib olma, digər insan hüquqlarının tanınmasından və onlara hörmət edilməsindən asılıdır. Hər hansı insan hüququnun inkar edilməsi digər insan hüquqlarına sahib olmağa təsir edəcək.

**Hüquqların terminlərlə ifadəsi**

| | |
|---|---|
| Bərabərlik | Ədalətlə əlaqədardır. Hər kəs ilə vicdanla davranmaq lazımdır – heç bir kəs üstünlük verilməli deyil |
| Məsuliyyət | Öhdəliklər və onlardan tələb edilən tədbirlərin görülməsi |
| Azadlıq | İnsanlara, onların mülkiyyətinə və bizim ətraf mühitə qayğı ilə yanaşmaq və onlara hörmət etmək kimi mənəvi öhdəliyini əhatə edir |
| Ləyaqət | Hər kəs insan olduğu üçün, ləyaqət dünyada hamıya məxsusdur. O, hamıya, istənilən yerdə və zamanda məxsusdur. |
| İnsan hüquqları | Digər anlayışların birlikdə necə istifadə edilməsi və sərbəstliklə əlaqədərdır görüləcək tədbiri seçmək imkanında olma. |

| **Ehtiyaclar-Hüquqlar-Öhdəliklər** | |
|---|---|
| Uşaqların EHTİYACLARI var | Bu ehtiyaclar sosial ÖHDƏLİK nəzərdə tutu və müvafiq STANDARTLARI özündə ehtiva edir. |

| | |
|---|---|
| «Hüquqlara əsaslanan yanaşma» bu cavabdehliyin və öhdəliklərin tanınmasını və müdafiə edilməsini təmin etmək məqsədi güdür; bununla da uşaqların ehtiyaclarının ödənilməsini təmin edir. | |

| | |
|---|---|
| Beləliklə, dövlət hüquqlara dair beynəlxalq konvensiyanı ratifikasiya edəndə, o, bütün əhali qarşısında beynəlxalq hüquqi öhdəliyi qəbul edir. | HÜQUQLAR icazə verilmiş hərəkət və y qadağan olunmuş hərəkət standartının icrasın məcburi edir. |
| | Hüquqlar ədalətli və ya bərabər rəftarl bağlıdır. Onlar qanuni hakimiyyət tərəfində yaradılmış standartlar və məcəllələrə uyğu olan qərarların ədalətliliyi ilə əlaqəlidir. |

*WHO-SEA Regionuna arxalanır: http://w3.whosea.org/crc/*

### 1.3. İnsan Hüquqlarının əsası nədir?

1. Tədbiri aşağıdakı məlumatı paylaşmaqla başlayın:
   a. İnsan hüquqları insan kimi ləyaqətlə yaşamaq üçün əsas standartlar kimi müəyyən edə bilər. İnsan hüquqları azadlığın, ədalətin və sülhün əsasıdır. Onlara qarşı rəğbət fərdlərin və icmaların tam inkişaf etməsinə imkan verir.
   İnsan hüquqlarının inkişafının kökləri dünyanın istənilən yerində azadlıq və bərabərlik uğrunda mübarizəyə gedib çıxır. İnsan hüquqlarının əsası, məsələn, insan həyatına və insan ləyaqətinə hörmətlə yanaşma əksər dinlərin və fəlsəfələrin bir hissəsidir.
   20-ci Əsrdə İnsan Hüquqları (Tezisdə) məlumat vərəqini paylayın və qısa olaraq gözdən keçirin.
2. İştirakçılardan ayağa qalxıb otağın bir tərəfində toplaşmağı xahiş edin. İzah edin ki, siz oxuyacağınız bəzi ifadələrə dair onlardan öz fikirlərini söyləməyi xahiş edəcəksiniz. İştirakçılardan xahiş edin təsəvvür etsinlər ki, otağın bir başından digər başına tərəf xətt gedir. Təlimçi otağın bir başına tərəf gedir və ifadəyə əsasən oranın «tam razılığ»-ı təmsil etməsini bildirir. Sonra siz yolun 1/4 hissəsini digər istiqamətdə dəf edirsiniz və oranın «razılaşmanı» təmsil etdiyini deyirsiniz. Sonra yenə təssəvvür edilən xəttin 3/4 hissəsini keçirsiz və oranın «razılaşmama»nı təmsil etdiyini deyirsiniz və yekun olaraq otağın digər başında deyirsiniz ki, ora ifadəyə əsasən «tamamilə razılaşmamanı» təmsil edir (əgər iştirakçılar cuzi olaraq tərəddüd edirlərsə, xahiş edin onlar «razılaşma» və ya «razılaşmama» seçsinlər). Onlar öz fikirlərindən asılı olaraq otağın müxtəlif hissələrinə keçəcəklər. Qrupun bunu düzgün başa düşməsinə əmin olun.

   1-ci ifadəni oxuyun: hüquq sistemi tərəfindən tanınmayanadək insan hüquqları mövcud deyil.
3. Qrup üzvlərindən öz şəxsi mövqeyinə dair qərar qəbul etməyi və təssəvvür edilən xətt üstündə bir yer seçib nə fikirləşdiklərini söyləmələrini xahiş edin. İştirakçılardan seçdiyi yerlərə keçməyi və bütün fikirləri qrup birlikdə paylaşmayanadək danışmamağı xahiş edin.
4. Könüllülərdən öz mövqelərini bildirməyi və bu mövqeləri seçməyin səbəbini açıqlamağı xahiş edin. Xətt üstündə müxtəlif yerlər tutmuş iştirakçılar fikirlərini söyləməlidirlər. Fasilitator yönəldici suallar verə və yeni ideyalar irəli sürə bilər, lakin o, təklif edilən fikirlər barədə mübahisə etməli deyil.

Qeyd edilən səbəbləri başa düşmək üçün iştirakçılardan bir-birilərinə diqqətlə qulaq asmağı xahiş edin. Onlar birbaşa bir-biri ilə mübahisə etməli deyillər.

5. 3-4 iştirakçı fikirlərini bildirdikdən və bununla qrup daxilində mövqeyə dair əsas ideyalar aydın olduqdan sonra, qruplar eşitdikləri ideyalar əsasında istəsələr öz mövqelərini dəyişə bilərlər. Mövqeyini dəyişən bir və ya iki iştirakçıdan mövqelərinin dəyişmələrinin səbəbini izah etmələrini xahiş edin.
6. Eyni qaydada aşağıdakı ifadəni təkrar etdirin:

2-ci ifadə: insan hüquqları, yaşayış və inkişaf üçün hansı əsas şərtlərin lazım olması haqqında bizim anlayışımızdan, rasional qaydada doğulur. O, səbəb üzərində qurulur və qanun ilə sistem şəklinə salınıb salınmamasından asılı olmayaraq mövcud olur.[17]

3-cü ifadə: insan hüquqları mütləq deyil, o, cəmiyyətə məxsus mədəniyyətin nəyi düz və nəyi səhv hesab etməsi ilə müəyyən edilir.

4-cü ifadə: insan hüquqları millətin mədəni, siyasi və iqtisadi ənənəsi və inamı ilə müəyyən edilir.

8. Xahiş edin ki, qruplar öz yerlərinə qayıdıb əyləşsinlər. Çalışmada ortaya çıxan əsas məsələləri cəmləyib nəzərdən keçirin. Bəzi məsələlər bunları əhatə edə bilər: fərdlər insan hüquqlarının müxtəlif əsaslarının olmasını və bu əsasların çətin və mürəkkəb olmasını etiraf edir.
1-ci ifadənin qanuni hüquqlarla əlaqəli olmasını, 2-ci ifadənin təbii qanunlarla, 3-cü ifadənin mənəvi hüquqlarla və 4-cü ifadənin mədəniyyətlə əlaqəli olmasını müəyyən edin.
9. İştirakçılar QANUNİ HÜQUQLAR, MƏNƏVİ HÜQUQLAR və TƏBİİ HÜQUQLAR sözlərinin mənasını İnsan Hüquqları Lüğətində axtarıblarmı? Xahiş edin onlar bunu qrup üçün ucadan oxusunlar. Əlavə fikirlərin olub olmamasını soruşun. Belə müxtəlif insan hüquqları əsasları bir arada mövcud ola bilərlərmi? Hüquqların yalnız «qanuni» əsası qəbul edilsə nə olar?
10. İştirakçılardan HÜQUQ və VƏZİFƏ arasında olan münasibətə dair düşünməyi xahiş edin. Onlardan soruşun:
   A. Sağlamlığın qorunması hüququna görə kim cavabdehdir?

Cavabları divar kağızında və ya ağ lövhədə yazın. Müzakirələri istiqamətləndirmək üçün Hüquqlara görə Cavabdehlik sözlərindən istifadə edin. Özəl sektor, media və iştirakçıların unudub qeyd etmədikləri digər vəzifə daşıyıcılarını qeyd etməyi unutmayın. Qanuni/rəsmi insan hüquqları sistemində əsas vəzifə daşıyıcısının dövlət olmasını və digərlərin də cavabdeh olmasını onlara xatırladın.

11. İştirakçılardan soruşun: İnsan hüquqlarının mədəni anlayışı ilə İHUB-in insan hüquqlarının ayrılmaz, bölünməz və qarşılıqlı əlaqəli olmasını bəyan etməsi nə dərəcədə əlaqəlidir? Məşğələni Yekun Qeydinə əsaslanan fikirlərlə yekunlaşdırın.

**İnformasiya Vərəqi: 20-ci ƏSRDƏ İNSAN HÜQUQLARI**

[17] Aşağıdakı mənbədən götürülərək bu materiala uyğunlaşdırılmışdır: "Children's Rights Training Package (draft)" Draft, UNICEF Hanoi, 1999, səh.7-13.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Hind Vetxası Babilstanın Hammurapi Məcəlləsi Bibliya Quran Konfutsinin Ədəbiyyat Toplusu | İnka və asteklərin davranış və ədalət məcəllələri | Maqna Karta | İngiltərənin Hüquqlar haqqında Bili (1689) | Fransanın İnsan və Vətəndaş Hüquqları haqqında Bəyannamə (1789) | ABŞ Konstitusiyası (1791) | ÜİHB (1949) |

**Yekun Qeyd**

İnsan hüquqları konsepsiyası universaldır. Hər mədəniyyətdə insan hüquqları prinsiplərinin öz ifadəsi var. Lakin insan hüquqlarının hərtərəfli ifadəsi bəzən mədəni ifadələrlə münaqişə yarada bilər, məsələn Yaxın Şərqdə bəzi cəza növləri və Asiyada qadının statusu/rolu. Normalar və praktikamızın bizim ləyaqətimizi insan ləyaqəti kimi yenidən təsdiq etməsini qiymətləndirmək üçün insan hüquqları çərçivəsi bizi öz müvafiq mədəniyyətlərimizə yenidən baxmağa vadar edir.

İnsan hüquqları beynəlxalq aləmdə təmin edilir və qanunla müdafiə olunur. İnsan hüquqları dövlətin suverenliyindən kənara çıxır. İnsan hüquqlarının müdafiəsi sadəcə hər bir dövlətin səlahiyyətinə buraxılmır. Beynəlxalq aləmdə tanınmış (universal) insan hüquqları dövlət suverenliyinin dairəsini məhdudlaşdırır.

Cavabdehlik: Dövlətlər və digər «vəzifə daşıyıcıları» hüquqlara görə məsuliyyət və öhdəliklər daşıyır.

İştirak: hüquqlara əsaslanan yanaşmalar fəal, azad və mənalı iştirakı tələb edir. Hüquq daşıyıcıları öz hüquqlarını tələb etməkdə fəal olaraq iştirak edirlər (hüquq vermə).

## 1.4. İnsan Hüquqları Standartları ilə Tanışlıq

**Məşğələnin ümumi məqsədləri:**

• İştirakçıları İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin (İHÜB) əsas maddəalari və prinsipləri ilə tanış etmək.

Materiallar: yazı lövhəsi və təbaşir və ya divar bloknotu («flipçart»), markerlər və yapışqanlı lent; İHÜB-in surətləri (qısaldılmış, sadələşdirilmiş və ya tam mətni); informasiya kartının və ya digər müvafiq mətnlərin surətləri (fakultativ).

A. Hissəsi. Yeni planet üçün insan hüquqları (1 saat)
B. Hissəsi. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə ilə hüquqların əlaqələndirilməsi (30 dəqiqə)
C. Hissəsi. İnsan hüquqları xəbərlərdə (1 saat fakultativ)

### 1.4.1. Yeni planet üçün insan hüquqları

I. Kiçik Planet Ssenarisini oxuyun və ya paylayın.
II. Kiçik qruplarda çalışan iştirakçıları aşağıdakıları etmək üçün təlimatlandırın:
   a) Bu yeni planetə ad verin.
   b) Bu planetin bütün insanlarının 10 hüququnun hansılar olmasına qərar

verin. Burada bütün qrup razılıq verdikdən sonra onları lövhədə və ya divar bloknotunda sadalayın.

III. Hər bir qrup öz siyahısını konkret qrupa təqdim edir. Onlar belə edəndə oxşar hüquqları birləşdirməklə qrupun qeyd etdiyi bütün hüquqları əhatə edən «əsas siyahını» tərtib edin.

IV. Bütün qruplar öz siyahılarını məruzə edəndən sonra əsas siyahını tədqiq edin:
- hüquqların bəziləri üst-üstə düşürmü? Onları daha da birləşdirmək olarmı?
- hansısa bir hüquq sadəcə bir siyahıda sadalanıbmı? Onu əlavə və ya xaric etmək lazımdırmı?

V. Müzakirə sualları:
- çalışma zamanı sizin ən vacib olan hüquqlara dair fikirləriniz dəyişdimi? - bu hüquqlardan bəziləri xaric edilsə bu planetdə həyat nə cür olar?
- yekun siyahıya yenə də əlavə etmək istədiyiniz hüquqlar varmı?
- belə siyahını tərtib etmək nə üçün faydalıdır?

**Kiçik Planet Ssenarisi**

Elə bir kiçik planet aşkar edilmişdir ki, orada insan həyatını yaşamaq üçün hər bir şey var. Orada heç kəs heç zaman yaşamayıb. Orada qanunlar, qaydalar və tarix yoxdur. Siz buranın sakinlərisiniz və hazırlıq zamanı sizin qrupa bu yeni planetin konstitusiyasını yazmaq tapşırığı verilib. Siz bilmirsiniz ki, bu ölkədə sizin statusunuz və ya mövqeyiniz nə olacaq.

**1.4.2. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (İHÜB) ilə hüquqların əlaqələndirilməsi**

1. Əsas siyahı hazır olanda iştirakçılar öz kiçik qruplarına qayıdır və çalışırlar ki, sadalanan hüquqları ÜİHB maddələri ilə tutuşdursunlar. Bəzi hüquqlar bir neçə maddələri əhatə edə bilər. Digərləri heç ÜİHB-da olmaya bilər. Alternativ seçim: vaxt itirməmək naminə, hər qrupa konkret hüquqların əsas siyahısını təqdim edin və onları ÜİHB-də tapmaq tapşırığı verin.
2. Qrup işini bitirdikdə, qrupun nümayəndəsindən xahiş edin ki, müəyyən etdikləri maddələrin nömrələrini (məsələn, Maddə 2) əsas siyahıda sadalanan hüququn yanında yazsın. Lazım gələrsə, əsas siyahının yanından əlavə vərəq asın.
3. Siyahıda olan hər bir hüququ gözdən keçirin.
   a) iştirakçılar konkret İHÜB maddəsi ilə hüququ eyniləşdirəndə xahiş edin ki, onlar maddənin sadələşdirilmiş variantını ucadan oxusunlar.
   b) hansı hüququn hansı maddə ilə uyğun gəlib-gəlməməsi barədə istənilən münaqişəni həll edin.
4. Müzakirə edin:
   - niyə siyahıda olan bəzi hüquqlar İHÜB-də yoxdur? Bu boşluğu siz necə izah edə bilərsiniz?
   - niyə İHÜB-də olan bəzi hüquqlar qrupun siyahısında yoxdur? Bu boşluğu siz necə izah edə bilərsiniz?

Qrupla diskussiya aparıldıqdan sonra müzakirələri Yekun Qeydində olan fikirlərlə yekunlaşdırın.

**Yekun Qeyd**

İnsan hüquqları insan ləyaqətinə həsr olunub. Ləyaqət bizi tam edir. Hüquqlar bizdən hissə-hissə geriyə alına və ya tələb edilə bilməz. Hökumət bütün hüquqlara hörmət etməyə məcburdur, çünki çatışmayan hüquq digər hüquqların həyata keçirilməsini zəiflədir. Məsələn, insanların ərzaq iddiaları və fikri ifadə etmək azadlığı haqqında düşünün. İnsan acdırsa, o azad ola bilməz, bir də ki, insan ac olduğunu ifadə edə bilmirsə o, aclıqdan azad edilə bilməz. Hüquqların, tam olaraq, necə nəzərə alınmalı olmasına dair digər bir misal: atipik pnevmaniya epidemiyası zamanı məlumat hüququ tam şəkildə təmin edilməyənədək, insanlar özlərini müdafiə etmək (və sağlamlıq hüququndan bəhrələnmək) imkanına malik deyildilər.

### 1.5. İnsan Hüquqları Standartlarının tarixi və təkamülü

Məşğələnin ümumi məqsədləri:

- İştirakçıları İHÜB-in yaranmasında tarixin və ayrı-ayrı şəxslərin rolu ilə tanış etmək;
- İnsan hüquqlarının və İHÜB məzmunu, anlayışını çatdırmaq/möhkəmlətmək.
- İnsan hüquqlarının mənşəyinə və tarixinə nəzər salmaq;
- İnsan hüquqlarının tətbiqi ilə əlaqədər müasir problemlərlə tələbələri tanış etmək.

  Materiallar: flipçart, markerlər və yapışqanlı lent; İHÜB-in sadələşdirilmiş variantı; «Komitə üzvlərinin rolu» tezisləri; informasiya kartlarının və ya digər müvafiq mətnlərin surətləri (fakultativ).

A Hissəsi. İnsan Hüquqları Komitəsi İHÜB-i tərtib edir (1 saat)
B Hissəsi. İnsan Hüquqları standartlarının təkamülü (15 dəqiqə)
C Hissəsi. İnsan Hüquqlarının mənşəyi və tarixi (30 dəqiqə)
D Hissəsi. Mərkəzi və Şərqi Avropa, MDB, Orta Asiya kontekstində insan hüquqları (15 dəqiqə)

#### 1.5.1. İnsan Hüquqları Şurası İnsan Hüquqları haqqında Ümumi Bəyannaməni tərtib edir (1 saat).

B. 1 saylı İnformasiya Kartını prezentasiya edin və yaxud da iştirakçılar onun mətnini növbə ilə ucadan oxusunlar .

C. Hər birində altı nəfərdən artıq olmamaq şərti ilə iştirakçıları kiçik qruplara bölün. Hər qrupa İnsan Hüquqları Komitəsi üzvlərindən birinin rolu veriləcək. Əgər qrupların sayı altıdan çoxdursa, o zaman bəzi qruplar eyni Komitə Üzvlərini təmsil edəcəklər.

D. Komitə üzvünün rolunun 1 nüsxəsini qrupun hər üzvünə paylayın. Əmin olun ki, hər kəs rolu başa düşür və bütün rollar təmsil olunub. Bundan əlavə, hər bir iştirakçıya İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin sadələşdirilmiş variantını verin. Komitə üzvlərinə dair əsas faktlar real faktlardır, lakin rolu, təsvir edilən insandan bir az fərqli etmək üçün bəzi faktlara kiçik dəyişikliklər edilmişdir.

E. Qrupun tapşırığı, təmsil etdikləri İnsan Hüquqları Komitəsi üzvlərinin mövqeləri ilə İHÜB-in yekun variantını təhlil etməkdir. Qrup aşağıdakı sualları müzakirə etməli və onlara cavab verməyə hazır olmalıdır: (divar bloknotunda yazın)

- İHÜB-in hansı aspektlərini bu Komitə üzvü ən çox maraq nümayiş etdirməklə dəstəkləyəcək və hansı səbəbdən?
- İHÜB-in hansı aspektlərinə bu Komitə üzvü az dəstək verəcək və niyə?

F. Bu tapşırığı yerinə yetirmək üçün qruplara 30 dəqiqə vaxt verilir. Qruplara İHÜB-in tam variantı lazım olarsa, bunu onlara verməyə hazırlıqlı olun.

G. Qruplar təqdimatlar edir.

H. B Hissəsinə keçid.

***1 saylı İnformasiya Kartı***

*İnsan hüquqları ənənələri bütün normativ ənənələr kimi zamanənin məhsuludur. 1945-ci ilin avqust ayında müttəfiqlər nizamnamə tərtib edib, gələcəkdə Nüremberq Prinsipləri olacaq təlimatlar tərtib etdilər. Bu prinsiplər qeyd edir ki, təcavüz müharibəsini aparmaq beynəlxalq ictimaiyyətə qarşı cinayətdir və həmin müharibə ilə əlaqədar siyasi, irqi və ya dini əsaslarla fərdləri və ya azlıqları təqib etmək və ya mülki əhalininin kökünü kəsmək, kölə etmək və ya sürgün etmək bəşəriyyət əleyhinə cinayət idi. Bu prinsiplər sülh zamanı insan ləyaqətinin alçaldılması hallarına necə cavab vermək məsələsinə aydınlıq gətirməyib.*

*«Böyük dövlətlərdən» bəziləri müharibədən sonrakı ərəfədə insan hüquqları problemlərini müzakirə etməkdə maraqlı deyildilər, çünki onlar dövlətin öz vətəndaşları ilə məşğul olmasını istəyirdilər. Buna baxmayaraq, 1945-ci ilin aprel ayında 48 dövlətin nümayəndələri Birləşmiş Millətlər Təşkilatını nizamnamə vasitəsi ilə yaratmaq üçün bir araya gəldilər. Dəyişikliklər dalğası eyni zamanda birləşmə gücü idi. 1945-ci ildə müstəmləkə altında 250 milyon insan yaşayırdı və milyonlarla insan sevilməyən milli azlıqlara mənsub idilər. Kiçik dövlətlər və məşvərətçi QHT-lər müəyyən mübarizədən sonra ABŞ-ın dəstəyi ilə «insan hüquqları» terminini BMT nizamnaməsində məqsədlərin ümumi bəyanatına daxil etməyə nail oldular.*

*Baxmayaraq ki, BMT nizamnaməsində ümumdünya insan hüquqları öz əksini tapdı, sənəddə o hüquqların nə anlama gəlməsi və BMT-də o vaxt təmsil olunmayan dövlətlər daxil olmaqla bütün millətlər və xalqlar tərəfindən onların həqiqətən qəbul edilə bilməsi qeyd edilməmişdi. Nizamnamədə yeni İqtisadi və Sosial Şurasının qərarverici orqanı kimi yaradılan İnsan Hüquqları Komitəsi insan hüquqları Bilini tərtib etməli idi. Komitəyə Eleanora Ruzvelt rəhbərlik edirdi və o (Komitə), İnsan Hüquqları haqqında Ümumi Bəyannaməni 1947-ci və 1948-ci ildə hazırladı. BMT Baş Assambleyası İHÜB-i 1948-ci ildə qəbul etdi.*

## KOMİTƏ ÜZVLƏRİNİN ROLLARI

*Rene Kassin, Fransa*

Siz hüquq sahəsində professorsunuz, milliyətcə yəhudisiniz, Birinci Dünya müharibəsinin veteranı və de Qola yaxın olan Fransız milliyyətçisisiniz. Qanunlar yazmaqda böyük təcrübəniz var və şəxsən Preambula və altı giriş prinsiplərini yazmağa görə məsuliyyət daşıyırsınız. Siz hesab edirsiniz ki, ÜİHB azadlığın, ləyaqətin, bərabərliyin və vəzifələrin əsas prinsipləri ilə başlamalıdır, çünki son on il ərzində bunlar zəifləməyə doğru gedir. Siz əminsiniz ki, onların Preambulada olması onları «mənəvi məcburi» edir.

Siz analara və uşaqlara qarşı xüsusi qayğının və köməyin olmasını görmək istəyirdiniz və 25-ci maddədə (sadələşdirilmiş variantda bu yoxdur) belə bir

müddəa təklif etmişdiniz: «analığa və uşaqlara xüsusi qayğı və kömək göstərmək lazımdır. Nikahda və ya nikahdan kənar doğulmuş bütün uşaqların sosial müdafiəsi eyni olmalıdır».

Siz hesab edirsiniz ki, «dünyada azadlıq, ədalət və sülh» məqsədlərinə çatmaq üçün təhsil çox vacibdir və bilirsiniz ki, nasistlər öz məqsədlərinə çatmaq üçün məktəblərdə ideologiyanın yeridilməsi taktikasından istifadə edirdilər. Ona görə də siz 26-cı maddədə qeyd edilmiş (lakin sadələşdirilmiş variantda yazılmamış) valideynlərin öz uşaqları üçün təhsil formasını seçmək hüququnu dəstəkləyirsiniz.

Siz hesab edirsiniz ki, mülki və siyasi hüquqlarla sosial, iqtisadi və mədəni hüquqlar arasında balans olmalıdır. Siz həm kapitalzm fərdiyyətçiliyinin, həm də sosialist kollektivliyinin ziddiyətlərindən uzaq olmaq istəyirsiniz.

**KOMİTƏ ÜZVÜNÜN ROLU**

**Penq-çun Çanq, Çin**

Siz Çin nümayəndə heyətinin başçısısınız və Komitədə sədr müavini seçilmisiniz. Siz «Renessans dövrünün insanısınız» və həm İslam, həm də Qərb mədəniyyətlərini yaxından bilən, təcrübəli bir diplomatsınız. Siz kompromisdə məharətli və praqmatiksiniz. Siz hesab edirsiniz ki, mülki və siyasi hüquqlarla, sosial, iqtisadi və mədəni hüquqlar arasında balans olmalıdır. İnsan Hüquqları Komitəsi görüşlərində Siz bildirmişsiniz ki, sosial, iqtisadi və mədəni hüquqları ÜİHB-yə daxil etmək, əslində Konfutsinin 2500 il yaşı olan ideyası idi: «Ta Tao və ya Böyük Yol geniş yayılanda, dünya hamının rifahı üçün olacaq... yaşlılara ərzaq məhsulları veriləcək, əmək qabiliyyəti olanlar işlə və gənclər təhsillə təmin ediləcəklər. Dul qadın və kişilər, yetim və uşaqsızlar, şikəstlər və xəstələrin hamısı qayğı görəcək.»

Siz zənn edirsiniz ki, din ənənələri ümumi insanlıq prinsiplərini sübuta yetmiş hesab edir. Ümumdünya insan hüquqları ideyası ümumi insanlığı tanımaq fikrini paylaşır və onun probleminə minimal həll tapır. Demokratiyanı və insan hüquqlarını dəstəkləyənlər 1991-ci ildə Tiannemen Meydanında sizə istinad edəcəklər.

Sənədin hazırlanması zamanı sizin ölkəniz kommunist rejiminə qayıdır və siz «bütün insanlar vicdanla və sağlam fikirlə doğululur» frazasına şübhə ilə yanaşırsız. Bu sözlərin ÜİHB Preambulasından çıxarılması üçün siz uğurlu təşviqat həyata keçirdiniz.

**KOMİTƏ ÜZVÜNÜN ROLU**

**Eleanora Ruzvelt, ABŞ**

Siz həm vəfat etmiş həyat yoldaşınızın xatirəsi kimi, həm də hümanitar məsələlərin fəal müdafiəçisi kimi çox böyük nüfuza maliksiniz. Siz İnsan Hüquqları Komitəsində sədrsiniz.

Dövlət Departamentinin nümayəndəsi insan hüquqları sözlərinin BMT Nizamnaməsinə daxil edilməsi fikrini bəzi kiçik dövlətlər və QHT-lərlə birgə dəstəklədi. Siz elə prinsiplər layihəsinin olmasını istəyirsiniz ki, onunla hamı razı ola bilsin və onların həyata keçirilməsi probleminin Sizi dayandırmasını istəmirsiniz. Zənninizcə, ABŞ Senatı hüquqi yox, yalnız mənəvi baxımdan məcburi olan sənədi təsdiq edəcək. Siz hesab edirsiniz ki, mülki və siyasi hüquqlarla sosial, iqtisadi və mədəni hüquqlar arasında balans olmalıdır.

ABŞ-da irqi ayrı-seçkiliyin mövcud olması iddiaları səsləndikdə siz müdafiə mövqeyi tutdunuz. İnsan Hüquqları Komitəsinin görüşlərində soyuq müharibə

siyasəti yürüdüldükdə, siz şəxsi azadlıqları məhdudlaşdırmaq iddiası ilə kommunist rejimlərinə qarşı əks-hücum etməyə məcbur qaldınız.
Siz «yaşamaq hüququnu» geniş anlayış kimi görmək istəyirdiniz ki, o, birbaşa ölüm cəzasını tənqid etməsin. Zənninizcə, ədalətli əmək haqqı almaq hüququ yoxdur; maaşlara və iş şəraitinə dair qaydalar dövlət səviyyəsində deyil, fərdi təşəbbüs və kollektiv razılaşma vasitələri ilə müəyyən olunmalıdır. Siz 23-cü maddəyə etiraz edirsiniz, çünki orada işsizliyə qarşı şəxsin müdafiə olunmaq hüququnun olması göstərilir (bu İHÜB-ın sadələşdirilmiş variantına daxil edilməyib).

**KOMİTƏ ÜZVÜNÜN ROLU**
**Valentin Teplikov, Rusiya**
Siz kədərlənirsiniz ki, Komitədə rəhbər mövqeyiniz yoxdur və hiss edirsiniz ki, Çin və Livan nümayəndələri ABŞ nümayəndəsinin mövqeyinin tərəfdarıdır.
Siz dövlətin özünüidarə prinsipini dəstəkləyirsiniz və Sovet İttifaqının totalitar olması tənqidini rədd edirsiniz. Siz sosial və iqtisadi hüquqlara üstünlük verilməsinin ən entuziast tərəfdarısınız və istəyirsiniz ki, onlar müvafiq vətəndaş vəzifələri ilə müşayiət olunsunlar. Siz, nəyin bahasına olursa-olsun, milli suverenliyi saxlamaq istəyirsiniz. Fikrinizcə, dövlət maaşların və iş şəraitinin tənzimlənməsində əsas rol oynamalıdır və siz əmək hüququnu, təhlükəsiz mühitdə ədalətli maaş almaq hüququnu və digər əmək məsələlərinə toxunan müddəaları dəstəkləyirsiniz.
Zənninizcə, İHÜB-in hüquq ifadə etməyən sözlərlə başlaması mənasızdır. Siz bu dili riyakar və mənasız hesab edirsiniz. Siz həmçinin ABŞ-ın 2-ci maddəni dəstəkləməsini riyakar hesab edirsiniz, çünki təcrübədə ABŞ, eynilə Cənubi Afrika kimi, öz qara əhalisinə qarşı irqi ayrı-seçkiliyə göz yumur.
Siz İHÜB-in ölüm cəzasını ləğv etməsini istərdiniz. Şəxsin öz ölkəsini tərk etmək hüququnu təsvir edən maddə Sizi qane etmir. Siz faşistləri və nasistləri rəy azadlığı və fikri ifadə etmək azadlığı, dinc toplaşma və siyasi təmsilçilik hüquqlarından məhrum etmək istərdiniz.

**KOMİTƏ ÜZVÜNÜN ROLU**
**Çarlz Malik, Livan**
Siz yenicə müstəqil olmuş Livan Ruspublikasından gələn filosofsunuz və ideoloji müzakirələrdən zövq alırsınız. Siz ciddi düşünməyin tərəfdarısınız. Preambulada yazılmış «bütün insanlar vicdanla və sağlam fikirlə doğulurlar, və ya insanlar həm azad, həm də bərabər ola bilərlər» sözlərinə inanmırsınız.
Zənninizcə, soyuq müharibə erasından sonrakı dövrdə yeganə ən vacib məsələ müstəmləkəçilik problemidir. Siz Təhlükəsizlik Şurasının güclü iqtisadiyyatı olan dövlətlər tərəfindən yaradılmasını və kiçik dövlətlərin BMT çərçivəsində əsasən kollektiv səsə malik olduğunu bilirsiniz. Sizi xalqların öz müqəddəratını təyin etmək hüququ maraqlandırır və əmin olmaq istəyirsiniz ki, irqindən, cinsindən, dilindən və ya dinindən asılı olmayaraq insan hüquqları ayrı seçkilik olmadan tətbiq ediləcək. Bu məsələləri əhatə edən maddələr sizi qane edir.
«İrqi, milli və ya din məhdudiyyəti olmadan nikah hüququ» maddəsində nəzərdə tutulan qadın və kişinin bərabər hüquqları sizə o qədər də xoş səslənmir. Yaşamaq hüququnun doğulmamış uşağın həyatını da əhatə etməsini tanıyan müddəanın daxil edilməsinə siz nail ola bilmədiniz.

«Öz ölkəsinə qayıtmaq hüququ» və təqibdən «sığınacaq almaq hüququ» müddəalarının əlavə edilməsində sizin əməyiniz oldu. Bu, Ərəb-İsrail müharibəsi nəticəsində Fələstində yaşanılan qaçqın böhranına cavab olaraq edilmişdi.

**KOMİTƏ ÜZVÜNÜN ROLU**
**Hausa Nehta, Hindistan**

Siz Hindinsan qanunverici orqanının üzvüsünüz və Eleanora Ruzveltdən başqa Komitədə yeganə qadın nümayəndəsisiniz. Hindistanı avqust 1947-də müstəqillik yoluna çıxaran hərəkatın fəal iştirakçısısınız və siz məhkəmə olmadan həbsə alma, senzura və mülkiyyətin müsadirəsi sahəsində olan Britaniya müstəmləkə siyasətini tənqid edirsiniz.

Siz praqmatiksiniz. Siz İHÜB-də istifadə edilən sosial və iqtisadi məqsədlərə çatmaq üçün dövlətlərin can atmalı olması sözlərini dəstəklədiniz, çünki Hindistan digər daha çox inkişaf etmiş dövlətlər qədər resurslara malik deyil. Zənninizcə resurslar imkan verdikcə şəxsi toxunulmazlıq hüququ tədricən təmin edilməlidir. Siz əminsiniz ki, müəyyən məcbur etmə mexanizmi olmadan beynəlxalq hüquqlar haqqında bill mənasız olacaq.

Siz xalqların öz müqəddəratını təyin etmək hüququnu və qadın hüquqlarını dəstəkləyirsiniz. «İrqi, milli və ya dini məhdudiyyəti olmadan nikah hüququ» maddəsində nəzərdə tutulan qadın və kişinin bərabər hüquqlarına gəldikdə siz entuziaztsınız. Siz İHÜB-də işlənilən dildə gender neytrallığının olmasına çox səy sərf etdiniz və çalışdınız ki, sadəcə «insan» (ingiliscə «man» (kişi)) deyil, «insan varlığı» və «kişi və qadın» sözləri də istifadə olunsun.

Siz hesab edirsiniz ki, «dünyada azadlıq, ədalət və sülh» məqsədlərinə çatmaq üçün təhsil çox vacibdir və bilirsiniz ki, nasistlər öz məqsədlərinə çatmaq üçün məktəblərdə ideologiyanın yeridilməsi taktikasından istifadə edirdilər. Ona görə də siz valideynlərin 26-cı maddədə qeyd edilmiş (lakin sadələşdirilmiş varianta yazılmamış) ideyanı seçmək hüququnu dəstəkləyirsiniz: «təhsil insan şəxsiyyətinin tam həcmdə inkişaf etdirilməsi, insan hüquqları və əsas azadlıqlara hörmətin gücləndirilməsi məqsədlərinə yönəldilməlidir. O, bütün xalqlar, irqi və ya dini qruplar arasında anlaşma, dözümlülük və dostluğun qurulmasına kömək etməlidir və sülhün qorunub saxlanılmasında Birləşmiş Millətlərin fəaliyyətini inkişaf etdirməlidir».

### 1.5.2. İnsan Hüquqları standartlarının təkamülü[18]

1. Aşağıdakı mətni ucadan oxuyun:
«İnsan hüquqlarının məzmunu və əhatə dairəsi haqqında müzakirələr və onların (insan hüquqlarının) prioritetləşdirilməsi fransız hüquqşunası Karel Vasak tərəfindən irəli sürülmüş insan hüquqları ideyasının üç nəslində qismən öz əksini tapır».
2. 2 saylı İnformasiya Kartını paylayın və ucadan oxuyun: İnsan hüquqlarının «üç nəsli».
3. Aşağıdakı sualı müzakirə etməyi qrupdan xahiş edin: Hüquqların bəziləri digər hüquqlardan daha da vacibdirmi?

---

[18] Richard Pierre Claude and Burns H.Weston, eds., Human Rights in the World Community: Issues and Action, 2nd edition, Philadelphia: University of Philadelphia Press, 1992, pp.17-19.

4. Məşğələni Yekun Qeydə əsaslanan fikirlərlə yekunlaşdırın.

**2 Sayli İnformasiya Vərəqi İnsan Hüquqlarının «Üç Nəsli»**

(1) Mülki və Siyasi hüquqlar – «birinci nəsil hüquqlar»

Mülki və Siyasi hüquqlar 2-21-ci maddələrdə sadalanır. Bunlar şəxsi siyasi hakimiyyətin sui-istifadəsindən qoruyan «nədənsə azad olmaq» hüquqlarıdır. Bunlar «azadlıq yönümlüdürlər» və yaşamaq hüququ, şəxsin azadlıq hüququ və şəxsi təhlükəsizlik hüququ; işgəncəyə və köləliyə məruz qalmamaq; siyasi iştirak; rəy, fikir ifadə etmək, düşüncə, vicdan və din azadlıqları, birləşmək və dinc toplaşmaq azadlıqları kimi hüquq və azadlıqları əhatə edir. Bu hüquqları adətən Qərbin insan hüquqları liberal konsepsiyası ilə əlaqələndirirlər.

**(2) İqtisadi, sosial və mədəni hüquqlar – «ikinci nəsil hüquqlar»**

İqtisadi, sosial və mədəni hüquqlar Maddələr 22-27-də sadalanır. Bunlar «təminat yönümlü» hüquqlardır, məsələn, əmək, təhsil almaq, ağlabatan həyat səviyyəsi, ərzaqla təmin olunmaq, sığınacaq və tibbi qayğı hüquqları. Bu «nəyəsə azadlıq» hüquqları gəlirlərin bölünməsi daxil olmaqla dəyərlərin hazırlanmasında və paylanılmasında iştirakın bərabər olmasını təmin etmək məqsədiylə dövlətin müdaxiləsini tələb edir. Bu hüquqların kökü sosialist ənənələrinə gedib çıxır.

**(3) Ətraf mühit, mədəniyyət və inkişaf hüquqları – «üçüncü nəsil hüquqlar»**

28-ci maddə həmrəylik və ya kollektiv hüquqlar kimi tanınan hüquqları sadalayır. Maddədə deyilir: «Hər bir şəxsin bu Bəyannamədə əks olunmuş hüquq və azadlıqlarının tam təmin olunduğu sosial və beynəlxalq nizam hüququ var». Bu hüquqlar bəzi hüquqlara sahib olmanın qarşılıqlı asılılığını tanıyır, məsələn, sülh şəraitində yaşamaq hüququ, sağlam ətraf mühit hüququ və fəlakət zamanı humanitar yardım almaq hüququ. Bu, həmçinin mədəni, siyasi və iqtisadi inkişaf hüquqlarını da əhatə edir. Bütün ölkələr bu hüquqları dəstəkləməli və başqaları üçün qorumalıdır ki, özləri də qorunsunlar. Bu hüquqları Üçüncü Dünya Millətçiliyi, sərvətlərin və gücün qlobal şəkildə yenidən bölünməsi tələbi ilə və mədəni müqəddəratını təyin etmə ilə əlaqələndirirlər.

**Yekun Qeyd**

Beynəlxalq insan hüquqları sənədləri hüquqları prioritet qaydasında düzmür və ya onların iyerarxiyasını təklif etmir.

Lakin

- Heç bir şəxsin həyatdan özbaşına məhrum edilməmək hüququ,
- İşgəncəyə, köləliyə məruz qalmamaq və
- Borca görə həbs olunmamaq

hüquqları ləğv edilə bilməyən hüquqlar kimi qeyd edilmişdir, yəni bu hüquqları inkar etmək və ya müvəqqəti olaraq dayandırmaq olmaz. BMT Baş Assambleyası da bütün insan hüquqlarının bölünməz bütöv təşkil etməsini təsdiqləmişdi.

**1.5.3. İnsan Hüquqlarının mənşəyi və tarixi**

1. Humanitar böhran – mənəvi məcəllələr/hüquqlar, xeyriyyəçilik, mübarizələr (5 dəqiqə)

- Dünyanın bu hissəsində olan humanitar böhran haqqında bizə misallar gətirin.
- İnsanlar bu böhranlara üç fərqli cavab veriblər:
  - sosial və siyasi hərəkatlar və mübarizələr;
  - xeyriyyəçilik
  - mənəvi və hüquqi məcəllələr vasitəsi ilə.
- Regionun mənəvi və hüquqi məcəllələrindən bizə nümunə gətirə bilərsinizmi? Bəlkə daha da uzaq tarixə nəzər salaq?
- Sosial və siyasi hərəkatlar haqqında bizə nümunə gətirə bilərsinizmi? Vaxt keçdikcə (və həm də qloballaşmaya görə) bu yanaşmalardan insan hüquqları (bəziləri deyir ki, sosial hərəkatlar İnsan Hüquqlarının hissəsi kimi, başqaları isə deyir ki, digər qeyd edilənlərin biri və ya bir neçəsinin hissəsi kimi davam edir), yardım və inkişaf yaranıb. Bunların hər birində insan həyatını yaxşılaşdırmaq üçün insanlar çox çalışıblar. 3 yanaşmadan heç biri tam müvəffəqiyyətli olmayıb. Yenə də yoxsulluq, müharibə və ayrı-seçkilik mövcuddur. Sonra biz 3 hüquq yanaşmasını, yaxşı planlaşdırmanı, dərin səbəblərə toxunmağı birləşdiririk və İnsan Hüququna Əsaslanan Yanaşmaya gəlib çıxırıq. Biz bu haqda daha ətraflı Bölmə 2-də danışacağıq.

2. Sual: bizim ölkəmizdə hüquqlara aid hansı mühüm tarixlər var? (5 dəqiqə)

3. Sual və cavab: İnsan Hüquqları Sənədləri (5 dəqiqə)

- Hökumətlər bütün insanlar üçün əsas azadlıqlara dair nə zaman razılığa gəldilər? (Bax: əsas İnsan Hüquqları Sənədləri )
- Hansı İnsan Hüquqları sənədləri bizim ölkəmiz tərəfindən ratifikasiya edilib?
  İnsan Hüquqları sənədlərinin dövlətlər üçün məcburi edilməsi prosesi davam etdirilir, insan hüquqlarının şərhi dəyişir . İnsan Hüquqları sənədləri «yaşayan sənədlərdir», onların mətnləri dəyişdirilə bilməz, lakin şərhlər dəyişir və əlavə protokollar boşluqları doldurur.

**Əsas İnsan Hüquqları Sənədləri**

- 1945-ci il BMT Nizamnaməsi: sülh, insan hüquqları, inkişaf
- 1948-ci il Ümümdünya İnsan Hüquqları Bəyannaməsi
- 1949-cu il Cenevrə Konvensiyaları (Humanitar Hüquq/Müharibə Qanunları)
- 1965-ci il Hər növ irqi ayrı-seçkiliyin qadağan edilməsi haqqında Konvensiya
- 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Pakt
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Pakt
- 1979-cu il Qadınlara qarşı hər növ ayrı-seçkiliyin qadağan edilməsi haqqında Konvensiya

- 1980-cı il İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldıcı rəftarın və ya cəzanın qadağan edilməsi haqqında Konvensiya
- 1989-cu il Uşaq hüquqları haqqında Konvensiya
- 1990-cu il Bütün miqrant işçilərinin və onların ailələrinin hüquqlarının müdafiə olunması haqqında beynəlxalq Konvensiya

### 1.5.4. Mərkəzi və Şərqi Avropa, MDB, Orta Asiya kontekstində insan hüquqları

1. Aşağıdakı mətni ucadan oxuyun:
"*Bu regionda siyasi fəlsəfənin bəzi hissələri insan hüquqları ilə yaxından əlaqədardır. Sosialist və sosial-demokratik düşüncə bərabərliyi və imkanlardan bərabər istifadənin təmin edilməsini vurğulamışdı. Bunları keçmiş SSRİ və sosial-demokratların rəhbər qüvvə olduqları ölkələrdə gender bərabərliyi və səhiyyə xidmətlərindən istifadə sahəsində atılmış uğurlu addımlardan müşahidə etmək olar.*"

2. Qrupla aşağıdakı sualları müzakirə edin:
- Bu ideya hansı insan hüquqları aspektinə aiddir? (fasilitator üçün: sosial, iqtisadi və mədəni)
- Bu regionun fəlsəfəsindən və ya tarixindən insan hüquqlarına aid digər ideyaları xatırlayırsınızmı?
- Bizim cəmiyyətdə vahid insan hüquqları ideyasının başa düşülməsini biz necə təmin edə bilərik?

3. Məşğələni Yekun Qeydinə əsaslanan fikirlərlə yekunlaşdırın.

**Yekun Qeyd**

*Bütün cəmiyyətlərdə insan hüquqları ideyalarına uyğun olan və vətəndaşların ləyaqətini qoruyan dini, mədəni və ya siyasi ənənələrin aspektləri var. Hər bir cəmiyyətin həm də müxtəlif növ insan hüquqlarını rədd edən ənənələri və xüsusiyyətləri də var. İnsan hüquqlarının tam şəkildə həyata keçirilməsi məsələsinin aktuallığı artdığından, buna yalnız lider və vətəndaşların eyni məqsədə bağlılığının güclənməsi ilə nail olmaq olar.*

**PRAKTİK SİTUASIYALARIN TƏHLİLİ**

## 2. İNSAN HÜQUQLARINA ƏSASLANAN YANAŞMANIN PRAKTİK TƏTBİQİ

### 2.1. Vəziyyətin hüquqlara əsaslanan təhlili

İştirakçıları İnsan Hüquqlarına Əsaslanan Yanaşmanın (İHƏYP) təqdimatı barədə düşünməyə çağırın. Onlardan 3-4 nəfərdən ibarət qruplarda bir neçə dəqiqə İHƏYP-in işləməsi üçün hansı əsas konsepsiyaların və ya prinsiplərin tətbiq olunmalı olduğu barədə düşünməyi xahiş edin. Plenar müzakirədə cavabları toplayın və onları mühazirə kağızının üzərinə yazın.

**1.** (30 dəqiqə) İştirakçılardan qruplarına geri qayıtmağı və onların düşüncəsinə görə bunların layihədə, proqramın planlamasında və inkişaf prosesində necə tətbiq oluna biləcəyini müəyyən etməyi xahiş edin.

(30 dəqiqə) İştirakçılardan öz mühazirə kağızlarını asmağı xahiş edin və qrup-qrup gəzərək onlara nəzərə salın. İştirakçılardan hansı təklif olunan tətbiq yolları ilə razılaşdıqlarını, hansıları ilə isə razılaşmadıqlarını soruşun.

**2.** (20 dəqiqə) Dəyişmə prosesinin planlaşdırılması ilə dərsi davam edin. Bu, İnsan Hüquqları strukturundan istifadə etməklə İnsanların Vəziyyətinin təhlilini oxuyaraq müzakirə etməklə və ya Vəziyyətin Təhlili təqdimatından istifadə edilməklə aparıla bilər.

**3.** (10 dəqiqə) Müzakirə suallarını yekunlaşdırın:

- hüquqlara əsaslanan təhlil sizin insanlarla işinizə hansı əlavə dəyərləri gətirir
- bu sizin təşkilatınıza/qurumunuza hansı problemləri göstərir, onların öhdəsindən necə gəlmək olar
- bizim fəaliyyət tərzimizin təyinatı nədir

**İnsanların Vəziyyətinin İnsan Hüquqları strukturundan istifadə etməklə təhlili**
*(burada uşaqların vəziyyəti nümunə olaraq müzakirə ediləcəkdir)*

Uşaqların vəziyyətinin insan hüquqları strukturundan istifadə etməklə təhlili aşağıdakıların müəyyən edilməsinə yardım edə bilər:

a. uşaqların hansı hüquqları pozulub və hansı hüquqları yerinə yetirilmir
b. bu hüquqpozmaların arxasındakı səbəblər ... həm ilk üzə çıxan səbəblər, həm də kökdə dayanan səbəblər
c. uşaqların öz hüquqlarını davamlı şəkildə reallaşdıra bilmələri üçün hansı maneələri dəf etmək lazım olacaq
d. vəzifə daşıyanlar, əsas məsuliyyəti daşıyan fərd və ya qurum, onların bu cavabdehliyi yerinə yetirmə qabiliyyətləri və məsuliyyətinin harada olduğuna əsaslanan təhlilin hansı dərəcədə hər hansı bir uşaq qrupuna və ya onların bütün hüquqlarına (məsələn, ayrı-seçkiliyə məruz qalan uşaqlar qrupu) və ya hər hansı bir xüsusi hüquqa və bütün uşaqlara (bütün uşaqlar üçün yetkinlik yaşına çatmayanlar üzrə ədalət mühakiməsi yaxud təhsilin təmin edilməsi) diqqət yetirməsi təşkilatın mandatından/diqqətindən asılı olaraq dəyişə bilər. Bəzi təşkilatlar harada işləməyi müəyyən etmək üçün geniş, hətta milli səviyyədə təhlillər apara bilər, digərləri isə artıq marağa səbəb olmuş xüsusi proqram məsələsinə diqqət yetirməyi arzulaya bilərlər. Adekvat təhlilin təmin edilməsi məlumatların toplanması və incələnməsini (yer, cins, din, etnik mənsubiyyət və s. üzrə), eləcə də uşaqlar da daxil olmaqla olan bir çox informasiya sahibinin fikirlərini öyrənməyi tələb edir.

***1A. bu hüquqpozmaların arxasındakı səbəblər ... həm ilk üzə çıxan səbəblər, həm də kökdə dayanan səbəblər***

İnsan hüquqlarına əsaslanan təhlilin gücü onun hüququn pozulması və ya yerinə yetirilməməsi səbəblərini başa düşmək üçün çalışma dərəcəsi və onu vəzifə daşımanın, məsuliyyətliliyin və özgəninkiləşdirilməmə, bölünməzlik, bərabərlik və cəlb edilmə kimi insan hüquqları prinsiplərinə aid etməsindədir. Bununla da hüquqlara əsaslanan təhlil səthi çözümlərdən daha çox davamlı çözümlərin müəyyən edilməsinə töhfə verməlidir. Bir çox təşkilat və qurumlar üçün bu, yeni və çətin fəaliyyət sahələrinə girmə riski ola bilər. O, hər kəsin qarşısına bütün uşaqlar üçün davamlı dəyişikliyə nail olmaq üçün uşaq qruplarının təcili tələbatlarının ödənilməsi tapşırığını qoyur. Əhəmiyyətli uzun müddətli məqsədlər, eləcə də təcili təkmilləşdirmə işlərinin görülməsinə ehtiyac var.

***1B. uşaqların öz hüquqlarını davamlı şəkildə reallaşdıra bilmələri üçün hansı maneələri dəf etmək lazım olacaqdır***

Uşaqların hüquqlarının kökündə duran səbəblər toplusunu təhlil etmək və bu hüquqların reallaşdırılması yönündə maneələri göstərmək vacibdir. Məsələn ...

- sektor siyasətlərini və proqramlarını təhlil etmək
- qanunları, onların icrasını və tətbiq edilməsini təhlil etmək
- makroiqtisadi siyasətlərin (struktur dəyişiklikləri) təsirini nəzərə almaq
- resursların və büdcə vəsaitlərin ayrılmasını təhlil etmək və onları beynəlxalq sazişlərlə və öhdəliklərlə tutuşdurmaq (məs., NPA, EFA, 20/20 və s.)
- davranışları, inancları, təcrübələri və münasibətləri ("mədəniyyət") öyrənmək

Vəziyyətin insan hüquqlarına əsaslanan təhlili ilə məşğul olma ümumi dəyərləndirmə aparmaq və uşaqların həyatlarındakı reallıqlara və inkişafın gündəliyini istiqamətləndirməli olan hüquqların həyata keçirilməsi qarşısında duran çətinliklərə dərindən nəzər salmaq imkanı yaradır.

Uşaq Hüquqları Komitəsinin (UHK) təqdim etdiyi insan hüquqları çərçivəsində uşaqların həyatlarını başa düşmək və uşaq hüquqlarının reallaşdırılmasının davamlı təkmilləşdirilməsi yolları barədə düşünmək üçün vaxt və resursların ayrılması müvəqqəti, “yapışqan plastr” əvəzinə uzun müddət ərzində davamlı nəticələrin əldə edilməsinə töhfə verəcəkdir. Bundan əlavə, insan hüquqlarına əsaslanan təhlil yalnız dəf edilməli olan ani problemə deyil, həm də yerinə yetirilməyən hüquqlar arasındakı qarşılıqlı əlaqələrə nəzər salır və dərində olan məsələlərlə məşğul olmaq üçün proseslərə cəlb olunmağı labüd edən kökdə duran səbəbləri araşdırır.

Vəziyyətin insan hüquqlarına əsaslanan təhlili üçün lazım olan vaxt və resurslar artıq mövcud olan məlumat mənbələrindən istifadə edilməklə azaldıla bilər.

- BMT hesabatları,
- Milli QHT koalisiyaları hesabatları,
- UHK-ə tərəf olan dövlətlərin hesabatları (ilkin və dövri UHK hesabatları),
- UHK-in Yekun Müşahidələri və Tövsiyələri və daha çox ikitərəfli və çoxtərəfli yardımların təhlili nəzərə alınmalı mühüm resurslardır. Oxşar məsələlərə diqqət yetirən orqanlarla strateji ittifaqların axtarılması xərclərin paylanmasına imkan yaradacaq və təhlillərə kombinə edilmiş təcrübələri gətirəcəkdir.
  İnsan hüquqlarına əsaslanan təhlildə hələ də təcrübələr yaranmaqdadır və ona görə də yuxarıda təsvir edilən və aşağıda açıqlanan konsepsiya düşüncə və spesifik vəziyyətə adaptasiya edilməyi tələb edən bir şey kimi qəbul edilməlidir. Hər hansı bir təşəbbüsün qüvvədə olduğu dövrdə təhlillərə dövri olaraq qayıtmaq arzu olunan olardı ..., çünki vəziyyət dəyişir və təhlilə təsir edən və görülən tədbirlərin üzdə olmayan nəticələri ola bilər.

1.a **Hansı hüquqlar pozulur, hansı hüquqlar yerinə yetirilmir**

Uşaq Hüquqları haqqında Konvensiya uşaqların vəziyyətinin müqayisə edilə və qiymətləndirilə biləcəyi kompleks və qarşılıqlı əlaqəli prinsiplər və standartları çərçivəsi təqdim edir. Hüquqlara

***1C. vəzifə daşıyanlar kimlərdir, kim və ya nə məsuliyyət daşıyır, onların bu cavabdehliyi yerinə yetirmə qabiliyyətləri və səlahiyyətləri varmı, bu öhdəliklərin saxlanması üçün kim kimin qarşısında məsuliyyət daşıyır.***
Vəzifə daşıyanların öhdəliklərinin təhlili ilə məşğul olma, institusional mexanizmləri və məsuliyyətləri, sonra isə bu öhdəlikləri yerinə yetirmək üçün onların qabiliyyətlərini və səlahiyyətlərini araşdırmaq

Misal üçün bunları nəzərə alın: uşaqlar, ailələr/valideynlər, dayələr, dini təşkilatlar, xidmət təchizatçıları, dövlət idarələri, BMT təşkilatları, KİV, özəl sektor, QHT-lər və VCT-lər, hüquqşünaslar, çoxtərəfli donorlar, beynəlxalq maliyyə qurumları.

“Maraqlı Tərəflərin Diaqramı” uşaqların hüquqları sahəsində müxtəlif vəzifə daşıyanların arasındakı münasibətlərin konseptuallaşdırılmasına və onları daha yaxşı görünən etməyə yardım etmək üçün yaxşı bir vasitədir.
Uşaq hüququn sahibi kimi zəncirin əsasıdır. Ən yaxın vəzifə daşıyanlar (uşaqların öz yaşıdlarından başqa) ailə, xüsusən də valideynlər olacaqdır. Bir az daha uzaqda icma üzvləri (məsələn kənd liderləri, yerli hökumət, VCT-lər), daha uzaqda milli (ərazi) və bəlkə də regional və qlobal qurumlar olacaq.

Bu səviyyələrdə olan münasibətləri aydın şəkildə bilmək harada dəyişiklik üçün dəstək verməyi müəyyən etməyə yardım edir. Təhsil almaq hüququ misalı aşağıdakıların əhəmiyyətini müəyyən edir:
- vəzifə daşıyan ... valideyn (uşağın ruhlandırılmasında və dəstəklənməsində, qızlara qarşı ayrı-seçkiliyin olmamasında, uşaqların inkişafında məktəbi və onun müəllimlərini məsuliyyətdə saxlamaq),
- vəzifə daşıyan...müəllim, keyfiyyətli təhsil təcrübəsinin təmin edilməsi üçün,
- vəzifə daşıyan...yerli icma, məktəbi dəstəkləmək üçün,
- vəzifə daşıyanlar ... yerli hökumət və təhsil nazirliyi, sistemin saxlanması üçün,
- vəzifə daşıyan ... hökumət, lazımi büdcənin ayrılmasını, müəllimlərin təlimini təmin etmək üçün və
- vəzifə daşıyan…beynəlxalq maliyyə qurumu, keyfiyyətli təhsilə yaxın olan siyasətlərin dəstəklənməsi üçün və s.

**Xatırlatma**
İnsan (uşaq) hüquqların təhlili aşağıdakı prinsiplərə riayət etməlidir:
- (uşaqlar) hüquqların sahibləridir – insanların və qurumların uşaq hüquqlarının yerinə yetirilməsində, qorunmasında, təşviqində və s. məsuliyyətləri, öhdəlikləri vardır və cavabdehdirlər;
- (uşaqların) hüquqları bölünməzdir - uşağın inkişafına dair bütün tələbləri (hüquqların dörd kateqoriyası ~ yaşamaq, inkişaf, qorunma və iştirak) nəzərə alınmalıdır
- (uşaqların) hüquqları universaldır (heç bir ayrı-seçkilik yoxdur) - bütün uşaqlar, yaşından, cinsindən, bacarığından, etnik mənsubiyyətindən, mənşəyindən və s. asılı olmayaraq

- (uşaqların) ən üstün maraqları onların yaşamına və inkişafına təsir edə biləcək hər hansı bir qərarda birinci olaraq nəzərə alınmalıdır
- (uşaqların) iştirak edə bilmək (onlara aid olan məsələlərdə öz fikirlərini bildirmək və eşidilmək) hüququ olmalıdır.

**Təhlil: Anlayışlar**

***Hüquqlara əsaslanan təhlil*** insan hüquqlarının pozulmasının təhlili üçün universal çərçivə yaradır və əməkdaşlıq üçün potensial sahələri müəyyən edir. O, bizə cəmiyyət, iqtisadiyyat, siyasət və mədəniyyət kontekstində hüquqların pozulmasının səbəblərini başa düşməyə kömək edir. O, həm də əməkdaşlıq və əlaqələr üçün, xüsusən də hüquqların əlaqələndiyi yerdə imkanların müəyyən edilməsinə yardım edir.

İnsan hüquqlarının vəziyyətinin təhlili:
- insan hüquqlarının pozulması və həyata keçirilməmə halları və intensivliyi
- insanların fikirlərini və təcrübələrini başa düşmək
- məlumatın analizi: yaş, cins, coğrafi mənşə, etnik mənsubiyyət, bacarıq ... üzrə

**Səbəb-nəticə əlaqəsinin (kauzal) təhlili** – bu pozuntuların kökündə duran səbəblər məcmusunu və bu hüquqların reallaşdırılması yolunda maneələri təhlil etmək:
- makroiqtisadi siyasətləri araşdırmaq – qanunları və onların tətbiqini təhlil etmək
- sektoral siyasətləri və proqramlarını təhlil etmək
- resursların/büdcələrin ayrılmasını araşdırmaq
- fərdi davranışı, münasibətləri, təcrübələri və inancları ("mədəniyyət") öyrənmək

**Məsuliyyətin (və ya rolun) təhlili** – vəzifə daşıyanların öhdəliklərini, institusional mexanizmləri və cavabdehlikləri, maneələri təhlil etmək.
**Resursların təhlili** -… insan resursları/kadrlar/peşəkarlar (səlahiyyətlər), maliyyə resursları (büdcə təchizatı, yoxsulluq səviyyəsi, s.)

## 2.2. Hüquqlara Əsaslanan Təhlilə Baxış: Uşaq Hüquqlarına dair vəziyyətin təhlili

Uşaq məsələləri üzrə hazırda işləyən, bu məsələlərə insan hüquqları perspektivindən yenidən baxmaq istəyən bir təşkilat və ya qurum insan hüquqları prinsiplərini daha yaxşı nəzərə ala bilmək üçün öz yanaşma və metodlarına yenidən baxışın ilkin şərti kimi uşaqların vəziyyətinin təhlilinə yenidən qayıtmağa çağırıla bilərlər.
Növbəti dərslər iştirakçıların ya ölkə/sektor sənədində yaxud da bir layihədə göstərilmiş öz iş sahələri ilə bağı hüquqlara əsaslanan proqramlamanın beş prinsipinin tətbiqini araşdırır. Bu dərslərin ümumi məqsədi insan hüquqları prinsiplərinin ifadə etdikləri mənalarla düşünmək üçün praktiki şərait yaratmaqdır.

Uşaqlar üçün hüquqlara əsaslanan proqramlaşdırmanın prinsiplərinin tətbiq edilməsi aşağıdakıları ehtiva edir:

- Uşaqların bütün inkişaf ehtiyaclarının nəzərə alınması
- Məsuliyyət faktorları: uşaqlar hüquq sahibləridir, böyüklərin uşaq hüquqları ilə bağlı öhdəlikləri və məsuliyyətləri vardır
- Bərabərlik, ayrı-seçkiliyin olmaması və iştirakın təmin edilməsi: ayrı-seçkiliyin olmaması və bütün uşaqların qərarların qəbul edilməsinə cəlb edilməsi (uşaqların iştirak etmək və böyüklərlə yanaşı fikirlərinin nəzərə alınması)
- Uşaq hüquqlarının qorunması və təşviqi
- Uşaqlara dair qərar qəbul etdikdə uşaqların ən üstün maraqlarının həmişə nəzərə alınması

İştirak etmək, yaşamaq, inkişaf və qoruma hüquqları UHK tərəfindən təmin edilir və UHK-ya üzv olan dövlətdə ratifikasiya vasitəsilə bu hüquqlara bütün uşaqlar üçün zəmanət verilir[19]. Uşaqların hüquqları qarşılıqlı asılı olduqları və onların həyatı sektorlara bölünmədiyi üçün hüquqlara əsaslanan yanaşma müxtəlif hüquqlar arasındakı əlaqələri müəyyən edəcəkdir.

| **Problemin hüquqlara əsaslanan təhlili** |
|---|
| **a) Problemi müəyyən edin**<br>Problemi müəyyən edin (uşaqlara aid olan).<br>Həyata keçirilməyən və ya təmin olunmayan hüquqları müəyyən edin. |
| **(b) Səbəblərlə bağlı (kauzal) təhlil aparın**<br>Səbəbləri müəyyən edin (dərhal görünən, üzdə olmayan, problemin kökündə duran səbəbləri təyin edin).<br>[səbəblər diaqramı, problem ağacı, təsirlər diaqramından istifadə edin]. |
| **(c) Öhdəliklərlə bağlı təhlil aparın**<br>Kim vəzifə daşıyır, kim məsuldur?<br>Hüquqları həyata keşirmək yolunda maneələr və imkanlar hansılardır?<br>Vəzifə daşıyanların öz öhdəliklərini yerinə yetirmək üçün maneələr nədir?<br>Maneələri necə dəf etmək olar? |
| **(d) Hüquqların reallaşdırılması (hüquqlara görə məsuliyyət)**<br>Həll yolları (Onlar hüquqa görə məsuliyyətliliyi artırırmı?)<br>Layihə vəzifə daşıyanları necə məsuliyyətli saxlayır?<br>Vəzifə daşıyanlar arasında məsuliyyətliliyi artırma üçün nə edilə bilər? |

Təhlildə və proqramlamada güclü tərəflərin və boşluqların müəyyən edilməsi

[19] Bu hüquqlara təminat verilmədiyi yeganə ölkələr ABŞ və Somalidir. Digər ölkələrdə hüquq və ya hüquqlar toplusu yerinə yetirilməsə də hökumətlər öz ölkələrində UHK-nın icrası ilə bağlı hesabat verməlidir.
ABŞ Konvensiyanı imzalayıb, amma ratifikasiya etməyib. İmzalama bu hüquqların yerinə yetirilməsinə zəmanət vermək üçün öhdəlik götürüldüyünü göstərmir. Onlar həm də uşaq hüquqlarına təhdid olan hər hansı bir şeyə qarşı heç nə etməməlidirlər.

Hüquqlara Əsaslanan Proqramlama analitik yanaşmanı təmin edəcək daha dərin təhlilin aparılması üçün onun müvafiq sektor strukturları ilə birləşdirilə bilər. Proqramlama təcrübəsində insan hüquqlarına əsaslanan yanaşma yayıldığı üçün sektor və ya konkret məsələyə spesifik-uyğun strukturlar artıq yaradılmaqdadır (məsələn, yoxsulluq və qidalanma, əlillik, təhsil, səhiyyə, fövqəladə hallar üçün) Hüquqlara əsaslanan proqramlama sahəsində artan təcrübə ilə biz həm də çox ehtimal ki, uşaq hüquqları proqramlamasına çoxsektorlu yanaşmanı görəcəyik.

## 2.3. İnsan Hüquqları Çərçivəsində "problemi" müəyyən etmək

Dərsin Ümumi Məqsədi:

• Bir layihə üzrə problemin təsvirini müəyyən etmək və onu hüquqlara əsaslanan problem təsviri fonunda standartlarla tutuşdurmaq

Materiallar: mühazirə kağızı, markerlər və skoç; mümkün olarsa problemin təsviri barədə materialların nüsxələri. İstiqamətləndirici sualların nüsxələri.

(Bu çalışma təşkilatın məşğul olduğu problemin təsvirini tələb edir. Mümkün olarsa, nümunə kimi istifadə ediləcək layihə sənədini müəyyən etmək lazımdır.

Alternativ olaraq kimdənsə problemi təşkilatın hazırda başa düşdüyü kimi təsvir etməsi xahiş edilə bilər.

Başqa bir variant isə iştirakçıları maraqlarına görə qruplaşdırmaq və onların özlərinin problem təsvirlərini hazırlatmaqdır.

1. (10 dəqiqə): İştirakçılardan üzərində işlədikləri mövzu və ya məsələ üzrə qruplar formalaşdırmalarını xahiş edin. Məsələn, uşaqların mühafizəsi, səhiyyə, təhsil və s. əgər layihə sənədləri varsa, ikinci addıma gedin. Əgər problem sənədi və ya təşkilatın üzərində işlədiyi problemlər yoxdursa, iştirakçılardan öz tematik işlərində ümumi problem müəyyən etməyi xahiş edin.
2. (20 dəqiqə) Qrupların növbəti tapşırığı problemə nəzər salmaq və problemi hüquq məsələləri kimi müəyyən etməkdir, yəni uşaqlara və onların hüquqlarına münasibətdə. İştirakçılara yönləndirici suallardan istifadə etməyi təklif edin.
3. (30 dəqiqə) Plenar müzakirələr. Digər qrupların işlərini oxumaq üçün iştirakçılara 10 dəqiqə vaxt verin.

- Problemin təsvirləri insanları (və ya əhalinin hansısa qrupunu) və onların hüquqlarını əhatə edirmi?
- Bu çalışma yardımçı oldumu?
- O, nə isə əlavə etdimi?
- Bu çalışmada çətinliklərlə üzləşdinizmi? Əgər üzləşdinizsə, hansı çətinliklərlə?
- BMT-nin İHÜB, UHK və ya digər konvensiyaların maddələri əlavə aydınlıq gətirirmi?

**Problemin Təsviri üçün istiqamətləndirici suallar**

a) Problem nədir?
b) O, (açıq-aydın) uşaqlara aiddirmi?
c) Hansı hüquqlar yerinə yetirilmir, inkar edilir və ya pozulur?

d) Problemi uşaqları və onların hüquqlarını diqqətə almaqla yenidən təsvir edin (UHK-dan istifadə edin!)
e) Yenidən nəzərdən keçirilmiş problem təsvirini orijinal (əvvəlki) problem təsviri ilə müqayisə edin.

**2.4. Səbəbi müəyyən etmək**
Dərsin ümumi məqsədi:
- Problemin səbəblərini və təsirlərini müəyyən etmək və onun üçün kauzal diaqram və ya problem ağacı qurmaq.
- Materiallar: mühazirə kağızı, markerlər və skoç; mümkün olarsa problemin təsviri barədə materialların nüsxələri. Vəziyyətin təhlili vərəqələrinin nüsxələri.

1. (60 dəqiqə) Hüquqlara əsaslanan təhlildə növbəti mərhələnin kauzal təhlil olduğunu bildirməklə qrup işini təqdim edin. İştirakçılardan nümunə gətirmələrini xahiş edin (lazım olarsa, Vəziyyətin təhlilindən istifadə edin.
İştirakçılardan kiçik qruplar yaratmağı xahiş edin. Qruplar əvvəlki çalışmada müəyyən edilmiş problem/hüquqların pozulması/yerinə yetirilməyən hüquqların səbəblərini, təsirlərini və daha geniş məzmununu müəyyən edirlər – (iştirakçılar üçün faydalı olarsa nümunəvi kauzal diaqram və ya problem ağacı diaqramı qurun):
- Problemin səbəbləri nədir (dərhal görünən, üzdə olmayan və kökdə duran)?
- Problemin uşaqlara təsirləri nədir? Onlar bitirdikləri zaman öz nümunələrini göstərməlidirlər.

2. (30 dəqiqə) Plenar müzakirələr: İştirakçılardan 10 dəqiqə ərzində digər qrupların işlərinə baxmağı xahiş edin.
Sonra ümumi şərhlər və sualların olduğunu soruşun.
Ümumi şərhlərdən və suallardan sonra aşağıdakıları soruşun:
- Səbəb-nəticə əlaqəsinə dair (kauzal) diaqramlar uşaqların bütün inkişaf ehtiyaclarını nəzərə alırmı? Onlar məsələyə (bütün uşaqlara) hərtərəfli baxırmı?
- Onlar kökdə olan səbəbləri və siyasi və iqtisadi konteksti nəzərə alırmı?
- Bu çalışma yardımçı oldumu?
- O, planlama prosesinə nə əlavə etdi?
- Bu çalışmada çətinliklərlə üzləşdinizmi? Əgər üzləşdinizsə, bunlar hansı çətinliklər olub?

**2.5. Kimin Cavabdeh Olduğunu Müəyyən Etmək**
Dərsin ümumi məqsədi:
- Problemli uşaq hüquqları ilə bağlı öhdəliklərin təhlil edilməsi praktikası.
- Materiallar: mühazirə kağızı, markerlər və skoç; Ekvadorda səhiyyə hüququnun reallaşdırılması – dövlətin öhdəliklərinin qiymətləndirilməsi və Hindistanda ibtidai təhsil almaq hüququnun reallaşdırılması – maraqlı tərəflər öz öhdəliklərini yerinə yetirirlərmi? Nümunələrin nüsxələri.

1. (5 dəqiqə) Giriş: Bu dərsdə biz uşaq hüquqlarına görə kimin məsuliyyət aşıdığını təhlil edəcəyik:

• Onlar öz öhdəliklərini yerinə yetirirlərmi?
• Onlar ehtiyacı olduqları resurslara, imkana, uyğunluğa, səlahiyyətə malikdirlərmi?
• Hüquqların pozulmasını, öhdəliklərin yerinə yetirilməsindəki maneələri, məsuliyyətdəki (uşaqların hüquqları üçün) boşluqları göstərmək üçün məlumata ehtiyacımız vardır.

2. (10 dəqiqə) İştirakçılardan təhsil almaq hüququ üçün kimin cavabdeh olduğunu soruşun. Cavabları lövhə və ya mühazirə kağızı üzərinə yazın. İştirakçıları başqalarının nə isə buraxdığı və ya normal olaraq ağla gəlməyən şeylər barədə düşünməyə sövq edin, məsələn: Maliyyə Nazirliyi (müəllimlərin maaşını ödəmək, məktəb binalarını maliyyələşdirmək) və özəl sektor.
3. Sonra müzakirələri aşağıdakı suallar üzrə davam etdirin:

• Hüququ reallaşdırmaq üçün nə lazımdır?
• Kim cavabdehdir və hüququn reallaşdırılması üçün maneələr nədir (imkan, uyğunluq, səlahiyyət, resurslar, münasibətlər)
• Bu maneələri necə dəf etmək olar?

4. (60 dəqiqə). İştirakçılardan Səbəbli Əlaqə (Kauzal) təhlili dərsindəki kimi qruplarına qayıtmağı xahiş edin. Onlardan bu səbəb təhlilində müəyyən edilmiş səbəbdən, məsələdən və ya yerinə yetirilməyən hüquqdan yalnız birini götürməyi xahiş edin. Sonra aşağıdakıları mühazirə kağızı üzərində müəyyən edin:

• Səbəb/hüquq üçün cavabdeh olan insanlar/qurumlar (vəzifə daşıyanlar) kimlərdir? Uşağa ən yaxın insanlardan və qurumlardan başlayın və xaricə doğru işləyin (ailə - icma – yerli qurumlar ...).
• Onlar öz öhdəliklərindən hansılarını yerinə yetirirlər və ya yetirmirlər?
• Onları etməli olduqlarını niyə etmirlər? Vəzifə daşıyanların etməli olduqlarının qarşısında hansı maneələr vardır (imkan, uyğunluq, səlahiyyət, resurslar, münasibətlər)?
• Maneələri necə dəf etmək olar?

5. (35 dəqiqə) Plenar müzakirədə iştirakçılardan bir daha 10 dəqiqə ərzində müxtəlif mühazirə kağızlarını oxumağı xahiş edin.
Ümumi şərhlər və sualları yoxlayın, sonra soruşun:

• Öhdəliklərin, maneələrin və s. sistematik təhlili təhlilə nə isə əlavə edir?
• O, yeni proqramlama variantlarının yaranmasına səbəb oldumu?
• O, nə isə əlavə etdimi?
• Siz bu çalışmada çətinliklərlə üzləşdinizmi? Əgər üzləşdinizsə, hansı çətinliklərlə? Bu təhlil uşaqların hüquqları ilə bağlı bütün işlərə şamil edilməlidir

<table>
<tr><th colspan="3">SİTUASİYA 1. Ekvadorda səhiyyə hüququnun reallaşdırılması – dövlətin öhdəliklərinin qiymətləndirilməsi</th></tr>
<tr><th>Dövlətin öhdəliyi</th><th>Qiymətləndirmə</th><th>Mümkün və ya arzuolunan göstəricilər</th></tr>
</table>

| | | |
|---|---|---|
| Hüquqlara hörmət edilməsi İnsanların öz hüquqlarını həyata keçirməsi üçün onların imkanlarına birbaşa müdaxilə varmı? Səhiyyənin və səhiyyə xidmətlərinə çıxışın mövcud səviyyələrində qaçılması mümkün olan reqressiya varmı? | Dövlətin neft əməliyyatları Amazonun Ekvador hövzəsindəki icmaların su mənbələrinə ağır metallar və kanserogenlər tökür. Ən yoxsullar üçün fövqəladə hallarla bağlı plansız proqramlarda keçinilməsi mümkün olan kəsmələr edilmişdir | Arzuedilən məlumat: dövlət əməliyyatlarının səbəb olduğu kimyəvi çirklənmənin illik həcmi 1990-cı ildə qiymətləndirilən uşaqların 50% beş yaşına kimi pis qidalanırdı. 1990-94-cü illərdə qida proqramlarının əhatə dairəsi 11%-dən 4%-ə düşdü |
| Hüquqların qorunması İnsanlar özəl sektordakı maraqlı tərəflərin tədbirlərindən öz sağlamlıqlarına sistematik, zərərli təsirdən əziyyət çəkirlərmi? Onları qorumaq üçün dövlət tədbirlər görürmü? | Qadınların və uşaqların tərəfdaşlar və ailə üzvləri tərəfindən sui-istifadəsi onların sağlamlığına böyük təhlükə yaradır. Qadın və Ailəyə qarşı zorakılıq əleyhinə son qanuna baxmayaraq dövlət məhkəmə sistemi vasitəsilə qurbanları lazımi şəkildə qorumamışdır.<br>Özəl neft sənayesinin Amazonun Ekvador hövzəsindəki icmaların su mənbələrinə ağır metallar və kanserogenlər tökməsinin qarşısı alınmır | 1998-ci ildə ən böyük şəhər Quayakildə qadınların 88 %-i ailədaxili zorakılıqdan əziyyət çəkdiklərini bildirmişlər<br>1989 və 1992-ci illər arasında Quayakildə qadınlara və qızlara qarşı cinsi cinayətlərlə bağlı 1920 şikayətin yalnız 2% məsuliyyətə cəlb edilmə ilə nəticələndi<br>80-ci illərin sonunda özəl neft şirkətləri Amazona təqribən gündəlik 4.4 milyon qallon zəhərli tullantı tökürdülər |

| | | |
|---|---|---|
| Hüquqların yerinə yetirilməsi Milli səhiyyə problemlərinin kökünü aradan qaldırmaq üçün adekvat tədbirlər görübmü? | 1996-cı ildə dövlətin araşdırması göstərdi ki, ölümlərin 80%-nin qarşısı ilkin və ikinci preventiv səhiyyəyə prioritet verməklə almaq olar<br>Digər Latın Amerikası ölkələrinə nisbətən qida proqramların məhdud əhatə dairəsi vardır | 1995-ci ildə səhiyyə büdcəsinin yalnız 17%-i ilkin tibbi yardıma və yalnız 7% isə profilaktik təbabətə ayrılmışdı<br>90-cı illərin ortalarında proqramın əhatəsi 40 % Boliviyadakı və 85 % Perudakı ilə müqayisədə sadəcə 4% idi |
| Ayrı-seçkiliyin olmaması Dövlətin tədbirlərində və ya nəticələrində ayrı-seçkilik varmı? | Kənd, yoxsul və yerli əhalinin yüksək qeyri-bərabərliyinə və məhrumiyyətlərinə baxmayaraq dövlət əsas xərcləri və resursları şəhər və imkanlı qruplara həsr edir | 1997-ci ildə kənd əhalisinin sadəcə 10 % ilə müqayisədə şəhər əhalisinin 84%-nin səhiyyə xidmətlərinə çıxış imkanı var idi və səhiyyə işçilərinin 80 %-i şəhər yerlərində idi<br>Arzuedilən məlumat: etnik mənsubiyyətə, gəlirə və təhsil səviyyəsinə görə səhiyyə xidmətlərinə çıxış imkanı |
| Adekvat irəliləyiş Öz öhdəliklərini yerinə yetirmək yönündə dövlət həm nəticələr, həm də töhfələrdə adekvat irəliləyişə nail olubmu? | 1970-ci ildə dövlət yoxlama aparmışdır:<br>• Təhlükəsiz su şəhər əhalisinin 80 %, kənd əhalisinin 50% üçün<br>• Kanalizasiya şəhər əhalisinin 70 %, kənd əhalisinin 50% üçün<br>1980-ci illərin sonunda borcları ödəmək və hərbi xərcləri artırmaq üçün dövlət ardıcıl olaraq səhiyyə xərclərini azaltmışdır | 1982-90-cı illərdə təhlükəsiz su əldə etmək imkanı olan ev təsərrüfatlarının payı şəhər yerlərində 88% - dən 78% düşdü və kənd yerlərində isə 25%-dən aşağı |

| | | |
|---|---|---|
| | | idi. Kanalizasiyası olan əhalinin payı şəhər yerlərində 46%-dən 38% və kənd yerlərində isə 15%-dən 10%-ə düşdü.<br>1998-ci ildə milli büdcənin 4%-i səhiyyəyə, 45%-i isə borcların ödənilməsinə getdi |
| | Resursların ayrılması sistemi çox mərkəzləşmiş və bürokratikdir, iştirak üçün imkanları yox edir | Arzuedilən məlumat: yerlərdə ayrılan səhiyyə büdcələrinin faiz nisbəti; xalqla məsləhətləşməklə hazırlanmış səhiyyə proqramlarının faiz nisbəti |
| Effektiv vasitə<br>Dövlət səhiyyə hüququnun pozulmasına qarşı səmərəli vasitələr təmin edibmi? | Səmərəsizlik, korrupsiya və resursların yoxluğu səmərəli məhkəmə çəkişmələrinə çoxlu maneələr yaradır | Dövlət və özəl neft şirkətləri tərəfindən Amazon icmaların səhhətlərinə 25 illik vurulan kütləvi zərərlərdən sonra xeyli sayda iddialar qaldırılmış və heç biri təmin edilməmişdir |
| *Mənbə: CESR 1998 (UNDP HDR 2000: 102)* | | |

**SİTUASİYA 2. Hindistanda ibtidai təhsil almaq hüququnun reallaşdırılması – maraqlı tərəflər öz öhdəliklərini yerinə yetirirlərmi**

| Maraqlı Tərəf | Öhdəlik | Tədbir | Nəticə |
|---|---|---|---|
| Valideynlər | Uşaqları məktəbə göndərməyə iradə göstərməlidir | Uşaqlarının təhsil almasının vacib olduğunu düşünən valideynlərin nisbəti | • 89% qızlar üçün, 98% oğlanlar üçün |
| Hökumət | Getmək mümkün olan məktəblər təmin etməlidir<br>Lazımi binalar təmin etməlidir | Məktəbdən evə qədər olan məsafə<br>Müəllimlərin sayı<br>Məktəb binalarının vəziyyəti<br>Baş müəllimlərin məktəbə gəlməsi və fəaliyyəti | • 92% kənd əhalisinin ibtidai məktəbi 1 km məsafə daxilində idi<br>• 12% ibtidai məktəbə yalnız bir müəllim təyin olunmuşdu<br>• 21% -də müşahidə zamanı yalnız bir müəllim var idi<br>• 58% məktəblərin ən azı iki otağı var idi<br>• 60% kirəmiti su buraxırdı<br>• 89% işləyən tualeti yox idi<br>• 59% içməli suyu yox idi.<br>Bir gün ərzində məktəbə gəlmənin müşahidəsi:<br>• 25% baş müəllim öyrətmə fəaliyyəti ilə məşğul olurdu<br>• 42% öyrətmə fəaliyyəti ilə məşğul olmurdu<br>• 33% yox idi |
| İcma | Məktəbi, müəllimləri və valideynləri dəstəkləməlidir | İctimai müzakirə | 49% kənd təhsil komitələri keçən il ərzində görüşməmişlər |
| KİV | Əsas təhsilə etinasızlıq barədə hesabat verməlidir | Əsas təhsil haqqında qəzet məqalələrinin nisbəti | İl ərzində qəzet məqalələri:<br>• 8,550 xarici investisiya barədə<br>• 3,430 xarici ticarət barədə<br>• 2,650 müdafiə barədə<br>• 990 təhsil barədə<br>• 60 kənddə ibtidai təhsil barədə |

*Qeyd: Nümunəyə 1996-cı ildə Hindistanın dörd şimal ştatındakı 188 kənd, 1200 ev təsərrüfatı və 236 məktəb daxil edilmişdir. Mənbə: PROBE Team 1999 (in UNDP HDR 2000: 104)*

**3. İnsan hüquqları xəbərlərdə**

Materiallar: hər qrupda ən azı bir ədəd olmaq şərti ilə müxtəlif növ köhnə qəzet və jurnallar; yazı lövhəsi və təbaşir və ya divar bloknotu, qələm və yapışqanlı lent; İHÜB-in sadələşdirilmiş variantı.

1. İştirakçılara aşağıdakı mətni oxuyun:
Bizim müasir dünyada əvvəlki dövrdən daha çox informasiya əldə etmək imkanımız var. Bizim əksəriyyətimizə bu informasiya KİV və xüsusən də, xəbərlər vasitəsi ilə çatdırılır. Hər gün televizor ekranları və qəzetlər ümidverən, faciəvi, xöşbəxt, kədərli, sadə və ya mürəkkəb xəbərlərlə dolu olur. İnsan hüquqları ideyasını istifadə edərək müvəffəqiyyəti, yəni hüquqların harada müdafiə olunduğu və həyata keçirildiyini, eyni zamanda problemləri, yəni hüquqların harada inkar edildiyini görürük.
2. İştirakçılardan hər biri dörd nəfər olan kiçik qruplar təşkil etməyi xahiş edin. Qəzet və jurnalları qruplar arasında paylayın. Hər qrupa həmçinin qayçı, yapışqanlı lent və ya yapışqan və divar bloknotu vərəqi verilir.
3. Qəzet məqalələrindən istifadə etməklə hər qrup aşağıdakı adlar altında afişa/plakat düzəldəcək:
   a) həyata keçirilən hüquqlar;
   b) inkar edilən hüquqlar;
   c) müdafiə edilən hüquqlar;
   d) ziddiyyətlı hüquqlar.
4. İştirakçıları yalnız xəbərlər və şəkillərə deyil, həmçinin kiçik məqalələrə, məsələn, elan və reklamlara da baxmağa dəvət edin (məsələn, Qəzetin dili dildən istifadə etmək və mədəniyyət hüquqlarını göstərir, reklamlar şəxsi mülkiyyət hüququnu göstərir, sosial hadisələr haqqında məlumatlar mədəni hüquqları göstərir və fərdi rubrikalar çoxlu hüquqların praktikida işlənməsini əks etdirir).
5. Ehtiyac olarsa iştirakçıları aşağıdakı nümunələri təklif etməklə həvəsləndirin:
   - İnkar edilən hüquqlar. Bu, yerli icma ilə məsləhətləşmədən, bələdiyyə sağlamlıq klinikasının bağlanılmasından şikayət edən məqalə ola bilər. Bu da sağlamlığın qorunmasının və ya hətta, yaşamaq hüququnun inkar edilməsini göstərir!
   - Müdafiə edilən hüquqlar. Bu, uşaqlarla pis rəftar edən şəxslərdən uşaqların xilas edilməsi haqqında məqalə ola bilər.
   - Tətbiq olunan hüquqlar. Bu, idman komandası üzvünün qol vurarkən çəkilmiş şəkli ola bilər; bu da istirahət etmək hüququnu, sağlamlıq hüququnu, birləşmək və ya hətta səyahət etmək (əgər bu beynəlxalq yarışmadırsa!) azadlığını göstərir.
6. İştirakçılar hər bir kateqoriya üçün məqalə tapandan sonra aşağıdakıları təhlil etmək üçün hər kateqoriyadan bir məqalə seçməlidirlər:
   a. məqalədə hansı konkret hüquqlara toxunulur? Onları məqalənin yanında sadalayın.
   b. hər hüququ əhatə edən ÜİHB məqaləsini (məqalələrini) müəyyən edin və siyahıda məqalə nömrəsini (nömrələrini) yazın.

Alternativ seçim: bütün qruplar tapdıqları məqalələri bir araya gətirib ümumi afişa/plakatlar etmək üçün dörd ayrı-ayrı afişa/plakatın hazırlanmasına kömək edirlər.

7. Hər bir qrup nümayəndəsindən qrupun seçimi haqqında məlumat verməyi xahiş edin.
8. Hər qrupun afişa/plakatından bir və ya iki məqalə seçin və ÜİHB baxımından bu məqalələrin təhlilini izah etməyi qrupdan xahiş edin:

- Bir neçə məqalədə hansı konkret hüquqlara toxunulmuşdur?
- ÜİHB-in hansı maddələrinə toxunulmuşdur?
- Məqalələrin çoxu siyasi və mülki hüquqları yoxsa sosial, iqtisadi və mədəni hüquqları ilə əlaqəli idilər?
- Sizin fikrinizcə, hansı səbəbdən hüququn bir növünə daha tez-tez rast gəlinirdi?

9. Müzakirə edin:

- Hansı hüquq kateqoriyalarını məqalələrdən tapmaq daha da asan idi? Hansılarını tapmaq daha çətin idi? Niyə?
- ÜİHB-in bəzi maddələri digərlərindən daha tez-tez rast gəlinirdi? Digərləri ümumiyyətlə rast gəlinmirdi? Bunu necə izah edərdiniz?
- Neçə məqalədə konkret olaraq insan hüquqlarına istinad var idi? Neçə məqalə insan hüquqları problemlərinə toxunurdu, amma bu sözləri konkret istifadə etmirdi? Sizcə niyə insan hüquqları sözləri istifadə edilməmişdi?
- İnsan hüquqlarının müdafiə və təmin edilməsi üçün məqalələrdə qeyd edilmiş bəzi pozitiv təşəbbüslər və hərəkətlər hansılardır? Bu hərəkətləri kim görməlidir?

10. Qrupla diskussiya aparıldıqdan sonra, məşğələni Yekun Qeydinə əsaslanan fikirlərlə yekunlaşdırın.

**Yekun Qeyd**

İnsan hüquqları əsasən dövlətin vəzifəsidir. Beynəlxalq İnsan hüquqları sənədlərini ratifikasiya etmiş dövlətlər insan hüquqlarına dəstək olmaq və onları müdafiə etmək öhdəliyini qəbul ediblər.
Lakin fərdlərin də insan hüquqlarını müdafiə etmək vəzifəsi var. İHÜB Maddə 30-da qeyd edir ki, «şəxslər qrupu və ayrı-ayrı şəxslər Bəyannamədə elan olunmuş hüquq və azadlıqların məhvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul ola və ya hər hansı hərəkəti törədə bilməzlər».

## SİTUASIYA ÜZRƏ MƏŞĞƏLƏLƏR

### SİTUASİYA 1.
### Qadın hüquqları və zorakılıq

Sizin işlədiyiniz ofisə yaxın şəhərdə səfərdə olarkən, bir gənc günorta vaxtı sizə yaxınlaşaraq təklikdə söhbət etmək istəyini bildirir. Onunla şəhərin kənarında yerləşən kafelərin birində görüşə razılıq verirsiniz. Gənc oğlan aşağıdakı hadisə barədə sizə məlumat verir və məsləhətinizə ehtiyacı olduğunu bildirir. Hadisə sizin şəhərdən bir neçə kilometr aralıda gəncin yaşadığı kənddə baş verib.
Gəncin verdiyi məlumata görə bir neçə gün əvvəl itkin düşmüş bacısı bu gün səhər evə qayıdıb. Onun dediyinə görə milli azlığa mənsub və adı Nisə olan bacısı 5 gün əvvəl günorta vaxtı oğurlanmış və digər etnik qrupdan olan beş kişi tərəfindən cinsi zorakılığa məruz qalmışdır. Bacısı həmin şəxslərdən birinin adını bilir və əmindir ki, hamısı 2 km aralıda yerləşən kənddəndir.
Gəncin dediyinə görə cinsi zorakılığa məruz qaldıqdan bir neçə dəqiqə sonra bacısı rəfiqəsi tərəfindən tapılmış və dərhal polis məntəqəsinə aparılmışdır. Polisdə bacısı polis əməkdaşına hadisə barədə şikayət etmiş və onu zorlamış şəxslərin hansı kənddən olduğunu bildirmişdir. Polis əməkdaşı isə gəncin bacısını pis sözlərlə söymüş və şikayətinin əsassız olduğunu, uydurulmuş olduğunu və kənddə problem yaratmaq istədiyini demişdir. Buna baxmayaraq polis məntəqəsində dörd polis əməkdaşlı onu başqa bir otağa aparır və orada hadisə barədə bir neçə sual verir. Bu cür müsahibə zamanı zorlamanın baş verməsinə əmin olmaq üçün polislərdən biri bacısının soyunmasını xahiş edir. Bacısı paltarını soyunduqda polislər onun bədənində heç bir göyərtilər görmədiyini bildirir. Bundan sonra polislər bacısının polis məntəqəsində qalmalı olduğunu söyləmişdir. Bacısı isə onun həkimə aparılmasını tələb etsə də, heç bir tibbi yardım çağırılmır.
Polisdə üç gün qaldıqdan sonra bacısı azad edilmişdir. Polis isə nəticədə bacısının yalan danışdığını bildirmişdir. Polisdə bacısından bu ərazini tərk etmək tələb edilmişdir. Polis həmçinin bir daha şikayət edəcəyi halda ailəsinin problemlə üzləşəcəyi ilə qorxudulmuşdur. Polis bacısını rəfiqəsinin evinə aparmış və rəfiqəsinin də bu məsələyə qarışmaması tələb etmişdir. Bacısı rəfiqəsinin evində iki gün qaldıqdan sonra evinə qayıdır və qardaşına hadisə barədə məlumat verir.

**Müzakirə**
İşçi qruplarda bu hadisəni müzakirə edin və pozulmuş insan hüquqlarını müəyyənləşdirin. Bu pozuntular insan hüquqlarının müdafiəçisinin mandatına aiddirmi?

**Metodika**
Hər bir işçi qrupundan bir nəfər müzakirənin nəticələrini təqdim edir, hadisə zamanı baş vermiş insan hüquqları pozuntularına dair məlum verir. İşçi qrupun üzvləri müəyyən etdikləri insan hüquqları məsələlərini müvafiq beynəlxalq insan hüquqları sazişləri ilə əlaqələndirməyə çalışmalıdır.

### SİTUASİYA 2
### İqtisadi və sosial hüquqlar

Ofisdə işləyərkən Salatın adında yaşlı bir qadın sizin ofisinizə daxil olur. Salatın xanım 10 ildən çoxdur ki, şəhərdən 1-2 km aralıda kiçik bir bağçası olan evdə yaşayır. Son cümə günü Salatın xanım oğlunu ziyarət etmək üçün qonşu şəhərə getmişdir. Geri qayıtdıqda isə başqa bir ailənin - ata, ana və iki uşağın - onun evinə soxulduğunu və orada yaşadığını görür. Tələb etdiyinə baxmayaraq həmin ailə onun evindən çıxmağı rədd edir. Bu hadisə barədə Salatın xanım qonşularına, polisə və yerli icra nümayəndəliyinə məlumat verir, lakin onlar şikayəti cavabsız qoyur. Əgər problem həll olunmasa Salatın xanım evini tərk edib oğlu ilə yaşamağa məcbur olacağını bildirir.

**Müzakirə**
İşçi qruplarda yuxarıdakı hadisəni müzakirə edin və aşağıdakıları nəzərdən keçirin: 1) problemlə üzləşmiş xanımdan daha hansı suallara cavab almaq istərdiniz; 2) işə dair daha hansı məlumata ehtiyacınız var; 3) burada hansı insan hüquqları pozulub; 4) pozulmuş insan hüquqları insan hüquq müdafiəçisinin mandatına aiddirmi?

**Metodika**
Hər bir işçi qrupdan bir nəfər müzakirənin nəticələrini təqdim edir, hadisə zamanı baş vermiş insan hüquqları pozuntularına dair məlum verir. İşçi qrupun üzvləri müəyyən etdikləri insan hüquqları məsələlərini müvafiq beynəlxalq insan hüquqları sazişləri ilə əlaqələndirməyə çalışmalıdır.

## SİTUASİYA 3.
## Qadın hüquqları və abort

A.A. adlı 26 həftə hamiləliyi olan qadın həkimin qəbuluna gələrək abort etmək istəyini ona bildirir. Həkimin işlədiyi klinikada vaxtından əvvəl doğulmuş yeni doğulmuşlara qayğının göstərilməsi üçün heç bir avadanlıq, o cümlədən, inkubatorlar yoxdur. Lakin, şəhərdə bu cür imkanlara malik daha iri xəstəxana vardır.
Həkim tərəfindən abort həyata keçirilir. Abort nəticəsində canlı yenidoğulmuş dünyaya gətirilir və onun çəkisi 1.000 qm olur. İlkin baxışdan görünən budur ki, imkan verilsəydi həmin döl daha da inkişaf edə bilərdi.
Yeni doğulmuşun sağ qalması üçün həkim müvafiq canlandırma tədbirləri və ya irəliləmiş tibbi yardım tədbirləri görə bilərdi. Lakin yeni doğulmuş heç bir qayğı almır və 54 saatdan sonra ölür.

**Aşağıdakı suala cavabınızı izah edin.**
- Həkim burada başqa cür hərəkət etməliydimi?

**Suala mümkün cavablar:**
XEYR. X adlı qadın öz istəyi ilə abort etməyə qərar verir və bu cür qərarı heç bir təkid olmadan verir. Onun bətnində olan dölün yaşayıb-yaşamamasına dair qərar qadının şəxsi qərarından asılıdır. Dölün heç bir hüququ yoxdur. Buna görə də, həkim öz vəzifə öhdəliklərini düzgün yerinə yetirib.

BƏLİ. Əgər yenidoğulmuş doğulduqdan sonra canlı olubsa və ana bətnindən kənarda yaşama potensialına malikdirsə, onun istənilən digər insan kimi hüquqları vardır. Həmin yeni doğulmuşun yaşaması üçün ona müvafiq tibbi və s. qayğı göstərilməliydi. Burada həkim həm öz həkimlik vəzifəsini yerinə yetirməmiş, həm də onun hərəkətsizliyi yeni doğulmuşun ölümünə səbəb olduğu üçün cinayət törətmişdir. Həkim yeni doğulmuşu çox qəddar ölümə məhkum etmişdir. Bu qadın müvafiq xəstəxanaya yönləndirilməliydi.

**Müzakirə**

***Yaşamaq hüququ***

İşçi qruplarda yuxarıdakı hadisəni müzakirə edin və aşağıdakıları nəzərdən keçirin: 1) ölkə qanunvericiliyi əsasında situasiyanı təhlil edin; 2) həkim beynəlxalq hüquq baxımından necə davranmalıydı; 3) burada hansı insan hüquqları pozulub; 4) pozulmuş insan hüquqları insan hüquq müdafiəçisinin mandatına aiddirmi?

**Metodika**

Hər bir işçi qrupdan bir nəfər müzakirənin nəticələrini təqdim edir, hadisə zamanı baş vermiş insan hüquqları pozuntularına dair məlum verir. İşçi qrupun üzvləri müəyyən etdikləri insan hüquqları məsələlərini müvafiq beynəlxalq insan hüquqları sazişləri ilə əlaqələndirməyə çalışmalıdır.

**SİTUASİYA 4**.

**Tibbi qayğı ilə əhatə olunma**

Cənab S. 41 yaşlı işsiz kişidir. O diabetdən, ürəyin işemik xəstəliyi və beyin qan dövranının pozulmasından əziyyət çəkir. İlk dəfə 1996-cı ildə beyin insultu keçirmişdir.

1996-cı ildə onun böyrəklərinin çatışmazlığı inkişaf etmiş və hazırda xronik böyrək çatışmazlığının son mərhələsindən əziyyət çəkir. Buna baxmayaraq onun həyatı müntəzəm dializ hesabına uzadıla bilər. Bu məqsədlə cənab S. Göyçayda yerləşən dövlət xəstəxanasının dializ şöbəsinə müraciət edir. Lakin orada bildirirlər ki, xəstəxanada ildə məhdud sayda xəstəyə dializ həyata keçirilə bilər. Texniki, maddi resursların məhdudluğundan xəstəxanada dializ ilk növbədə kəskin böyrək çatışmazlığından əziyyət çəkən xəstələrdə aparılır. Xronik böyrək çatışmazlığından əziyyət çəkən xəstələrlə bağlı isə xəstəxananın təlimatına əsasən yalnız böyrək transplantasiyası alacaq xəstələrdə hemodializ aparılır. Cənab S.-in ürəyin işemik xəstəliyindən əziyyət çəkdiyi və beyin insultu keçirdiyini nəzərə alaraq, o böyrək transplantasiyasına namizəd hesab edilmir. Bütün bunlara görə xəstəxanada cənab S.-i istədiyi müalicə ilə təmin etmək mümkün deyil.

Cənab S. məcburiyyət qarşısında qalaraq özəl xəstəxanaya müraciət edir və hemodializi orada alır. Lakin bir müddətdən sonra onun maliyyə imkanları tükənir və o, artıq hemodializə görə ödənişlər edə bilmədiyini elan edir.

**Aşağıdakı suala cavabınızı izah edin**.

Maliyyə imkanları məhdud olan xəstələrin müalicəsi dövlət tərəfindən təmin edilməlidirmi?

**Suala mümkün cavablar:**
**BƏLİ.** Öz hesabına müalicə xərclərini ödəyə bilməyən bütün xəstələrin tibbi müalicəsi dövlətin öhdəliyidir. Həmin şəxslərin müalicəsini təmin etməməklə dövlət diskriminasiyaya (ayrıseçkiliyə) yol verir və maddi imkanları olmayanları ölümə məhkum edir.
**XEYR**. Dövlətin resursları məhdud olduğundan o heç də hamını lazımi tibbi qayğı ilə əhatə edə bilmir. Situasiyada təsvir edilmiş dializ proqramı xüsusi təlimata əsasən fəaliyyət göstərir və yalnız müvafiq meyarlara cavab verən xəstələri dializlə təmin edir. Təəssüf ki, cənab S. həmin meyarlara cavab vermir.

**Müzakirə**
**Tibbi qayğıya olan hüquq. Yaşamaq hüququ**.
İşçi qruplarda yuxarıdakı situasiyanı müzakirə edin və aşağıdakıları nəzərdən keçirin: 1) ölkə qanunvericiliyi, o cümlədən, ölkənin Konstitusiyası əsasında situasiyanı təhlil edin; 2) beynəlxalq hüquq baxımından xəstənin tibbi qayğı ilə təminatı necə olmalı idi; 3) burada hansı insan hüquqları pozulub; 4) pozulmuş insan hüquqları insan hüquq müdafiəçisinin mandatına aiddirmi?

**Metodika**
Hər bir işçi qrupundan bir nəfər müzakirənin nəticələrini təqdim edir, hadisə zamanı baş vermiş insan hüquqları pozuntularına dair məlum verir. İşçi qrupun üzvləri müəyyən etdikləri insan hüquqları məsələlərini müvafiq beynəlxalq insan hüquqları sazişləri ilə əlaqələndirməyə çalışmalıdır.

# İqtisadi, Sosial və Mədəni Hüquqlarla bağlı Ən Çox Verilən Suallar

**Faktla
rın
Şərhi
№ 33**

**BMT-nin İnsan Hüquqları üzrə**
**Ali Komissarlığı**

# İqtisadi, Sosial və Mədəni Hüquqlarla Bağlı Ən Çox Verilən Suallar

**Faktların şərhi № 33**

**QEYD**

Bu nəşrdə istifadə olunan qeydlər və material təqdimatı hər hansı ölkə, ərazi, şəhər və ya zonanın hüquqi statusu və ya sərhədlərinin və ya hüdudlarının delimitasiyası ilə bağlı Birləşmiş Millətlər Təşkilatı Katibliyinin mövqeyini ifadə etmir.

Bu nəşrə daxil edilmiş material razılaşdırılmaqla və təkrar çap edilmiş materialın surəti BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının “Palais des Nations, 8-14 avenue de la Paix, CH-1211 Geneva 10, Switzerland” ünvanına göndərilməklə sərbəst şəkildə sitat kimi istifadə edilə və ya təkrar çap edilə bilər.

**MÜNDƏRİCAT**

Giriş ............................................................................ ....

1. İqtisadi, sosial və mədəni hüquqlar nədir?..........................

2. İqtisadi, sosial və mədəni hüquqları qorumaq niyə vacibdir?.........................

3. İqtisadi, sosial və mədəni hüquqlar yeni hüquqlardır? .......

4. İqtisadi, sosial və mədəni hüquqlar fərdi hüquqlardır? ......

5. İqtisadi, sosial və mədəni hüquqlar mülki və siyasi hüquqlardan köklü şəkildə fərqlənirmi? ......................................................................

6. Dövlətlərin iqtisadi, sosial və mədəni hüquqlarla bağlı öhdəlikləri hansılardır? ......

7. İqtisadi, sosial və mədəni hüquqların "mütərəqqi təminatı" nədir?...................

8. İqtisadi, sosial və mədəni hüquqlarla bağlı hansı növ öhdəliklər dərhal yerinə yetirilməlidir? ..............................

9. İqtisadi, sosial və mədəni hüquqların pozulması ilə bağlı bəzi nümunələr hansılardır?...

10. Gender amilinin iqtisadi, sosial və mədəni hüquqlarla əlaqəsi vardırmı?.........

11. İqtisadi, sosial və mədəni hüquqlar hökumətlər üçün mal və xidmətləri pulsuz təmin etmək öhdəliyi yaradırmı?...

12. İqtisadi, sosial və mədəni hüquqlar insanları müavinətlərdən asılı edirmi?........

13. İqtisadi, sosial və mədəni hüquqlar təbii olaraq demokratiya və iqtisadi artımdan irəli gəlirmi? .............

14. İqtisadi, sosial və mədəni hüquqlar əsas malların və məhsulların fərdi qaydada təmin olunmasının qadağan edilməsi deməkdirmi? ............................

15. Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq iqtisadi, sosial və mədəni hüquqların reallaşdırılması ilə eynidirmi? ........ ....................................

16. İqtisadi, sosial və mədəni hüquqlar fövqəladə hallarda, fəlakətlər və silahli münaqişələr zamanı tətbiq edilirmi?.............

17. İqtisadi, sosial və mədəni hüquqların milli səviyyədə təbliği və qorunmasında kim iştirak etməlidir? ................................................................

18. İqtisadi, sosial və mədəni hüquqlar məhkəmə qaydasında müdafiə oluna biləcək hüquqlardırmı? ....................... .......

19. İqtisadi, sosial və mədəni hüquqların mütərəqqi şəkildə reallaşdırılmasına necə nəzarət etmək olar?... ..........................................................................

20. Beynəlxalq səviyyədə hansı nəzarət mexanizmləri mövcuddur? ................. .....

Qoşma ............................................................................................................

## GİRİŞ

Son 15 ildə, iqtisadi, sosial və mədəni hüquqların təşviq və müdafiəsinə maraq artmışdır. Qeyri-hökumət təşkilatları (QHT-lər), akademik dairələr, hökumətlər və məhkəmə orqanları öz proqramlarında, siyasət prinsiplərində və məhkəmə praktikalarında bu hüquqların qorunmasına daha çox diqqət yetirir, insan hüquqlarından ümümi şəkildə daha çox yararlanmaq baxımından onlara hörmətlə yanaşmağı vurğulayırlar. İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Paktın Fakültativ Protokolunda, həm milli, həm də beynəlxalq səviyyədə bu hüquqların qorunmasına yönəlmiş intibah prosesinə ümid vurğulanmaqdadır. Xüsusilə, iqtisadi, sosial və mədəni hüquqların hələ də inkar edilməsi və bu prosesin hətta sürətləndiyi nəzərə alınsa, bu məsələ vaxtında qaldırılmışdır.

İnsan hüquqları gündəmdə bu hüquqlara göstərilən nisbi laqeydlik, təəssüf ki, onlarla bağlı anlaşılmazlıqlar və yanlış konsepsiyalar doğurmuşdur. Bu laqeydliyin bir çox səbəbləri (soyuq müharibə gərginlikləri, elmi dairələrin laqeydliyi, onların mahiyyətinin aydın olmaması, vətəndaş cəmiyyətinin cəlb olunmaması) aradan qalxsa da, anlaşılmazlıqların çoxu hələ də davam edir. Buna görə də hazırkı faktların şərhi seriyası iqtisadi, sosial və mədəni hüquqlarla bağlı müəmmaları aradan qaldırmaq və aidiyyəti qurumların qarşısında ən çox qaldırılan sualların bəzilərinə cavab vermək məqsədi daşıyır. Faktların şərhi insan hüquqları haqqında müəyyən fundamental bilikləri özündə birləşdirsə də, o, daha geniş ictimaiyyət üçün faydalı olmalıdır.

Lakin iqtisadi, sosial və mədəni hüquqlar haqqında ayrılıqda faktların şərhi sənədinin nəşr edilməsi heç də qeyd olunan hüquqların ayrı bir hüquq kateqoriyası olması təəssüratını verməməlidir. Əksinə, iqtisadi, sosial və mədəni hüquqların müdafiəsinin gücləndirilməsi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində tanınan *bütün* hüquqların müdafiəsinin gücləndirilməsinin ayrılmaz hissəsidir. Mülki, mədəni, iqtisadi, siyasi və sosial hüquqların həqiqətən universal, bölünməz, bir-birindən asılı və qarşılıqlı hüquqlar kimi nəzərdən keçirildiyi insan hüquqları gündəminə doğru hərəkət etdiyimizdən, xüsusilə iqtisadi, sosial və mədəni hüquqlarla bağlı mövcud miflərin aradan qaldırılması hüquqların səmərəsiz kateqoriyalara ayrılmasına son qoymaq baxımından vacibdir.

### 1. İqtisadi, sosial və mədəni hüquqlar hansılardır?

İqtisadi, sosial və mədəni hüquqlar iş yeri, sosial təminat, ailə həyatı, mədəni həyatda iştirak və mənzil, ərzaq, su, səhiyyə və təhsil imkanlarından istifadə ilə bağlı olan insan hüquqlarıdır.

İqtisadi, sosial və mədəni hüquqlar ölkədən ölkəyə və ya bir hüquqi sənəddən başqa hüquqi sənədə fərqli şəkildə ifadə edilə bilsə də, onların əsas siyahısına aşağıdakılar daxildir:

**İşçilərin hüquqları, o cümlədən, məcburi əməkdən azad olunmaq, işi qəbul etmək və ya seçməklə bağlı azad şəkildə qərar qəbul etmək, ədalətli əmək haqları və bərabər iş üçün eyni əmək haqqı, istirahət və iş saatlarına ağlabatan məhdudiyyətlər, təhlükəsiz və sağlam əmək şəraiti, həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq və tətil etmək hüquqları;**

**Sosial təminat və sosial müdafiə hüququ, o cümlədən, sosial təminat sistemindən yararlanmağın özbaşına və ya əsassız inkar edilməməsi hüququ və işsizlik, xəstəlik, qocalıq və ya şəxsin nəzarətindən kənar hallarda adekvat müdafiə vasitələrindən bərabər istifadə hüququ;**

**Ailənin qorunması və ailəyə dəstək, o cümlədən, sərbəst razılıq əsasında nikah, analıq və atalığın qorunması və uşaqların iqtisadi və sosial istismardan müdafiə hüquqları;**

**Adekvat həyat standartları hüququ, o cümlədən, ərzaq və aclıqdan azad olmaq, adekvat mənzil, su və geyim hüquqları;**

**Səhiyyə hüququ, o cümlədən, tibb müəssisələrinin məhsullarını və xidmətlərini əldə etmək hüququ, sağlam peşə və ekoloji şərait hüququ və epidemik xəstəliklərdən qorunmaq hüququ və cinsi və reproduktiv sağlamlıqla bağlı müvafiq hüquqlar;**

- **Təhsil hüququ, o cümlədən pulsuz və icbari ibtidai təhsil və mümkün və əlçatan orta və tədricən pulsuz olmaqla ali təhsil hüququ; və valideynlərin uşaqları üçün məktəblər seçmək azadlığı;**
- **Mədəni hüquqlar, o cümlədən, mədəni həyatda iştirak etmək və elmi nailiyyətləri paylaşmaq və onlardan faydalanmaq və müəlliflərin, elmi, ədəbiyyat və incəsənət əsərlərindən əldə olunan maddi və mənəvi mənafelərinin qorunması.**

Bu hüquqlar insan hüquqlarıdır. Digər insan hüquqları kimi, onlar da ikili azadlıqları ehtiva edir: *Dövlətdən azadlıq və Dövlət vasitəsilə azadlıq*. Məsələn, adekvat mənzil hüququ dövlət nümayəndələri tərəfindən həyata keçirilən məcburi köçürülmələrdən azad olmaq hüququnu (Dövlət*dən* azadlıq), eləcə də müəyyən hallarda mənzil imkanından yararlanmaq baxımından yardım əldə etmək hüququnu (Dövlət *vasitəsilə* azadlıq) əhatə edir.

Onlar getdikcə milli, regional və qlobal hüquq sistemlərində, qanun və qanunvericilik aktlarında, milli konstitusiyalarında və beynəlxalq sazişlərdə daha dəqiq tərzdə şərh edilməkdədir. Onları insan hüquqları kimi qəbul etmək ölkədə yaşayan bütün şəxslərin həmin hüquqlardan yararlanmasını və onlar pozulduqda müdafiə vasitələri təmin etməklə bağlı dövlətlər üzərində hüquqi öhdəliklər yaradır. Digər insan hüquqları kimi, ayrı-seçkiliyə yol verməmək prinsipi ilə birlikdə iqtisadi, sosial və mədəni hüquqların tanınması, cəmiyyətdə ən istisna ayrı-seçkiliyə məruz qalan şəxslərə və marginal qruplara diqqəti gücləndirir.

### Əlavə 1. *İqtisadi, sosial və mədəni hüquqlara istinadların yer aldığı əsas beynəlxalq sazişlər*

***Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948)***

***Birləşmiş Millətlər Təşkilatının insan hüquqları ilə bağlı sazişləri***

- İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Beynəlxalq Konvensiya (1965)
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1966)
- Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiya (1979)
- Uşaq hüquqları haqqında Konvensiya (1989)
- Bütün Əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya (1990)
- Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya (2006)

***Regional sazişlər***

- İnsan hüquqlarının və əsas azadlıqların qorunmasına dair Avropa Konvensiyası (1950), onun birinci Protokolu (1952), Avropa Sosial Xartiyası (1961) və yenidən işlənmiş Avropa Sosial Xartiyası (1996)
- İnsan Hüquqlarına dair Amerika Konvensiyası (1969) və İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində İnsan hüquqları haqqında Amerika Konvensiyasına Əlavə Protokol (San Salvador Protokolu) (1988)
- İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası (1981), Uşaqların Hüquq və Rifahı haqqında Afrika Xartiyası (1990) və İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının Afrikada Qadın Hüquqları haqqında Protokolu (2003)

**2. İqtisadi, sosial və mədəni hüquqları qorumaq niyə vacibdir?**

İqtisadi, sosial və mədəni hüquqların müdafiəsinin təmin edilməməsi çox ciddi nəticələrə gətirib çıxara bilər. Məsələn:

- İqtisadi, sosial və mədəni hüquqların inkar edilməsinin dağıdıcı təsiri ola bilər. Məcburi köçürülmə və ya əmlakdan məhrumetmə evsizlik, yaşayış vasitələrinin aradan getməsi və sosial şəbəkələrin məhvi və dağıdıcı psixoloji təsirlə nəticələnə bilər. Doyunca qidalanmama, xüsusilə 5 yaşa qədər uşaqların sağlamlığına mənfi təsir göstərir; bu, onların həyat üçün zəruri olan bütün orqanlarına, o cümlədən beynin inkişafına, qaraciyər və ürəyinə, eləcə də immun sisteminə təsir göstərir.
- İqtisadi, sosial və mədəni hüquqlardan məhrumetmə çoxlu sayda insana təsir göstərə bilər. Məsələn, təhlükəsiz içməli su çatışmazlığı səbəbindən baş verən diarreya nəticəsində insan orqanizminin susuzlaşması hər il təxminən 2 milyon uşağın həyatını itirməsi ilə nəticələnir və son 10 il ərzində İkinci Dünya Müharibəsindən bu günədək baş vermiş silahlı qarşıdurmalarda həlak olmuş bütün insanların sayından daha çox uşağın ölümü ilə nəticələnmişdir.[1]
- İqtisadi, sosial və mədəni hüquqların ciddi şəkildə pozulması münaqişələrin köklü səbəblərindən biri olmuşdur və bu hüquqlardan istifadə ilə bağlı sistematik ayrı-seçkilik və bərabərsizliklərin aradan qaldırılmaması münaqişələrdən sonrakı bərpa prosesini sarsıda bilər. Məsələn, iş təminatı imkanı ilə bağlı ayrı-seçkilik, təhsildən təbliğat vasitəsi kimi istifadə, insanları zorla evlərindən köçürmək, siyasi opponentləri ərzaq yardımından məhrum etmək və su mənbələrini zəhərləmək kimi bütün hallar keçmişdəki münaqişələrə rəvac vermiş iqtisadi, sosial və mədəni hüquqların pozulması deməkdir.
- İqtisadi, sosial və mədəni hüquqların inkar edilməsi digər insan hüquqlarının da pozulmasına gətirib çıxara bilər. Məsələn, oxumaq və yazmaq bilməyən şəxslər üçün iş tapmaq, siyasi fəaliyyətdə iştirak etmək və ya sərbəst ifadə azadlığından faydalanmaq çox vaxt daha çətindir. Qadınların adekvat mənzil hüququnun olmaması (xüsusilə, mənzil sahibi olmaq zəmanətinin olmaması) onu təhqiramiz nikah əlaqələrini davam etdirmək və ya evsiz qalmaq arasında seçim qarşısında qoymaqla, qadını məişət zorakılığı üçün daha həssas edə bilər.

1. United Nations Children's Fund, *Sanitation forAll* (January 2000).

*İqtisadi, sosial və mədəni hüquqların əhəmiyyətini şişirtmək də olmaz. Həm ölkələrin daxilində, həm də transsərhəd kontekstində üzləşdiyimiz təhlükəsizlik təhdidlərinin bir çoxunun arxasında yoxsulluq və qəsbkarlıq halları dayanır. Hətta ən çox inkişaf etmiş iqtisadiyyata malik ölkələrdə də, yoxsulluq və yolverilməz bərabərsizliklər mövcuddur və bir çox şəxslər və qruplar iqtisadi, sosial, mülki, siyasi və mədəni hüquqların inkar edildiyi şəraitdə yaşayır. Sosial və iqtisadi bərabərsizliklər ictimai həyatda və ədalət mühakiməsində iştiraka təsir edir. Qloballaşma yüksək dərəcəli iqtisadi artıma səbəb olmuşdur, lakin onun faydalarının həddən çoxundan müxtəlif cəmiyyətlərdə və cəmiyyətlər arasında qeyri-bərabər istifadə edilmişdir. İnsan təhlükəsizliyi ilə bağlı bu cür fundamental problemlərin həlli üçün həm ölkədaxili tədbirlər, həm də beynəlxalq əməkdaşlıq tələb olunur.*

Louise Arbour, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı (Cenevrə, 14 yanvar 2005-ci il)

Bu faktlara baxmayaraq, iqtisadi, sosial və mədəni hüquqların müdafiəsinə heç də hər zaman kifayət qədər prioritet diqqət yetirmək olmur. Bununla əlaqədar, İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Komitənin nümayəndəsi Vyana şəhərində keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında (A/CONF.157/PC/62/Add.5, əlavə I, bənd 6-7) bunları bildirmişdir.

> *Yalnız irqi və ya cinsi səbəblərdən, səsvermə və ya söz azadlığı hüququnun inkar edilməsi beynəlxalq birlik tərəfindən qətiyyətlə və haqlı olaraq tənqid edilir. Lakin, iqtisadi, sosial və mədəni hüquqlardan istifadə ilə bağlı qadınlara, yaşlılara, əlillərə və digər həssas qruplara qarşı mövcud olan bütün köklü ayrı-seçkilik formaları çox vaxt yalnız uğursuz reallıqlardan təəssüf hissi kimi nəzərdən keçirilir. Belə ki, məsələn, bir çox hüquq müdafiəçiləri bir çox ölkələrdə qadınların "ümumiyyətlə [üzərlərinə düşən qeyri-proporsional iş yükü müqabilində]daha az qida, daha az səhiyyə xidmətləri, daha az təhsil və daha az peşə hazırlığından yararlanması faktına demək olar ki, heç bir reaksiya vermirlər". İqtisadi, sosial və mədəni hüquqlardan məhrumolma və ya onların pozulması barədə statistik göstəricilərə o qədər tez-tez istinad edilir ki, nəticədə onlar öz əhəmiyyətini itirirlər. Bu məhrumiyyətin miqyasları, ciddiliyi və sistemliliyi süstlük və acizlik hissi yaradır və mərhəmət hisslərini zəiflədir.*

**3. İqtisadi, sosial və mədəni hüquqlar yeni hüquqlardır?**

Xeyr. 1948-ci ildə İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinədək, hazırda iqtisadi, sosial və mədəni hüquqlar adlandırılan insan hüquqlarının çoxu artıq milli qanunlarda və beynəlxalq sazişlərdə kodlaşdırılmışdı.

**Əlavə 2: İqtisadi və sosial hüquqların beynəlxalq səviyyədə tanınması ilə bağlı ilkin nümunələr**

Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) iqtisadi və sosial hüquqların beynəlxalq səviyyədə tanınmasının təşəbbüskarları olmuşlar. BƏT özünün Filadelfiya Bəyannaməsində (1944), "azadlıq və ləyaqət, iqtisadi sabitlik və bərabər imkanlar şəraitində bütün insanların ... həm maddi rifah, həm də mənəvi inkişafını təmin etmək hüququnun olduğu təsdiqləməklə", işçilərin bir sıra hüquqlarını tanımışdır. Eynilə, İkinci Dünya Müharibəsindən az sonra, ÜST-in Nizamnaməsində (1946) "ən yüksək sağlamlıq səviyyəsinə malik olmağın hər bir insanın əsas hüquqlarından biri olduğu" elan edilmişdir.

Kosta Rika kimi ölkələrdə 1840-cı illərdən etibarən təhsil hüququ tanınmış, XIX əsrin sonlarından etibarən isə bəzi Avropa ölkələrində aparılan islahatlar nəticəsində işləmək hüququ kimi bəzi iqtisadi, sosial və mədəni hüquqların qorunması təmin edilmişdir. XX əsrin əvvəllərində, 1917-ci ildə Meksikada qəbul edilmiş Konstitusiya kimi Latın Amerikasının bəzi ölkələrinin konstitusiyaları iqtisadi, sosial və mədəni hüquqları, o cümlədən əmək hüquqları, sağlamlıq hüququ və sosial təminat hüququnu insan hüquqları kimi təmin etməklə bağlı zəmanət vermiş ilk ölkələr arasında olmuşlar.

1930-cu illərdə, ABŞ-da və digər ölkələrdə zəhmətkeşlərin hüquqlarının daha fəal şəkildə müdafiəsini təmin edən tədbirlər görülmüş və sosial, səhiyyə xidmətləri və mənzil təminatı da daxil olmaqla, əsas sosial xidmətlərdən yararlanmaq barədə zəmanət vermək Dövlətin məsuliyyəti kimi tanınmışdır. 1941-ci ildə, ABŞ prezidenti Franklin D. Ruzvelt dünyanın bütün guşələrində hər bir şəxs üçün təmin edilməli olan "dörd əsas insan azadlığı" barədə xatırlatmışdır: söz və ifadə azadlığı, ibadət azadlığı, ehtiyac və qorxudan azad olmaq azadlığı.

Bütün bunlar 1948-ci ildə qəbul edilmiş İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi üçün mühüm ilham mənbəyi olmuş və onun preambulasının ikinci bəndində öz əksini tapmışdır: "İnsanların söz və inanc və qorxudan azad olmaq imkanlarından yararlana biləcəkləri bir dünyanın yaradılması insanların ən yüksək məramı kimi elan edilmişdir."

**Prezident Ruzveltin xatırlatdığı dörd azadlıq**

*Təhlükəsiz etməyə səy göstərdiyimiz gələcək günlərdə, biz dörd əsas insan azadlığına əsaslanan dünya yaratmağa ümid edirik.*

*Birincisi, dünyanın hər yerində söz və ifadə azadlığıdır.*

*İkincisi, dünyanın hər yerində hər bir şəxsin öz seçimi əsasında Allaha ibadət etmək azadlığıdır.*

*Üçüncüsü, dünyanın hər yerində bütün ölkələrin əhalisinə sağlam sülh həyatı bəxş edəcək və hamının anladığı dildə iqtisadi razılaşmalar anlamını ifadə edən ehtiyaclardan azad olmaq hüququdur.*

*Dördüncüsü, hamının anladığı dildə bütün dünyada silahların o dərəcədə ixtisar edilməsidir ki, dünyanın hər yerində heç bir dövlətin öz qonşularından hər hansı birinə qarşı fiziki təcavüz həyata keçirmək imkanı olmasın.*

*Bu heç də uzaq minilliklə bağlı məram deyil. Bu, bizim dövrümüzdə və bizim nəslin mövcud olduğu zamanda mümkün ola bilən dünyanın əsasıdır.*

Konqresə illik müraciətindən (6 yanvar 1941)

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi mülki, mədəni, iqtisadi, siyasi və sosial hüquqlarla bağlı heç bir fərq qoymadan geniş diapozona malikdir. Bu, yəqin ki, iqtisadi, sosial və mədəni hüquqların ilk hərtərəfli tanınması idi. 1966-cı ildə Dövlətlər hüquqi baxımdan onların üzərinə iqtisadi, sosial və mədəni hüquqları müdafiə etməklə bağlı icbari öhdəliklər qoyan İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktı qəbul etdilər. İnsan hüquqları sahəsində bir çox digər sazişlər kompleks şəkildə bütün mülki, mədəni, iqtisadi, siyasi və sosial hüquqları təsbit edir.

1993-cü ildə Vyanada keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında "bütün insan hüquqlarının universal, bölünməz və bir-birindən asılı və qarşılıqlı olduğu" və "beynəlxalq ictimaiyyətin insan hüquqlarına eyni yanaşma və diqqətlə, ədalətli və bərabər şəkildə münasibət göstərməli olduğu" təsdiq edilmişdir. O vaxtdan bugünədək, beynəlxalq səviyyədə tanınmış iqtisadi, sosial və mədəni hüquqların hüquqi məzmununun aydınlaşdırılması, habelə onların həyata keçirilmə mexanizmləri və metodologiyalarının hazırlanması istiqamətində əhəmiyyətli irəliləyişə nail olunmuşdur.

## 4. İqtisadi, sosial və mədəni hüquqlar fərdi hüquqlardırmı?

Bəli. İqtisadi, sosial və mədəni hüquqlar, digər insan hüquqları kimi, hər bir insanın anadangəlmə hüququdur. Məktəb ödənişləri səbəbindən ibtidai məktəbdən kənarlaşdırılan uşaq, eyni iş müqabilində kişi həmkarından daha az məvacib alan qadın, əlillər üçün maili döşəmənin olmaması səbəbindən teatra girə bilməyən əlil arabasındakı şəxs, ödəniş imkanı olmadığından xəstəxanaya buraxılmayan hamilə qadın, əsəri aşkar şəkildə dəyişdirilən, təhrif olunan və ya korlanan rəssam, miqrant statusu səbəbindən təcili tibbi yardımın imtina edildiyi şəxs, zorla öz evindən çıxarılan qadın, ərzaq ehtiyatları istifadəsiz qalarkən aclıq içərisində tərk edilən şəxs – bütün bunlar iqtisadi, sosial və mədəni hüquqlarından məhrum edilmiş insanlarla bağlı nümunələrdir.

Buna baxmayaraq, iqtisadi, sosial və mədəni hüquqlar bəzən yanlış olaraq öz mahiyyəti etibarilə yalnız kollektiv hüquqlar kimi şərh olunur. Bu hüquqlar bir çox insanlara təsir edə və kollektiv ölçülərə malik ola bilsə də, onlar da fərdi hüquqlardırlar. Məsələn, zorla köçürülmə faktları çox vaxt bütöv icmalara aid olsa da, əsasən ayrı-ayrı şəxslər adekvat mənzil hüququndan məhrum olunmalarından əziyyət çəkirlər. Hüquqların fərdi və ya kollektiv mahiyyətinin qarışıq salınması qismən iqtisadi, sosial və mədəni hüquqların bərpa resursların təmin olunması və hüquq əsaslı siyasət prinsiplərinin işlənib hazırlanması vasitəsilə kollektiv ictimai səy tələb etməsindən qaynaqlanır. Təhsil haqlarını ödəmək iqtidarında olmadığından uşaqların ibtidai təhsildən məhrum edilməsinin qarşısını almaq üçün, dövlət bütün uşaqlar üçün pulsuz ibtidai təhsili təmin etmək istiqamətində sistem yaratmalıdır. Bununla belə, bu xüsusiyyət ayrı-ayrı uşaqların öz təhsil hüququnu tələb etməsinin qarşısını almır.

İqtisadi, sosial və mədəni hüquqların fərdi xarakteri ilə bağlı bəzi mühüm istisnalar vardır. Qeyd etmək lazımdır ki, həmkarlar ittifaqlarının milli federasiyalar yaratmaq və sərbəst fəaliyyət göstərmək hüquqları kimi müəyyən hüquqlar mahiyyətcə kollektiv hüquqlardır.

## 5. İqtisadi, sosial və mədəni hüquqlar mülki və siyasi hüquqlardan köklü şəkildə fərqlənirmi?

Xeyr. Əvvəllər, iqtisadi, sosial və mədəni hüquqlardan bəhs edərkən onlar mülki və siyasi hüquqlardan əsaslı şəkildə fərqli hüquqlar kimi götürülürdü. Lakin, bu cür kateqoriyalara bölmə nəinki sünidir, həm də iflasa uğramışdır. Bəs onda görəsən niyə biz çox vaxt "mülki və siyasi hüquqlardan" və "iqtisadi, sosial və mədəni hüquqlardan" ayrı-ayrı kateqoriyalara məxsus hüquqlar kimi danışırıq? Bütün hüquqların ortaq elementlərinə kölgə salan bu cür kateqoriyalara ayırmaya bir sıra səbəblər gətirib çıxarmışdır.

Birincisi, fərqləndirmə ilkin olaraq tarixi səbəblərdən qaynaqlanmışdır. İnsan Hüquqları Bəyannaməsində hüquqlar arasında heç bir fərq qoyulmasa da, fərqlilik Şərq və Qərb arasında dərinləşən soyuq müharibə gərginliyi kontekstində meydana çıxmışdır. Qərbin bazar iqtisadiyyatlarında mülki və siyasi hüquqlara daha çox diqqət yetirildiyi halda, Şərq blokunun mərkəzləşdirilmiş plan iqtisadiyyatlarında iqtisadi, sosial və mədəni hüquqlara daha çox əhəmiyyət verilirdi. Bu, iki ayrı-ayrı Paktla bağlı danışıqların aparılmasına və onların qəbul edilməsinə gətirib çıxardı: biri sosial və mədəni hüquqlar haqqında, digəri isə mülki və siyasi hüquqlar haqqında. Lakin, bu ciddi ayrılmaya bir müddətdən sonra son qoyuldu və Ümumi Bəyannamənin orijinal arxitekturasına qayıdış baş verdi. Son onilliklərdə, Uşaq Hüquqları haqqında Konvensiya və ya Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya kimi insan hüquqlarına dair sazişlərə bütün hüquqlar daxil edilmişdir.

İkincisi, iqtisadi, sosial və mədəni hüquqlar onların təmin edilməsi üçün böyük kapital qoyuluşu tələb edən hüquqlar kimi, mülki və siyasi hüquqlar isə Dövlətdən sadəcə

fərdlərin azadlıqlarına müdaxilə etməkdən çəkinməyin tələb olunduğu hüquqlar kimi nəzərdən keçirilmişdir. Bir çox iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirməsini təmin etmək üçün bəzən həm maliyyə, həm də insan resursları baxımından, yüksək səviyyəli investisiya tələb olunması həqiqətdir. Lakin, iqtisadi, sosial və mədəni hüquqlar həm də Dövlətdən fərdi azadlıqlara, məsələn, həmkarlar ittifaqı azadlıqları və ya öz seçiminə uyğun iş axtarmaq hüququna müdaxilə etməkdən çəkinməyi tələb edir. Eynilə, mülki və siyasi hüquqlar fərdi azadlıqlardan ibarət olmasına baxmayaraq, həmçinin onların tam şəkildə həyata keçirilməsi üçün investisiya tələb edir. Məsələn, mülki və siyasi hüquqlar funksional məhkəmə sistemi, məhbuslara yaşayış şəraiti ilə bağlı minimum həyat tələblərinə cavab verən həbsxanalar, hüquqi yardım, azad və ədalətli seçkilər və s. tələb edir.

Üçüncüsü, iqtisadi, sosial və mədəni hüquqların bəzən mülki və siyasi hüquqlarla müqayisədə qeyri-müəyyən və ya aydın olmayan hüquqlar olduğu ifadə edilir. Bütün iqtisadi, sosial və mədəni hüquqlar insan hüquqları sazişlərində bərabər səviyyədə aydın ifadə edilməsə də, eyni məsələ mülki və siyasi hüquqlara da aiddir. Aşağıdakı nümunəyə baxaq:

| **İqtisadi, sosial və mədəni hüquqlar** | **Mülki və siyasi hüquqlar** |
|---|---|
| Mədəni həyatda iştirak etmək hüququ | Ictimai işlərin həyata keçirilməsində iştirak etmək hüququ |
| Aclıqdan azad olmaq hüququ | Işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ |

Nəhayət, əslində, bütün insan hüquqlarından istifadə qarşılıqlı əlaqəyə malikdir. Məsələn, çox vaxt oxumaq və yazmaq bilməyən şəxslər üçün iş tapmaq, siyasi fəaliyyətdə iştirak etmək və ya sərbəst ifadə azadlığından istifadə etmək çətindir. Eynilə, insanların səsvermə hüququ kimi siyasi hüquqlardan yararlana bildikdə aclıq hallarının baş vermə ehtimalı azdır. Nəticədə, yaxından araşdırıldıqda, "mülki və siyasi hüquqlar" və ya "iqtisadi, sosial və mədəni hüquqlar" kimi hüquq kateqoriyalarının müəyyənləşdirilməsi mənasız görünür. Bu səbəbdən, mülki, mədəni, iqtisadi, siyasi və sosial hüquqlara istinadlara daha çox rast gəlinir.

## Əlavə 3: İqtisadi, sosial və mədəni hüquqların aydınlaşdırılmasına dair nümunə

İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə, özünün bir sıra ümumi şərhləri əsasında, hər bir iqtisadi, sosial və mədəni hüququn məzmununu ifadə etmişdir. Məsələn, təhsil hüququ üzrə Xüsusi Məruzəçi öz işləri ilə bağlı 13 saylı Qeydlərində (1999), təhsil hüququnun əsas xüsusiyyətlərini müəyyənləşdirmişdir:
Bütün formalarda və bütün səviyyələrdə təhsil aşağıdakı qarşılıqlı və əsas xüsusiyyətlərə malik olmalıdır:

(a)*Mövcudluq*: fəaliyyət göstərən təhsil müəssisələri və proqramlar kifayət dərəcədə mövcud olmalıdır;

(b)*Əlçatanlıq*: təhsil müəssisələri və proqramlar hər kəs üçün əlçatan olmalıdır.

Əlçatanlıq qarşılıqlı əlaqəyə malik üç xüsusiyyətə malikdir:

• Qeyri-ayrı-seçkilik: təhsil, de-yure və de-fakto, heç bir ayrı-seçkiliyə yol verilmədən, hər bir şəxs, xüsusilə ən həssas qruplar üçün əlçatan olmalıdır;
• Fiziki əlçatanlıq: ya əlverişli coğrafi yerdə yerləşən məktəbə (məsələn, qonşu məktəbə) getməklə və ya müasir texnologiyalardan yararlanmaqla (məsələn, qiyabi təhsil proqramlarından birinə çıxış əldə etməklə) təhlükəsiz fiziki əlçatanlığı təmin etmək zəruridir;
• İqtisadi əlçatanlıq: təhsil hamı üçün əlverişli olmalıdır: ibtidai təhsil "hamı üçün pulsuz"

olmalıdırsa, iştirakçı-dövlətlərdən tədricən pulsuz orta və ali təhsilə keçmək tələb olunur.

(c)*Məqbulluq*: kurikulum və tədris metodları da daxil olmaqla, təhsilin forma və məzmunu, tələbələr, eləcə də müvafiq hallarda valideynlər üçün məqbul (məsələn, müvafiq, mədəni xüsusiyyətlər baxımdan uyğun və keyfiyyətli) olmalıdır;

(d)*Uyğunlaşdırılmış*: təhsil dəyişən cəmiyyətlərin və icmaların ehtiyaclarına uyğunlaşdırıla və müxtəlif sosial və mədəni şəraitlərdə tələbələrin ehtiyaclarına cavab verə bilməklə çevik olmalıdır.

Bu "qarşılıqlı və əsas xüsusiyyətlərin" müvafiq şəkildə tətbiqi məsələsini nəzərdən keçirdikdə, ilk növbədə tələbələrin maraqlarına diqqət yetirilməlidir.

## 6. İqtisadi, sosial və mədəni hüquqlarla bağlı Dövlətlərin hansı öhdəlikləri vardır?

İqtisadi, sosial və mədəni hüquqlarla bağlı Dövlətlərin öhdəlikləri müxtəlif sazişlərdə fərqli tərzdə ifadə edilir. Məsələn, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirilməsinə nail olmaq üçün Dövlətlərdən mövcud resurslardan maksimum istifadə etməklə "addımlar atmağı" tələb edir. Paktda həmçinin Dövlətlərdən ayrı-seçkiliyə yol vermədən, iqtisadi, sosial və mədəni hüquqlardan istifadəni təmin etmək və bu hüquqlardan istifadə üzrə kişi və qadınların bərabər hüququnu təmin etmək tələb olunur. Digər sazişlərdə və ya konstitusiyalarda öhdəliklər fərqli şəkildə ifadə olunur və hətta qanunvericilik aktlarının qəbul edilməsi və ya həmin hüquqların ictimai siyasət prinsiplərində təşviqi kimi xüsusi tədbirlər görmək öhdəliyi nəzərdə tutulur.

Dövlətlərin öhdəliklərinin məzmununa aydınlıq gətirmək məqsədilə, onlar bəzən üç başlıqla ifadə olunur: iqtisadi, sosial və mədəni hüquqlara

**hörmət etmək**, onları **qorumaq** və **həyata keçirmək**.

**İnsan hüquqları öhdəlikləri**

**Hökumət təmin etməlidir:**

**Hörmət etmək** **Qorumaq**

**Həyata keçirmək**

| | | |
|---|---|---|
| ***Hüquqdan istifadəyə müdaxilə etməkdən çəkinmək*** | ***Digərlərinin hüquqdan istifadəyə müdaxilə etməsinə imkan verməmək*** | ***Hüququn tam şəkildə həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək*** |

**Əlavə 4: Əmək hüququna hörmət etmək, onları qorumaq və yerinə həyata keçirməklə bağlı öhdəliklərə dair nümunələr**

**Hörmət**: Dövlət məcburi əməkdən istifadə etməməli və ya iş imkanları ilə bağlı siyasi opponentlərinə imtina etməməlidir.

**Qorumaq**: Dövlət həm dövlət, həm də özəl sektorlarda işəgötürənlər tərəfindən minimum əmək haqlarının ödənilməsini təmin etməlidir.

**Həyata keçirmək**: Dövlət, məsələn, bu hüquqla bağlı ictimaiyyəti məlumatlandırmaq məqsədilə təhsil və informasiya proqramları həyata keçirmək yolu ilə, əmək hüququnu təşviq etməlidir.

**Su hüququ**

**Hörmət**: Dövlət müvafiq prosedurlar həyata keçirmədən hər hansı şəxsin su təchizatını kəsə bilməz.

**Qorumaq:** su xidmətlərinin idarə edilməsi və ya onlara nəzarət özəl sektor tərəfindən həyata keçirildikdə, Dövlət su tariflərinin (əgər mövcuddursa) əlverişli olmasını təmin etmək məqsədilə adekvat qiymət tənzimlənməsi həyata keçirməlidir.

**Həyata keçirmək**: Dövlət bütün şəxslərin tədricən təhlükəsiz içməli su təchizatına qoşulmasını təmin etmək üçün addımlar atmalıdır.

**Sağlamlıq hüququ**

**Hörmət**: Dövlət ayrı-seçkilik əsasında səhiyyə obyektlərinə çıxışın qarşısını ala bilməz.

**Qorumaq**: Dövlət həm dövlət, həm də özəl təchizatçılar tərəfindəm ölkə bazarına daxil olan dərmanların keyfiyyətinə nəzarət etməlidir.

**Həyata keçirmək**: Dövlət, misal üçün, uşaqlar üçün universal peyvənd kampaniyaları həyata keçirməklə, sağlamlıq hüququndan istifadəni asanlaşdırmalıdır.

**Təhsil hüququ**

**Hörmət**: Dövlət valideynlərin öz uşaqları üçün məktəblər seçmək azadlığına hörmət etməlidir.

**Qorumaq**: Dövlət valideynlər də daxil olmaqla üçüncü tərəflərin qızların məktəbə getməsinin qarşısını almamasını təmin etməlidir.

**Həyata keçirmək**: Dövlət təhsilin milli azlıqlar və yerli xalqlar üçün mədəni cəhətdən uyğunluğunu və hamı üçün keyfiyyətli olmasını təmin etmək üçün müsbət tədbirlər görməlidir.

## 7. İqtisadi, sosial və mədəni hüquqların "tədricən həyata keçirilməsi" nədir?

"Tədricən həyata keçirilmə" anlayışı Dövlətlərin insan hüquqlarına dair beynəlxalq sazişlərə əsasən iqtisadi, sosial və mədəni hüquqlarla bağlı öhdəliklərinin əsas aspektini təsvir etmək məqsədilə istifadə edilir. Onun əsas məğzini mövcud resurslardan maksimum istifadə edilməklə iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirilməsi istiqamətində müvafiq tədbirlər görmək öhdəliyi təşkil edir (bax: əlavə 5). "Mövcud resurslara" istinad resurslarının olmamasının bu hüquqların həyata keçirilməsinə mane ola biləcəyini və yalnız müəyyən müddət ərzində əldə edilə biləcəyinin tanınmasını əks etdirir. Eyni zamanda, bu, həm də o deməkdir ki, müvafiq tədbirlər görməklə bağlı Dövlətin öz öhdəliklərini yerinə yetirməsi maliyyə və digər resursların mövcud olması nəzərə alınmaqla qiymətləndirilir. Bir çox milli konstitusiyalar da bəzi iqtisadi, sosial və mədəni hüquqların tədricən həyata keçirilməsinə imkan verir.

### Haşiyə 5: Birləşmiş Millətlər Təşkilatının insan hüquqları sazişlərində "tədricən həyata keçirilmə" haqqında müddəalar

**İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (maddə 2 (1))**

Bu Paktda iştirak edən hər bir dövlət fərdi qaydada və beynəlxalq yardım və əməkdaşlıq vasitəsilə, xüsusilə iqtisadi və texniki sahələrdə, özəlliklə qanunvericilik tədbirləri görməklə, hazırkı Paktda tanınan hüquqların tədricən tam şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə, mövcud resurslardan maksimum dərəcədə istifadə etməklə bağlı öhdəlik götürür.

**Uşaq Hüquqları Konvensiyası (maddə 4)**

İştirakçı dövlətlər bu Konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik, inzibati və digər tədbirləri görməlidirlər. İqtisadi, sosial və mədəni hüquqlara gəldikdə, iştirakçı Dövlətlər bu cür tədbirləri mövcud resurslardan maksimum dərəcədə istifadə etməklə və, lazım olduqda, beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirməlidirlər.

**Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya (maddə 4 (2))**

İqtisadi, sosial və mədəni hüquqlarla bağlı, hər bir İştirakçı Dövlət bu Konvensiyada beynəlxalq hüquqa uyğun olaraq birbaşa tətbiq olunan öhdəliklərə xələl gəlmədən, bu hüquqların tam həyata keçirilməsinə nail olmaq məqsədilə, mövcud resurslardan maksimum dərəcədə istifadə etməklə, və zəruri hallarda, beynəlxalq əməkdaşlıq çərçivəsində, bu hüquqların tədricən maksimum dərəcədə həyata keçirilməsinə nail olmaq üçün tədbirlər görməyi öhdəsinə götürür.

Tədricən həyata keçirmə anlayışı bəzən dövlətlərin kifayət qədər resursları olmayanadək iqtisadi, sosial və mədəni hüquqları qorumalı olmadıqları kimi təhrif olunur. Lakin, sazişlərdə iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirilməsi istiqamətində müvafiq addımlar atmaqla bağlı birbaşa öhdəlik nəzərdə tutulur. Resursların olmaması, hərəkətsizliyi və ya bu hüquqları həyata keçirilməsi üçün tədbirlərin qeyri-müəyyən müddətə təxirə salınmasına haqq qazandıra bilməz. Dövlətlər, hətta məhdud resurslara malik olsalar belə, iqtisadi, sosial və mədəni hüquqlardan istifadənin yaxşılaşdırılması üçün hər cür səy göstərdiklərini nümayiş etdirməlidir. Məsələn, mövcud resurslardan asılı olmayaraq, Dövlət, prioritet bir məsələ kimi, ən azı hüquqlarla bağlı minimum səviyyədə, hər bir şəxsin onlardan

istifadə imkanlarını təmin etməyə səy göstərməli və yoxsul, təcrid olunan və zərər çəkmiş şəxsləri qorumaq üçün hədəf proqramlarını həyata keçirməyə cəhd etməlidir.

**Əlavə 6: Mənzil hüququnun hüquqi baxımdan tətbiq edilə bilən şəkildə tədricən həyata keçirilməsi**

Şotlandiyada (yerli hökumət) və Fransada (milli hökumət) qəbul edilmiş Qanunlar adekvat mənzil hüququnun tədricən həyata keçirilməsi istiqamətində səylərlə bağlı nümunələrdir.

2003-cü ildə, Şotlandiya Parlamenti tam şəkildə məhkəmə qaydasında müdafiə oluna biləcək mənzil hüququnun tədricən həyata keçirilməsini nəzərdə tutan mənzil hüququ ilə bağlı Şotlandiya qanunvericiliyində kardinal dəyişikliklərə səbəb olmuş evsizliklə bağlı çox mühüm Qanun qəbul etmişdir. İlkin vaxtlarda bu Qanun yalnız "prioritet ehtiyaclara malik" şəxslərə tətbiq edilsə də, Qanun 2003-2012-ci illər arasında on ərzində həmin 19 qrupun genişləndirilməsini və Qanunun bütün evsizlərə şamil edilməsini nəzərdə tutur. 2012-ci ildə Şotlandiyada qəsdən evsiz olmayan hər bir şəxs daimi yaşayış yeri ilə bağlı müvafiq müdafiə hüququna malik olacaqdır.

2003-cü ildən etibarən, Şotlandiyada qəbul edilmiş həmin qanun digər dövlətlər üçün model rolunu oynayır. Oxşar qanun Fransada da müzakirə edilmişdir. Fransada qəbul ediləcək həmin qanun da, tədricən həyata keçiriləcək mənzillə bağlı müvafiq müdafiə hüququnu (*droit opposable au Logement*) təmin edəcəkdir. 2008-ci ildə hüquqi qüvvəyə mindikdən sonra, Fransada qəbul ediləcək həmin qanun yalnız evsiz və yoxsulluq şəraitində yaşayan şəxslərə şamil ediləcək. 2012-ci ildə, qanun sosial mənzil hüququ olan hər bir şəxsə şamil olunacaq.

**8. İqtisadi, sosial və mədəni hüquqlarla bağlı hansı növ öhdəliklər təxirə salınmadan həyata keçirilməlidir?**

Dövlətlər iqtisadi, sosial və mədəni hüquqları tədricən həyata keçirsələr də, onlar mövcud resurslardan asılı olmayaraq, beş sahə üzrə də təxirəsalınmaz tədbirlər həyata keçirməlidirlər:

1. **Ayrı-seçkiliyin aradan qaldırılması**. Dövlətlər, məsələn, səhiyyə, təhsil və iş yeri ilə bağlı ayrı-seçkiliyi dərhal qadağan etməlidirlər. Irq, dərinin rəngi, cins, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğum, əlillik və ya digər göstəricilər əsasında ayrı-seçkilik qadağan olunmalıdır.

2. **Tərdicən həyata keçirilməyən iqtisadi, sosial və mədəni hüquqlar.** Bəzi iqtisadi, sosial və mədəni hüquqlar üçün əhəmiyyətli resurslar tələb olunmur. Məsələn, həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq və tətil etmək hüququnu təmin etmək və uşaqları və gəncləri iqtisadi və sosial istismardan qorumaq öhdəliyini təmin üçün çox böyük vəsait tələb olunmur və onlar yubanmadan həyata keçirilməlidir. Digər hüquqlar resurslar tələb etsə də, tədricən həyata keçirilməyəcək hüquqlar kimi ifadə edilmişlər. Məsələn, Beynəlxalq Paktda iştirak edən dövlətlərə hamı üçün pulsuz və icbari ibtidai təhsil təmin etmək istiqamətində fəaliyyət planının hazırlanması üçün iki illik ciddi vaxt məhdudiyyəti tətbiq olunur.

**Əlavə 7: İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Pakta əsasən təxirə salınmadan müdafiə olunmalı olan hüquqlara dair nümunələr (III hissə)**

- Həmkarlar ittifaqları yaratmaq və qoşulmaq və tətil etmək hüququ (maddə 8);
- Uşaqları və gənc şəxsləri iqtisadi və sosial istismardan qorumaq öhdəliyi (maddə 10 (3).);
- Hər hansı ayrı-seçkiliyə yol vermədən eyni dəyərli iş üçün bərabər əmək haqqı (maddə 7 (a) (i).);
- Hamı üçün pulsuz və icbari ibtidai təhsilin təmin edilməsi (maddə 13 (2) (a).);
- Valideynlərin öz uşaqları üçün minimum təhsil standartlarına uyğun olmaqla dövlət orqanları tərəfindən müəyyən edilmiş məktəblərdən başqa məktəblər seçmək azadlığına hörmətlə yanaşmaq öhdəliyi (maddə 13 (3).);
- Fiziki şəxslərin və orqanların minimum standartları uyğun təhsil müəssisələri yaratmaq və onları idarə etmək azadlığını qorumaq öhdəliyi (maddə 13 (4).);
- elmi-tədqiqat və yaradıcılıq fəaliyyəti üçün zəruri azadlıqlara hörmət etmək öhdəliyi (maddə 15 (3)).

3. **“Tədbirlər görmək” öhdəliyi.** Yuxarıda qeyd olunduğu kimi, hətta tədricən həyata keçirilmə öhdəliyi əsasında, Dövlətlər iqtisadi, sosial və mədəni hüquqlardan istifadənin yaxşılaşdırılması üçün daimi səylər göstərməlidirlər. Onlar tam həyata keçirilə bilsə də həmin məqsəd istiqamətində addımlar kifayət qısa müddət ərzində atılmalıdır. Bu cür addımlar, təkcə qanunvericilik tədbirlərinin görülməsi ilə məhdudlaşmamaqla, bütün müvafiq vasitələrdən istifadə edilməklə düşünülmüş, konkret və mümkün qədər məqsədyönlü olmalıdır.

Dövlətlərin hüquqların tədricən həyata keçirilməsi istiqamətində atmalı olduqları addımlarla bağlı nümunələr aşağıda verilmişdir:

- Müvafiq və uyğun fərdi məlumatları toplamaq və qiymətləndirmək üçün müvafiq mexanizmlərin təmin edilməsi də daxil olmaqla, iqtisadi, sosial və mədəni hüquqlardan istifadə vəziyyətinin qiymətləndirilməsi;
- Real, əldə oluna bilən və bu hüquqların həyata keçirilməsində irəliləyişləri qiymətləndirmək üçün nəzərdə tutulan strategiya və planların formalaşdırılması, göstəricilərin və vaxtla şərtlənən hədəflərin daxil edilməsi;
- zəruri qanunlar və siyasətlər qəbul və tətbiq planları və strategiyaları qoymaq üçün mövcud adekvat vəsait edilməsi;
- Planları və strategiyaların həyata keçirilməsi istiqamətində irəliləyişlərin daimi monitorinqi və qiymətləndirilməsi;
- Dövlətlər öz vəzifələrini yerinə yetirmədikdə fərdi şəxslərin şikayət edə biləcəyi şikayət mexanizmlərinin yaradılması.

4. **Qeyri-reqressiv tədbirlər.** Dövlətlər reqressiv tədbir üçün güclü əsasları olmadığı halda iqtisadi, sosial və mədəni hüquqların mövcud müdafiəsinin zəifləməsinə yol verməməlidirlər. Məsələn, əvvəllər pulsuz olmuş orta təhsillə bağlı təhsil haqlarının tətbiqi qəsdən edilən reqressiv tədbir kimi qiymətləndirilməlidir. Buna haqq qazandırmaq üçün, Dövlət bu barədə qərarın yalnız bütün variantları diqqətlə nəzərdən keçirdikdən, təsirləri qiymətləndirdikdən və mövcud resurslardan maksimum dərəcədə istifadə etdikdən sonra qəbul olunduğunu nümayiş etdirməlidir.

5. **Minimum əsas öhdəliklər.** İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, *hər bir hüququn minimum əsas səviyyələrə* cavab verməsini təmin etmək məqsədilə, dərhal qüvvəyə minməli olan öhdəliklər nəzərdə tutulur. Onlara *minimum əsas öhdəliklər* deyilir. Dövlət resursların olmaması səbəbindən onlara riayət etmədikdə qeyd olunan əsas öhdəlikləri prioritet məsələ kimi təmin etmək üçün bütün mövcud resurslardan istifadə istiqamətində hər cür səy göstərdiyini nümayiş etdirməlidir. Dövlətin sərəncamında açıq-aydın şəkildə qeyri-adekvat resurslar olsa belə, hökumət özünün məhdud resurslarından səmərəli və effektiv şəkildə istifadə etmək üçün ən çox ehtiyacı olan şəxslərə yardım məqsədilə ucuz və ünvanlı proqramlar həyata keçirməlidir.

**Əlavə 8: İqtisadi, sosial və mədəni hüquqlarla bağlı minimum əsas hüquqlarla bağlı nümunələr**

İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinin ümumi qeydlərində ifadə edilmiş minimum əsas öhdəliklər Dövlətlərdən aşağıdakıları tələb edir:

- Xüsusilə qeyri-əlverişli vəziyyəti olan və təcrid edilmiş şəxslər və qruplar üçün şərəfli həyat yaşamaq imkanı yaratmaq məqsədilə, onların məşğulluq hüququnu təmin etmək;
- Hər kəs üçün aclıqdan uzaq olmaq azadlığını təmin etmək məqsədilə, qida dəyərliliyi baxımından adekvat və təhlükəsiz olmaqla minimum əsas ərzaqlara çıxışı təmin etmək;
- Əsas yaşayış yeri və sanitar-gigiyenik xidmətlərə və təhlükəsiz içməli su ehtiyatlarına çıxışı təmin etmək;
- Əsas Dərman Preparatları üzrə ÜST-in Fəaliyyət Proqramı çərçivəsində müəyyən edilmiş əsas dərman preparatlarını təmin etmək;
- Hamı üçün pulsuz və icbari ibtidai təhsili təmin etmək;
- Ən azı əsas səhiyyə, əsas mənzil, su və sanitar-gigiyenik xidmətlər, ərzaq və təhsilin ən əsas formalarını əhatə edən faydaları minimum əsas səviyyədə təmin edən sosial təhlükəsizlik proqramlarına çıxışı təmin etmək.

Əsas öhdəliklər haqqında daha ətraflı məlumat üçün, İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi tərəfindən qəbul edilmiş və aşağıdakı əlavədə qeyd olunan ümumi qeydlərə baxın.

## 9. İqtisadi, sosial və mədəni hüquqların pozulması ilə bağlı hansı nümunələr vardır?

İqtisadi, sosial və mədəni hüquqlarının pozulması Dövlət öz öhdəlikləri çərçivəsində heç bir ayrı-seçkilik olmadan həmin hüquqlardan istifadəni təmin etmədikdə və ya onlara hörmət etmədikdə, onları qorumadıqda və yerinə yetirmədikdə baş verir.**Əlavə 9: İqtisadi, sosial və mədəni hüquqların pozulması ilə bağlı nümunələr**

- İnsanların məcburi şəkildə evlərindən çıxarılması (adekvat mənzil hüququ)
- Suyun, məsələn, dövlət müəssisələrinin tullantıları ilə çirklənməsi (sağlamlıq hüququ)
- Layiqli yaşayış üçün kifayət qədər minimum əmək haqqının təmin edilməməsi (əmək hüquqları)
- Ölkədə bütün sahələrdə və icmalarda aclığın qarşısının alınmaması (aclıqdan uzaq olmaq azadlığı)
- Cinsi və reproduktiv sağlamlıqla bağlı informasiya və xidmətlərdən istifadə imkanının qarşısının alınması (sağlamlıq hüququ)
- Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən sistematik şəkildə məhrum edilməsi (təhsil haqqı)
- İşəgötürənlərin məşğulluqla bağlı ayrı-seçkilik hərəkətlərinin (cinsi, əlillik, irqi, siyasi fikir, sosial mənşə, QİÇS-lə yoluxma və s. əsasında) qarşısının alınması (işləmək hüququ)
- Dövlət və özəl müəssisələr tərəfindən ərzaq və əkinəyararlı torpaqlar və su kimi ərzaq mənbələrinin məhv edilməsinin qadağan olunması (ərzaq hüququ)
- Dövlət və özəl sektorda çalışan insanların iş saatlarının ağlabatan şəkildə məhdudlaşdırılmasının təmin edilməməsi (iş hüquqları)
- Milli azlıqların və ya yerli xalqların öz dilindən istifadəsinin qadağan olunması (mədəni həyatda iştirak etmək hüququ)
- İnsanların mövcud statusu (məsələn, daimi yaşayış yeri olmayan şəxslər, sığınacaq axtaran şəxslər) əsasında sosial yardımdan məhrum etmək (sosial təminat hüququ)
- İşləyən analara analıq məzuniyyətinin verilməməsi (ailənin qorunması və yardım)
- Şəxsi və daxili istifadə məqsədilə suyun qanunsuz kəsilməsi (su hüququ)

## 10. Gender amili iqtisadi, sosial və mədəni hüquqlarla bağlı əhəmiyyət daşıyırmı?

Bəli, gender amili iqtisadi, sosial və mədəni hüquqların bir çox aspektləri ilə bağlı əhəmiyyət kəsb edir.

Birincisi, qadınlar və kişilər iqtisadi, sosial və mədəni hüquqlarla bağlı fərqli təsirə məruz qala bilərlər. Mədənlərdə və ya tikinti sahələrində mövcud olan ağır əl əməyi ilə bağlı iş şəraitinin tənzimlənməməsi qadınlardan daha çox kişilərə təsir göstərdiyi halda, ev işləri də daxil olmaqla, qeyri-rəsmi sektorda işçilərin hüquqlarının qorunmasına laqeyd münasibət kişilərə nisbətən qadınlara daha çox təsir edir.

Bəzi ölkələrdə valideynlər oğlan uşaqlarından iqtisadi cəhətdən ailəyə daha çox kömək gözlədiklərindən oğlanlar arasında məktəbdən yayınma halları qızlara nisbətən daha yüksəkdir. Bəzi hallarda isə erkən nikah və hamiləlik, məktəbdə məişət və cinsi zorakılıqlara məruz qalma səbəbindən və ya valideynlər qızlardan daha çox ev işləri görməyi gözlədiklərindən qızlar oğlanlara nisbətən daha çox məktəbdən yayınırlar. Strategiyalar, qanunvericilik, siyasət, proqramlar və monitorinq mexanizmləri bu fərqləri nəzərə almadıqda, bu iqtisadi, sosial və mədəni hüquqlardan qeyri-bərabər istifadəyə gətirib çıxara bilər.

İkincisi, qadın və qızlara qarşı ayrı-seçkilik dərin köklərə malik olduqda, bu, iqtisadi, sosial və mədəni hüquqlardan istifadəyə də təsir edir. Bir çox ölkələrdə, ailədə qızlara nisbətən öğlanlara üstünlük verilməsinin nəticəsi olaraq, qızlar daha az qida və ya təhsil alırlar. Əksər ölkələrdə, bərabər dəyərə malik iş üçün qadınlara daha aşağı əmək haqqı ödəmək tendensiyası mövcuddur. Evlilik, miras və ya hüquqi səlahiyyətlə bağlı qeyri-bərabərlik bir çox qadınları kredit, torpaq və mənzilə sahiblik hüququ kimi resurslardan məhrum etməklə onların iqtisadi, sosial və mədəni hüquqlardan müstəqil şəkildə istifadə etmək imkanlarına xələl gətirir. Kənd yerlərinin inkişafı və böhrandan sonrakı bərpa da daxil olmaqla, iqtisadi, sosial və mədəni qərarların qəbul edilməsində qadınların tam iştirakının olmaması təkcə iqtisadi, sosial və mədəni hüquqları həyata keçirmək səyləri baxımından qadınların fikir və təcrübələrinin əks etdirilməsinin qarşısını almır, həm də onlar üçün tam müvafiq olmayan proqramların və siyasət prinsiplərinin işlənib hazırlanmasına da gətirib çıxara bilər.

**Əlavə 10: Gender amili nədir?**

"Gender amili" anlayışı həm qadınlara, həm də kişilərə aid edilir.

Gender amili aşağıdakı əlamətlərə malik olmaqla kişilərlə qadınlar arasında sosial fərqlərlə bağlıdır:

- Bütün ömür boyu onların əlamətləri olur.
- Fitri deyil, tərbiyə nəticəsində formalaşır.
- Zamanla hər hansı cəmiyyət üçün dəyişir.
- Həm mədəniyyətlərin daxilində, həm də mədəniyyətlər arasında geniş diapozonda dəyişikliklərlə özünü büruzə verir.

İstənilən mədəniyyətdə gender amili həm qadınların, həm də kişilərin rollarına, hüquqi səlahiyyətlərinə və resurslarına təsir göstərir.

**11. İqtisadi, sosial və mədəni hüquqlar hökumətlərdən malları və xidmətləri pulsuz təmin etməyi tələb edirmi?**

Bir qayda olaraq, xeyr. İqtisadi, sosial və mədəni hüquqların hökumətdən səhiyyə, su, təhsil, ərzaq və digər mal və xidmətləri pulsuz təmin etməyi tələb etməsi ilə bağlı ümumi yanlış konsepsiya mövcuddur. Dövlətlər iqtisadi, sosial və mədəni hüquqlardan istifadə üçün tələb olunan imkanları, malları və xidmətləri əlverişli qiymətlərlə təmin etmək üçün məsuliyyət daşıyır. Bu o deməkdir ki, mənzil, ərzaq, su, kanalizasiya, səhiyyə və ya təhsillə bağlı birbaşa və dolayı xərclər insanların bu xidmətlərdən istifadə etməsinə mane olmamalı və onların digər hüquqlardan istifadə etmək bacarıqlarını şübhə altına almamalıdır.

Bu fikirlər iki istisna nəzərə alınmaqla doğrudur. Birincisi, bəzi hallarda, hüquqlardan bərabər istifadənin təmin edilməsinə başqa yolla müəyyən hüquqlardan istifadə edə bilməyən şəxslər üçün güzəştli və ya pulsuz xidmətlər aid edilə bilər. Məsələn, şiddətli quraqlıq baş verdikdə, ərzaq çatışmazlığı qiymətlərin artmasına səbəb olarsa, dövlətlərdən heç kəsin ac qalmamasını təmin etmək üçün qida və su təminatı həyata keçirmək tələb oluna bilər.

İkincisi, müəyyən iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi üçün zəruri olan bəzi xidmətlər ödənişsiz təmin edilməlidir. Məsələn, beynəlxalq hüquq çərçivəsində, ibtidai təhsil hamı üçün pulsuz və icbari olmalı, orta təhsil isə tədricən pulsuz təhsil tətbiq etməklə, hamı üçün mövcud və əlçatan olmalıdır. Zəruri hallarda hamiləliklə bağlı xidmətlər qadınlar üçün pulsuz olmalıdır. Bəzi ölkələrin milli qanunvericiliklərində iqtisadi, sosial və mədəni hüquqlarla bağlı olan digər xidmətləri də pulsuz təmin etmək tələb oluna bilər.

## Əlavə 11: Yoxsulluq şəraitində yaşayan şəxslərə iqtisadi, sosial və mədəni hüquqlarını həyata keçirməyə imkan verən maddi yardım

Ailə müavinəti proqramı (*Bolsa Familia*) Braziliya hökuməti tərəfindən irəli sürülmüş yenilikçi sosial təşəbbüsdür. Yardım ölkənin aztəminatlı əhalisinin əsas hissəsini təşkil edən 11 milyon ailəyə, 46 milyondan çox insana şamil edilir.
Uşaqlı yoxsul ailələr birbaşa pul köçürmələri ilə orta hesabla 70 Braziliya realı (təqribən $35 ABŞ dolları) alırlar. Əvəzində, onlar uşaqlarını məktəbdə saxlamaq və onları müntəzəm olaraq sağlamlıq yoxlamasından keçirmək barədə öhdəlik götürürlər. Ailə müavinəti proqramı (*Bolsa Familia*) iki mühüm nəticəyə malikdir: o, hazırkı yoxsulluğu azaltmağa kömək edir və ailələri uşaqlarına sərmayə yatırmağa vadar edir və bununla yoxsulluğun nəsildən nəslə ötürülməsi tendensiyasını aradan aparır və gələcək yoxsulluğu azaldır.
Ailə müavinəti proqramının (*Bolsa Familia*) əhəmiyyətli cəhəti ondan ibarətdir ki, o, Braziliya cəmiyyətinin sosial proqramlardan heç vaxt faydalanmamış mühüm hissəsini əhatə edir. Vəsaitlərin doxsan dörd faizi əhalinin ən yoxsul 40 faizinə verilir. Araşdırmalar göstərir ki, vəsaitlər ən çox uşaqlar üçün qida, dərs vəsaiti və paltar almaq üçün istifadə olunur.
Proqramın uğuru Çili, İndoneziya, Meksika, Mərakeş, Cənubi Afrika və Türkiyə də daxil olmaqla 20 ölkədə analoji tədbirlərin görülməsinə səbəb olmuşdur. Bu yaxınlarda, Nyu-York şəhəri Ailə müavinəti proqramı (*Bolsa Familia*) və onun Meksika ekvivalenti əsasında işlənib hazırlanmış müəyyən şərtlərlə imkanların genişləndirilmə proqramının (*Opportunity NYC*) icrasını elan etmişdir. Bu inkişaf etmiş bir ölkənin inkişaf etməkdə olan ölkənin təcrübələrini öyrənərək qəbul etməsinə dair nümunədir.
*Mənbə:* World Bank, *Bolsa Famllia: changing the lives of millions in Brazil* (22 August 2007)

## 12. İqtisadi, sosial və mədəni hüquqlar insanları sosial təminatdan asılı edirmi?

Bəzən iqtisadi, sosial və mədəni hüquqların müdafiəsinin insanları sosial təminatdan və ya dövlət müdaxiləsindən asılı etdiyi iddia olunur. Bu cür nəticə insan hüquqları ilə bağlı məqsədlərə ziddir. Həqiqətən, insan hüquqları haqqında qanunun əsas məqsədlərindən biri insanları şərəfli həyat yaşamaq potensialı və azadlığı ilə təmin edəcək imkanlar yaratmaqdan ibarətdir. Əgər Dövlət yardımı onu alanları imkanlardan məhrum edirsə, aparılan siyasətlərin doğru olub-olmadığı ilə bağlı şübhə yaranır. Eynilə, iqtisadi, sosial və mədəni hüquqlar hər bir şəxsin iqtisadi və sosial həyatda tam iştirakına mane olan sosial maneələrin aradan qaldırılması da daxil olmaqla, sosial yardımın təmin edilməsindən daha çox şey tələb edir.

İqtisadi tənəzzül, sənaye istehsalının köçürülməsi və digər iqtisadi və sosial amillərin bəzən insanların layiqli yaşayış standartından istifadə etmək iqtidarında olmadığı vəziyyətə gətirib çıxarması acı reallıqdır. Bu baş verdikdə, sosial müavinətlər də daxil olmaqla sosial təminatdan yararlanmaq zərurəti yaranır. İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə qeyd edildiyi kimi, hər bir şəxsin ondan asılı olmayan vəziyyətlərdə işsizlik, xəstəlik, qocalıq və ya yaşayış üçün vəsaitlərdən məhrum olduqda sosial təminat hüququ vardır. Lakin, bu, heç də həmişə pulsuz yardım hüququ anlamına gəlmir. Sosial təminat insanların çıxılmaz vəziyyətlərdə yaşamasının qarşısını almalı və onlara cəmiyyətin azad üzvləri olmaq imkanı verməklə öz vəziyyətlərini yaxşılaşdırmaqda kömək etməlidir. Malların və xidmətlərin zəruri hallarda hökumət tərəfindən təmin edilməsi öz-özlüyündə məqsəd deyil, iqtisadi, sosial və mədəni hüquqlardan istifadəni təmin etmək üçün vasitədir.

## 13. İqtisadi, sosial və mədəni hüquqlar təbii olaraq demokratiyadan və ya iqtisadi artımdan irəli gəlirmi?

Xeyr, heç də yox. İqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinin avtomatik olaraq demokratik şəraitdən qaynaqlanması və iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirilməsi sahəsində hər hansı disbalansın uzun müddətli perspektivdə açıq iqtisadiyyatlardakı bazar qüvvələri tərəfindən aradan qaldırılacağı ilə bağlı yanlış konsepsiya mövcuddur. Həqiqət ondan ibarətdir ki, iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirilməsi istiqamətində konkret addımlar atılmayınca, bu hüquqlar, hətta uzun müddətli perspektivdə belə, nadir hallarda həyata keçirilə bilər.

İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Komitə qeyd etmişdir ki, iqtisadi, sosial və mədəni hüquqların tam həyata keçirilməsi nadir hallarda yalnız bir sıra digər proqramların və ya demokratik sistemə keçid və ya iqtisadi artımla bağlı dəyişikliklərin ikinci dərəcəli və ya təsadüfi nəticəsi kimi çıxış edir. Məsələn, xüsusi tədbirlər və ya siyasətlər həyata keçirilməyincə, iqtisadi artım avtomatik olaraq ən çox köməksiz və imkansız qrupların həyat səviyyəsinin yaxşılaşdırılmasına gətirib çıxarmır. Artım pulsuz və icbari təhsil üçün daha çox resurs ayırmağa imkan verirsə, lakin əlilliyi olan şəxslərin məktəblərə fiziki çıxışının təmin edilməsi üçün heç bir xüsusi siyasəti həyata keçirilmirsə, bu, əhalinin təbəqələri arasında boşluqların genişlənməsinə səbəb olacaq və iqtisadi, sosial və mədəni hüquqların inkar edilməsi ilə nəticələnəcək.

Eynilə, təkcə demokratiyanın olması ən yoxsul və ən çox təcrid vəziyyətində olan şəxslərlə bağlı iqtisadi, sosial və mədəni hüquqları həyata keçirmək üçün çox vaxt kifayət deyil. Yoxsulluq və cəmiyyətdən təcrid vəziyyətində yaşayan insanların parlamentlərdə və nazirliklərdə təmsilçiləri olmadığından, bu cür şəxslərə öz fikirlərini qanunlarda, dövlət siyasətində və ya inkişaf səylərində əks etdirmək çox vaxt çətin olur. Dövlət siyasətində xüsusilə seçki zamanı siyasi proseslərə daha çox təsir göstərən insanların ehtiyaclarına diqqət yetirmək tendensiyası ola bilər. Sosial müavinətlər orta sinfin tərəddüd edən seçicilərinin ehtiyaclarına yönəldilə bilər və ya iqtisadi və ya kommersiya siyasəti daha çox güclü sahələrin ehtiyaclarını ödəmək üçün formalaşdırıla bilər. Bu, diqqətin ən çox təcrid vəziyyətində yaşayan şəxslərdən daha çox imkanı olan daha tanınmış şəxslərə və bu və ya digər demokratik cəmiyyətdəki qərar qəbul etmək iqtidarında olan şəxslərə yönəlməsinə gətirib çıxara bilər. Eyni zamanda, xroniki yoxsulluq, iqtisadi, sosial və mədəni hüquqlara laqeydlik və onların inkar edildiyi mühitdə demokratik quruluşun uzun müddət mövcud olacağını təsəvvür etmək çətindir.

## 14. İqtisadi, sosial və mədəni hüquqlar əsas malların və xidmətlərin özəl şəkildə təmin edilməsini qadağan edirmi?

Xeyr. Hüquqların müdafiə mexanizmi xidmətlərin və ya qiymət siyasətinin müəyyən bir formasını diktə etmir. İnsan hüquqları ilə bağlı beynəlxalq hüquq normaları xidmətlərin dövlət və ya özəl xidmət təminatçıları tərəfindən və ya onların birgə səyləri ilə təmin edilməli olduğunu müəyyən etmir.

Lakin dövlətlər xidmətlərin hər hansı formasında insan hüquqlarına hörmət olunmamasını təmin etmək üçün məsuliyyət daşıyırlar. Məsələn, pulsuz ibtidai təhsil və səhiyyə, qida, su və sanitar-gigiyena xidmətləri və ya mənzillə bağlı müvafiq xidmətlər vasitəsilə, xidmətlərin təmin edilməsi mümkün, əlçatan (fiziki, eləcə də iqtisadi cəhətdən) və həssas və təcrid olunmuş qruplar da daxil olmaqla, hamı üçün kifayət dərəcədə olmalıdır. Buna görə də, müstəqil monitorinqlər və götürülən öhdəliklərə riayət etməmək müqabilində sanksiyalar da daxil olmaqla, Dövlətlər, tənzimləyici tədbirlər görməli, xidmət ictimai sektor tərəfindən təmin edilmədikdə isə xüsusi təchizatçılara nəzarət etməlidir.

Məsələn, su hüququ özəlləşdirilən su təchizatı sistemi vasitəsilə təmin edilə bilər. Lakin, özəlləşdirilən su təchizatı müəyyən insanların təhlükəsiz içməli su hüququnu inkar edərsə, nəticədə insan hüquqlarına dair beynəlxalq qanunlar çərçivəsində Dövlət məsuliyyət daşıyır. Eynilə, hökumət təhlükəsiz içməli suyun bütün şəxslər üçün əlçatanlığını təmin etmək şərti ilə özəl sektor tərəfindən tətbiq olunan qiymətlərin tənzimlənməsi üçün məsuliyyət daşıyır.

### Əlavə 12: Su təchizatının özəlləşdirilməsi

**Boliviya**

1999-cu ildə, Boliviya hökuməti Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) ilə razılaşdırılmış şərtlərə uyğun olaraq özünün su təchizatını özəlləşdirmişdir. Koçabambada, su təchizatı sistemi icarəyə verildi. Konsorsium suyun qiymətlərini əhəmiyyətli dərəcədə artırdı və nəticədə xüsusilə ağır yoxsulluq şəraitində yaşayan insanlara zərər dəydi. Bu özəlləşdirməyə etiraz etmək məqsədilə, yerli sakinlərdən ibarət qruplar və vətəndaş cəmiyyəti təşkilatları su və yaşayışın müdafiəsinə yönəlmiş Koalisiyada (Coordinadora por la Defensa del Agua y de la Vida) birləşdilər və bunun nəticəsində şəhər dörd gün ərzində mühasirə vəziyyətində qaldı. Etirazlar zorakılıqlara çevrildi və bir yeniyetmə oğlan həyatını itirdi. Bundan sonra, bələdiyyə şirkəti olan SEMAPA bərpa edildi. Koçabambada baş vermiş "su müharibəsindən" altı il sonra, sudan istifadə imkanları genişləndirildi və tarixlər isə cüzi şəkildə qaldırıldı. Lakin, idarəetmə və xidmət keyfiyyəti aşağı səviyyədə qalmaqda davam edir.

**Əlavə 12:** *(ardı)*

Bu nümunə su tarifləri də daxil olmaqla, su xidmətlərinin düzgün tənzimlənməsinin əhəmiyyətini göstərir. Eyni hal özəl sektor, eləcə də bütün əsas malların və xidmətlərin dövlət sektoru tərəfindəm təmin edilməsi üçün də doğrudur. Qeyri-kafi tənzimlənmə iqtisadi, sosial və mədəni hüquqları inkar edə və hətta zorakılıq və münaqişələrə gətirib çıxara bilər. Bu baxımdan, təkcə hökumət deyil, həm də özəl şirkətlər və beynəlxalq maliyyə institutları yoxsulluq şəraitində yaşayan şəxslərin iqtisadi, sosial və mədəni hüquqlarının inkar edilməməsini təmin etmək üçün əhəmiyyətli dərəcədə məsuliyyət daşıyırlar.

*Mənbə:* Report of the High Commissioner for Human Rights on human rights, trade and investment (E/CN.4/Sub.2/2003/9).

## 15. Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq iqtisadi, sosial və mədəni hüquqların reallaşdırılması kimidirmi?

Minilliyin İnkişaf Məqsədləri inkişaf kontekstində, iqtisadi, sosial və mədəni hüquqlar, o cümlədən insan hüquqlarının həyata keçirilməsi üçün potensial güclü stimul təmin edir. Minilliyin İnkişaf Məqsədləri və insan hüquqları standartları əhəmiyyətlə dərəcədə bir-birini tamamlayır, lakin insan hüquqları daha geniş məfhumdur.

İlk növbədə, Dövlətlər tərəfindən götürülən *öhdəliklərin xarakteri* fərqlidir. Minilliyin İnkişaf Məqsədləri siyasi öhdəliklər olduğu halda, insan hüquqları, o cümlədən, iqtisadi, sosial və mədəni hüquqlar məcburi hüquqi qüvvəyə malikdir. Minilliyin İnkişaf Məqsədləri məcburi hüquqi qüvvəyə malik olmamaqla, Minilliyin Bəyannaməsində razılaşdırılmış məqsədləri əks etdirmək üçün işlənib hazırlanmış nəzarət göstəriciləridir. Lakin qeyd etmək lazımdır ki, Minilliyin Bəyannaməsi aşkar şəkildə insan hüquqlarına dair norma və standartların tanınması üzərində qurulmuşdur. Belə ki, Minilliyin İnkişaf Məqsədləri hər bir Dövlətin insan hüquqlarına dair norma və standartlara uyğun malik ola biləcəyi hüquqi öhdəliklərlə uyğun şəkildə həyata keçirilməlidir.

İkincisi, iqtisadi, sosial və mədəni hüquqların əhatə etdiyi məsələlərin *əhatə dairəsi* Minilliyin İnkişaf Məqsədləri ilə əhatə olunan məsələlərin əhatə dairəsinə nisbətən *daha genişdir*. Məsələn, Minilliyin İnkişaf Məqsədlərində ali təhsil, daşınmaz əmlaka sahiblik zəmanəti və ya mədəni həyatda iştirak məsələlərin birbaşa istinadlar yoxdur. Belə ki, Məqsəd 2 çərçivəsində Dövlətlərdən universal ibtidai təhsilə nail olmaq tələb olunursa, təhsil hüququ Dövlətlərdən təkcə ilkin (pulsuz olmaqla) təhsili deyil, həm də orta və ali təhsili təmin etməyi tələb edir. Bundan əlavə, Minilliyin İnkişaf Məqsədləri iqtisadi, sosial və mədəni hüquqların müəyyən aspektlərini əhatə edirsə, sosial azadlıqlar, xüsusilə, məcburi köçürülməyə qarşı müdafiə Minilliyin İnkişaf Məqsədləri tərəfindən əhatə olunmayan əlavə insan hüquqları problemləri ilə bağlıdır.

Üçüncüsü, iqtisadi, sosial və mədəni hüquqlar ayrı-seçkiliyə yol verməmək prinsipi ilə birlikdə, yoxsulluq vəziyyətindən azad olan şəxslərin *sayı* ilə yanaşı, həmin şəxslərin *kimliyini* də ön plana gətirməklə *keyfiyyət cəhətini* də qabardır. Məsələn, Məqsəd 1 2015-ci ilədək aclıqdan əziyyət çəkən insanların sayını yarıyadək azaltmağı nəzərdə tutur. Bu, açıq-aşkar insanların aclıqdan azad olmaq hüquqlarının təbliği deməkdir. Lakin insan hüquqları qanunu bununla məhdudlaşmır və bu hədəfə qeyri-ayrı-seçkilik əsasında nail olmağı tələb edir. Məsələn, bu hədəfə 2015-ci ilədək nail olunsa da aclıq vəziyyətində yaşayan yerli insanların nisbəti artacaq və ya hətta eyni səviyyədə qalacaqsa, Məqsəd 1-ə nail oluna bilər, lakin bununla belə insan hüquqları pozulmuş olacaq.

Dördüncüsü, Minilliyin İnkişaf Məqsədləri məhdud vaxt çərçivəsinə malik aralıq hədəf olduğu halda, insan hüquqları Dövlətlərdən son məqsədə, yəni insan hüquqlarının hamı üçün tamamilə həyata keçirilməsinə nail olana qədər daimi səylər göstərməyi tələb edir. Məsələn, Məqsəd 7 Dövlətlərdən təhlükəsiz içməli su əldə edə bilməyən insanların sayını yarıyadək azaltmağı tələb edir. Su hüququ isə Məqsəd 7 çərçivəsində əldə olunan nailiyyətlər də daxil olmaqla, Dövlətlərdən hamı üçün təhlükəsiz və əlverişli içməli su əldə etmək imkanı təmin etmək üçün səylərini davam etdirməyi tələb edir.

Nəhayət, *coğrafi əhatə dairəsi* baxımından fərq vardır. Minilliyin İnkişaf Məqsədlərində daha çox inkişaf etməkdə olan ölkələrə diqqət yetirildiyi halda, beynəlxalq hüquq normaları universal xarakterə malikdir və harada qeydə alınmasından asılı olmayaraq yoxsulluq, HİV/QİÇS, ana ölümü və s. hallarla mübarizə vasitələri təmin edir. Məsələn, miqrant işçilərin hüquqları tez-tez həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə eyni dərəcədə təhlükəyə məruz qalır. Eynilə, yoxsulluq və sosial təcrid hətta zəngin ölkələrdə də problemli məsələ olaraq qalır və bu iqtisadi, sosial və mədəni hüquqların inkar edilməsinin hər yerdə baş verdiyini göstərir.

Buna görə də, iqtisadi, sosial və mədəni hüquqları həyata keçirmək məqsədilə, elə səylər göstərilməlidir ki, Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün hüquqların müdafiə perspektivləri hərtərəfli nəzərə alınmalı və əldə olunanlarla kifayətlənilməməlidir.

## 16. İqtisadi, sosial və mədəni hüquqlar fövqəladə hallarda, fəlakətlər və silahlı münaqişələr zamanı qüvvədə olurmu?

Bəli. İnsan hüquqlarına əsasən, Dövlətlərin fövqəladə hallarda, fəlakətlər və ya silahlı münaqişələr zamanı, iqtisadi, sosial və mədəni hüquqlarla bağlı öhdəliklərini pozmaq icazəsi ifadə edilməmişdir. Əslində, bu cür vəziyyətlərdə, iqtisadi, sosial və mədəni hüquqları, xüsusilə cəmiyyətin ən təcrid olunmuş qruplarının hüquqlarını qorumağa çox vaxt daha çox diqqət yetirmək tələb olunur.

İqtisadi, sosial və mədəni hüquqlar fövqəladə və silahlı münaqişələr zamanı tez-tez kobud və sistematik şəkildə pozulur. Münaqişələr zamanı, mülki obyektlərin sistematik şəkildə məhv edilməsindən və ya əhalinin məcburi köçkünə çevrilməsindən çox vaxt müharibə silahı kimi qəsdən istifadə olunur. Digər bir misal əsasən ərzaq anbarlarına basqın, məhsulların məhv edilməsi və ya yardım vasitələrinin paylanmasına qəsdən mane olmaq kimi aclığa gətirib çıxara biləcək fəaliyyətlər bilərəkdən həyata keçirilir. Təbii fəlakətlər zamanı da, məsələn, təcili yardımların çatdırılması zamanı marginal qrupların ehtiyaclarına biganəlik göstərilməklə, iqtisadi, sosial və mədəni hüquqlarının pozulması baş verə bilər.

Silahlı münaqişə zamanı insan hüquqları normaları prinsipləri münaqişə dövründə gücdən istifadəni məhdudlaşdıran beynəlxalq humanitar hüququ möhkəmləndirir. İqtisadi, sosial və mədəni hüquqların bəzi pozuntuları humanitar hüquqla qadağan edilir və tibbi yardımın inkar edilməsi, əmlakın məhv edilməsi və ya ələ keçirilməsi və ya müharibə üsulu kimi mülki şəxslərin qəsdən aclığa düçar edilməsi kimi hallar beynəlxalq cinayətlər hesab olunur. İnsan hüquqları qanununun və beynəlxalq humanitar hüququn üst-üstə düşən cəhətləri şərh məsələsidir, lakin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi qəbul edildikdən sonra və xüsusilə 1968-ci ildə İnsan Hüquqlarına həsr olunan Beynəlxalq Konfransın keçirilməsindən sonra bu iki hüquqi rejim arasında tam fərqlilik tədricən aradan qaldırılmışdır. Konfransda qəbul edilmiş Tehranın Bəyannaməsində "təcavüz və ya hər hansı silahlı qarşıdurmadan irəli gələn insan hüquqlarının kütləvi şəkildə rədd edilməsi" hallarının aradan qaldırılması üçün Dövlətlərin öhdəlik daşıdıqları etiraf edilmişdir.

### Əlavə 13: Münaqişələr zamanı iqtisadi, sosial və mədəni hüquqların tətbiqi

İşğal olunmuş *Fələstin Ərazilərində müdafiə divarının inşasının hüquqi nəticələri üzrə* Beynəlxalq Ədalət Məhkəməsinin tövsiyə xarakterli qərarında (9 iyul 2004-cü il) iqtisadi, sosial və mədəni hüquqların beynəlxalq humanitar hüquqla qarşılıqlı şəkildə əlaqəli olduğuna və bu hüquqların silahlı münaqişə və işğal zamanı tətbiqinə dair konkret nümunə təqdim olunur.

Məhkəmə özünün tövsiyə xarakterli qərarında bəyan edir ki, "bəzi hüquqlar yalnız beynəlxalq humanitar hüququn predmetləri ola bilər; digər hüquqlar isə yalnız insan hüquqlarının predmeti ola bilər. Mühüm cəhət ondan ibarətdir ki, Məhkəmə bəyan edir ki, "insan hüquqları konvensiyalarında təklif olunan hüquqların qorunması silahlı münaqişə vəziyyətində də qüvvədədir və bu mühakimə dünyanın bütün münaqişələrinə aid edilməlidir.

Müvafiq surətdə, Məhkəmə yalnız beynəlxalq humanitar hüququn tətbiqinə dair qərar qəbul etməmiş, həmçinin işğalçı qüvvənin (İsrail) zəbt etdiyi ərazilərdə İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın və Uşaq Hüquqları Konvensiyasının hüquq müdafiə müddəalarına riayət etməli olduğunu qeyd etmişdir.

Bu Konvensiyanın iştirakçı Dövlətin yurisdiksiyası daxilində "hər bir uşağa" və beləliklə işğal olunmuş Fələstin Ərazilərindəki bütün uşaqlara tətbiq edildiyi təsdiqlənir. Konvensiyada və Paktda bir sıra müddəalar, o cümlədən işləmək hüququ, ailə və uşaq və gənclərə tətbiq olunan verilən müdafiə və yardım hüququ, adekvat ərzaq, geyim və mənzil hüququ da daxil olmaqla adekvat yaşayış səviyyəsinə malik olmaq hüququ və "aclıqdan azad olmaq" hüququ, sağlamlıq hüququ və təhsil hüququ yer almışdır.

İqtisadi, sosial və mədəni hüquqların təmin edilməsi həm də fəlakətlərin və münaqişələrin qarşısını almağa, onlara hazır olmağa və onların nəticələrini aradan qaldırmağa kömək edir. Araşdırmalar və tədqiqatlar göstərir ki, iqtisadi, sosial və mədəni hüquqlardan istifadə ilə bağlı sistematik ayrı-seçkilik və bərabərsizliklər münaqişələrə aparan və fəlakətlərin təsirini daha da kəskinləşdirən və onların nəticələrinin aradan qaldırılmasına mane olan sosial və siyasi gərginliklərə səbəb ola və ya onları daha da gücləndirə bilər.

**Əlavə 14: Keçid dövrünün ədalət sistemi və iqtisadi, sosial və mədəni hüquqlar**

*Bir sıra nailiyyətlərə və təsadüfi istisnalara baxmayaraq, keçid dövrünün ədalət sistemi, adi vəziyyətlərlə bağlı ədalət sistemi kimi, hələ də iqtisadi, sosial və mədəni hüquqlarla adekvat və ya sistematik şəkildə məşğul olmur. Hüquqlarla bağlı heç bir iyerarxiyanın olmadığını və iqtisadi, sosial və mədəni hüquqlar da daxil olmaqla, bütün insan hüquqlarının qorunmasının zəruriliyini nəzərə alaraq, hesab edirəm ki, keçid dövrünün ədalət sisteminin adi vəziyyətlərlə bağlı ədalət sisteminin həvəslə cavab verə bilmədiyi çağırışlara cavab verməsi lazımdır. Bütün digər insan hüquqları kimi, iqtisadi, sosial və mədəni hüquqlar da konstitusiya, qanunvericilik səviyyəsində təşviq və məhkəmə qaydasında mühafizə tələb edir. Buna görə də, keçid dövrünün ədalət sistemi ilə bağlı hərtərəfli strategiya münaqişələr zamanı insan hüquqlarının kobud şəkildə pozulma hallarını, eləcə də ilk növbədə münaqişə yaradan və ya münaqişəni alovlandıran kobud insan hüquqları pozuntularını aradan qaldırmalıdır.*

*Mənbə:* Louise Arbour, United Nations High Commissioner for Human Rights, "Economic and social justice for societies in transition", *New York University Journal of International Law and Politics,* vol. 40, No. 1 (2007).

## 17. İqtisadi, sosial və mədəni hüquqların milli səviyyədə təşviqi və qorunmasında hansı subyektlər rol oynamalıdırlar?

İqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsində müxtəlif milli subyektlər mühüm rol oynamalıdırlar. Dövlətlər iqtisadi, sosial və mədəni hüquqlara hörmət etmək, onları qorumaq və həyata keçirmək məsuliyyəti daşıyırlar. Müxtəlif dövlət orqanları (qanunvericilik, icra, məhkəmə) bir sıra rol oynaya bilərlər. Bundan əlavə, vətəndaş cəmiyyəti, özəl sektor, eləcə də milli insan hüquqları institutları, donor Dövlətlər və beynəlxalq təşkilatlar hamısı iqtisadi, sosial və mədəni hüquqların təşviqi və müdafiəsi üçün çıxış edə bilərlər.

Dövlət orqanlarının həyata keçirə biləcəkləri tədbirlərə dair aşağıdakı nümunələri göstərmək olar:

(a) **Qanunverici orqan**, bir çox ölkələrdə, beynəlxalq sazişlərin, o cümlədən iqtisadi, sosial və mədəni hüquqları tanıyan sazişlərin ratifikasiyasının təsdiqində rol oynayır. O, həmçinin milli qanunların iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq və ya konstitusiya normalarına uyğunluğunu təmin etmək məqsədilə qanunvericilik və təlimatları təsdiq edir. Bundan başqa, qanunverici orqan çox vaxt dövlət büdcəsinin təsdiq edilməsinə görə məsuliyyət daşıyır və beləliklə qeyd olunan hüquqların yerinə yetirilməsi üçün mövcud resurslardan maksimum istifadəni təmin edə bilər. Bir çox parlamentlərdə iqtisadi, sosial və mədəni hüquqlar da daxil olmaqla insan hüquqları üzrə birgə işləmək üçün millət vəkilləri üçün forum təmin edən partiyalararası insan hüquqları komitələri fəaliyyət göstərir;

(b) **İcra orqanları** qanunverici orqanın işini tamamlayır və qanunvericiliyin adekvat siyasət və proqramlarla dəstəklənməsinin və büdcənin düzgün hazırlanması və icrasının və istifadəsinə nəzarətin təmin edilməsində mühüm rol oynayır. Dövlət administrasiyası hökumət daxilində müxtəlif sektorların koordinasiyasını, eləcə də iqtisadi, sosial və mədəni hüquqların təşviq edilməsi və qorunması işində vətəndaş cəmiyyəti, özəl sektor və digər tərəfdaşlarla koordinasiyanı asanlaşdıra bilər. Yerli idarəetmə orqanları da, xüsusilə təhsil və ya sağlamlıq kimi əsas xidmət təminatlarının əksmərkəzləşməsi zamanı, bütün insan hüquqlarının təmin edilməsi üçün məsuliyyət daşıyırlar;

(c) **Məhkəmə orqanları** iqtisadi, sosial və mədəni hüquqlara Dövlət və digər subyektlərin hörmət etməsinin təmin olunmasında rol oynayır və bu cür hüquqların pozulması zamanı hüquqi müdafiə vasitələri təmin edir. Onlar, həmçinin iqtisadi, sosial və mədəni hüquqların xüsusi milli kontekstdə hüquqi məzmununun hazırlanmasında mühüm rol oynayırlar.

Ombudsmanlar, milli insan hüquqları komissiyaları və xalq müdafiəçiləri (*defensores del pueblo*) kimi **milli hüquq mühafizə təsisatları** getdikcə iqtisadi, sosial və mədəni hüquqların təşviqi və monitorinqi istiqamətində daha çox fəaliyyət göstərirlər. Onların görə biləcəkləri tədbirlər onların fərdi mandatından asılı olsa da, milli hüquq mühafizə təsisatları hüquq pozuntusu hallarında şikayətlərə baxmaqla, araşdırmalar həyata keçirməklə, müvafiq beynəlxalq insan hüquqları sazişlərinin icrasına nəzarət etməklə, beynəlxalq sazişlərin ölkə daxilində tətbiqi ilə bağlı hökumətə məsləhət verməklə, siyasət dəyişikliklərinə dair tövsiyələr verməklə və təlim və ictimaiyyəti maarifləndirməklə iqtisadi, sosial və mədəni hüquqları müxtəlif üsullarla qoruya və təşviq edə bilərlər.

**Əlavə 15: Filippində iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinin araşdırma əsasında monitorinqi**

Filippinin 1987-ci ildə qəbul edilmiş Konstitusiyasında qeyd edilir ki, "mülki və siyasi hüquqlarla bağlı insan hüquqlarının pozulmasının bütün formalarını ... araşdırmaq" məqsədilə Filippinin İnsan Hüquqları Komissiyası fəaliyyət göstərir və "Filippin hökumətinin insan hüquqları üzrə beynəlxalq müqavilə öhdəliklərinə riayət etməsinə nəzarət" etməlidir. Ali Məhkəmənin 1994-cü il 5 yanvar tarixli qərarı ilə Komissiyanın mülki və siyasi hüquq pozuntularını araşdıra biləcəyi təsdiq edilmişdir. Bu qərar Komissiyanı iqtisadi, sosial və mədəni hüquqları öz səlahiyyətlərinə daxil etmək üçün başqa yollar axtarmağa vadar etmişdir.

Komissiya iqtisadi, sosial və mədəni hüquqların pozulmasına dair çoxlu sayda şikayətlər aldığından, o, beynəlxalq müqavilə öhdəliklərinə hökumətin riayət etməsinə nəzarət etməli olduğuna dair konstitusiyanın tələbinə əsaslanmaqla, iqtisadi, sosial və mədəni hüquqların araşdırma əsaslı monitorinq sistemini işləyib hazırladı. Filippin İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktı 1974-cü ildə ratifikasiya etdiyindən, həmin sazişdən irəli gələn öhdəliklər Komissiyanın konstitusiya mandatına əsasən genişləndirildi. Komissiya Filippin cəmiyyətinin 16 həssas sektorunun ehtiyaclarını aradan qaldırmaq məqsədilə inzibati, proqram və qanunvericilik tədbirlərini müəyyənləşdirən Filippinin İnsan Hüquqları Planını işləyib hazırlamaqla öz araşdırma əsaslı monitorinq funksiyasını həyata keçirməyə cəhd göstərmişdir. Komissiya həmçinin əhalinin məcburi köçürülməsi və bununla bağlı insan hüquqlarının pozulması hallarının monitorinqinə də əhəmiyyətli dərəcədə diqqət yetirir.

*Mənbə:* OHCHR, *Iqtisadi, sosial və mədəni hüquqlar: Handbook for National Human Rights Institutions*, Professional Training Series No. 12 (United Nations publication, Sales No. E.04.XIV.8).

**QHT-lər, sosial hərəkatlar, icma əsaslı təşkilatlar, hüquq müdafiəçiləri, professional birliklər** (məsələn, vəkillərin, səhiyyə işçilərinin, müəllimlərin assosiasiyaları), **həmkarlar ittifaqları, akademik dairələr və dini qurumlar** kimi vətəndaş cəmiyyətinin müxtəlif subyektləri fərdi şəxslərin və qrupların iqtisadi, sosial və mədəni hüquqlarının təşviq edilməsində və bu hüquqların həyata keçirilməsi üçün hökumətin məsuliyyətinin təmin edilməsində mühüm rol oynayırlar.

İqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi ilə bağlı əsas mal və xidmətlər daha çox həm milli, həm də transmilli **özəl biznes müəssisələri** tərəfindən təmin edilir. Bu cür hallarda, Dövlət bu cür təşkilatların və müəssisələrin həmin malların və xidmətlərin təchizatı zamanı insan hüquqlarına dair norma və standartlara hörmətlə yanaşmasını təmin etmək öhdəliyi daşıyır.

**Kütləvi informasiya vasitələri**, insan hüquqları üzrə ictimai müzakirələr və məlumatların yayılması və insan hüquqları ilə bağlı maarifləndirmə işinin aparılması üçün forum funksiyasını yerinə yetirə bilər. Eyni zamanda, onların müasir dünyadakı güclü təsirini nəzərə alaraq, onlar tərəfindən insan hüquqları məsələlərinə, normalarına və standartlarına həssas münasibət göstərilməzsə, onlar tərəfindən yayılan informasiya və obrazlar insan hüquqlarına ciddi dərəcədə mənfi təsir göstərə bilər.

Nəhayət, humanitar yardım, inkişafa töhfə vermək və digər beynəlxalq əməkdaşlıq məqsədilə ölkədə fəaliyyət göstərən **donor və qeyri-hökumət təşkilatları** da beynəlxalq hüquq və ya mənsub olduqları ölkənin qanunları çərçivəsində onlara tətbiq edilə biləcək insan hüquqları öhdəliklərinə riayət etməlidirlər. Məsələn, Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər və Birləşmiş Millətlər Təşkilatının qurumları BMT Nizamnaməsində təsbit edildiyi kimi, beynəlxalq əməkdaşlıq fəaliyyətlərində heç bir ayrı-seçkiliyə yol vermədən bütün insan hüquqlarına və fundamental azadlıqlara riayət etməlidirlər. Onlar həmçinin beynəlxalq, eləcə də milli qanunvericiliyə əsasən insan hüquqları ilə bağlı üzərinə öhdəlik götürmüş ölkələrin insan hüquqları ilə bağlı öhdəliklərinə hörmətlə yanaşmalıdırlar. Onlar əməkdaşlıq fəaliyyətlərinin öhdəlik götürmüş ölkənin insan hüquqlarını, o cümlədən iqtisadi, sosial və mədəni hüquqları həyata keçirmək cəhdlərinə xələl gətirməməsini və bu cür səylərin yüngülləşdirilməsini və dəstəklənməsini təmin etməlidirlər. Onlar, həmçinin, onların əməkdaşlarının, podratçılarının və ya onların nəzarəti altında olan digər şəxslərin davranışlarının tətbiq olunan hüquq müdafiə normaları və standartlarına uyğunluğunu təmin etməlidirlər.

## 18. İqtisadi, sosial və mədəni hüquqlar məhkəmə qaydasında müdafiə edilə bilən hüquqlardırmı?

Bəli. Dünyanın bütün regionlarındakı ölkələrdə məhkəmələrin iqtisadi, sosial və mədəni hüquqlarının əhatə edən bütün qərarları bu hüquqların məhkəmə qaydasında müdafiə edilə biləcəyini göstərir. Buna baxmayaraq, iqtisadi, sosial və mədəni hüquqların məhkəmə qaydasında müdafiə edilməsi bir sıra ənənəvi səbəblərdən şübhə altına alınmışdır.

Birincisi, bəziləri iqtisadi, sosial və mədəni hüquqlara hakimlərin pozuntuların baş verib-vermədiyi barədə qərarlar qəbul etməsi baxımından həddən artıq qeyri-müəyyən

hüquqlar kimi yanaşmışlar. Bu cür hüquqlarla bağlı məhkəmə qərarlarının qəbul olunması zamanı, məsələn, *aclıq*, adekvat *mənzil* və ya **ədalətli** əmək haqqının nə olduğuna dair suallar doğura bilsə də, hakimlər artıq *işgəncə, ədalətli məhkəmə* və ya *şəxsi həyata özbaşına və ya qanunsuz müdaxilə* ilə bağlı suallara artıq lazımi şəkildə cavab tapmışlar. Qanunvericilikdəki boşluqların doldurulması təkcə insan hüquqlarına dair qanunlarda deyil, həm də hər hansı qanun sahəsində məhkəmələrin aydın funksiyasıdır.

İkincisi, iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi hökumət siyasətindən çox asılıdır. Lakin, hər hansı digər sahələrdə olduğu kimi, hökumətin bu sahəyə dair siyasətlərini nəzərdən keçirmək, onların beynəlxalq insan hüquqları qanunları çərçivəsində konstitusiya prinsiplərinə və öhdəliklərinə uyğun olmasını təmin etmək məhkəmə orqanlarının açıq-aydın funksiyalarından biridir. Məhkəmənin hökumət siyasətini nəzərdən keçirməklə bağlı rolunun ölkədən ölkəyə fərqli ola biləcəyinə baxmayaraq, siyasətə nəzarət siyasətin işlənilib hazırlanmasından fərqlidir. Buna görə də məhkəmə orqanları iqtisadi, sosial və mədəni hüquqlar haqqında qərarlar qəbul etməklə konstitusiya çərçivəsində səlahiyyətlərini aşmırlar.

Üçüncüsü, və əvvəlki bəndlə əlaqədar olaraq, bəziləri iqtisadi, sosial və mədəni hüquqların tədricən həyata keçirilib-keçirilmədiyini məhkəmə tərəfindən qiymətləndirməyin mümkün olub-olmadığına şübhə ilə yanaşırlar. Tədricən həyata keçirilmənin monitorinqi məhkəmələr də daxil olmaqla bir neçə mexanizmin dəstəyi ilə həyata keçirilə bilər. Cənubi Afrika Respublikasında, məhkəmələr hökumət tərəfindən atılan addımların *məqbul* olub-olmadığını nəzərdən keçirməklə Dövlətin tədricən həyata keçirilmə istiqamətində öhdəliklərini yerinə yetirib-yetirmədiyini təhlil etmişdir. Məsələn, mənzil siyasəti ilə bağlı ən çox ehtiyacı olan şəxslərin ehtiyaclarının nəzərə alınmaması həmin siyasətin əsaslılıq yoxlamasından keçməyəcəyi anlamına gəlir.

İnsan hüquqlarının məhkəmə qaydasında təmin edilməsi əsaslı amillərdəndir. Hər hansı hüquqi müdafiə vasitəsi olmadan hər hansı hüquq həmin hüququn faktiki olaraq hüquq olub-olmadığına dair sual doğurur. Bu, heç də məhkəmə qaydasında təminatın iqtisadi, sosial və mədəni hüquqlarının qorunması baxımından yeganə və ya ən yaxşı yol olduğu demək deyil. Lakin, məhkəmə qaydasında təminetmə aşkar pozulma hallarda hüquqi müdafiə vasitələrinin təmin edilməsində və gələcəkdə hüquqların pozulmasının qarşısının alınması üçün sistematik institusional dəyişikliyə gətirib çıxara biləcək yoxlama halları üzrə qərarların verilməsində bu hüquqlarla bağlı təsəvvürlərimizin dərinləşməsində mühüm töhfə verir.

### Əlavə 16: İqtisadi, sosial və mədəni hüquqlarla bağlı bir sıra məhkəmə presedentləri

Get-gedə bir çox ölkələrdə daha çox sayda insan iqtisadi, sosial və mədəni hüquqların pozulması ilə bağlı məhkəmələr və qlobal və regional insan hüquqları mexanizmləri qarşısında iddialar qaldırırlar. Məsələn:

- Cənubi Afrika Respublikasında hökumət QİÇS xəstəliyinin anadan uşağa ötürülməsinin qarşısını alan dərman preparatlarından istifadə üçün respetlərin hətta tibbi nöqteyi-nəzərdən əsaslı olsa və hamilə qadınları yoxlamaq və onlara məsləhət vermək üçün kifayət qədər imkanlar olsa belə xüsusi elmi-tədqiqat və təlim mərkəzlərindən başqa dövlət xəstəxanalarının və klinikaların həkimləri tərəfindən yazılmasını məhdudlaşdırmağı nəzərdə tutan siyasət həyata keçirilirdi. 2002-ci ildə, Konstitusiya Məhkəməsi *müalicə məqsədli tədbirlərin görülməsinə qarşı aparılan kampaniya* ilə bağlı *Səhiyyə və digər nazirliklərə* qarşı qaldırılmış iddia ilə əlaqədar, aparılan siyasətin hər bir şəxsin Konstitusiyaya əsasən səhiyyə xidmətlərindən istifadə etmək imkanından yararlanmaq hüququna zidd olduğuna dair qərar qəbul etdi və hökumətdən HİV/QİÇS xəstəliyinin müalicəsi ilə bağlı siyasətinə yenidən baxmağı tələb etdi.
- Latviyada 2000-ci ildə Konstitusiya Məhkəməsi hökumətin bütün işçilərin sosial sığorta haqlarının işəgötürənlər tərəfindən tam şəkildə sosial fonda ödənilməsini təmin etməməsinin sosial təminat hüququnun pozulması olduğuna dair qərar qəbul etdi. İşəgötürənlər bu vəzifəni yerinə yetirmədikdə, hökumət onları buna məcbur etməlidir.
- Braziliyada, Federal Ali Məhkəmə 2005-ci ildə Dövlət Konstitusiyaya əsasən dövlətin 0-6 yaşlı uşaqları gündəlik qayğı və uşaq bağçasından istifadə imkanı ilə təmin etməyə borclu olduğuna dair qərar qəbul etdi. Bu məsələ uşaqların təhsil hüququ ilə bağlı ictimaiyyətin mülki iddiası kimi Məhkəmədə qaldırıldı. Məhkəmə inzibati orqanların müvafiq dövlət siyasəti vasitəsilə sosial hüquqların müdafiəsini təmin etmədikləri bəzi hallarda məhkəmələrin iqtisadi, sosial və mədəni hüquqların müdafiəsində rol oynaya biləcəyinə dair qərar qəbul etdi.
- Qambiyada, əqli cəhətdən əlil olan şəxslərin müalicəsi ilə bağlı terapevtik vəzifələrin, resursların və proqramların nəzərdə tutulmadığı qanunvericilik rejiminin sağlamlıq hüququnun pozulması hesab edilməsinə dair məhkəmə qərarı qəbul edilmişdir. Resurs məhdudiyyətlərini nəzərə alaraq, İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyası Purohit və Murun Qambiyaya qarşı qaldırılmış iddia ilə bağlı qərarında sağlamlıq hüququnun həyata keçirilməsi üçün dövlətin "mövcud resursların tam istifadə etməklə, konkret və məqsədyönlü addımlar atmaq" üçün cavabdeh olduğunu vurğulamışdır. Komissiya, həmçinin, dövlətdən barəsində iddia qaldırılmış qanunvericilik rejimini ləğv etməyi və əvəzləməyi və

əqli əlilliyi olan şəxslər üçün adekvat tibbi və maddi yardım təmin etməyi tələb etmişdir.

- Argentinada, istehlak yardımı proqramına düzəlişlər edildikdən sonda bir ailə həmin yardımdan əsassız olaraq məhrum edilmişdi. Həmin əsassız məhrumetmə ailədəki uşaqlarını həyatını təhlükə altında qoymaqla onların xəstəxanaya düşməsinə səbəb olmuşdu. *Marla Delia Cerrudo və digər şəxslərin Buenos Ayres şəhərinin icra hakimiyyətinə* qarşı qaldırdıqları iddia ilə əlaqədar inzibati mübahisələr Məhkəməsi sağlamlıq hüququ və uşaqların yaşamaq hüquqlarını qorumaq üçün, ailəni proqramdan uzun müddətli yararlanması təmin edilənədək müvəqqəti olaraq yeni proqrama daxil etməklə bağlı qərar qəbul etdi.

## 19. İqtisadi, sosial və mədəni hüquqların tədricən həyata keçirilməsini necə yoxlamaq olar?

İqtisadi, sosial və mədəni hüquqların pozulması ilə bağlı insanlar tərəfindən qaldırılan iddialara məhkəmələr tərəfindən baxılması əhəmiyyətli olsa da, ümumilikdə dövlət siyasətinin həmin hüquqların tədricən həyata keçirilməsi istiqamətində nailiyyətləri təmin etməsi vacibdir. Bu, xüsusilə iqtisadi, sosial və mədəni hüquqların inkar edilməsinin qarşısını almaq üçün vacibdir. İqtisadi, sosial və mədəni hüquqların tədricən həyata keçirilməsinə və həmin hüquqlarla bağlı dövlətin üzərinə düşən öhdəlikləri yerinə yetirmək səylərini qiymətləndirmək məqsədilə müxtəlif metodologiyalar işlənib hazırlanmışdır.

Milli insan hüquqları təsisatları, hökumətlərarası təşkilatlar, ekspertlər və vətəndaş cəmiyyəti təşkilatları statistik göstəricilərdən istifadə etməklə və milli qanunvericilik və siyasətlər, eləcə də büdcələrdən istifadə edərək, iqtisadi, sosial və mədəni hüquqların tədricən həyata keçirilməsinə daha çox nəzarət yolları axtarırlar. İqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi və bu hüquqlarla bağlı dövlətin üzərinə düşən öhdəliklərini yerinə yetirmək səylərinə nəzarət etmək yollarına dair nümunələr aşağıda verilmişdir.

- Tendensiyaların müəyyən edilməsi — xüsusilə, savadlılıq dərəcələri və zamanla təhsildə yaranan gender fərqləri səviyyəsinin ölçülməsi;
- Hüquqi müddəaların və siyasətlərin təhlili — xüsusilə, qida hüququ (qidalanma, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı və s. daxil olmaqla) ilə bağlı konstitusiya müddəalarının, milli strategiyaların, qanun və siyasətlərin beynəlxalq hüquqa uyğun olub-olmadığını müəyyənləşdirmək;
- Büdcələrin təhlili — xüsusilə, büdcə ayırmaları tendensiyaları (məsələn, səhiyyə sektoruna ayrılan vəsaitlərin ümummilli gəlirdəki payı kimi tendensiyaların təhlili). Büdcə ayırmalarının azalması, tam formada əsaslandırılmadıqca bu və ya digər hüququn tədricən həyata keçirilməsi istiqamətində atılan addımların uğursuz olduğunu göstərə bilər.

Büdcə monitorinqi iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsini təhlil edərkən xüsusilə vacibdir. Milli büdcələr dövlətlərin siyasət prioritetlərini, eləcə də dövlət resurslarının səviyyəsini əks etdirən əsas siyasi sənədlərdir. Bu səbəbdən də, onların təhlili mövcud resursların ən məhsuldar şəkildə istifadə edilməsi də daxil olmaqla, hüquqların tədricən həyata keçirilməsi istiqamətində səylərin monitorinqini aparmaq baxımından zəruridir. Proqramların kifayət qədər maliyyələşdirilməməsi, dövlət vəsaitlərinin bu və ya digər regionların və qrupların maraqları naminə istifadəsi ilə bağlı açıq-aşkar uyğunsuzluqlar və ya konkret sektorların maliyyələşdirilməsinin əhəmiyyətli dərəcədə azaldılması dövlət tərəfindən iqtisadi, sosial və mədəni hüquqların tədricən həyata keçirilməməsinin göstəricisi ola bilər.

İqtisadi, sosial və mədəni hüquqları əldə etmək üçün resursların əhəmiyyətini nəzərə alaraq, monitorinq təkcə bu və ya digər hüquqdan istifadə səviyyəsini deyil, həm də hökumətin həmin hüquqlarla bağlı səylərini müəyyən etməlidir. hökumətin səylərinin qiymətləndirilməsində iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinə sərf olunan büdcə nisbətinin ölçülməsi səmərəli ola bilər. Məsələn, məhdud resurslara malik hökumət zəngin ölkənin hökuməti ilə müqayisədə iqtisadi, sosial və mədəni hüquqların təmin edilməsi istiqamətində daha çox səy göstərə bilər (hətta ilk baxışdan zəngin ölkənin əhalisi bu cür hüquqlardan daha çox faydalansa belə). Məhdud resurslara malik dövlət sağlamlıq hüququnun həyata keçirilməsi istiqamətində irəliləyişlərə daha ləng nail olsa da, əhəmiyyətli dərəcədə səy göstərə bilər. Zəngin resursları olan digər dövlət isə cəmiyyətin ən imtiyazsız təbəqələrinə daha az resurs ayıra və hətta zamanla bu istiqamətdə səylərini azalda bilər. Göstərilən səyləri müqayisə etməklə, məhdud resurslardan istifadə edən yoxsul bir ölkə zəngin ölkəyə nisbətən kifayət qədər müsbət qiymətləndirilə bilər.

Büdcə proseslərinin təhlili iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi istiqamətində səyləri müşahidə etmək baxımından faydalı ola bilsə də, məhdudiyyətlər və problemlər mövcuddur. Məsələn, milli büdcə heç də mütləq dövlətin əlində olan maliyyə resursları barədə tam dolğun təəssürat yaratmır. Bəzi hallarda daha ədalətli vergi sistemi təmin etmək məqsədilə aparılan islahatlar maksimum mövcud resurslardan istifadəyə praktiki məzmun vermək baxımından effektiv strategiya ola bilər. Eyni şəkildə, müxtəlif sektorlara büdcə ayırmalarının həcmi heç də mütləq təkmilləşdirilmiş xidmətlərə çıxışla və hüquqların həyata keçirilməsi ilə nəticələnmir. Çox vaxt əsas məsələ sərf edilən məbləğlər deyil, onların *necə* sərf olunmasıdır.

*Bu və ya digər ölkənin iqtisadi, sosial və mədəni hüquqları tədricən həyata keçirmək bacarığı onun rasional siyasət və bütün maraqlı tərəflərin iştirakı əsasında müvafiq*

*büdcə formalaşdırmaq, eləcə də ondan effektiv və səmərəli istifadəni təmin etmək bacarıqlarından kifayət qədər asılıdır.*

(Bernard Mudho, bütün insan hüquqlarının, xüsusilə sosial, iqtisadi və mədəni hüquqların tam şəkildə həyata keçirilməsi üçün struktur yenidənqurması siyasətləri və xarici borcun təsirləri üzrə müstəqil ekspert)

## Əlavə 17: BMT İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən hazırlanmış göstəricilər sistemi

BMT İnsan Hüquqları üzrə Ali Komissarlığı insan hüquqlarının, o cümlədən iqtisadi, sosial və mədəni hüquqların təşviqi və həyata keçirilməsinə nəzarət etmək məqsədilə kəmiyyət və keyfiyyət göstəricilərindən istifadə məqsədilə sistem işləyib hazırlamışdır. Əsas ideya universal insan hüquqları standartlarını ölkə səviyyəsində məzmun cəhətdən müvafiq və tətbiq olunan göstəriciləri müəyyənləşdirməkdən ibarətdir.

Qısa şəkildə xarakterizə edilərsə, əsas beynəlxalq insan hüquqları sazişləri və digər beynəlxalq-hüquqi sənədlər əsasında işlənilib hazırlanmış həmin insan hüquqları sistemi çərçivəsində bir neçə xarakterik atribut və bir sıra *struktur, proses* və *nəticə* göstəriciləri öz əksini tapır. Bu və ya digər insan hüququ ilə bağlı tətbiq edilən həmin müəyyənləşdirilmiş göstəricilərdə beynəlxalq insan hüquqları standartlarının qəbul edilməsindən onlara sadiqlik göstərilməsinədək (*struktur göstəriciləri*) və mühüm cəhət kimi, qeyd olunan standartlardan irəli gələn öhdəliklərə riayət etmək baxımından göstərdiyi səylərədək (*prosedur göstəriciləri*), həmin səylərin hüquq daşıyıcılarına etdiyi təsirədək (*nəticə göstəriciləri*) dövlətin öz öhdəliklərini yerinə yetirmək üçün qəbul etdiyi tədbirlərin qiymətləndirilməsinə əsas diqqət yetirilməlidir.

Məsələn, sağlamlıq hüququ, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsinə qeyd edildiyi və İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi tərəfindən ümumi qeydlərinə edilmiş 14 saylı əlavədə (2000) ətraflı izah edildiyi kimi, OHCHR, ekspertlər qrupu ilə məsləhətləşmələr əsasında, beş atribut üzrə göstəricilər müəyyən etmişdir. Həmin atributlara reproduktiv sağlamlıq, uşaq ölümü və tibbi yardım təbiət və istehsalat mühiti gigiyenası, xəstəliklərin profilaktikası, müalicəsi və onlarla mübarizə, eləcə də səhiyyə müəssisələrinin və əsas dərman preparatlarının əlçatanlığı daxildir. "Reproduktiv sağlamlıq" atributu ilə bağlı işlənib hazırlanmış göstəricilərə ana və reproduktiv sağlamlığın qorunması (*struktur göstəricisi*), ixtisaslı tibbi personalın köməkliyi ilə baş vermiş doğum hallarının həcmi (*prosedur göstəricisi*) və ana ölümü əmsalı (*nəticə göstəricisi*) ilə əlaqədar milli siyasətdə müəyyən edilmiş müddətlər və əhatə dairəsi daxildir.

*Mənbə:* "Report on indicators for monitoring compliance with international human rights instruments" (HRI/MC/2006/7).

**20. Beynəlxalq səviyyədə hansı monitorinq mexanizmləri mövcuddur?**

İqtisadi, sosial və mədəni hüquqlarının monitorinqi və qorunması üçün həm qlobal, həm də regional müxtəlif beynəlxalq mexanizmlər mövcuddur. Onlara Birləşmiş Millətlər Təşkilatının insan hüquqları sazişlərinin monitorinqini həyata keçirən orqanları, xüsusi prosedurlar və İnsan Hüquqları Şurası tərəfindən yaradılmış universal dövri icmal mexanizmi, həmçinin regional hüquq müdafiəsi mexanizmləri daxildir.

Birləşmiş Millətlər Təşkilatının insan hüquqları ilə bağlı bütün doqquz əsas müqaviləsi müstəqil monitorinq mexanizmlərinə **müqavilə qurumları** kimi tanınan müstəqil ekspertlərə malikdir. İqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinə nəzarəti həyata keçirən əsas müqavilə qurumu İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Komitədir. Digər müqavilə qurumları, məsələn, cinsi və ya etnik mənşəyə görə ayrı-seçkiliyin qadağan edilməsi və ya uşaqlar, əməkçi miqrantlar və əlilliyi olan şəxslər kimi xüsusi konkret qrupların hüquqları ilə əlaqədar iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinə nəzarət edirlər. İnsan hüquqlarının xarakterini, yəni onların qarşılıqlı asılılığını və bölünməzliyini əks etdirməklə əsas diqqəti iqtisadi, sosial və mədəni hüquqlarla əlaqəli olmayan digər müqavilə qurumları da birbaşa və ya dolayısı ilə iqtisadi, sosial və mədəni hüquqlara riayət olunmasına nəzarət edirlər. Məsələn, səhiyyə hüququ və qida hüququnun müəyyən aspektlərinə yaşamaq hüququ və ya mülki və siyasi hüquqlarla və ya işgəncələrlə məşğul olan orqanlar tərəfindən qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması baxımından nəzarət olunur.

Müqavilə qurumları dörd əsas funksiyanı yerinə yetirirlər:

(a) Sazişlərin həyata keçirilməsi ilə bağlı dövlətlərin hesabatlarını vaxtaşırı nəzərdən keçirirlər;

(b) **Ümumi şərhləri** və ya ümumi tövsiyələri vasitəsilə sazişlər üzrə hüquq və vəzifələrin məzmununu tərtib edirlər;

(c) Müqavilə qurumlarının əksəriyyəti şəxslərin və şəxslərdən ibarət qrupların *məktublar* və ya *ərizələr* kimi tanınan **şikayətlərinə baxırlar**.

(d) Bəzi müqavilə qurumları, həmçinin insan hüquqlarının kobud şəkildə və ya sistematik pozulma halları barədə etibarlı məlumat aldıqları zaman müəyyən şərtlərlə **araşdırmalar aparırlar**.

| Müqavilə | Müqavilə orqanı | Functions | | |
|---|---|---|---|---|
| | | İştirakçı dövlətlərin məruzələrinin vaxtaşırı nəzərdən keçirilməsi | Fərdi şikayətlər | Ciddi pozuntuların araşdırılması |
| İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt | İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi | ✓ | | |
| Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya | Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə | ✓ | ✓ | ✓ |
| İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya | İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə | ✓ | ✓ | |
| Uşaq hüquqları haqqında Konvensiya | Uşaq Hüquqları Komitəsi | ✓ | | |
| Bütün İşçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya | Əməkçi miqrantlar üzrə Komitə | ✓ | ✓ | |
| Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt | İnsan Hüquqları Komitəsi | ✓ | ✓ | |
| İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya | İşgəncələrə qarşı Komitə | ✓ | ✓ | ✓ |
| Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya | Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə | ✓ | ✓ | ✓ |
| Bütün şəxslərin məcburi yoxaçıxmalardan müdafiəsi üzrə Beynəlxalq Konvensiya (qüvvəyə minməmişdir) | Məcburi yoxaçıxmalar üzrə Komitə (təsis edilməlidir) | ✓ | ✓ | |

[2] Bu funksiya İqtisadi, sosial və mədəni hüquqlarla bağlı Beynəlxalq Paktın Fakültativ Protokolu qüvvəyə mindikdən sonra təsis ediləcək.

Dövlətlərin insan hüquqları öhdəliklərinə riayət etməsinə nəzarət edən Birləşmiş Millətlər Təşkilatının digər əsas hüquq müdafiə mexanizmləri İnsan Hüquqları Şurasının **xüsusi prosedurlarıdır**. İnsan Hüquqları Şurası bu və ya digər ölkədəki vəziyyət və ya tematik məsələlərə baxılmaq üçün müstəqil ekspertlər təyin edir. Bu cür ekspertlər xüsusi məruzəçilər, müstəqil ekspertlər, xüsusi nümayəndələr və ya işçi qruplarının üzvləri adlandırılırlar. Hal-hazırda konkret olaraq iqtisadi, sosial və mədəni hüquqlar üzrə bir neçə tematik mandat mövcuddur.

**Əlavə 18: Konkret iqtisadi, sosial və mədəni hüquqlar üzrə xüsusi prosedurlar**

- Təhsil hüququ üzrə Xüsusi Məruzəçi (1998-ci ildən)
- Ərzaq hüququ üzrə Xüsusi Məruzəçi (2000-ci ildən)
- Adekvat həyat standartı hüququ, həmçinin bu kontekstdə ayrı-seçkiliyə məruz qalmamaq hüququ komponentində adekvat mənzil məsələləri üzrə Xüsusi Məruzəçi (2000-ci ildən)
- Hər bir şəxsin ən yüksək mümkün səviyyədə fiziki və psixi sağlamlıq məsələləri üzrə Xüsusi Məruzəçi (2002-ci ildən)
- Təhlükəsiz içməli su və sanitar xidmətlərə əlçatanlıqla bağlı hüquq müdafiəsi öhdəlikləri üzrə Xüsusi Məruzəçi (2008-ci ildən).

Bundan əlavə, iqtisadi, sosial və mədəni hüquqlarla məşğul olan bir çox xüsusi prosedur mandatariləri, xüsusilə yerli xalqların hüquq məsələləri üzrə Xüsusi Məruzəçi, qadınlara qarşı zorakılıq məsələləri üzrə Xüsusi Məruzəçi, terrorla mübarizə üzrə Xüsusi Məruzəçi və ya Baş Katibin insan hüquqları və transmilli korporasiyalar və digər müəssisələr üzrə Xüsusi Məruzəçisi fəaliyyət göstərir.

Xüsusi prosedurlarla bağlı mandat, bir qayda olaraq, üç fəaliyyət növünü nəzərdə tutur:

(c) İnsan hüquqlarının vəziyyətinin **yoxlanılmasını** və **monitorinqini** həyata keçirir və bununla bağlı **tövsiyələr** və **ictimai hesabatlar təqdim edirlər**.

(d) Xüsusi prosedurların çoxu dövlətlərə məktublar göndərməklə, alınan təsdiqləri və ya iqtisadi, sosial və mədəni hüquqların müdafiəsi üçün tədbirlər görməklə bağlı dövlətə edilən müraciətlərin yer aldığı məlumatları yönləndirməklə öz mandatlarının əhatə dairəsinə daxil olan **fərdi şikayətlərə** cavab verirlər.

(e) xüsusi prosedurlar həmçinin müvafiq hüquqların həyata keçirilməsi ilə bağlı vəziyyəti nəzərdən keçirmək üçün **ölkələrə səfərlər** edir, öz mülahizələrini İnsan Hüquqları Şurasına məruzə edir və müvafiq ölkələrə tövsiyələr verirlər.

Nəhayət, 2007-ci ildə İnsan Hüquqları Şurası yeni monitorinq prosesi təyin etmişdir: universal dövri icmal. Bu mexanizm vasitəsilə Şura vaxtaşırı bütün ölkələrin insan hüquqları üzrə öhdəliklərinin yerinə yetirilməsini nəzərdən keçirir. Bu mexanizm əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir, müvafiq tərəfin hərtərəfli iştirakı ilə interaktiv dialoqa əsaslanır və potensialın gücləndirilməsi baxımından ehtiyacları nəzərə alır. İcmal prosesinə 2008-ci ildən start verilmişdir.

**Regional mexanizmlər**

Afrikada, Amerika Qitəsində və Avropada, iqtisadi, sosial və mədəni hüquqların monitorinqi üçün regional mexanizmlər mövcuddur. Onlar həmçinin **müntəzəm şəkildə iştirakçı dövlətlərin hesabatlarını nəzərdən keçirir**, **sazişləri şərh edir** və **fərdi şikayətləri** qəbul edirlər.

**Əlavə 19: İqtisadi, sosial və mədəni hüquqların müdafiə məsələlərini əhatə edən mandatlarla hüquq müdafiəsi monitorinqinin regional mexanizmləri**

**Afrika sistemi**

İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyası

İnsan və Xalqların Hüquqları üzrə Afrika Məhkəməsi

**Avropa Şurası**

Sosial Hüquqlar üzrə Avropa Komitəsi

**Amerikalılararası sistem**

İnsan Hüquqları üzrə Amerikalılararası Komissiya

İnsan Hüquqları üzrə Amerikalılararası Məhkəmə

## Qoşma

**Beynəlxalq sazişlər:**

- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948)

***Əsas beynəlxalq sazişlər***

- İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Beynəlxalq Konvensiya (1965)
- Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Razılaşması (1966)
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1966)
- Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiya (1979)
- *İşgəncələrə və digər qəddar, qeyri-insani,* yaxud *ləyaqəti alçaldan* davranış və cəza növlərinə *qarşı Konvensiya* (1984)
- Uşaq Hüquqları haqqında Konvensiya (1989)
- Bütün miqrant işçilərin və onların ailə üzvlərinin müdafiəsi haqqında Beynəlxalq Konvensiya (1990)
- Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya (2006)
- Bütün şəxslərin məcburi yoxaçıxmalardan müdafiəsi üzrə Beynəlxalq Konvensiya (2006)

***İqtisadi, sosial və mədəni hüquqlarla ən çox birbaşa əlaqəsi olan regional sazişlər***

**Amerika qitəsi**

- İnsan Hüquqları üzrə Amerika Konvensiyası (1969)
- İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Amerika Konvensiyasına Əlavə Protokol (San-Salvador Protokolu) (1988)

**Afrika**

- İnsan və xalqların hüquqları üzrə Afrika Xartiyası (1981)
- Uşaqların Hüquqları və Rifahı haqqında Afrika Xartiyası (1990)
- Afrikada qadınların hüquqları ilə bağlı insanların və xalqların hüquqları üzrə Afrika Xartiyasının Protokolu (2003)

**Avropa**

- İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (1950)
- Avropa Sosial Xartiyası (1961) və yenidən işlənmiş Avropa Sosial Xartiyası (1996)

***BMT-nin iqtisadi, sosial və mədəni hüquqlarla bağlı saziş-müşahidə qurumları tərəfindən qəbul edilən ümumi qeydlər/tövsiyələr (2008-ci il yanvar ayına olan vəziyyət)***

**İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Komitə - ümumi şərhlər**

| № | Mövzu | Tarix |
|---|---|---|
| 19 | Sosial təminat hüququ (maddə 9) | 2007 |
| 18 | İşləmək hüququ (maddə 6) | 2005 |
| 17 | İstənilən elmi, ədəbiyyat və ya bədii əsərlərlə əlaqədar yaranan mənəvi və maddi maraqların müdafiəsindən istifadə etməklə bağlı hər bir şəxsin hüququ (maddə 15 (1) (c)) | 2005 |
| 16 | Bütün iqtisadi, sosial və mədəni hüquqlardan istifadə etməklə bağlı kişi və qadınların bərabər hüququ, (maddə 3). | 2005 |
| 15 | Su hüququ (11 və 12-ci maddələr) | 2002 |
| 14 | Əldə oluna bilən ən yüksək sağlamlıq səviyyəsi hüququ (maddə 12) | 2000 |
| 13 | Təhsil hüququ (maddə 13) | 1999 |
| 12 | Adekvat qidalanma hüququ (maddə 11) | 1999 |
| 11 | İbtidai təhsil üzrə fəaliyyət planları (maddə 14) | 1999 |
| 10 | Iqtisadi, sosial və mədəni hüquqların qorunmasında milli insan hüquqları institutlarının rolu | 1998 |
| 9 | Paktın daxili tətbiqi | 1998 |
| 8 | Iqtisadi sanksiyalar və iqtisadi, sosial və mədəni hüquqlar hörmət arasında əlaqələr | 1997 |
| 7 | Adekvat mənzil hüququ: əhalinin zorla köçürülməsi (maddə 11) | 1997 |
| 6 | Yaşlı insanların iqtisadi, mədəni və sosial hüquqları | 1995 |
| 5 | Əlilliyi olan şəxslər | 1994 |
| 4 | Adekvat mənzil hüququ (maddə 11 (1)) | 1991 |
| 3 | İştirakçı dövlətlərin öhdəliklərinin xarakteri (maddə 2 (1)) | 1990 |
| 2 | Beynəlxalq texniki yardım tədbirləri (maddə 22) | 1990 |
| 1 | İştirakçı dövlətlərin Hesabatları | 1989 |

## İnsan Hüquqları Komitəsi - Ümumi Şərhlər

| № | Mövzu | Tarix |
|---|---|---|
| 28 | Kişilər və qadınlar arasında hüquq bərabərliyi (bədii 3) | 2000 |
| 27 | Hərəkət azadlığı (art 12) | 1999 |
| 23 | Azlıqların hüquqları (maddə 27) | 1994 |
| 21 | Azadlıqdan məhrum edilmiş şəxslərlə insani münasibət (maddə 10) | 1992 |
| 19 | Ailənin qorunması, ər-arvadın nikah və bərabərlik hüququ (maddə 23) | 1990 |
| 18 | Ayrı-seçkiliyə yol verməmək | 1989 |
| 17 | Uşaq hüquqları (maddə 24) | 1989 |
| 8 | Şəxslərin azadlıq və təhlükəsizlik hüququ (maddə 9) | 1982 |

## Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə - ümumi tövsiyələr

| № | Mövzu | Tarix |
|---|---|---|
| 24 | Qadın və sağlamlıq (maddə 12) | 1999 |
| 21 | Nikah və ailə münasibətlərində hüquq bərabərliyi | 1994 |
| 19 | Qadınlara qarşı zorakılıq | 1992 |
| 18 | Əlil qadınlar | 1991 |
| 17 | Qadınların muzdsuz ev işlərinin ölçülməsi və miqdarı və onların ümummilli məhsulda nəzərə alınması | 1991 |
| 16 | Kənd və şəhər ailə müəssisələrində ödənişsiz çalışan qadın işçilər | 1991 |
| 15 | Qazanılmış immun çatışmazlığı sindromunun qarşısının alınması və nəzarət üzrə milli strategiyalarda qadınlara qarşı ayrı-seçkiliyin qarşısının alınması (QİÇS) | 1990 |
| 14 | Qadın sünnəti | 1990 |
| 13 | Bərabər dəyərli iş üçün bərabər əməkhaqqı | 1989 |

**Uşaq Hüquqları Komitəsi – ümumi qeydlər**

| No. | Mövzu | Tarix |
|---|---|---|
| 9 | Əlil uşaqların hüquqları | 2006 |
| 7 | Erkən uşaqlıq dövründə uşaq hüquqlarının həyata keçirilməsi | 2005 |
| 5 | Uşaq Hüquqları Konvensiyasının həyata keçirilməsi ilə bağlı ümumi tədbirlər (maddə 4, 42 və 44 (6)) | 2003 |
| 4 | Uşaq Hüquqları Konvensiyası baxımından yeniyetmələrin sağlamlıq və inkişafı | 2003 |
| 3 | İÇV/QİÇS və uşaq hüquqları | 2003 |
| 2 | Uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsində müstəqil milli insan hüquqları institutlarının rolu | 2002 |
| 1 | Təhsilin məqsədləri (maddə 29 (1)) | 2001 |

## Resurslar (veb-səhifələr, nəşrlər və vasitələr)

### *İqtisadi, sosial və mədəni hüquqlar haqqında ümumi məlumat*

**Veb-səhifə: İqtisadi, sosial və mədəni hüquqlara həsr olunmuş Portal**

• OHCHR: http://www.ohchr.org, "İqtisadi, sosial və mədəni hüquqlar: informasiya və resurslar" sorğusu üzrə axtarış

**Web-səhifələr: Hökumətlərarası təşkilatlar**

• Beynəlxalq Əmək Təşkilatının (BƏT): http://www.ilo.org/

• Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT): http://www.iom.int/

• Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO): www.fao.org, "Qidalanma hüququ" səhifəsi mövcuddur.

• BMT-nin Yaşayış Məntəqələri üzrə Proqramı (BMT-Habitat): http://www.unhabitat.org, "Mənzil hüquqları" səhifəsi mövcuddur.

• Ümumdünya Səhiyyə Təşkilatı (ÜST): http://www.who.int, "Səhiyyə və insan hüquqları" səhifəsi mövcuddur.

• Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) – İnsan hüquqları səhifəsi: http://www.unesco.org, "Təhsil hüququ" səhifəsi mövcuddur.

**Veb-səhifələr: Qeyri-hökumət təşkilatları**

• Amnesty International: http://www.amnesty.org/

• İqtisadi və Sosial Hüquqlar Mərkəzi: http://www.cesr.org/

• İqtisadi, sosial və mədəni hüquqların mühafizəsi üzrə Beynəlxalq Şəbəkə (ESCR-Net): http://www.escr-net.org/

• Beynəlxalq İnsan Hüquqları liqaları Federasiyası: http://www.fidh.org/

• İnsan Hüquqlarına riayət olunmasına nəzarət üzrə Təşkilat (Human Rights Watch)

(HRW): http://www.hrw.org/

• İnsan Hüquqlarının hüquqi qorunması üzrə Beynəlxalq Mərkəz (INTERIGHTS): http://www.interights.org

• Beynəlxalq Hüquqşünaslar Komissiyası (ICJ): http://www.icj.org/

• ICESCR üzrə Fakultativ Protokol naminə Beynəlxalq QHT Koalisiyası: http://www.op-icescr-coalition.org/

• Qadın hüquqlarının müdafiəsi naminə fəaliyyət üzrə Beynəlxalq Komitə (IWRAW) – Asiya-Sakit Okean Regionu: http://www.iwraw-ap.org/

• İşgəncələrə qarşı Ümumdünya Təşkilatı (OMCT): http://www.omct.org/

• Social Watch: http://www.socialwatch.org/

• Ərzaq təminatı üzrə ilkin informasiya və fəaliyyət şəbəkəsi (FIAN): http://www.ian.org/

• Mənzil hüququ və köçürülmələr üzrə Mərkəz (COHRE): http://www.cohre.org

• Beynəlxalq Koalisiya "Habitat" (HIC): http://www.hic-net.org/

• Mənzil hüquqlarına dəstək üzrə Asiya Koalisiyası: http://www.achr.net/

• "3 ölçü – Ticarət – İnsan Hüquqları – Ədalətli İqtisadiyyat" Təşkilatı: http://www.3dthree.org/

**İnsan Hüquqları Şurasının xüsusi prosedurları**

• OHCHR: http://www.ohchr.org, "Xüsusi prosedurlar" sorğusu üzrə axtarış verməklə, tematik hesabatlar, xüsusi məruzəçilərin səfərləri barədə hesabatlar və digər sənədlərə çıxış əldə etmək mümkündür.

**Rəsmi hesabatlar** (bax: www.ods.un.org)

• İnsan hüquqları üzrə beynəlxalq sazişlər çərçivəsində təhlükəsiz içməli su və sanitar xidmətlərdən ədalətli istifadə ilə əlaqədar müvafiq insan hüquqları öhdəliklərinin həcmi və məzmununa dair İnsan Hüquqları üzrə BMT Ali Komissarının hesabatı (A/HRC/6/3).

• İnsan Hüquqları üzrə BMT Ali Komissarının İqtisadi və Sosial Şuranın 2007-ci ildə keçirilmiş əsas sessiyasında etdiyi məruzə (E/2007/82). Məruzə beynəlxalq insan hüquqları, iqtisadi, sosial və mədəni hüquqlarının tədricən həyata keçirilmə konsepsiyasına həsr edilmişdir.

• İqtisadi, sosial və mədəni hüquqların bütün ölkələrdə həyata keçirilməsinə dair Baş Katibin məruzəsi (A/HRC/4/62).

• İnsan Hüquqları üzrə BMT Ali Komissarının İqtisadi və Sosial Şuranın 2006-cı ildə keçirilmiş əsas sessiyasında etdiyi məruzə (E/2006/86). Hesabat iqtisadi, sosial və mədəni hüquqların hüquqi müdafiəsinə həsr edilmişdir.

**Faktların xülasəsi və nəşrlər** (bax: www.ohchr.org)

• OHCHR, Faktların xülasəsi № 21, *Adekvat mənzil hüququ*

• OHCHR, Faktların xülasəsi № 23, *Qadınların və uşaqların sağlamlığına təsir edən zərərli ənənəvi təcrübələr*

• OHCHR, Faktların xülasəsi № 24/Düz.1, *Miqrant işçilər haqqında Beynəlxalq Konvensiya və onun Komitəsi*

• OHCHR, Faktların xülasəsi № 25, *Məcburi köçürmələr və insan hüquqları*

• OHCHR, Faktların xülasəsi № 31, *Sağlamlıq hüququ*

• OHCHR/UNAIDS, *İÇV/QİÇS və insan hüquqlarına dair Beynəlxalq rəhbər prinsiplər – 2006-cı ilin birləşmiş variantı* (United Nations publication, Sales № E.06.XIV.4)

• OHCHR, *Yoxsulluğun azaldılması strategiyalarına hüquqi yanaşma prinsipləri və rəhbər müddəalar* (HR/PUB/06/12)

• OHCHR, *İnsan hüquqları və yoxsulluğun azaldılması: Konsepsiya sənədi* (HR/PUB/04/1)

• OHCHR, *Minilliyin inkişaf məqsədləri tələbləri: İnsan hüquqları yanaşması* (United Nations publication, Sales № E.08.XIV.6)

• OHCHR, "İnsan hüquqları, yoxsulluğun azaldılması və davamlı inkişaf: sağlamlıq, qida və su", yardımçı sənəd

• WHO/OHCHR/COHRE/WaterAid/CESR, *Su hüququ*

• Birləşmiş Millətlər Təşkilatının Mənzil hüquqları Proqramı (UNHRP), "Yerli xalqların adekvat mənzil hüququ:: qlobal icmal", Məruzə № 7

• OHCHR/UNESCO, *İnsan Hüquqları ilə bağlı maarifləndirmə tədbirləri üzrə Ümumdünya Proqramının birinci mərhələsi üçün Fəaliyyət Planı*

## İnstrumental sənədlər

• ESCR-Net (İqtisadi, Sosial və Mədəni Hüquqları üzrə Beynəlxalq Şəbəkə) presedent hüquq üzrə məlumat bazası: http://www.escr-net.org/

• Beynəlmiləl İnsan Hüquqları İndeksi: http://www.universalhumanrightsindex.org/

• “Circle of Rights” təşkilatı – İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Aktivizm (Fəallıq): Təlim Vəsaiti: http://www1.umn.edu/humanrts/edumat/IHRIP/ circle/toc.htm

• ILO (Beynəlxalq Əmək Təşkilatı) onlayn məlumat bazaları: http://www.ilo.org/

- Applis – Beynəlxalq əmək standartlarının tətbiqi üzrə məlumat bazası
- ILOLEX – beynəlxalq əmək standartları üzrə məlumat bazası
- LibSynd – Birləşmək Azadlığı üzrə Komitənin məlumat bazası
- NATLEX –əməyin mühafizəsi, sosial təminat və müvafiq insan hüquqları üzrə qanunvericiliklə bağlı məlumat bazası

44

• FAO (BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı), Normal Qidalanma Hüququ ilə bağlı virtual kitabxana: www.fao.org

• FIAN (Normal Qidalanma Hüququnun Təminatı Təşkilatı), *Screen State action against hunger!* (Aclığa qarşı Dövlət Tədbirlərinə Nəzarət!) Dövlət siyasətlərinə nəzarət məqsədilə Qidalanma Hüququ Üzrə Könüllü Təlimatlardan istifadə qaydası (2007): www.fan.org saytından əldə etmək mümkündür

• IFHHRO (Sağlamlıq və İnsan Hüquqları Təşkilatlarının Beynəlxalq Federasiyası): http://www.ifhhro.org/

• "People's Health Movement" (Xalqın Sağlamlıq Hərəkatı) təşkilatı: http://phmovement.org/

• "Physicians for Human Rights" (İnsan Hüquqları üzrə Həkimlər) təşkilatı: http://physiciansforhumanrights.org/

• (OIDEL) Təhsil Azadlığının İnkişafı üzrə Beynəlxalq Təşkilat: http://www.oidel.ch/

• FAO/iDMC/OCHA/OHCHR/UN-HABITAT/UNHCR, "*Qaçqınlar və Məcburi Köçkünlər üçün Yaşayış yeri və Əmlakın Restitusiyası (Bərpası) üzrə Təlimat Kitabçası",*: www.ohchr.org saytından əldə oluna bilər

• İnkişafa əsaslanan ekspropriasiya və köçürmə barədə əsas prinsiplər və təlimatlar (Basic principles and guidelines on development-based eviction and displacement) (A/HRC/4/18, Əlavə I): www.ods.un.org saytından əldə oluna bilər

• Birləşmiş Millətlər Təşkilatının Yaşayış Yeri Hüquqları üzrə Proqramı (UNHPR), "Yaşayış yeri hüquqlarının monitorinqi: Normal Yaşayış yeri ilə bağlı insan hüququnun tam və proqressiv gerçəkləşdirilməsinə nəzarət məqsədilə bir sıra göstəricilərin inkişaf etdirilməsi" (2003), İşçi Vərəq 1

• UNHPR, "Yaşayış yeri ilə bağlı qanunvericilik: Beynəlxalq və yerli hüquqi aktlara baxış" (2002), 1 saylı Hesabat: www. ohchr.org saytından əldə oluna bilər.

• COHRE, AAAS, SDC və UN-HABITAT, *Su təchizatı və Kanalizasiya sistemi ilə bağlı Hüquq üzrə Təlimat* (2007)

• COHRE, *Su Təchizatı Hüququ üzrə Hüquqi Vəsaitlər: Beynəlxalq və Milli Standartlar,* (2003), Mənbə № 8

• WHO(BST)/OHCHR (BMTİHAK), Sağlamlıq Hüququ, Məlumat vərəqi

• Hər bir kəsin fiziki və əqli sağlamlıq üzrə ən yüksək standartlardan yararlana bilməklə bağlı hüququ barədə BMT-

nin Xüsusi Məruzəçisi Paul Hunt tərəfindən, dərman vasitələrinin əldə olunması ilə əlaqədar Dərman şirkətləri üçün hazırlanmış İnsan Hüquqları Təlimatlarının Layihəsi: www.ohchr.org saytından əldə oluna bilər.

• OHCHR(BMTİHAK)/UNAIDS (BMT HİV/AİDS üzrə proqram)/WHO(DST), *HİV/AİDS: Stand Up for Human Rights (İnsan Hüquqları üçün Ayağa Qalx)* (2003): www.ohchr.org saytından əldə etmək mümkündür

• Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA)/OHCHR, İnsan Hüquqlarının Reproduktiv və Cinsi Sağlamlığa Tətbiqi (2001), Tövsiyələr

**İnsan Hüquqları: faktların şərhi***

№ 2 İnsan Hüquqları haqqında Beynəlxalq Xartiya (Bill) (Rev.1)

№ 3 İnsan Hüquqları sahəsində Məsləhət Xidmətləri və Texniki Əməkdaşlıq (Düz.1)

№ 4 İşgəncələrə qarşı Mübarizə (Düz.1)

№ 6 Məcburi yaxud Könülsüz Yoxaçıxmalar (Düz.2)

№ 7 Şikayət vermə qaydaları (Rev.1)

№ 9 Aborigen Xalqların Hüquqları (Düz.2)

№ 10 Uşaqların hüquqları (Rev.1)

№ 11 Məhkəmədənkənar, Məhkəməsiz yaxud Arbitraj İcraatlar (Düz.1)

№ 12 İrqi Ayrı seçkiliyin Ləğv edilməsi üzrə Komitə

№ 13 Beynəlxalq Humanitar Hüquq və İnsan hüquqları

№ 14 Müasir Dövrdə Quldarlığın formaları

№ 15 Mülki və Siyasi Hüquqlar: İnsan Hüquqları Komitəsi (Düz.1)

№ 16 İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə (Düz.1)

№ 17 İşgəncələrə Qarşı Mübarizə Komitəsi

№ 18 Azlıqların Hüquqları (Düz.1)

№ 19 İnsan Hüquqlarının Təkmilləşdirilməsi və Qorunması üzrə Milli İnstitutlar

№ 20 İnsan Hüquqları və Qaçqınlar

№ 21 Normal Yaşayış Şəraitləri ilə bağlı İnsan Hüquqları

№ 22 Qadınlara qarşı ayrı seçkilik: (ayrı-seçkiliyə qarşı) Konvensiya və Komitə

№ 23 Qadınların və Uşaqların Sağlamlığına mənfi təsir edən Zərərverici Ənənəvi Praktikalar

№ 24 Miqrant İşçilər haqqında Beynəlxalq Konvensiyası və Komitə (Düz.1)

№ 25 Məcburi Köçürmə və İnsan Hüquqları

№ 26 Qanunsuz Həbslər Üzrə İşçi Qrup

№ 27 Birləşmiş Millətlər Təşkilatının Xüsusi Məruzəçiləri barəsində mütəmadi soruşulan on yeddi sual

№ 28 Xalqların öz müqəddəratını təyin etmək hüququna Muzdurluq Fəaliyyətlərinin təsiri

№ 29 İnsan Hüquqları Müdafiəçiləri: İnsan Hüquqlarının Müdafiəsi Hüququnun Qorunması

№ 30 Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Saziş Orqanları Sistemi –Əsas İnsan Hüquqları Sazişlərinə giriş və Saziş Orqanlar

№ 31 Sağlamlıq Hüququ

№ 32 İnsan Hüquqları, terrorizm və anti-terrorizm

* 1, 5 və 8 saylı faktların xülasəsi artıq nəşr edilmir. Bütün faktların xülasəsi onlayn rejimdə mövcuddur: http://www.ohchr.org.

*“İnsan hüquqları: Faktların xülasəsi”* seriyası Birləşmiş Millətlər Təşkilatının Cenevrə Ofisinin İnsan Hüquqları üzrə BMT Ali Komissarlığı tərəfindən nəşr olunur. Xülasədə insan hüquqları ilə bağlı diqqət mərkəzində olan və ya xüsusi maraq kəsb edən bəzi problemlər öz əksini tapır.

*“İnsan hüquqları: Faktların xülasəsi”* seriyası *ictimaiyyətin ən geniş təbəqələri üçün nəzərdə tutulmu*şdur. Məqsəd əsas insan hüquqlarının daha yaxşı anlaşılmasına töhfə vermək, onları təşviq və müdafiə etmək üçün nə BMT-nin həyata keçirdiyi tədbirlər, eləcə də bu hüquqları həyata keçirilməsinə kömək etmək baxımından mövcud beynəlxalq mexanizmləri göstərməkdən ibarətdir. “İnsan hüquqları: Faktların xülasəsi” seriyası bütün dünyada pulsuz yayılır. Xülasənin mətninə heç bir dəyişiklik edilməmək şərtilə onun BMT-nin rəsmi dillərindən başqa dillərdə nəşri tövsiyə edilir. Mətni yenidən nəşr edən təşkilat bu barədə BMT İnsan Hüquqları üzrə Ali Komissarlığının Cenevrə Ofisini məlumatlandırmalı və sözü gedən materialların mənbəyinə istinad etməlidir.

Sorğular aşağıdakı ünvana göndərilə bilər:

Office of the United Nations High Commissioner for Human Rights
United Nations Office at Geneva
8-14, Avenue de la Paix
CH-1211 Geneva 10
Switzerland

New York Office:
Office of the United Nations High Commissioner for Human Rights United Nations New York, NY 10017 United States of America

BMT-nin Cenevrə Ofisində nəşr edilmişdir.
GE.08-44591-December 2008-8,820

ISSN 1014-5567